# AZƏRBAYCAN DİLİ

dövlət dili

6

METODİK VƏSAİT



Layihə

**Rafiq İsmayılov**
**Ülkər Nurullayeva**
**Reyhan Həbibli**

Ümumi təhsil müəssisələrinin **6**-cı sinifləri üçün

# AZƏRBAYCAN DİLİ *(dövlət dili)*

fənni üzrə dərsliyin
METODİK VƏSAİTİ

Layihə

© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International (CC BY-NC-SA 4.0)**

Bu nəşr Creative Commons Attribution-NonCommercial-ShareAlike 4.0 International lisenziyası (CC BY-NC-SA 4.0) ilə **www.trims.edu.az** saytında əlçatandır. Bu nəşrin məzmunundan istifadə edərkən sözügedən lisenziyanın şərtlərini qəbul etmiş olursunuz:

İstinad zamanı nəşrin müəllif(lər)inin adı göstərilməlidir.

Nəşrdən kommersiya məqsədilə istifadə qadağandır.

Törəmə nəşrlər orijinal nəşrin lisenziya şərtlərilə yayılmalıdır.

Bu nəşrlə bağlı irad və təkliflərinizi
trm@arti.edu.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

## MÜNDƏRİCAT


**GİRİŞ** ........................................................................................ **3-6**

**I BÖLMƏ. MOTİVASİYA**

1-ci fəsil. Xəyal ........................................................................ 14-19
2-ci fəsil. Uğur ......................................................................... 20-26
3-cü fəsil. Yaradıcı yanaşma ................................................. 27-34
4-cü fəsil. Əzmkarlıq ............................................................. 35-40
Ümumiləşdirici təkrar .........................................................41

**II BÖLMƏ. HEYVANLARIN GÖZÜ İLƏ**

1-ci fəsil. Vəfalı dostlarımız ................................................. 45-54
2-ci fəsil. At igidin yaraşığıdır ............................................ 55-65
3-cü fəsil. Heyvanlarda doğmalıq hissi ................................ 66-73
Ümumiləşdirici təkrar .........................................................74-75

**III BÖLMƏ. TARİXİ DƏYİŞDİRƏN ALİMLƏR**

1-ci fəsil. Elmin gücü.............................................................. 79-89
2-ci fəsil. Təbiblərin hökmdarı .............................................. 90-97
3-cü fəsil. Dahilərin uşaqlığı ................................................. 98-103
4-cü fəsil. Cığır açan alimlər ................................................. 104-107
Ümumiləşdirici təkrar ......................................................... 108-110

**IV BÖLMƏ. RABİTƏ**

1-ci fəsil. Teleqraf ................................................................. 115-124
2-ci fəsil. Telefon ................................................................... 125-133
3-cü fəsil. Mobil telefonlar ................................................... 134-142
Ümumiləşdirici təkrar ......................................................... 143-144

**V BÖLMƏ. XEYRİYYƏÇİLƏR**

1-ci fəsil. Mesenatlıq ........................................................... 148-154
2-ci fəsil. Hökmdarlar və alimlər .......................................... 155-160
3-cü fəsil. Azərbaycanlı mesenat.......................................... 161-172
4-cü fəsil. Mesenat sahibkarlar ............................................ 173-175
Ümumiləşdirici təkrar ......................................................... 176-178

**VI BÖLMƏ. KİNONUN TARİXİ**

1-ci fəsil. Kino tarixinin müəmmalı məqamları .................... 182-191
2-ci fəsil. Səssiz kino ............................................................ 192-201
3-cü fəsil. Azərbaycan kinosu .............................................. 202-205
4-cü fəsil. Bir filmin izi ilə...................................................... 206-211
Ümumiləşdirici təkrar ......................................................... 212-213


Layihə

# GİRİŞ

## 1. Dərsliyin məzmun-struktur konsepsiyası

**Tədris vahidləri**. 6-cı sinifdə Azərbaycan dilinin (dövlət dili kimi) tədrisinin 6 mərhələdə keçilməsi nəzərdə tutulur. Dərslik komplektində bu mərhələlər ayrı-ayrı bölmələr (tədris vahidləri) şəklində təqdim olunmuşdur. Hər yarımil üçün 3 bölmə nəzərdə tutulmuşdur.

**Bölmənin strukturu**. Hər bir bölmə üç, yaxud dörd fəsil və ümumiləşdirici təkrardan ibarətdir.

Ümumiləşdirici təkrar dərsində müvafiq bölmədə mənimsədilmiş dil qaydalarının tətbiqi üzrə çalışmalar yerinə yetirilir.

**Fəslin strukturu**. Dərslikdə ən kiçik məzmun vahidi fəsildir. O, bir neçə dərsi (3-4) əhatə edir.

Fəsildə müəyyən mövzu zəminində müxtəlif nitq bacarıqlarının inkişafı üçün materiallar verilir. Bu materiallar oxu üçün nəzərdə tutulmuş mətn(lər) üzərində qurulur, bütün məzmun xətləri üzrə standartlar müvafiq mövzuya aid nitq materialı üzərində reallaşdırılır. Ona görə də dərsliyin məzmun-struktur vahidləri haqqında danışarkən bir dərsin deyil, fəsli təşkil edən bir neçə dərsin mərhələlərindən danışmaq lazım gəlir. Bu struktur hər bir fəsildə müxtəlif məzmun xətlərinə aid standartların taksonomiyanın səviyyələrinə uyğun reallaşdırılmasına imkan yaradır.

Fəsillərin strukturu aşağıdakı kimidir:

**Oxu**. Şagirdlər mətni oxuyur, mövzu üzrə yeni məlumat əldə edirlər; bu zaman müxtəlif oxu strategiyaları tətbiq olunur: növbəli oxu, istiqamətləndirilmiş oxu, qruplarla oxu və s. Bu mərhələdə mətndə ayrı-ayrı cümlə və abzaslardakı faktoloji informasiyanın mənimsənilməsi yoxlanılır, həmçinin yeni sözlərin izahı üzrə iş aparılır.

↓

**Şərhetmə və analiz**. Bu mərhələdə mətn ümumi məzmun səviyyəsində qavranılır. Belə ki, şagird mətnin ayrı-ayrı hissələrini əlaqələndirməklə nəticələr çıxarır, obrazlar haqqında fikir yürüdür, əsas fikri və mətndə onu dəstəkləyən fakt və hadisələri şərh edir.

↓

**Özünüifadə**. Əldə etdikləri məlumat və ya ideya ətrafında danışır (müzakirə, debat), yazır (təqdimat, esse), dinlədiklərini oxuduqları ilə müqayisə edirlər.

↓

**Ədəbi dil normalarına uyğun yazı**. Hər fəsildə yazı bacarığının inkişafı üçün praktiki əhəmiyyət daşıyan müəyyən dil qaydası mənimsədilir. Möhkəmləndirici tapşırıqlardan sonra şagirdlər həmin qaydanı yazıda tətbiq edirlər.

Layihə

# 2. MƏZMUN XƏTLƏRİNİN TƏDRİS VAHİDLƏRİ ÜZRƏ BÖLGÜSÜ

| Fəsil | Oxu | Dinləmə | Danışma |
|---|---|---|---|
| **1-ci bölmə. Motivasiya** | | | |
| 1 | Xəyal | Xəyalların izi ilə 2-ci hissə | Sxem üzrə danışma |
| 2 | Uğur | | Yaradıcı nəqletmə |
| 3 | Yaradıcı yanaşma | | |
| 4 | Əzmkarlıq | Hədəfə doğru | Təqdimat |
| 1-ci bölmə üzrə ümumiləşdirici təkrar (Dil qaydaları) | | | |
| **2-ci bölmə. Heyvanların gözü ilə** | | | |
| 1 | Vəfalı dostlarımız | İtlərdə duyğu və emosiyalar | Yaradıcı nəqletmə |
| 2 | At igidin yaraşığıdır | Qara İncinin taleyi | Müzakirə<br>Təqdimat |
| 3 | Heyvanlarda doğmalıq hissi | | Yaradıcı nəqletmə |
| 2-ci bölmə üzrə ümumiləşdirici təkrar (Dil qaydaları) | | | |
| **3-cü bölmə. Tarixi dəyişdirən alimlər** | | | |
| 1 | Elmin gücü | Sirli ada, Evrika | Mətnin qısa məzmunu<br>Mətn tipləri |
| 2 | Təbiblərin hökmdarı | İbn Sina və müəllimi<br>İbn Sina və şagirdi | Təqdimat |
| 3 | Dahilərin uşaqlığı | Eynşteyn dərslərindən "2" alırdı? | Mətnin məzmunu |
| 4 | Cığır açan alimlər | | Təqdimat |
| 3-cü bölmə üzrə ümumiləşdirici təkrar (Dil qaydaları) | | | |

Layihə

| Yazı | Dil qaydaları | Dərs |
|---|---|---|
| | | |
| “Təxəyyül və məqsəd” mövzusunda esse | Bəzi ikihecalı sözlərdə ikinci hecadakı saitin düşməsi | 3 |
| Ərizə | Sözlərin sonunda ***b, c, d, g*** və söz ortasında ***k, t, p, q*** samitlərinin yazılışı və tələffüzü | 4 |
| | ***B, m*** samitlərindən əvvəl gələn ***n*** samitinin tələffüzü<br>Qoşa ***yy*** ilə yazılan sözlərin tələffüzü | 4 |
| “İnam uğurun açarıdır” mövzusunda esse | | 3 |
| | | 1 |
| | | |
| Müəllifə məktub | Sifətin müqayisə dərəcələri və yazılışı | 5 |
| | Say və onun məna növləri | 5 |
| “Qarabağ simvolu” adlı yarımbaşlıq | Sayların yazılışı | 4 |
| | | 1 |
| | | |
| | Saylardan sonra isimlərin təkdə və ya cəmdə olması | 5 |
| | Feilin zamana və şəxsə görə dəyişməsi | 3 |
| İfadə | Zərf və onun məna növləri. Zərfin digər nitq hissələri ilə ortaq xüsusiyyətləri | 3 |
| | | 2 |
| | | 1 |

Layihə

| Fəsil | Oxu | Dinləmə | Danışma |
|---|---|---|---|
| **4-cü bölmə. Rabitə** | | | |
| 1 | Teleqraf | Zəfərin adı – teleqraf telləri | SOS siqnalı haqqında təqdimat |
| 2 | Telefon | Aleksandr Bell – dünyada ən bahalı patentin sahibi | Məhkəmə prosesi |
| 3 | Mobil telefonlar | İnternet | Debat |
| 4-cü bölmə üzrə ümumiləşdirici təkrar (Dil qaydaları) | | | |
| **5-ci bölmə. Xeyriyyəçilər** | | | |
| 1 | Mesenatlıq | Sezar | Təqdimat. Eponimlər |
| 2 | Hökmdarlar və alimlər | | |
| 3 | Azərbaycanlı mesenat | Tağıyevin dolayı xeyriyyəçiliyi | Nazlı Tahirova |
| 4 | Mesenat sahibkarlar | | |
| 5-ci bölmə üzrə ümumiləşdirici təkrar (Dil qaydaları) | | | |
| **6-cı bölmə. Kinonun tarixi** | | | |
| 1 | Kino tarixinin müəmmalı məqamları | Le Prinsin yoxa çıxması kimə sərf edirdi? | Təqdimat |
| 2 | Səssiz kino | Pantomim və səssiz kino | |
| 3 | Azərbaycan kinosu | Azərbaycanda kinonun yaranması və inkişafı | |
| 4 | Bir filmin izi ilə | | Təqdimat |
| 6-cı bölmə üzrə ümumiləşdirici təkrar (Dil qaydaları) | | | |

Layihə

| Yazı | Dil qaydaları | Dərs |
|---|---|---|
| | | |
| Yaradıcı ifadə | Təsriflənməyən feillər. Məsdər | 5 |
| Telefon texnologiyasının inkişafı | Feili sifət və feildən düzəlmiş sifət | 4 |
| | Feili bağlama | 4 |
| | | 1 |
| | | |
| | Əvəzlik və onun məna növləri | 3 |
| | Söz birləşmələrinin növləri: ismi və feili birləşmələr | 3 |
| Hekayə | İsmi birləşmələr: müəyyənlik və qeyri-müəyyənlik bildirməsi | 6 |
| | | 2 |
| | | 1 |
| | | |
| | İkinci dərəcəli cümlə üzvləri | 4 |
| Pantomim ssenarisi<br>Çarli Çaplinin filmi haqqında esse | Tamamlıq | 5 |
| | Təyin | 2 |
| | Zərflik | 3 |
| | | 1 |

# 3. Məzmun standartları və təlim nəticələri

## 1.1. Dinləmə
**1. Dinləyib-anlama**
**Şagird:**
**1.1. Dinlədiyi fikri anladığını nümayiş etdirir.**
**1.1.1. Dinlədiyi mətnin məzmununu anladığını nümayiş etdirir.**
• Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir.
• Dinlədiyi kiçikhəcmli mətnləri ümumi məzmun səviyyəsində anladığını nümayiş etdirir.

**1.1.2. Dinlədiyi fikirləri şərh edir.**
• Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir.
• Dinlədiyi mətndəki fakt və hadisələri şərh edir.
• Dinlədiyi mətndəki obraz, fakt və fikirlərə münasibət bildirir.

## 2. Danışma
**Şagird:**
**2.1. Şifahi nitq bacarıqları nümayiş etdirir.**
**2.1.1. Şifahi nitqində sadə fonetik, leksik, qrammatik normalara riayət edir.**
• Sözlərdə sait və samitlərin tələffüzü ilə bağlı orfoepik normalara riayət edir.
• Öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışır.

**2.1.2. Oxuduğu, dinlədiyi və müşahidə etdiyi hadisə və varlıqlar haqqında danışır.**
• Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır.
• Müşahidə etdiyi əşya və hadisələr haqqında danışır.
• Fikrini əsaslandırmaqla fakt və hadisələrə münasibət bildirir.

**2.1.3. Aldığı məlumatlar əsasında rabitəli mətn qurub danışır.**
• Təqdimat zamanı fikirlərin məntiqi ardıcıllığına riayət edir.
• Verbal və qrafik materialları (şəkil, sxem, xəritə və s.) şərh etməklə mövzu üzrə danışır.
• Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir.
• Aldığı məlumatları sadə formada şərh edir və genişləndirir.
• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını, apardığı araşdırmaların nəticələrini rabitəli mətn şəklində təqdim edir.
• Təhkiyəçini dəyişməklə mətni nəql edir.

**2.1.4. Dialoq zamanı fikirlərə münasibət bildirir.**
• Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür.

## 3. Oxu
**Şagird:**
**3.1. Mətni mənimsədiyini nümayiş etdirir.**
**3.1.1. Mətnləri düzgün və ifadəli oxuyur.**
• Mətni ifadəli oxumaqla məzmunu anladığını nümayiş etdirir.

**3.1.2. Mətndə rast gəldiyi yeni sözlərin mənasını müəyyən edir.**

Layihə

• Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir.
• Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir.
• Çoxmənalı sözün və ya omonimin mətndəki mənasını digər mənalarından fərqləndirir.
• Sözləri ümumi mənalarına görə qruplaşdırır.
• Sözün həqiqi və məcazi mənalarını fərqləndirir.

**3.1.3. Mətndə açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir.**

• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir.

**3.1.4. Mətnin müxtəlif hissələrini əlaqələndirməklə məzmununu şərh edir.**

• Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir.
• Əlavə biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələri izah edir.
• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir.
• Mətni təxəyyülünə uyğun dəyişdirir, genişləndirir, davam etdirir.
• Mətndəki məlumatlardan çıxış edərək yeni informasiya əldə edir.
• Faktlardan istifadə etməklə mətndə açıq şəkildə ifadə olunmayan məlumatı müəyyən edir.
• Mətndə ifadə olunmuş fikirlə bağlı mülahizəsini bildirir və onu əsaslandırır.

**3.1.5. Mətni məzmun-struktur və dil-üslub baxımından təhlil edir.**

• Mətnin tərkib hissələrini müəyyən edir.
• Bədii və informativ mətnlərdə mövzu, məzmun və ideya anlayışlarını fərqləndirir.
• Mətndəki hadisələrə və dialoqlara görə obrazlar haqqında fikir yürüdür.
• Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir.
• Mətni dil-üslub xüsusiyyətlərinə görə təhlil edir.
• Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir.
• Mətnin tərkib hissələrini, struktur elementlərini (haşiyə, illüstrasiya, başlıq, yarımbaşlıq və s.) onun əsas məzmunu ilə əlaqələndirir.
• Eyni mövzuda olan mətnləri məzmun və ideya baxımından müqayisə edir.
• Mətndəki faktların fikri necə dəstəklədiyini müəyyənləşdirir.
• Mətndəki faktları aid olduğu fikirlər üzrə qruplaşdırır.

**4. Yazı**

**Şagird:**

**4.1. Rabitəli yazı vərdişlərinə yiyələndiyini nümayiş etdirir.**

**4.1.1. Topladığı məlumatları, fikir və duyğularını yazıda əks etdirir.**

• Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir.
• Verbal informasiyanı qeyri-verbal şəkildə (və ya əksinə) ifadə edir.
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır.
• Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır.
• Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn (məktub, təəssürat və s.) yazır.
• Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır.
• Məqsədə uyğun olaraq sadə əməli yazı (annotasiya) yazır.

Layihə

**4.1.2. Yazıda orfoqrafiya və punktuasiya normalarına riayət edir.**

• Sözlərin bitişik, ayrı və defislə yazılış qaydalarına riayət edir.

• Sözlərin yazılışında orfoqrafik normalara riayət edir.

• Saylardan sonra gələn isimlərin təkdə və ya cəmdə işlənmə məqamlarını müəyyənləşdirir.

**4.1.3. Yazıda fikrini aydın ifadə etmək üçün qrammatik qaydalara əməl edir.**

• Kontekstdən və qrammatik formadan çıxış edərək sözlərin qrammatik-semantik xüsusiyyətlərini izah edir.

• Özünün və başqasının yazısında ədəbi dilin normalarına uyğun düzəlişlər edir.

• Sintaktik vahidlərin (söz birləşməsi, cümlə) konstruksiyasını və semantik xüsusiyyətlərini izah edir.

• Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir.

• Söz birləşmələri və cümlələrin yazılışında sadə qrammatik normalara əməl edir.

• Söz tərkibindəki morfemlərin (-gah, -pərəst) semantikasından çıxış edərək sözün mənasını müəyyən edir.

• Cümlədə ikinci dərəcəli üzvləri fərqləndirir.

Layihə

Bölmə **1** 

# MOTİVASİYA

| Dərs | Mövzu | Məzmun xətti | Dərslik səh. | İş dəftəri səh. | Metodik vəsait səh. |
|---|---|---|---|---|---|
| 1-ci fəsil. **Xəyal** | | | | | |
| 1 | Xəyalların izi ilə | Oxu | 8-9 | 3 | 14-15 |
| 2 | Xəyalların izi ilə (II hissə) | Dinləmə | 10 | 4-5 | 15-18 |
| 3 | Bəzi ikihecalı sözlərdə ikinci hecadakı saitin düşməsi | Yazı | 11 | 6 | 18-19 |
| 2-ci fəsil. **Uğur** | | | | | |
| 4 | Elektron ünvanım olsaydı... | Oxu. Danışma | 12-14 | 7 | 20-21 |
| 5 | Elektron ünvanım olsaydı... | Oxu. Danışma | 15 | 8 | 22-24 |
| 6 | Elektron ünvanım olsaydı... | Yazı | 16 | 9 | 24-25 |
| 7 | Sözlərin sonunda b, c, d, g və söz ortasında k, t, p, q samitlərinin yazılışı və tələffüzü | Yazı | 17 | 10 | 25-26 |
| 3-cü fəsil. **Yaradıcı yanaşma** | | | | | |
| 8 | Hərənin öz imzası | Oxu | 18-20 | 11 | 27-28 |
| 9 | Hərənin öz imzası | Oxu. Danışma | 21 | | 29-30 |
| 10 | Uğur düsturu | Oxu. Danışma | 22-23 | 12 | 30-32 |
| 11 | Sözdə b, m samitlərindən əvvəl gələn n samitinin tələffüzü. Qoşa yy ilə yazılan sözlərin tələffüzü | Yazı | 24 | 13 | 33-34 |
| 4-cü fəsil. **Əzmkarlıq** | | | | | |
| 12 | İndi üstünüzə Topal Teymur gəlir | Oxu. Danışma | 25-27 | 14-15 | 35-38 |
| 13 | Təqdimat | Yazı | 27 | | 38 |
| 14 | Hədəfə doğru | Dinləmə. Yazı | 28 | | 39-40 |
| 15 | Ümumiləşdirici təkrar | Yazı | 29 | 16 | 41 |

Layihə

# GİRİŞ DƏRSİ

## Fəaliyyət planı

<u>**Təlim nəticələri**</u>**:**
- Verbal və qrafik materialları şərh etməklə mövzu üzrə danışır (st. 2.1.3).
- Çoxmənalı sözün və ya omonimin mətndəki mənasını digər mənalarından fərqləndirir (st. 3.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 4.1.1).

**Mövzuya yönəltmə.** İlk dərs günü olduğunu nəzərə alaraq şagirdlərin tədris ilində istifadə edəcəkləri Azərbaycan dili dərsliyi ilə tanışlığı vacibdir. Müəllim şagirdlərin diqqətini dərsliyin mündəricat səhifəsinə yönəldir. Dərsliyin ilk bölməsinin adı müzakirə edilir. Şagirdlər “motivasiya” sözünün mənasını izah edərək bu mövzuda bildiklərini danışırlar.

**Oxu. Danışma**

**Dərslik, səh. 6**

**a.** Sevilin tədris ilinin əvvəlində hazırladığı fəaliyyət planı ilə tanış olun.

Tapşırıqda altıncı sinif şagirdlərindən birinin hazırladığı fəaliyyət planı təqdim edilib. Şagirdlər fəaliyyət planı ilə tanış olurlar. Müəllim şagirdləri danışma fəaliyyətinə cəlb etmək üçün yönəldici suallar verir və yeri gəldikcə “Söz mücrüsü”ndəki sözlərin mənası izah edilir:
- Dərs ilinin ilk günləridir. Siz bu tədris ilində qarşınıza hansı hədəfləri qoymusunuz?
- Hədəfə çatmaq üçün nə etmək lazımdır?
- Hədəfə çatmaq üçün kimdən yardım istəyəcəksiniz? Bu işdə sizə kim dəstək ola bilər?

**Müəllimin nəzərinə!** Bu suallar şagirdlərə öz hədəfləri haqqında düşünməyə kömək edəcək. Yaxşı olardı ki, bu sualları cavablandırmaqda bütün sinif şagirdləri iştirak etsin.

**Söz ehtiyatı**

**Dərslik, səh. 7**

**b.** Hansı cümlədə “hədəf” sözü həqiqi mənada işlənib?

<u>Cavab</u>: 2. Biz inkişaf edir, addım-addım hədəfə doğru irəliləyirik.

**Dərslik, səh. 7**

**c.** Hansı cümlədə “plan” sözü mətndəki mənada işlənib?

<u>Cavab</u>: 2. Səidə firmanın inkişaf planını hazırladı.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 7**

**ç.** Mətnə əsasən suallara cavab verin.

<u>Cavab</u>:

1. Sevil fəaliyyət planını tədris ilinin əvvəlində hazırlayıb.
2. Sevil yazı bacarıqlarını inkişaf etdirmək istəyir. Belə ki, sözləri orfoqrafik normalara uyğun yazmaq, mətni düzgün strukturlaşdırmaq, fikirlərini məntiqi ardıcıllıqla ifadə etmək üçün çalışır.
3. Sevil esse yarışmasının qalibi olmaq istəyir.

**Dərslik, səh. 7**

**d.** Fəaliyyət planının maddələrinə istinad etməklə Sevil haqqında fikirləri əsaslandırın.

Müəllim şagirdlərin diqqətini “Sözlərin izahı” rubrikasına yönəldir və “realist” sözünün mənasını izah edir.

<u>Cavab</u>:

Laylinə

**1.** Məqsədyönlüdür. Sevil nə istədiyini yaxşı anlayır. Hədəflərini müəyyənləşdirir.

**2.** Vaxtını planlaşdırmağı bacarır. Hədəfinə çatmaq üçün konkret zaman ayırır.

**3.** Öz bacarıqlarını dəyərləndirə bilir. Hədəfinə çatmaq üçün nəyi bacarıb, nəyi bacarmadığını müəyyənləşdirir.

**4.** Xaraktercə xəyalpərəst deyil, realistdir. Qarşısına real hədəflər qoyur.

**Dərslik, səh. 7**

**e.** Sevilin fəaliyyət planını şərh edib münasibət bildirin. Sizcə, plana daha hansı bəndlər artırıla bilər?

Şagirdlər Sevilin fəaliyyət planına münasibət bildirirlər və fəaliyyət planına daxil edilə biləcək əlavə məlumatlar haqqında təkliflərini söyləyirlər.

**Yazı**

**Dərslik, səh. 7**

**ə.** Bu tədris ilində sizin hədəfiniz nədir? Hədəfə çatmaq üçün nələr etmək istəyirsiniz? Təlimata uyğun olaraq fəaliyyət planı hazırlayın.

**Müəllimin nəzərinə!** Müəllimə şagirdlərin diqqətini yenidən **a** tapşırığındakı fəaliyyət planına yönəltmək tövsiyə edilir. Şagirdlər artıq fəaliyyət planının tərtib edilməsi haqqında müzakirə aparıblar. İndi isə fikirlərini yazılı surətdə bildirirlər. Bu da tapşırığı asanlıqla yerinə yetirməyə kömək edəcək. Yazıya başlamazdan əvvəl şagirdlərə təlimata əməl etməyi xatırlatmaq tövsiyə edilir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və qrafik materialları şərh etməklə mövzu üzrə danışır. | Tapşırıq a, d, e (dərslik) |
| Çoxmənalı sözün mətndəki mənasını digər mənalarından fərqləndirir. | Tapşırıq b, c (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq ç (dərslik) |
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır. | Tapşırıq ə (dərslik) |

Layihə

# 1-ci fəsil
# XƏYAL

## 1-ci DƏRS
## Xəyalların izi ilə (I hissə)

**Təlim nəticələri:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
- Mətndə rast gəldiyi yeni sözlərin mənasını müəyyən edir (st. 3.1.2).
- Bədii mətndəki obrazlara, onların davranışına münasibət bildirir (st. 3.1.4).
- Mətndə açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir (st. 3.1.3).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərin diqqətini fəslin adına yönəldir. Şagirdlər sözün mənasını və bu sözün onlarda yaratdığı assosiasiya haqqında danışırlar.

**Danışma**

**Dərslik, səh. 8**

**a.** Həyatdan nümunələr gətirməklə aşağıdakı aforizmi şərh edin.

**Müəllimin nəzərinə!** Şagirdlər 5-ci sinifdə (səh. 6-7) Microsoft şirkətinin banisi və sahibi Bill Geyts və onun uğur qazanmaq üçün tövsiyələri ilə tanış olublar. Yəqin ki, bir çox şagirdlər aforizmi izah edərkən bu şəxsi nümunə çəkəcəklər. Bill Geyts öz çıxışlarında qeyd edib ki, bir zamanlar hər kəsin microsoft təminatı ilə işləyən fərdi kompüterlərə sahib olmalarını xəyal edirdim. Bu bəzilərinə reallıqdan uzaq görünsə də, mən xəyal qurdum və xəyallarımın ardınca getdim. Və yaxud xəyallarını gerçəkləşdirməklə hər kəsin yaşamını dəyişdirən avtomobil yaradıcısı Henri Fordu nümunə gətirmək olar.

**Oxu**

**Mətnlə iş.** "Xəyalların izi ilə" mətni müvafiq jest və mimikalardan istifadə edilməklə müxtəlif şagirdlər tərəfindən oxunur. Müəllim şagirdlərin nitqinə diqqət edir, obrazların hiss və həyəcanını ifadə etmək üçün onlara məsləhətlər verir.

**Söz ehtiyatı**

Daha sonra müəllim "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını şagirdlərə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 9**

**b.** "Söz mücrüsü"ndən izahlara uyğun gələn sözləri seçin.

Cavab: 1 – hektar, 2 – çertyoj, 3 – həndəsə.

**Dərslik, səh. 9**

**c.** "Xəyalpərəst", "xəyalı göylərdə olmaq" ifadələrinin mənasını izah edin. Sizcə, Vasifi xəyalpərəst adlandırmaq olarmı? Fikrinizi əsaslandırın.

Şagirdləri istiqamətləndirmək məqsədilə "xəyalpərəst" sözünün mənası müzakirə edilir. Şagirdlərin Vasifin xarakteri haqqında fikirləri müxtəlif ola bilər.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 9**

**ç.** Vasifin yazdığı esseyə anasının və müəllimin münasibəti haqqında fikir yürüdün.

Tapşırıq şagirdlərin diqqətini əsas fikri müəyyənləşdirməyə kömək edən məqamlara yönəldir.

**Dərslik, səh. 9**

Layihə

**d.** Mətni Vasifin dilindən nəql edin. Aşağıdakı çertyojdan istifadə etməklə onun arzuları, yazdığı essenin məzmunu haqqında danışın.

Tapşırıq şagirdlərin oxuyub-qavrama bacarığı ilə yanaşı, danışma bacarığının da inkişafına yönəlmişdir. Şagirdlər Vasifin şəkdiyi çertyoju şərh etməklə onun arzuları, yazdığı essenin məzmunu haqqında danışırlar. İş dəftərində verilmiş tapşırıqlar müəllimə şagirdlərin həm mətnin məzmununu necə qavradıqlarını yoxlamağa, həm də verbal və qrafik materialları şərh etmək bacarığını inkişaf etdirməyə imkan yaradır.

**İş dəftəri, səh. 3**

**a.** "Xəyalların izi ilə" mətninə əsasən fikirlərin düzgün, yoxsa yanlış olduğunu müəyyən et.

Cavab: 1 – Y, 2 – D, 3 – D, 4 – D, 5 – Y, 6 – D

**İş dəftəri, səh. 3**

**b.** Cümlələri mətnin məzmununa əsasən tamamla.

Cavab:
1. Ev tapşırığını bitirməli idi.
2. İstəyirdi ki, onun yetişdirdiyi atlar beynəlxalq yarışlarda iştirak etsin.
3. Düşünürdü ki, bu, Vasif yaşda uşaq üçün həyata keçməsi mümkün olmayan bir xəyaldır.
4. Vasif essesində mükəmməl çertyoj çəkərək həndəsəni yaxşı bildiyini nümayiş etdirmişdi.
5. Müəllim onun yazısını qiymətləndirməmişdi.

**İş dəftəri, səh. 3**

**c.** Vasif at fermasını necə xəyal edirdi? Çertyojun uyğun hissələrində fermaya aid məkanların adını yaz.

Cavab: 1 – ev; 2, 3 – tövlələr; 4 – məşq üçün sahə, yaşıl rəngli yer – otlaq sahəsi.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a, d (dərslik) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tapşırıq b (dərslik) |
| Bədii mətndəki obrazlara, onların davranışına münasibət bildirir. | Tapşırıq ç (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq a, b, c (iş dəftəri) |

# 2-ci DƏRS
## Xəyalların izi ilə (II hissə)

**Təlim nəticələri:**
- Verbal və qrafik materialları (şəkil, sxem) şərh etməklə mövzu üzrə danışır (st. 2.1.3).
- Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir (st. 1.1.2).
- Mətnin müxtəlif hissələrini əlaqələndirməklə məzmununu şərh edir (st. 3.1.4).
- Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Müəllim yönəldici suallar vasitəsilə "Xəyalların izi ilə" mətninin I hissəsinin məzmununu xatırladır.

**Danışma**

Layihə

Dərslik, səh. 10

**a.** Plana və illüstrasiyalara əsasən hadisələrin davamı ilə bağlı mətn qurub nəql edin.

"Xəyalların izi ilə" mətninin I hissəsi natamam qalmışdı. I hissə belə yekunlaşırdı: Bu hadisədən 25 il ötmüşdü...

**Müəllimin nəzərinə!** Müəllimə şagirdlərin diqqətini hekayənin sonuncu cümləsinə cəlb etmək tövsiyə edilir. Müəllim şagirdlərə müraciətlə soruşur:
– Sizcə, sonuncu cümlənin sonunda nə üçün üç nöqtə qoyulub?
– Üç nöqtənin funksiyalarından biri də fikrin bitmədiyini göstərməsidir.
Daha sonra şagirdlərə yönəldici suallar verilə bilər:
– Sizə Vasifin sonrakı həyatı ilə bağlı daha nə maraqlıdır?

Şagirdlərin sualları lövhədə qeyd olunur. Şagirdlər 25 ildən sonra olanları onlara təqdim edilmiş plan və illüstrasiyalara əsasən təxmin edərək danışırlar.

**Diferensial təlim.** Müəllim tapşırığı yerinə yetirməkdə çətinlik çəkən şagirdlərə yönəldici suallar verməklə dəstək ola bilər. Hər bir illüstrasiyanın məzmununu açmağa kömək edən suallar tərtib edərək həmin şagirdlərə vermək tövsiyə edilir. Şagirdlər sualları sıra ilə cavablandıraraq rabitəli mətn kimi təqdim edirlər.

**Dinləmə**

Dərslik, səh. 10

**b.** "Xəyalların izi ilə" mətninin ikinci hissəsini dinləyin və öz variantınızla müqayisə edin. Fərqli və oxşar epizodlar haqqında danışın və münasibət bildirin.

***Xəyalların izi ilə (II hissə)***

*Şagirdləri ekskursiyaya aparan avtobus körpünü keçib yaşıl sahəyə çıxdı. Yolda üstünə "Qarabağ atları" yazılmış lövhə göründü. Bələdçi xəbərdarlıq etdi:*

*– Çatırıq.*

*Avtobus fermanın qarşısında dayandı. Şagirdlər bir-bir yerə enib sıra ilə içəri daxil oldular. Bələdçi qeyd etdi:*

*– Ferma 200 hektar ərazini əhatə edir, böyükdür. Yaxşı olardı ki, bir-birinizdən aralanmayasınız.*

*Elə bu vaxt bir atlı onlara yaxınlaşdı. Gözəl bir sıçrayışla atdan endi. Bələdçi müəllimə dedi:*

*– İsmayıl müəllim, tanış olun, Vasif Həsənovdur, fermanın sahibidir, həm də məşhur jokeydir.*

*Vasif uşaqlarla salamlaşdı və əlini müəllimə uzadıb dedi:*

*– Xoş gəlmisiniz, İsmayıl müəllim.*

*Vasif İsmayıl müəllimlə söhbət edə-edə şagirdlərin arxasınca gedirdi. Bələdçi şagirdlərə fermanın ərazisini gəzdirir, maraqlı məlumatlar verirdi. Bir qədər irəlidə iki böyük tövlə görünürdü. Tövlənin düz yanında atların təmizlənməsi üçün yer də var idi. Tövlələrdən xeyli aralıda jokeylər at çapır, bəziləri isə atın yüyənindən tutub gəzdirirdilər. Vasif iki qara hündür atı şagirdlərə göstərib dedi:*

*– Baxın, uşaqlar, bu atlar yaxın zamanda beynəlxalq turnirdə iştirak edəcəklər.*

*Şagirdlər həvəslə hansı atın finişə tez çatacağını izləyirdilər.*

*Vasif İsmayıl müəllimi otağına dəvət etdi. Söhbət edərkən birdən İsmayıl müəllimin gözü divardakı sxemə sataşdı. Sanki illər əvvələ qayıtdı, Vasifi və qiymətləndirmədiyi esseni xatırladı. Ayağa qalxıb divardan asılmış çərçivəyə yaxınlaşdı:*

*– Bir vaxtlar qiymətləndirməsəm də, indi ürəkdən əla yazıram.*

**Müəllimin nəzərinə!** İş dəftərində "Xəyalların izi ilə" dərsi üçün 2 səhifə ayrılmışdır. Bu dərsdə tapşırıqların sayı çoxdur. Şagirdlər iş dəftərində verilmiş tapşırıqlar arasından seçim edərək arzu etdikləri tapşırığı işləyə bilərlər.

İş dəftəri, səh. 4



layihə

**a.** “Xəyalların izi ilə” mətninin II hissəsindən uyğun cümlələr yazmaqla Vasifin xəyallarının reallaşdığını əsaslandır.

Cavab:

At ferması yaradacağam. / Vasif essesində qeyd etdiyi kimi, at ferması yaratmışdı.

Qarabağ atları yetişdirəcəyəm. / Yolda üstünə “Qarabağ atları” yazılmış lövhə göründü. Bələdçi “çatırıq” deyə xəbərdarlıq etdi.

Ferma 10 hektar ərazidə yerləşəcək. / Ferma 200 hektar ərazini əhatə edir, böyükdür. Yaxşı olardı ki, bir-birinizdən aralanmayasınız.

Yetişdirdiyim atlar beynəlxalq yarışlarda iştirak edəcək. / Baxın, uşaqlar, bu atlar yaxın zamanda beynəlxalq turnirdə iştirak edəcəklər.

**İş dəftəri, səh. 4**

**b.** “Xəyalların izi ilə” mətnindəki əsas obraza aid xüsusiyyətləri müəyyənləşdir və obraz xəritəsini tamamla.

Cavab: Obrazın təqdimatı. Vasif “Xəyalların izi ilə” mətninin baş qəhrəmanıdır. O, fermerdir. Eyni zamanda məşhur jokeydir.

Xarakteri:

Məqsədyönlüdür. Hələ məktəbdə oxuyarkən “Böyüyəndə kim olmaq istəyirəm” mövzusunda esse yazmış və fermer olacağını söyləmişdi. Həqiqətən də, illər sonra onun məşhur fermer və jokey olduğunu görürük. O öz məqsədinə çatmışdı.

Çalışqandır. Hələ mətnin əvvəlində qeyd olunmuşdu ki, Vasif gec saatlara qədər oturub yazısını bitirməyə çalışırdı.

İnadkardır. İsmayıl müəllim Vasifin xəyallarının real olmadığını düşünsə də, mühəndis olmağı tövsiyə etsə də, Vasif öz fikrindən dönmədi. Öz xəyallarının arxasınca getdi və məqsədinə çatdı.

**Yazı**

**İş dəftəri, səh. 5**

**c.** “Xəyalların izi ilə” mətni ilə bağlı rəy yaz.

Şagirdlər “Xəyalların izi ilə” mətni haqqında rəy yazır, münasibət bildirirlər.

**Dərslik, səh. 10**

**c.** Mətnin ideyasını müəyyən edin. Aşağıdakı fikirlərdən istifadə etməklə “Təxəyyül və məqsəd” mövzusunda esse yazın.

Tapşırıq şagirdlərin esse yazmaq bacarığını inkişaf etdirir.

**Müəllimin nəzərinə!** Şagirdlərə esse yazının strukturunu xatırlatmaq tövsiyə edilir. Aşağı siniflərdə şagirdlər esse yazının xüsusiyyətləri ilə tanış olublar. Esse yazarkən hər hansı bir mövzuda öz fikirlərini bildirməyi və arqumentlər gətirməklə əsaslandırmağı bacarırlar. Eyni zamanda mətnlərin giriş, əsas və nəticə hissəsinin olduğu haqda məlumatları da var.

Essenin giriş hissəsində mövzu haqqında fikir bildirilir. Bu tapşırıqda mövzu haqqında fikirlər təqdim edilmişdir:

- Plan qurmaq – arzunu məqsədə çevirən fəaliyyətdir.
- Arzu təxəyyülə təkan verir, məqsəd isə fəaliyyətə.
- İnam təxəyyülə dayaq verir və onu məqsədə çevirir.

Şagirdlər bu fikirlərdən birini seçirlər. Əsas hissədə müvafiq arqumentlərlə həmin fikri əsaslandırırlar. Həyatdan və yaxud oxuduqları mətnlərdən nümunələr gətirə bilərlər. Nəticədə isə mövzu haqqında ümumiləşdirmə aparılır.

Şagirdlər esse yazarkən istifadə edilən standart ifadələr, keçid cümlələrlə tanışdırlar. Məsələn, mövzu haqda fikir söyləyərkən “məncə”, “mənim fikrimcə” kimi sözlərdən istifadə etmək daha məqsədəuyğundur.

Layihə

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və qrafik materialları (şəkil, sxem) şərh etməklə mövzu üzrə danışır. | Tapşırıq a (dərslik) |
| Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir. | Tapşırıq b (dərslik) |
| Mətndə fikirlər, faktlar və hadisələr arasındakı əlaqəni müəyyən edir. | Tapşırıq a (iş dəftəri) |
| Mühakimə və arqumentlərini əks etdirməklə kiçikhəcmli esse yazır. | Tapşırıq c (dərslik) |

# 3-cü DƏRS
# Bəzi ikihecalı sözlərdə ikinci hecadakı saitin düşməsi

**Təlim nəticələri:**
- Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 11**

**a.** Fərqləndirilmiş sözlərin hal, yoxsa mənsubiyyət şəkilçisi qəbul etdiyini müəyyənləşdirin.

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi daşıyır.

Cavab:

1. ***Evin*** ətrafına taxta çəpər çəkilmişdi. (yiyəlik hal şəkilçili söz)
2. Sənin ***evin*** bura yaxındır? (mənsubiyyət şəkilçili söz)

**Dərslik, səh. 11**

**b.** Sözləri kök və şəkilçiyə ayırın. Saitlə başlayan şəkilçi artırılarkən söz kökündə hansı dəyişiklik baş verir?

Şagirdlər aşağı siniflərdə sözün tərkibi haqqında aldıqları bilgilərə əsasən tapşırıqda verilmiş sözləri kök və şəkilçiyə ayırırlar. Saitlə başlayan şəkilçi artırıldıqda söz kökündəki saitin düşdüyünü müəyyən edirlər.

Müəllim şagirdlərin diqqətini "Bunları bilməliyik!" rubrikasına yönəldir. Rubrikadakı məlumatları şərh edir, nümunələr əsasında bəzi ikihecalı sözlərdə ikinci saitin düşməsinin səbəbini izah edir.

**Dərslik, səh. 11**

**c.** İkinci hecasındakı saiti düşən sözləri müəyyən edin. İkinci hecadakı saitin düşmə səbəbini müəyyənləşdirin.

Cavab:

1. qoynunda, mənsubiyyət şəkilçisi artırılıb.
2. çətri, ətri mənsubiyyət şəkilçisi artırılıb.

**Dərslik, səh. 11**

**ç.** Mötərizədəki sözlərə uyğun hal şəkilçiləri artırmaqla cümlələri tamamlayın. İkinci hecadakı saitlər hansı hallarda düşdü? Səbəbini izah edin.

**"Xatırla" rubrikası.** "ç" tapşırığını yerinə yetirməzdən əvvəl bu rubrikada verilmiş məlumat şərh edilir.

Cavab:

Layihə

1. ***İsmin*** altı halı var. (Yiyəlik hal şəkilçisi)
2. Kitab beş ***fəsildən*** ibarət idi. (Çıxışlıq hal şəkilçisi)
3. Şuşada ***ömrə*** bərabər bir gün keçirdik. (Yönlük hal şəkilçisi)
4. Hansı ***sətirdə*** söz sırası pozulmuşdur? (Yerlik hal şəkilçisi)
5. Bəzən gənc ***nəsli*** qınayırlar. (Təsirlik hal şəkilçisi)

Sözlərə ismin *yiyəlik, yönlük, təsirlik* hallarının şəkilçilərini artırdıqda söz kökündəki ikinci sait düşdü. Çünki bu halların şəkilçiləri saitlə başlayır.

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin bəzi ikihecalı sözlərdə ikinci saitin düşməsi haqqında aldıqları biliklərin tətbiqi və möhkəmləndirilməsinə yönəlmişdir.

**İş dəftəri, səh. 6**

**a.** İkinci saiti qapalı olan ikihecalı sözü seç.

Cavab: d. alın

**İş dəftəri, səh. 6**

**b.** “Fikir” sözünü hallandır. Sözləri kök və şəkilçiyə ayır.

Cavab:

**Adlıq**: fikir
**Yiyəlik**: fikrin
**Yönlük**: fikrə
**Təsirlik**: fikri
**Yerlik**: fikirdə
**Çıxışlıq**: fikirdən

**İş dəftəri, səh. 6**

**c.** İkinci hecasındakı saiti düşmüş sözləri müəyyən et. Bu sözlərə hansı şəkilçi artırılıb: mənsubiyyət, yoxsa hal? Sözləri cədvəl üzrə qruplaşdır.

Cavab:

**Mənsubiyyət şəkilçisi qəbul etmiş sözlər:** bizim şəklimiz, insanın beyni, pencəyin çiyni, uşağın ağlı, vətənin igid oğlu

**Hal şəkilçisi qəbul etmiş sözlər:** sinfin yeni şagirdi, ismin altı halı, şəklin ölçüləri, sətrin sonu, fəslin ayları.

**İş dəftəri, səh. 6**

**ç.** Yalnız mənsubiyyət şəkilçisi qoşulduqda ikinci hecasındakı saiti düşən sözləri seç və cümlədə işlət.

Cavab: burun, könül, ağız, beyin, alın.

Şagirdlər bu sözlərin iştirakı ilə müxtəlif cümlələr qura bilərlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bəzi ikihecalı sözlərdə ikinci hecadakı saitin düşməsi qaydasına əməl edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

# 2-ci fəsil
# UĞUR

## 1-ci DƏRS
## Elektron ünvanım olsaydı...

**Təlim nəticələri:**
- Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür (st. 2.1.4).
- Mətndə rast gəldiyi yeni sözlərin mənasını müəyyən edir (st. 3.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 12**

**a.** Uğursuzluqla qarşılaşanda hansı hissləri keçirirsiniz? Cavablardan birini seçin və seçdiyiniz cavabı şərh edin.

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi daşıyır.

**Oxu**

**Mətnlə iş.** Əvvəlcə şagirdlər onlara verilmiş vaxt ərzində "Elektron ünvanım olsaydı..." mətnini səssiz oxuyurlar. Şagirdlər onlara tanış olmayan söz və ifadələri dəftərlərində qeyd edirlər. Müəllim yeni sözlərin mənasını izah edir.

**Danışma**

**Dərslik, səh. 13**

**b.** Sizcə, rədd cavabı alan Coni nə edəcək? Uğursuzluq ona necə təsir edəcək? Siz Coninin yerində olsaydınız, nə edərdiniz? Mətnin II hissəsini oxuyun və öz variantınızla müqayisə edin.

Şagirdlər tapşırıqda qoyulmuş suallara cavab verməklə baş qəhrəmanın gələcək taleyi haqqında təxminlərini söyləyirlər. Daha sonra mətnin II hissəsini oxuyurlar.

**Söz ehtiyatı**

**Dərslik, səh. 14**

Müəllim "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını izah edir.

**Dərslik, səh. 14**

**c.** Uyğunluğu müəyyən edin.

Cavab: 1 – ç, 2 – d, 3 – b, 4 – a, 5 – c.

**Dərslik, səh. 14**

**ç.** Mətndə "kadr" sözü hansı mənada işlənmişdir?

Cavab: Hər hansı bir idarənin işçisi.

**Dərslik, səh. 14**

**d.** Aşağıdakı sözlərin izahını oxuyun və Coninin xarakteri ilə əlaqələndirib şərh edin.

Cavab: Coni fərasətli və çalışqan insandır. Uğursuzluq onu ruhdan salmır. O ən kiçik fürsəti dəyərləndirməyi bacarır. Məsələn, ayaqqabı təmizləməyə məhz hərbçilər işlədiyi binanın qarşısında başlayır. Çünki zabitlərin səliqə-sahmana xüsusi diqqət etdiyini yaxşı bilirdi.

**Dərslik, səh. 14**

Layihə

**e.** Sübut edin ki, mətndə fərqləndirilmiş "sağ əl" ifadəsi məcazi mənada işlənib. Həmin ifadəni həqiqi mənada işlədin.

Cavab: Mətndə qeyd olunur ki, Coni Bill Geytsin "sağ əli" olmaq istəyir. Əlbəttə, bir insan başqa bir insanın əli ola bilməz. Burada yaxın köməkçi mənasında işlədilib. Yəni insan işlərini təkcə sol əli ilə görərsə, çətinlik çəkər, amma hər iki əllə görərsə, daha asan və tez yerinə yetirər.

Həqiqi məna: Orxanın sağ əli zədələnmişdi deyə yazını sol əli ilə yazırdı.

**Dərslik, səh. 14**

**ə.** Mətnə əsasən "xəyalları puç olmaq", "ayaq saxlamaq" ifadələrinin mənasını izah edin.

**"Xatırla" rubrikası.** "ə" tapşırığını yerinə yetirməzdən əvvəl bu rubrikada verilmiş məlumat şərh edilir, frazeoloji birləşmələr haqqında məlumat xatırlanır.

Cavab: xəyalları puç olmaq – arzuların real olmaması; ayaq saxlamaq – dayanmaq.

**Oxuyub-qavrama**

İş dəftərində verilmiş tapşırıqlar faktoloji məlumatların yoxlanılmasına imkan yaradır.

**İş dəftəri, səh. 7**

**a.** "Elektron ünvanım olsaydı" mətninin baş qəhrəmanı haqqında məlumat yaz.

Cavab:

**Coninin arzusu:** "Maykrosoft" şirkətinə süpürgəçi vəzifəsinə işə qəbul olmaq, özünü tanıdaraq Bill Geytsin köməkçisi vəzifəsinə ucalmaq istəyirdi.

**Problem:** Coninin elektron ünvanı olmadığı üçün işə qəbul olunmur.

**Yeni biznes:** Ayaqqabısilmə məntəqələri açır.

**Yaradıcı ideya:** Avtomatik ayaqqabısilən qurğu yaradır.

**Əldə edilən uğurlar:** Coninin qurğuları dünyanın bir çox ölkələrində satılır və o, milyonçu olur.

**İş dəftəri, səh. 7**

**b.** Mətnə istinad etməklə cədvəli tamamla.

1. Coni mükəmməl təhsil ala bilməmişdi, çünki ***onların ailəsi çox imkansız idi.***
2. Həyatda idealı Bill Geyts idi, çünki ***eşitmişdi ki, o da universitetdə təhsilini yarımçıq qoyub, yəni təhsil almayıb, amma buna baxmayaraq həyatda uğur qazana bilib.***
3. Coninin elektron ünvanı yox idi. ***Nəticədə onu işə qəbul etmədilər.***
4. Avtomatik ayaqqabısilən qurğunun ilk modeli uğurlu deyildi, ***çünki qurğu müxtəlif ölçüdə və formada olan ayaqqabıların bütün hissələrini insan əli kimi təmizləyə bilmirdi.***
5. Coni diş fırçaları hazırlayan konstruktorları qurğunun hazırlanması işinə cəlb etdi. ***Nəticədə avtomatik ayaqqabısilən qurğu hazır oldu.***

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tapşırıq a, b (dərslik) |
| Kontekstə əsasən sözlərin mənasını müəyyənləşdirir. | Tapşırıq c, ç, e, ə (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq a, b (iş dəftəri) |

Lәyihә

# 2-ci DƏRS
# Elektron ünvanım olsaydı...

**Təlim nəticələri:**
• Mətndə açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir (st. 3.1.3).
• Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).
• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3.1.4).
• Mətni təxəyyülünə uyğun dəyişdirir, genişləndirir, davam etdirir (st. 3.1.4).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 15**

**a.** Mətnə əsasən suallara cavab verin.

Şagirdlər tapşırıqdakı sualları cavablandırmaqla "Elektron ünvanım olsaydı..." mətninin məzmununu xatırlayırlar.

**İş dəftəri, səh. 8**

**a.** Coni biznesini necə inkişaf etdirdi? Mətnə əsasən məlumatları tamamla.

İş dəftərində verilmiş bu tapşırıq şagirdlərin mətnin məzmununu necə qavradıqlarını yoxlamağa imkan yaradır.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 15**

**b.** Sizcə, Coninin tərcümeyi-halında hansı məlumatlar öz əksini tapmamışdı? Mətnə istinad etməklə fikrinizi əsaslandırın.

**"Sözlərin izahı" rubrikası.** Tapşırığı yerinə yetirməzdən əvvəl bu rubrikada verilmiş "Tərcümeyi-hal" sözü izah edilir. Tərcümeyi-hal şəxsin özü haqqında ətraflı məlumat, həyatının əsas məqamlarını ardıcıl şəkildə əks etdirən həyat tarixçəsidir.

Cavab: Coninin tərcümeyi-halında aşağıdakı məlumatlar yer ala bilməz.
• Təhsil aldığı məktəb
• Təhsil aldığı universitet
• Elektron ünvanı

Çünki mətndə qeyd olunub ki, Coni imkansız ailədə böyüdüyündən mükəmməl təhsil ala bilməmişdi. Buna görə də tərcümeyi-halında təhsili haqqında məlumat ola bilməz. Coninin elektron ünvanı olmadığı üçün işə qəbul ola bilmir. Elektron ünvanı olmadığı üçün tərcümeyi-halında bu haqda məlumat qeyd oluna bilməzdi.

**Dərslik, səh. 15**

**c.** Coni nə üçün məhz Bill Geytsi özünə ideal seçmişdi? Mətnə istinad edərək Coninin seçiminin səbəblərini izah edin.

Şagirdlərin cavabı təxminən belə ola bilər: Bill Geyts universitetdə təhsilini yarımçıq qoyub kompüter texnologiyalarının istehsalı ilə məşğul olan "Maykrosoft" (Microsoft) şirkətini yaratmış və az müddətdə milyarder olmuşdu. Coninin də təhsil almaq imkanı olmamışdı. Lakin bunun həyatda uğur qazanmağa mane olmayacağını düşünürdü. Bill Geyts bunun üçün yaxşı nümunə idi və Coniyə çalışmaq üçün motivasiya verirdi.

Layihə

**Dərslik, səh. 15**

> **ç.** Hansı hadisə Coniyə stimul verdi? Xəyallarının ardınca getməyə təkanverici amil, həvəsləndirici səbəb nə oldu? Coni təslim olmayacağını, mübarizə aparacağını nitqində necə ifadə edir? Mətndən həmin hissəni seçib oxuyun.

Cavab: Çalışmaq istədiyi şirkətin prinsiplərinə görə, elektron ünvanı olmadığı üçün Conini işə götürmədilər. Bu uğursuzluq Conini ruhdan salmadı, əksinə, çalışmaq üçün stimul verdi. "Mən sizə kim olduğumu göstərərəm. Məni işə götürmədiyinizə peşman olacaqsınız", – deyə özünə söz verdi.

**Dərslik, səh. 15**

> **d.** Mətnin son cümləsini əsas fikirlə əlaqələndirib izah edin. Sizcə, nə üçün müəllif bu cümlənin birinci hissəsini mətnin başlığı kimi seçib?

Şagirdlərin cavabı təxminən belə ola bilər: Müəllif mətni bu cümlələrlə bitirir:

Coni isə əhvalını pozmadan dedi:

– Elektron ünvanım olsaydı, indi "Maykrosoft"da süpürgəçi işləyirdim!..

Müəllif mətnin son cümləsi ilə ifadə edir ki, bəzən bəzi uğursuzluqlar insana daha yaxşı seçim üçün şans verir. Məsələn, Coni "Maykrosoft" şirkətində süpürgəçi vəzifəsinə işə düzəlsəydi, bəlkə də, qazandığı uğura sahib olmayacaqdı. Müəllifin bu cümlənin birinci hissəsini mətnin başlığı kimi seçməsinə səbəb oxucunun diqqətini əsas ideyaya yönəltmək, onu bu haqda düşündürmək istəməsidir.

**Dərslik, səh. 15**

> **e.** Baş qəhrəmanın xarakter və davranışlarını nümunə gətirərək aşağıdakı fikri şərh edin və mətnin əsas ideyasını əks etdirdiyini sübut edin.

Şagirdlərin cavabı təxminən belə ola bilər: İnsan məqsədyönlü və özgüvənlidirsə, heç bir maneə onu hədəfdən yayındıra bilməz. Coni qarşısına bir məqsəd qoyur. Onun ən böyük arzusu zəngin biznesmen olmaq, cəmiyyətdə hörmət qazanmaq idi. O bu məqsədinə çatmaq üçün səy göstərir, çalışır. Rastlaşdığı heç bir maneə onu hədəfindən yayındırmır.

**İş dəftəri, səh. 8**

> **b.** Coniyə aid xüsusiyyətləri müəyyənləşdir və obraz xəritəsini tamamla.

Dərslikdə yerinə yetirilmiş "e" tapşırığından sonra şagirdlər iş dəftərindəki bu tapşırığı asanlıqla yerinə yetirə bilərlər.

**Danışma**

**Dərslik, səh. 15**

> **ə.** Mətni Coninin dilindən nəql edin. Coninin duyğu və düşüncələrini əks etdirməklə mətni genişləndirin.

Tapşırıq şagirdlərin oxuyub-qavrama bacarığı ilə yanaşı, danışma bacarığının da inkişafına yönəlmişdir. Şagirdlər tapşırığa yaradıcı yanaşdığı üçün cavablar müxtəlif olacaq.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir. | Tapşırıq b (dərslik) |
| Mətndə açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir. | Tapşırıq a (iş dəftəri) |
| Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir. | Tapşırıq c, ç, d, e (dərslik);<br>b (iş dəftəri) |

layihə

| | |
|---|---|
| Mətni təxəyyülünə uyğun dəyişdirir, genişləndirir, davam etdirir. | Tapşırıq ə (dərslik) |

# 3-cü DƏRS
# Elektron ünvanım olsaydı...

**Təlim nəticələri:**
- Mətndə açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir (st. 3.1.3).
- Məqsədə uyğun olaraq sadə əməli yazı yazır (st. 4.1.1).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 16**

**a.** Coni işə qəbul olmaq üçün şirkətə necə müraciət etdi? Mətnin müvafiq abzasını seçib oxuyun.

Müəllim şagirdlərin diqqətini “Elektron ünvanım olsaydı...” mətninin uyğun abzasına yönəldir:

*...Bir gün qəzetdə oxudu ki, “Maykrosoft” şirkətinə süpürgəçi tələb olunur. Coni tərcümeyi-halını, işə qəbul olunmaq haqqında ərizəni yazdı, başqa lazımi sənədləri də toplayaraq şirkətin ofisinə müraciət etdi.*

Müəllim işə qəbul olmaq üçün müraciət edərkən tərcümeyi-hal və ərizə yazmağın vacib olduğunu vurğulayır.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 16**

**b.** Coni “Maykrosoft” şirkətinə hansı məqsədlə ərizə yazmışdı?

Cavab: “Maykrosoft” şirkətinin rəhbərliyinə yazıb onu işə qəbul etmələri haqqında xahişini bildirmişdi. Tapşırıqla şagirdlərin diqqəti ərizənin yazılma məqsədlərinə yönəldilir.

**“Yadda saxla” rubrikası.** Müəllim bu rubrikadakı məlumatları nümunələr əsasında şərh edir.

**Yazı**

**Dərslik, səh. 16**

**c.** Ərizəni oxuyun, strukturuna diqqət edin.

Tapşırıq şagirdlərin yazı bacarığının inkişafına yönəldilib. Şagirdlər əməli yazılardan birinin – ərizənin strukturu ilə tanış olurlar.

**İş dəftəri, səh. 9**

**a.** Aşağıda verilmiş ərizə nümunəsini oxu, səhvləri müəyyən et.

İş dəftərində verilmiş ərizə nümunəsində bir sıra səhvlər vardır. Şagirdlər dərslikdəki nümunə əsasında bu səhvləri müəyyən edir və düzəldirlər. Səhvlər üzərində iş şagirdlərin ərizə yazmaq bacarığını inkişaf etdirir.

Cavab:

Ərizənin giriş hissəsində vərəqin yuxarı sağ tərəfində: ərizənin ünvanlandığı təşkilat və müraciət edilən şəxsin adı, soyadı və ərizəni yazan şəxsin adı, soyadı göstərilməlidir. İş dəftərində verilmiş nümunənin giriş hissəsində:

Müraciət edilən şəxsin adı, soyadı və ərizəni yazan şəxsin adı, soyadı göstərilməyib.

- Ərizənin sonunda imza və tarix yazılmalıdır. İş dəftərində verilmiş nümunənin sonunda:
- Tarix qeyd olunmayıb.

Layihə

**Dərslik, səh. 16**

**ç.** Coninin adından “Maykrosoft” şirkətinin rəhbərliyinə ərizə yazın. Bir-birinizin yazısını aşağıdakı meyarlara görə yoxlayın.

Tapşırıq vasitəsilə şagirdlər ərizə yazmaq və dəyərləndirmək kimi bacarıqlarını inkişaf etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndə açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir. | Tapşırıq b (dərslik) |
| Məqsədə uyğun olaraq sadə əməli yazı (ərizə) yazır. | Tapşırıq ç (dərslik);<br>a (iş dəftəri) |

# 4-cü DƏRS
# Sözlərin sonunda b, c, d, g və söz ortasında k, t, p, q samitlərinin yazılışı və tələffüzü

**Təlim nəticələri:**
- Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 17**

**a.** Cingiltili samitlərin kar qarşılığını müəyyən edin.

Motivasiya xarakterli bu tapşırıq şagirdlərə samitlər haqqında biliklərini xatırladır.

**Dərslik, səh. 17**

**b.** Nöqtələrin yerinə uyğun gələn hərfi seçin. Orfoqrafiya lüğəti vasitəsilə yoxlayın.

Cavab: məktəb, gənc, pələng, bulud.

Müəllim şagirdlərin diqqətini “Bunları bilməliyik” rubrikasına yönəldir. Bu rubrikada verilmiş məlumatları nümunələr əsasında izah edir.

**Dərslik, səh. 17**

**c.** Hər sırada səhv yazılmış sözü seçib düzgün yazın.

Cavab:
I sırada “kitap” sözü səhv yazılıb, “kitab” kimi yazılmalıdır.
II sırada “qənt” sözü səhv yazılıb, “qənd” kimi yazılmalıdır.
III sırada “məktup” sözü səhv yazılıb, “məktub” kimi yazılmalıdır.

**Dərslik, səh. 17**

**ç.** Hansı sözlərin tərkibindəki fərqləndirilmiş cingiltili samit kar qarşılığı kimi tələffüz olunur? Qaydaya əsasən səbəbini izah edin.

Cavab:
Söz tək işlənib: bulud [bulut], cavab [cavap]
Sözdən sonra samitlə başlayan şəkilçi və söz gəlib: buluddan [bulutdan], cavab vermək [cavap verməx’], cavabda [cavapda].

**“Bunları bilməliyik” rubrikası.** Müəllim rubrikada söz ortasında yanaşı işlənən kar samitlərin yazılışı haqqında məlumatı nümunələr əsasında izah edir.

Layihə

**Dərslik, səh. 17**

**d.** Tələffüz formasında yazılmış sözləri orfoqrafik normalara uyğun yazın.

Cavab: isti, əlbəttə, saqqız, tappıltı, seçki, bitki, saqqal, səkkiz, xəstə.

**Dərslik, səh. 17**

**e.** Hansı sözün yazılışı ilə tələffüzü fərqlənmir?

Cavab: e. zəhmətkeş

İş dəftərində verilmiş tapşırıqlar şagirdlərin sözlərin sonunda ***b, c, d, g*** və söz ortasında ***k, t, p, q*** samitlərinin yazılışı və tələffüzü haqqında aldıqları biliklərin tətbiqinə imkan yaradır.

**İş dəftəri, səh. 10**

**a.** Kar qarşılığı səhv verilmiş cingiltili samiti müəyyən et.

Cavab: c. [q] – [k'] olmalıdır.

**İş dəftəri, səh. 10**

**b.** Verilmiş sözlərin son hərfi ilə başlayan söz yaz.

Şagirdlər verilmiş sözlərin son hərfi ilə başlayan müxtəlif sözlər yaza bilər.
*Nümunə*: budaq, gəmi, ceyran, göz, dəmir, cücə, balıq, gavalı, duz, bəbir, dəniz.

**İş dəftəri, səh. 10**

**c.** Fərqləndirilmiş cingiltili samiti kar qarşılığı kimi tələffüz olunan sözü seç.

Cavab: c. məktubdan

**İş dəftəri, səh. 10**

**ç.** Tələffüz formasında yazılmış sözləri orfoqrafik normalara uyğun yazıb cümlədə işlət.

Cavab: tüstü, mürəkkəb, rəqqas, ixtira, bitki, çaqqal, döyüşkən.

**İş dəftəri, səh. 10**

**d.** Yazılışı ilə tələffüzü fərqlənməyən sözü seç.

Cavab: e. sənətkar

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz sonunda ***b, c, d, g*** samitlərinin yazılışı və tələffüzü qaydalarına riayət edir. | Tapşırıq b, c, ç (dərslik); a, b, c (iş dəftəri) |
| Söz ortasında ***k, t, p, q*** samitlərinin yazılışı və tələffüzü qaydalarına riayət edir. | Tapşırıq d, e (dərslik); ç, d (iş dəftəri) |

Layihə

# 3-cü fəsil
# YARADICI YANAŞMA

## 1-ci DƏRS
## Hərənin öz imzası

**Təlim nəticələri:**
• Sözün həqiqi və məcazi mənalarını fərqləndirir (st. 3.1.2).
• Söz tərkibindəki morfemlərin semantikasından çıxış edərək sözün mənasını müəyyən edir (st. 4.1.3).
• Açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir (st. 3.1.3).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərin diqqətini fəslin adına yönəldir və bu mövzuda fikirlər dinlənilir.

**Söz ehtiyatı**

**Dərslik, səh. 18**

**a.** "İmza" sözünün izahına əsasən aşağıda verilmiş ifadələrin həqiqi və məcazi mənalarını təxmin edin.

Cavab:

**Həqiqi mənada**: Bir məktubun, sənədin və s.-nin altında öz dəst-xətti ilə adını və ya familiyasını yazma, qol çəkmə, qol.

**Məcazi mənada**: bir şeyin müəllifi olmaq; fəaliyyəti ilə dönüş yaratmaq.

**Oxu**

**Mətnlə iş. Rollu oxu.** Əvvəlcə şagirdlər onlara verilmiş vaxt ərzində "Hərənin öz imzası" mətnini oxuyurlar. Bu zaman şagirdlər obrazların nitqinə diqqət edir, onların keçirdiyi hisslərlə tanış olurlar. Müəllim oxu zamanı şagirdlərin jest və mimikalardan yerində, düzgün istifadə etməsinə diqqət edir, obrazların nitqini onların xarakterinə və emosional vəziyyətinə görə necə səsləndirmələrini müşahidə edir. Daha sonra müəllim şagirdlərə mətndəki yeni sözləri izah edir.

**Söz ehtiyatı**

**Dərslik, səh. 20**

**b.** Supermarket marketdən nə ilə fərqlənir? Sizcə, *super* hissəciyi sözə hansı məna çalarını qatır?

Şagirdlər "market" və "supermarket" sözlərinin mənası arasındakı fərqi müzakirə edirlər. "Super-" hissəciyinin sözə qatdığı semantikaya diqqət edirlər.

Cavab: "Super-" hissəciyi sözə "böyük" mənasını qatıb.

**Dərslik, səh. 20**

**c.** Kompliment sözünün izahını oxuyun. Hansı şöbənin satıcısı müştərisinə kompliment söyləmişdi?

Tapşırıq söz ehtiyatının zənginləşdirilməsi ilə yanaşı, faktoloji qavramanın yoxlanılmasına da imkan yaradır.

Cavab: Ət şöbəsinin satıcısı daimi alıcısına kompliment söyləyir:

– Zərifə xanım, bu gün xüsusilə gözəl görünürsünüz. Elə bil arıqlamısınız.

**Dərslik, səh. 20**

**ç.** Kontekstə əsasən "Hərənin öz imzası var" ifadəsinin mənasını izah edin.

Layihə

Cavab: Mətndə qeyd olunur ki, supermarketin müxtəlif şöbələrinin işçiləri öz işlərinə yaradıcı yanaşır. Hərəsi bir yanaşma ilə müştərilərin yadında qalır, onları cəlb edir.

**Dərslik, səh. 20**

**d.** Uyğunluğu müəyyən edin. Mətnə əsasən bu sözlərin sinonim olduğunu əsaslandırın.

Cavab: 1 – b, 2 – c, 3 – ç, 4 – a.

**“Yadda saxla” rubrikası.** Müəllim şagirdlərin diqqətinə “aforizm” sözünün izahını çatdırır. Eyni mövzuda aforizm və atalar sözü söyləməklə bu anlayışlar arasındakı oxşar və fərqli cəhətləri açıqlayır.

Aforizmlərə nümunələr:
Əqilli adamla dostluq bağlasan,
Bilik və mərifət alarsan ondan. (*Nizami Gəncəvi*)
Atalar sözü: Dostunu göstər, deyim kimsən.

**Dərslik, səh. 20**

**e.** “Sağlam rəqabət” ifadəsində *“sağlam”* sözü hansı mənada işlənmişdir: həqiqi, yoxsa məcazi? Bu ifadənin mənasını mətnin məzmunu və ideyası ilə əlaqələndirib şərh edin.

Cavab: “Sağlam rəqabət” ifadəsində “sağlam” sözü məcazi mənada işlənmişdir. “Hərənin öz imzası” mətnində danışılır ki, kiçik bir məhəllə marketinin yaxınlığında iri supermarket açıldıqdan sonra burada alış-veriş xeyli zəifləyir. İş o həddə çatmışdı ki, satıcılar günün çox hissəsini bir-biri ilə söhbət etməklə keçirirlər. Şayiə gəzir ki, yaxınlarda supermarket bağlanacaq. Lakin günlərin birində supermarketə yeni müdir təyin olunur. O, sağlam rəqabət aparmaqla, düzgün yanaşma ilə tez bir zamanda işləri qaydasına salır.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 20**

**ə.** Mətnə əsasən uyğunluğu müəyyən edin.

Cavab: 1 – c, 2 – a, 3 – b.

**İş dəftəri, səh. 11**

**a.** “Hərənin öz imzası” mətninə aid hekayə xəritəsini tamamla.

Tapşırıq şagirdlərin mətndə açıq şəkildə ifadə olunmuş informasiyanı necə qavradıqlarını yoxlamağa imkan yaradır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözün həqiqi və məcazi mənalarını fərqləndirir. | Tapşırıq a, ç, e (dərslik) |
| Söz tərkibindəki super-morfeminin semantik mənasından çıxış edərək sözün mənasını müəyyən edir. | Tapşırıq b (dərslik) |
| Açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir. | Tapşırıq c, ə (dərslik); a (iş dəftəri) |

Layihə

# 2-ci DƏRS
# Hərənin öz imzası

**Təlim nəticələri:**

• Mətnin tərkib hissələrini, struktur elementlərini (yarımbaşlıq) onun əsas məzmunu ilə əlaqələndirir (st. 3.1.5).
• Mətni dil-üslub xüsusiyyətlərinə görə təhlil edir (st. 3.1.5).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 21**

**a.** Mətnə istinad edərək cümlələri tamamlayın.

Şagirdlər tapşırıqda verilmiş cümlələri mətnin məzmununa əsasən tamamlayaraq keçən dərsdə oxuduqları mətni xatırlayırlar.

Cavab:

1. ..., çünki lap yaxınlıqda supermarket açılmışdı, alıcıların çoxu artıq həmin supermarketdən alış-veriş edirdilər.
2. ..., çünki mağazadan çox az müştəri alış-veriş edirdi.
3. ..., çünki ilk gündən hər kəsə öz adı ilə müraciət edirdi. Bu qədər adamın adını ilk dəfədən yadda saxlaması istər-istəməz yeni müdirə qarşı rəğbət hissi yaratdı.
4. ..., belə ki supermarketin işçiləri öz işlərinə yaradıcı yanaşmalı və müştəriləri cəlb etməyin yollarını düşünməli idi.

**Dərslik, səh. 21**

**b.** Yarımbaşlıqların ardıcıllığını müəyyən edin və mətnin tərkib hissələri üzrə qruplaşdırın.

Şagirdlər əvvəlcə tapşırıqda verilmiş yarımbaşlıqları mətndəki hadisələrin ardıcıllığına uyğun sıralayırlar:

1. Satış səviyyəsinin düşməsi
2. Yeni müdirin gəlməsi
3. Həsən müəllimin tədbiri
4. Satıcıların yaradıcı yanaşması
5. İşlərin qaydaya düşməsi

Daha sonra yarımbaşlıqların mətnin hansı tərkib hissəsinə aid olduğunu müəyyən edirlər.

Giriş hissəsi:
• Satış səviyyəsinin düşməsi
• Yeni müdirin gəlməsi

Əsas hissə:
• Həsən müəllimin tədbiri
• Satıcıların yaradıcı yanaşması

Nəticə:
• İşlərin qaydaya düşməsi

**Dərslik, səh. 21**

**c.** Verilmiş aforizmləri mətnin məzmunu ilə əlaqələndirib şərh edin. Hansı aforizm mətnin epiqrafı kimi daha uğurludur? Fikrinizi əsaslandırın.

Müəllim yönəldici suallarla şagirdi istiqamətləndirir:
• Epiqraf nədir və epiqraflardan hansı məqsədlə istifadə edilir?
• Sizcə, atalar sözlərindən və ya aforizmlərdən epiqraf kimi istifadə etmək olarmı? Nə üçün?

Şagirdlərin fikirləri dinlənildikdən sonra tapşırıqda verilmiş aforizmlər oxunur və şərh edilir. Şagirdlər "Hərənin öz imzası" mətni üçün ən uyğun epiqrafı seçir və seçimlərinin səbəbini izah edirlər.

Layihə

Dərslik, səh. 21

**ç.** Mətnə istinad edərək aşağıdakı fikirləri əsaslandırın və "Hərənin öz imzası" mətninin bədii mətn olduğunu sübut edin.

Cavab:

• Mətndəki epizod və dialoqlarda obrazların xarakteri aydınlaşır.

Bədii mətnlər müxtəlif epizodlardan ibarət olur. Epizodlarda obrazların xarakteri açılır. Məsələn, "Hərənin öz imzası" mətnində "Həsən müəllimin tədbiri" epizodunda onun nə qədər ağıllı, müdrik və yaradıcı insan olduğu aydın olur.

• Mətnin bir çox hissələri dialoqlardan ibarətdir.

Bədii mətnlərdə müxtəlif obrazlar arasındakı dialoqlara geniş yer verilir. Məsələn, "Hərənin öz imzası" mətnində Həsən müəllimlə Səlim arasında, ət şöbəsinin satıcısı ilə Zərifə xanım adlı müştərinin arasında və s. dialoqlar var.

• Oxucunu müəyyən dəyərlər haqqında düşünməyə vadar edir.

"Hərənin öz imzası" mətninin müəllifi oxucunu sağlam rəqabət, yaradıcılıq, çalışqanlıq kimi dəyərlər haqqında düşündürür.

• Hadisələr müəllifin təxəyyülünə uyğun təsvir edilib.

"Hərənin öz imzası" mətnindəki hadisələrin reallığını heç bir mənbə vasitəsilə sübut etmək mümkün deyil.

Dərslik, səh. 21

**d.** Təsəvvür edin ki, supermarketin "Uşaq kitabları və məktəb ləvazimatı" şöbəsində satıcı işləyirsiniz. Şöbənin satış həcmini artırmaq üçün hansı yaradıcı addımları atardınız?

Tapşırıq şagirdlərin yaradıcı təfəkkürünün inkişafına yönəldilib. Şagirlərin cavabları müxtəlif ola bilər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin tərkib hissələrini, struktur elementlərini (yarımbaşlıq) onun əsas məzmunu ilə əlaqələndirir. | Tapşırıq b, c (dərslik) |
| Bədii üsluba xas xüsusiyyətləri müəyyənləşdirir. | Tapşırıq ç (dərslik) |

# 3-cü DƏRS
# Uğur düsturu

**Təlim nəticələri:**

• Mətndə rast gəldiyi yeni sözlərin mənasını müəyyən edir (st. 3.1.2).
• Əlavə biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələri izah edir (st. 3.1.4).
• Mətni dil-üslub xüsusiyyətlərinə görə təhlil edir (st. 3.1.5).
• Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1).

**Mövzuya yönəltmə.** İlk tapşırıq vasitəsilə "Hərənin öz imzası" mətninin mövzu, məzmun və ideyası xatırlanır.

Dərslik, səh. 22

Layihə

**a.** “Hərənin öz imzası” mətninin giriş hissəsinə bir daha nəzər yetirin.
- Supermarket hansı problemlə üzləşmişdi?
- Problemi aradan qaldırmaq üçün Həsən müəllim işçilərə nə tövsiyə etdi?

**Oxu**

**Mətnlə iş.** Şagirdlər “Uğur düsturu” mətnini oxuyurlar. Mətni anlamağa kömək edən açar sözlərin (motivasiya, inam, kreativlik və s.) və anlamadıqları yeni sözlərin mənasını lüğət vasitəsilə araşdırırlar.

**Söz ehtiyatı**

**Dərslik, səh. 22**

**b.** Mətndə “düstur” sözü hansı mənada işlənmişdir?

Cavab: 2. Qanun, qayda, əsas, üsul.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 23**

**c.** Kvadratın perimetrini tapmaq üçün istifadə olunan düstura diqqət yetirin.

Şagirdlər riyaziyyat fənnindən kvadratın perimetrini tapmaq üçün düsturla tanış olmuşlar. Tapşırıqda kvadratın perimetrini ölçmək üçün istifadə edilən düstur təqdim edilmişdir. Bu düstura əsasən kvadratın tərəfinin ölçüsü dördə vurulur. Çünki kvadratın 4 tərəfi var. “Uğur düsturu” mətnində qeyd olunur ki, uğur qazanmaq üçün insanın motivasiyası, uğur qazanacağına inamı və bütün işlərində kreativliyi olmalıdır.

**Dərslik, səh. 23**

**ç.** “Uğur düsturu” mətninin mühakimə xarakterli mətn olduğunu əsaslandırın.

Tapşırığı yerinə yetirməzdən əvvəl şagirdlərin diqqəti “Yadda saxla” rubrikasına yönəldilir. “Mühakimə” sözünün mənası izah edilir. Bu rubrikada verilən məlumatlar şərh edilir.

**Müəllimin nəzərinə!** Qeyri-bədii mətnlər müxtəlif məqsədlərlə yazılır. Bəzi qeyri-bədii mətnlərdə müəllifin məqsədi, sadəcə, mövzu haqqında məlumat vermək deyil, problemlə bağlı öz mövqeyini, baxışını ifadə etməkdir, yəni mühakimələr yürütməkdir. Müəllif mövqeyini, fikrini mətnin giriş hissəsində söyləyir. Mətnin əsas hissəsində isə öz fikrini, mövqeyini əsaslandırır. Məsələn, bu dərsdə təqdim edilmiş oxu mətni – “Uğur düsturu” mühakimə xarakterli mətndir.

Müəllim şagirdlərin diqqətini mətnin giriş hissəsinə yönəldir. Şagirdlər bu hissədən müəllifin mövzu ilə bağlı fikrini tapıb oxuyurlar.

Hədəfə aparan yol isə motivasiya, inam və kreativlikdən – yaradıcı yanaşmadan keçir.

Mətnin əsas hissəsində müəllifin əsaslandırması və nümunələri verilib.

Mətnin nəticə hissəsində müəllif öz fikrini ümumiləşdirib.

**Dərslik, səh. 23**

**d.** “Hərənin öz imzası” mətnindəki hadisələri “Uğur düsturu” mətnində öz əksini tapmış mühakimələrlə şərh edin.

Şagirdlərin cavabı təxminən belə ola bilər:

• Yaxınlıqda iri supermarketin açılması ilə güclü rəqabət yaranmışdı. Həsən müəllim bu rəqabətdə qalib olmaq niyyətində idi. Motivasiya – qoyulan hədəfə çatmaq ehtiyacı və ya arzusudur.

• Həsən müəllim işçiləri yığıb onlarda marketin bağlanmayacağına, əksinə, daha da inkişaf edəcəyinə inam yaratdı. Əlbəttə, hədəfə gedən yolda çoxlu çətinliklər, hətta müvəqqəti uğursuzluqlar da ola bilər. Amma bütün bunlar səni ruhdan salmamalıdır. Böyük şəxsiyyətlərin həyat tarixçələrinə nəzər sal. Onlardan heç biri hədəfə asanlıqla çatmayıb, lakin hər zaman məqsədə doğru inamla irəliləyib. Unutma ki, “hər bir uğursuzluq yeni bir motivasiya yaradır”. (C.Ferrari)

Müdirin tövsiyəsi ilə əməkdaşlar öz işlərinə daha məsuliyyətli və yaradıcı yanaşmağa başladılar. Gördüyün işdə uğur qazanmaq üçün həmin işə yaradıcı yanaşmalısan. Kreativlik – problemi daha səmərəli və özünəməxsus üsulla həll etmək deməkdir.

Layihə

Məhəllədə daha böyük supermarket olmasına baxmayaraq, alıcılar Həsən müəllimgilin marketindən alış-veriş edirdilər. Motivasiya, inam və kreativlik uğur düsturunun ayrılmaz tərkib hissələridir. Bu düstura əməl etsəniz, gec-tez uğur əldə edəcəksiniz.

**Dərslik, səh. 23**

**e.** "Uğur düsturu" mətninin əsas hissəsinə aid olan abzasları məzmuna uyğun yarımbaşlıqlarla adlandırın.
• Aşağıdakı aforizmləri hansı yarımbaşlıqlara aid etmək olar?

Cavab:

• **Motivasiya** – Hətta bütün imkanların tükəndiyi bir zamanda belə, motivasiya insana güc verir. *(D.Karnegi)*

• **İnam** – İnsan öz qüvvəsinə inandığı vaxt istəyinə nail olur. *(L.Feyerbax)*

• **Kreativlik** – Yaradıcı adamlar hamıya tanış olan elementləri unikal şəkildə birləşdirib fərqli bir varlıq yarada bilirlər. *(Jak Fresko)*

**İş dəftəri, səh. 12**

**a.** Fikirlərin hansı mətnə aid olduğunu müəyyən et.

Cavab: 1 – A, 2 – A, 3 – C, 4 – B, 5 – C.

**İş dəftəri, səh. 12**

**b.** Aşağıdakı fikirləri "Hərənin öz imzası" mətninin əsas ideyası ilə əlaqələndir və bu mövzuda esse yaz.

Bu dərsdə şagirdlər mühakimə xarakterli mətnin strukturu ilə tanış olublar. Mühakimə xarakterli mətni oxuyub müzakirə ediblər. İş dəftərindəki bu tapşırıq şagirdlərin esse yazı bacarığının inkişafına yönəldilib.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Çoxmənalı sözün və ya omonimin mətndəki mənasını digər mənalarından fərqləndirir. | Tapşırıq b (dərslik) |
| Əlavə biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələri izah edir. | Tapşırıq c (dərslik) |
| Mühakimə xarakterli mətnə xas xüsusiyyətləri müəyyənləşdirir. | Tapşırıq ç, d (dərslik); a (iş dəftəri) |
| Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir. | Tapşırıq b (iş dəftəri) |

# 4-cü DƏRS

# Sözdə b, m samitlərindən əvvəl gələn n samitinin tələffüzü.
# Qoşa yy ilə yazılan sözlərin tələffüzü

**Təlim nəticələri:**
- Sözlərin yazılışında orfoqrafik normalara riayət edir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 24**

**a.** Lüğətdən istifadə etməklə hansı sözün səhv yazıldığını müəyyənləşdirin.

Cavab: b. anbar

Tapşırıq şagirdlərin diqqətini sözdə b, m samitlərindən əvvəl gələn n samitinin tələffüzünə və yazılışına yönəldir. Müəllim şagirdlərin diqqətini "Bunları bilməliyik" rubrikasına cəlb edir və orada verilmiş məlumatları nümunələrlə şərh edir.

**Dərslik, səh. 24**

**b.** Tələffüz formasında verilmiş sözləri orfoqrafik normalara uyğun yazın.

Cavab: tənbəl, zanbaq, pambıq, çərşənbə, sünbül, dönməz.

**İş dəftəri, səh. 13**

**a.** Səhv yazılmış sözləri seç, düzgün yazmaqla cümlədə işlət.

Cavab: mənbə, lampa, zənbil, kombayn.

Şagirdlər bu sözlərin iştirakı ilə müxtəlif cümlələr qura bilərlər.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları izah edir. Qoşa yy ilə yazılan sözlərin yazılışı və tələffüzü ilə bağlı məlumatları izah edir.

**Dərslik, səh. 24**

**c.** Fərqləndirilmiş sözləri kök və şəkilçiyə ayırın. Hansı sözlərdə qoşa "yy" şəkilçinin, hansılarda kökün tərkibindədir? Səhv yazılmış sözləri orfoqrafik normalara uyğun yazın. Qaydalara istinad edərək səhv yazıldığını əsaslandırın.

Cavab:

Şəkilçinin tərkibində: fəaliyyət, xeyriyyə, cəmiyyət, şirniyyat, davamiyyət.

Kökün tərkibində: təyyarə, hədiyyə.

**Dərslik, səh. 24**

**ç.** Uyğun nöqtələrin yerinə "y" və yaxud "yy" yazaraq sözləri tamamlayın. Bu sözləri qaydaya əsasən qruplaşdırın.

Cavab:

Şəkilçinin tərkibində qoşa "yy" ilə yazılıb tək" y" ilə tələffüz edilənlər: ədəbiyyat, dövriyyə, qətiyyət, ziddiyyət

Sözlərin kökündə qoşa "yy" ilə yazılıb qoşa "yy" ilə tələffüz edilənlər: niyyət

Sözlərin kökündə tək "y" ilə yazılıb eyni cür tələffüz edilənlər: ehtiyat, tövsiyə, haşiyə, saniyə

**Dərslik, səh. 24**

**d.** Hər sırada səhv yazılmış sözü seçib düzgün yazın.

Cavab:

I sırada "məmbə" deyil, "mənbə" kimi yazılmalıdır.

II sırada "hanbal" deyil, "hambal" kimi yazılmalıdır.

Layihə

III sırada “hissiyat” deyil, “hissiyyat” kimi yazılmalıdır.

**İş dəftəri, səh. 13**

**b.** Sözləri izahlarla uyğunlaşdır və krosvordu tamamla.

Cavab:

| Soldan-sağa: | Yuxarıdan aşağı: |
|---|---|
| 4. hədiyyə | 1. niyyət |
| 5. təyyarə | 2. səyyah |
| 6. ünsiyyət | 3. təxəyyül |

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

# 4-cü fəsil
# ƏZMKARLIQ

## 1-ci DƏRS
## İndi üstünüzə Topal Teymur gəlir

**Təlim nəticələri:**
• Mətndə rast gəldiyi yeni sözlərin mənasını müəyyən edir (st. 3.1.2).
• Açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir (st. 3.1.3).
• Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3.1.4).
• Mətni məzmun-struktur və dil-üslub baxımından təhlil edir (st. 3.1.5).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərin diqqətini fəslin adına yönəldir, "əzmkarlıq" sözünün mənası izah edilir.

**Dərslik, səh. 25**

**a.** Sizcə, məqsədə çatmaq üçün hansı xüsusiyyətlərə malik olmaq daha vacibdir?

Şagirdlərin cavabları müxtəlif ola bilər.

**Oxu. Söz ehtiyatı**

**Mətnlə iş.** Əvvəlcə şagirdlər onlara verilmiş vaxt ərzində "İndi üstünüzə Topal Teymur gəlir" mətnini səssiz oxuyurlar. Şagirdlər onlara tanış olmayan söz və ifadələri dəftərlərində qeyd edirlər.

"Söz mücrüsü" rubrikasında verilmiş sözlərin mənaları araşdırılır.

**Söz ehtiyatı**

**Dərslik, səh. 26**

**b.** Kontekstə əsasən "alaçıq" və "təbib" sözlərinin mənasını təxmin edin. Lüğət vasitəsilə bu sözlərin mənasını və sinonimini müəyyənləşdirin.

Cavab: Alaçıq – çubuqdan qurulub üstü keçə ilə örtülən köçəri mənzili; çadır
Təbib – həkim

**Dərslik, səh. 26**

**c.** Əmir Teymur "Teymurləng" (Avropa dillərində "Tamerlan") ləqəbi ilə məşhurlaşmışdı. "Ləng" sözünün mənasını araşdırın və bu ləqəbin səbəbini izah edin.

Cavab: Lüğətlərdə "ləng" sözü ağır, asta, yavaş, ağırtərpənişli kimi izah olunmuşdur. *Çox ləng adamdır! Ləng işləmək.*

Ayağı axsadığı və yeriyəndə sanki ləngər vurduğu üçün bəzi mənbələrdə Əmir Teymuru "Teymurləng" adlandırıblar.

**Dərslik, səh. 26**

**ç.** "Həlak olmaq" sözünün mənasını izah edin. Kontekstdən çıxış edərək "özünü həlak etmək" ifadəsinin mənasını təxmin edin.

Cavab: çox çalışmaq, özünü üzüb əldən salmaq, həddən artıq yormaq.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 26**

**d.** Mətndə hansı suallara cavab yoxdur?

Cavab: Mətndə 3, 4-cü suallara cavab yoxdur.

Layihə

**Dərslik, səh. 27**

**e.** Mətnin məzmununa əsasən cümlələri tamamlayıb şərh edin.

Cavab:

1. ..., çünki həkimdən şikəst qalacağını öyrəndi. Bundan sonra döyüşlərdə iştirak edə bilməyəcəyini, xəyallarının puç olduğunu düşünürdü.
2. ..., çünki kiçik bir həşəratın, qarışqanın inadkarlığı onu motivasiya etdi.

**Dərslik, səh. 27**

**ə.** Mətnə əsasən sübut edin ki, Teymur döyüşdə qolundan və ayağından ox yarası almışdı.

Şagirdlər mətndən uyğun cümlələri oxumaqla tapşırıqdakı fikri təsdiq edirlər.

Cavab:

Mətndə Əmir Teymurun dilindən belə deyilir: “İndi sən gəl bir qol, bir ayaqla hakimiyyət uğrunda mübarizə apar, ölkələr fəth elə!”

**Müəllimin nəzərinə!** İş dəftərində “İndi üstünüzə Topal Teymur gəlir” dərsi üçün 2 səhifə ayrılmışdır. Bu dərsdə tapşırıqların sayı çoxdur. Şagirdlər iş dəftərində verilmiş tapşırıqlar arasından seçim edərək arzu etdikləri tapşırığı işləyə bilərlər.

**İş dəftəri, səh. 14**

**a.** Doğru, yoxsa yanlış?

Cavab: 1 – D, 2 – D, 3 – Y, 4 – D, 5 – D, 6 – Y.

**İş dəftəri, səh. 14**

**b.** Mətnə istinad etməklə cədvəli tamamla.

Cavab:

Teymur bir neçə gün əvvəl ağır döyüşdə iştirak etmişdi. ***Nəticədə ayağından və qolundan ağır yaralanmışdı.***

Teymurun xəyalları puç olmuşdu, çünki ***şikəst bir insanın hökmdar, sərkərdə olacağına şübhə edirdi.***

Təbib Teymura həqiqəti söyləyə bilmirdi, ***çünki bu xəbərin Teymura pis təsir edəcəyini bilirdi və ondan çəkinirdi.***

Teymur Sistan valisini nifrətlə xatırlayırdı, ***çünki o, Teymurun köməyindən sui-istifadə etmişdi, ona xəyanət etmişdi.***

Teymur qarışqanın hərəkətlərini izləyir. ***Nəticədə ruhdan düşməməyə, mübarizə aparmağa qərar verir.***

**İş dəftəri, səh. 15**

**c.** “İndi üstünüzə Topal Teymur gəlir” mətni ilə bağlı rəy yaz.

Şagirdlər “İndi üstünüzə Topal Teymur gəlir” mətninə münasibət bildirmək üçün rəy yazırlar.

**Dərslik, səh. 27**

**f.** Əmir Teymurun xarakterindəki xüsusiyyətlər haqqında danışın.

Cavab:

Əmir Teymur ***döyüşkən*** idi. Uşaq yaşlarından at çapmaqda, ox atmaqda mahir olan Teymur çox gənc yaşlarından döyüşlərdə iştirak etməyə başlamışdı.

Əmir Teymur ***iddialı*** idi. 25 yaşında ikən Keş vilayətinə hakim təyin edilmişdi. O bununla kifayətlənməyib bütün ölkədə hakimiyyəti ələ keçirmək istəyirdi.

Əmir Teymur ***qətiyyətli*** idi. Bütün qərarlarını qətiyyətlə, inamla verirdi.

Əmir Teymur ***mübariz*** idi. Daim düşmənləri ilə mübarizə aparırdı.

Layihə

**Dərslik, səh. 27**

**g.** Teymurun düşüncələrini "Uğur düsturu" mətnində verilmiş motivasiya və inam haqqında mühakimələrlə əlaqələndirərək şərh edin.

Müəllim şagirdlərin diqqətini ötən dərslərdə oxuduqları (səh. 22) "Uğur düsturu" mətninə yönəldir. Şagirdlər "uğur düsturunu" xatırlayırlar: U=M+İ+K.

Şagirdlərin cavabı təxminən belə ola bilər:

Motivasiya – qoyulan hədəfə çatmaq ehtiyacı və ya arzusudur. Əmir Teymur da düşünürdü ki, əslində, xoşbəxtlik arzulamaqdır, bir işi görmək istəyidir, arzuya çatmağa can atmaqdır.

Əlbəttə, hədəfə gedən yolda çoxlu çətinliklər, hətta müvəqqəti uğursuzluqlar da ola bilər. Amma bütün bunlar səni ruhdan salmamalıdır. Böyük şəxsiyyətlərin həyat tarixçələrinə nəzər sal. Onlardan heç biri hədəfə asanlıqla çatmayıb, lakin hər zaman məqsədə doğru inamla irəliləyib. Mətnin məzmunundan aydın olur ki, tarixin səhifələrinə adını yazdırmış Əmir Teymur bu şöhrəti asanlıqla qazanmayıb. Rastlaşdığı çətinliklər onu ruhdan salmayıb, daim mübarizə aparıb.

**Dərslik, səh. 27**

**ğ.** Sizcə, müəllif mətn boyu nə üçün oxucunun diqqətini qarışqaya yönəldir?

Cavab: Müəllif qarışqanın necə mübarizə aparmasını və Teymurun bunu müşahidə edərək hansı hissləri keçirməsini oxucunun diqqətinə çatdırmaq istəyir.

**Dərslik, səh. 27**

**h.** Qarışqanın hərəkətləri sərkərdəyə hansı ibrət dərsini verdi? Oxucu bu haqda mətnin hansı hissəsində məlumat alır?

Cavab: Qarışqanın hərəkətləri sərkərdəyə ruhdan düşməməyi öyrətdi. Müəllif bu haqda mətnin nəticə hissəsində danışıb.

**Dərslik, səh. 27**

**x.** Mətnin sonluğunda fərqləndirilmiş cümləni mətnin ideyası ilə əlaqələndirib şərh edin.

Şagirdlərin cavabı təxminən belə ola bilər: Şagirdlər yenidən uğur düsturunu xatırlaya bilərlər. Xoşbəxtlik daim arzulamaqdır, gələcəyə inanmaqdır, mübarizə aparmaqdır. Zirvəyə çatmaq üçün əvvəlcə arzulamaq lazımdır. Bu yolda çətinliklərə qalib gələcəyinə inanmaq mütləqdir. Bu zaman insan, həqiqətən də, xoşbəxt olur.

**Dərslik, səh. 27**

**ı.** Aşağıdakı fikirlərdən uyğun olanları seçərək "İndi üstünüzə Topal Teymur gəlir" mətninin bədii mətn olduğunu əsaslandırın.

Cavab:

1. Müəllifin əsas məqsədi obrazın daxili aləmini açmaq, oxucunu müəyyən mənəvi dəyərlər haqqında düşündürməkdir. Teymur mübariz, inadkar, qətiyyətlidir.

4. Hadisələrin və obrazların təsvirində müəllif, adətən, öz təxəyyülünə əsaslanır. Teymurun divara dırmaşmağa çalışan qarışqanı izlədiyini hansısa mənbələrə əsasən izah etmək mümkün deyil. Bu, müəllifin təxəyyülünün məhsuludur.

**"Yadda saxla" rubrikası.** Müəllim "İndi üstünüzə Topal Teymur gəlir" mətninə istinad edərək bu rubrikadakı məlumatları şərh edir. Bu mətnin baş qəhrəmanı Teymurdur. Həqiqətən də, Teymur tarixi şəxsiyyətdir, ən məşhur sərkərdələrdən, dövlət xadimlərindən biridir. Lakin müəllif bu mətni tarixi həqiqəti göstərmək məqsədilə yazmayıb. Müəllif, sadəcə, oxucunun diqqətini böyük tarixi şəxsiyyətin həyat tarixçəsinə yönəldərək əsas fikrini çatdırmaq istəyib.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

Layihə

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq b, c, ç (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq d, e, ə (dərslik); a, b (iş dəftəri) |
| Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir. | Tapşırıq f, g, ğ, h (dərslik) |
| Mətni dil-üslub xüsusiyyətlərinə görə təhlil edir. | Tapşırıq ı (dərslik) |

# 2-ci DƏRS
# Təqdimat

**Təlim nəticələri:**

• Hər hansı hadisə, varlıq haqqında fikir və təəssüratlarını, apardığı araşdırmaların nəticələrini rabitəli mətn şəklində təqdim edir (st. 2.1.3).

**Mövzuya yönəltmə**

Müəllim şagirdlərin diqqətini keçən dərsdə tanış olduqları "Yadda saxla" rubrikasına yönəldir. Bu rubrikada verilmiş məlumatlar xatırlanır. Bəzi bədii mətnlərin mövzusu real tarixi hadisələr, həyatda yaşamış şəxslərin taleyi üzərində qurulur. Məsələn, "İndi üstünüzə Topal Teymur gəlir" mətnində baş qəhrəman tarixi şəxsiyyət olsa da, onun haqqında faktlar verilməyib.

**Dərslik, səh. 27**

**a.** Əmir Teymur haqqında araşdırma aparın. Aşağıdakı plana uyğun təqdimat hazırlayın.

**Müəllimin nəzərinə!** Sinfin texniki təchizatını nəzərə alaraq müəllim araşdırma tapşırığını şagirdlərə bir gün öncədən tapşıra bilər. Tapşırığın qruplarla iş formasında yerinə yetirilməsi tövsiyə olunur. Bu zaman qrupların da bir gün öncə müəyyən edilməsi arzuolunandır. Bu, qrup üzvləri arasında əvvəlcədən iş bölgüsünün aparılmasına (yarımbaşlıqların paylanmasına) kömək edə bilər.

Tapşırıqda verilmiş yarımbaşlıqlar əsasında müvafiq araşdırmalar aparan şagirdlər mövzu üzrə müzakirə edib təqdimata hazırlaşırlar. Təqdimat materialının dizaynına xüsusi diqqət yetirirlər. Sinfin kompüter təchizatı imkan verərsə, təqdimatın slaydlar şəklində hazırlanması arzuolunandır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Təqdimat zamanı fikirlərin məntiqi ardıcıllığına riayət edir. | Tapşırıq a (dərslik) |

Layihə

# 3-cü DƏRS
# Hədəfə doğru

**Təlim nəticələri:**

• Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.1).
• Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir (st. 1.1.2).
• Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1).
• Özünün və başqasının yazısında ədəbi dilin normalarına uyğun düzəlişlər edir (st. 4.1.3).

**Mövzuya yönəltmə.** Müəllim dinləmə mətninin adını ("Hədəfə doğru") lövhəyə yazır. Şagirdlər mətnin mövzusunu təxmin edirlər.

**Dinləmə**

**Dərslik, səh. 28**

**a.** "Hədəfə doğru" mətnini dinləyin və suallara cavab verin.

***Hədəfə doğru***

*Yeni Zelandiyada doğulmuş Edmund Hillari uşaq vaxtlarından alpinizmə həvəs göstərirdi. Onun ən böyük arzusu dünyanın ən uca zirvəsi olan Everesti fəth etmək idi. Nəhayət, 1952-ci ildə o buna cəhd etdi, lakin cəhdi uğursuzluqla nəticələndi. Bu hadisədən bir neçə həftə sonra Hillari İngiltərə məktəblərindən birinə, şagirdlərlə görüşə dəvət olunmuşdu.*

*Bu görüş zamanı Hillari şagirdlərə demişdi:*

*– Mənə qalib gəldiyi üçün Everest gözümdə böyüdü. Amma o da bir şeyi yaxşı yadında saxlamalıdır: indi içimdəki əzm daha da artıb. Heç bir məğlubiyyət məni hədəfimdən yayındıra bilməz.*

*Sonra əzmkar alpinist Everest dağının məktəb divarından asılmış şəklinə baxaraq ona meydan oxumuşdu:*

*– Ey Everest! Mənə ilk cəhdimdə qalib gəldin, amma səninlə mübarizəm bitməyib. Gözlə məni, yenə gələcəyəm və bu dəfə sən ayaqlarım altında olacaqsan.*

*Bu çıxışından bir il sonra – 1953-cü il mayın 29-u saat 11:15-də Edmund Hillari indiyə kimi zirvəsini heç kimin görmədiyi Everestin ən uca nöqtəsində dayanmışdı.*

Şagirdlər mətni dinləyir və suallara cavab verməklə anladıqlarını nümayiş etdirirlər.

**Söz ehtiyatı**

**Dərslik, səh. 28**

**b.** "Fəth etmək" sözü hansı cümlədə məcazi mənada işlənmişdir?

Cavab: "Fəth etmək" ifadəsi 2-ci cümlədə məcazi mənada işlənmişdir.
1 – b, 2 – a

**Dinləyib-anlama**

**Dərslik, səh. 28**

**c.** Mətnə əsasən aşağıdakı xüsusiyyətlərin Edmund Hillariyə aid olduğunu əsaslandırın.

Cavab:
Əzmkar və mübarizdir. Hədəfinə çatmaq üçün əzm nümayiş etdirir və sona qədər mübarizə aparır.
Qətiyyətlidir. Hədəfə gedən yolda uğuruna şübhə etmir, yolundan dönmür.
Nikbindir. İlk uğursuzluğu onu ruhdan salmır.

**Dərslik, səh. 28**

**ç.** "İndi üstünüzə Topal Teymur gəlir" və "Hədəfə doğru" mətnlərini mövzu, məzmun və ideya baxımından müqayisə edin.

Şagirdlərin cavabı təxminən belə ola bilər: Hər iki mətn əzmkarlıq, hədəfə çatmaq yolunda müba-

Layihə

rizə aparmaq haqqındadır. Oxu mətnində dövlət xadimi, sərkərdə Əmir Teymurdan, dinləmə mətnində isə alpinist Edmund Hillaridən danışılır. Hədəf qoymaq, sonuna qədər mübarizə aparmaq, ruhdan düşməmək, gələcəyə inam uğurun açarıdır.

**Yazı**

**Dərslik, səh. 28**

**d.** Aşağıdakı struktura əsasən "İnam uğurun açarıdır" mövzusunda esse yazın.

Tapşırıq şagirdlərin esse yazmaq bacarığını inkişaf etdirir.

Şagirdlər tapşırıqda verilmiş struktura uyğun esse yazırlar. Əsas hissədə müvafiq arqumentlərlə həmin fikri əsaslandırırlar. Həyatdan və yaxud oxuduqları, dinlədikləri mətnlərdən nümunələr gətirə bilərlər. Bu bölmədə oxuduqları "Xəyalların izi ilə", "Elektron ünvanım olsaydı...", "Uğur düsturu", "İndi üstünüzə Topal Teymur gəlir" mətnləri, dinlədikləri "Hədəfə doğru" mətnindən nümunələr göstərə bilərlər.

**Dərslik, səh. 28**

**e.** Aşağıdakı meyarları nəzərə alaraq bir-birinizin essesini yoxlayın.

Şagirdlər cütlərə ayrılır və tapşırıqda verilmiş meyarlar əsasında bir-birinin yazısını yoxlayırlar. Bu, şagirdlərdə dəyərləndirmə, münasibət bildirmə kimi bacarıqların inkişafına kömək edir. Çox zaman şagirdlər başqasının yazısını yoxlayarkən hər hansı bir meyar haqqında dərindən düşünür və öz yazısındakı səhvi də müəyyənləşdirir və yenidən təkmilləşdirir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətn haqqında faktoloji suallara cavab verir. | Tapşırıq a (dərslik) |
| Oxuduğu və dinlədiyi mətnləri mövzu, məzmun və ideya baxımından müqayisə edir. | Tapşırıq ç (dərslik) |
| Mühakimə və arqumentlərini əks etdirməklə kiçikhəcmli esse yazır. | Tapşırıq d (dərslik) |
| Özünün və başqasının yazısında ədəbi dilin normalarına uyğun düzəlişlər edir. | Tapşırıq e (dərslik) |

Layihə

# Ümumiləşdirici təkrar

**<u>Təlim nəticələri</u>:**

• Sözlərin yazılışında orfoqrafik normalara əməl edir (st. 4.1.2).

Dərslikdə və iş dəftərində verilmiş ümumiləşdirici təkrar müəllimə şagirdlərin bölmə üzrə keçilmiş mövzular haqqında aldıqları bilikləri möhkəmləndirməyə imkan yaradır.

**Dərslik, səh. 29**

**1.** Aşağıdakı sözlərə saitlə başlayan hal və mənsubiyyət şəkilçiləri artırın. Sözləri cədvəl üzrə qruplaşdırın.

<u>Cavab</u>:
II hecasındakı saiti saitlə başlanan şəkilçi qəbul edəndə düşən sözlər: sinif, ömür, fikir, sətir
II hecasındakı saiti yalnız mənsubiyyət şəkilçisi qəbul edəndə düşən sözlər: ağız, burun, oğul, beyin

**Dərslik, səh. 29**

**2.** İkinci hecasında saiti düşən sözləri müəyyən edin. Həmin sözü cümlədə elə işlədin ki, saiti düşməsin.

<u>Cavab</u>: Mən bu yerlərə könüldən bağlıyam. "Qoyun" sözünün bir izahı da ağuş, qucaq mənası verir.

**Dərslik, səh. 29**

**3.** Verilmiş nümunələrin son samiti ilə başlayan sözlər söyləyin.

<u>Cavab</u>: cədvəl, buğda, gözəl, dağ, cəsur, badam, geniş, cəld, dost, gənc, burun.

**Dərslik, səh. 29**

**4.** Fərqləndirilmiş sözlərə diqqət edin. Hansı sözün son samiti fərqli tələffüz olunur?

<u>Cavab</u>:

| | |
|---|---|
| I sırada: a | III sırada: d |
| II sırada: a | IV sırada: b |

**Dərslik, səh. 29**

**5.** Hansı sözün yazılışı ilə tələffüzü fərqlənmir?

<u>Cavab</u>: d. sənətkar

**Dərslik, səh. 29**

**6.** Sözləri cədvəl üzrə qruplaşdırın.

<u>Cavab</u>:
Qoşa "yy" ilə yazılır, bir [y] ilə tələffüz edilir: qalibiyyət, kəşfiyyat
Qoşa "yy" ilə yazılır, qoşa [yy] ilə tələffüz edilir: təxəyyül, niyyət
Bir "y" ilə yazılır, bir [y] ilə tələffüz edilir: tərbiyə, tövsiyə

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sözlərin yazılışında orfoqrafik normalara riayət edir. | Dərslikdə təqdim edilmiş tapşırıqlar |

Layihə

Bölmə **2**

# HEYVANLARIN GÖZÜ İLƏ

| Dərs | Mövzu | Məzmun xətti | Dərslik səh. | İş dəftəri səh. | Metodik vəsait səh. |
|---|---|---|---|---|---|
| 1-ci fəsil. **Vəfalı dostlarımız** | | | | | |
| 1 | Sadiq dostlar | Oxu | 32-33 | 17 | 45-47 |
| 2 | İşıq (I hissə) | Oxu. Dinləmə | 34-35 | 18 | 47-49 |
| 3 | İşıq (II hissə) | Oxu. Danışma | 35-38 | 19 | 49-51 |
| 4 | İşıq | Yazı | 39 | 20 | 51-52 |
| 5 | Sifətin müqayisə dərəcələri və yazılışı | Yazı | 40 | 21 | 53-54 |
| 2-ci fəsil. **At igidin yaraşığıdır** | | | | | |
| 6 | Qara İnci | Oxu | 41-44 | 22 | 55-56 |
| 7 | Qara İnci | Oxu | 45 | 23 | 56-58 |
| 8 | Qara İncinin taleyi | Danışma. Dinləmə | 46-47 | 24 | 59-61 |
| 9 | Təqdimat | Yazı | 47 | | 61-63 |
| 10 | Say və onun məna növləri | Yazı | 48 | 25 | 63-65 |
| 3-cü fəsil. **Heyvanlarda doğmalıq hissi** | | | | | |
| 11 | Həsrət | Oxu | 49-51 | 26 | 66-68 |
| 12 | Qarabağ atları | Oxu. Yazı | 52 | 27 | 69-70 |
| 13 | Miqdar saylarının yazılışı | Yazı | 53 | 28 | 70-71 |
| 14 | Sıra saylarının yazılışı | Yazı | 54 | 28 | 72-73 |
| 15 | Ümumiləşdirici təkrar | Yazı | 55 | 29 | 74-75 |

Layihə

# GİRİŞ DƏRSİ

## Heyvanlar haqqında əsərlər

**Təlim nəticələri:**
- Verbal və qrafik materialları şərh etməklə mövzu üzrə danışır (st. 2.1.3).
- Eyni mövzuda olan mətnləri məzmun və ideya baxımından müqayisə edir (st. 3.1.5).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərin diqqətini bölmənin adına yönəldir və soruşur:

– Sizcə, bu bölmədə nədən danışılır?

Şagirdlər suala cavab verməklə bölmənin mövzusu haqqında fikirlərini bildirirlər. Bu mövzuda ilkin biliklərini nümayiş etdirirlər.

**Oxu. Danışma**

**Dərslik, səh. 30**

**a.** Qruplara ayrılın. Kitabların üz qabığına baxın, annotasiyalarını oxuyun. Məlumatları təqdim edin. Bir-birinizin təqdimatına münasibət bildirin.

Tapşırığı yerinə yetirməzdən əvvəl şagirdlər qruplara ayrılır.

Şagirdlər təqdim etmək istədikləri kitabı seçirlər. Əgər şagirdlərin çoxu eyni kitabı seçərlərsə, o zaman püşkatma yolundan istifadə edilməsi məsləhətdir.

Qrup üzvləri tapşırığın əvvəlində verilmiş meyarlarla tanış olurlar. Hər bir qrup dinlədikləri təqdimata bu meyarlara əsasən münasibət bildirəcəklər.

**Diferensial təlim.** Şifahi nitq bacarığı müxtəlif səviyyədə olan şagirdlərin eyni qrupda fəaliyyəti tövsiyə edilir. Hər bir qrup üzvü təqdimatda fəal iştirak etməlidir. Azərbaycan dilində daha zəif danışan şagirdlər əmin şəkildə çıxış etmək üçün qrup yoldaşlarının dəstəyindən istifadə edirlər. Onlar daha əmin şəkildə çıxış etmək üçün söyləyəcəkləri cümlələri əvvəlcədən qrup yoldaşları ilə müzakirə edirlər.

**Söz ehtiyatı**

**"Sözlərin izahı" rubrikası.** Müəllim bu rubrikada verilmiş "neyrobioloq" və "tomoqrafiya" sözlərinin mənasını izah edir. Şagirdlər kitablara yazılmış annotasiyaları oxuyur, tanış olmayan və yaxud təqdimat zamanı istifadə ediləcək açar sözlərin mənasını araşdırırlar.

Təqdimat üçün hər bir qrupa müəyyən vaxt (məsələn 5 dəqiqə) verilməlidir. Təqdimat zamanı hər bir qrup üzvü çıxış etməlidir.

Hər bir qrup növbə ilə seçdiyi kitabı təqdim edir. Bu təqdimatdan sonra digər qruplar münasibət bildirirlər:
- Məlumatlar ardıcıl, anlaşıqlı şəkildə çatdırıldı/çatdırılmadı.
- Təqdimatçının nitqi aydın, rəvan idi/deyildi.
- Təqdimat kitab haqqında təsəvvür yaratdı/yaratmadı.

**Dərslik, səh. 31**

**b.** Aşağıdakı suallar ətrafında müzakirə aparın.

<u>Cavab</u>:

Təqdim olunan kitabların mövzusu eynidir, hamısı heyvanlar haqqındadır. Cek Londonun "Bəyaz Diş", Aysel Şıxlının "İşıq" və Anna Syuelin "Qara İnci" əsərləri bədii üslubda yazılmışdır. Bu əsərlər oxucunu müəyyən mənəvi dəyərlər haqqında düşündürür. Hər üç əsərin baş obrazı heyvandır. Yazıçılar bu heyvanların daxili dünyasını işıqlandırmağa çalışıblar. Amerikalı neyrobioloq Qreqori Börnsün "İt olmaq nə deməkdir?" kitabı isə qeyri-bədii üslubdadır. Bu kitabda alim elmi eksperimentlərinin nəticələrini oxucuları ilə bölüşür. Oxucular heyvanların beynində baş verən proseslərlə tanış olurlar.
- Digər üç suala cavab verərkən şagirdlər şəxsi fikirlərini bildirirlər.

Layihə

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və qrafik materialları şərh etməklə mövzu üzrə danışır. | Tapşırıq a (dərslik) |
| Eyni mövzuda olan mətnləri məzmun və ideya baxımından müqayisə edir. | Tapşırıq b (dərslik) |

Layihə

# 1-ci fəsil
# VƏFALI DOSTLARIMIZ

## 1-ci DƏRS
## Sadiq dostlar

**<u>Təlim nəticələri</u>:**
- Mətndə açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir (st. 3.1.3).
- Bədii mətndəki obrazlara, onların davranışına münasibət bildirir (st. 3.1.4).
- Mətnin tərkib hissələrini müəyyən edir (st. 3.1.5).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərin diqqətini fəslin adına yönəldir. Şagirdlər ifadənin mənası və bu ifadənin onlarda yaratdığı assosiasiya haqqında danışırlar.

**Dərslik, səh. 32**

**a.** Hansı ev heyvanları öz sahibinə sədaqəti ilə seçilir? Həyatda gördüklərinizdən və ya oxuduğunuz əsərlərdən nümunələr gətirməklə fikrinizi əsaslandırın.

Şagirdlər oxuduqları kitablardan və yaxud baxdıqları filmlərdən nümunələr gətirməklə bu haqda danışırlar.

**Oxu**

**Mətnlə iş.** "Sadiq dostlar" müxtəlif şagirdlər tərəfindən oxunur. Mənası aydın olmayan sözlər izah edilir.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 33**

**b.** Uyğunluğu müəyyən edin.

<u>Cavab</u>: 1 – b, 2 – c, 3 – ç, 4 – a.

**İş dəftəri, səh. 17**

**a.** "Sadiq dostlar" mətninə əsasən fikirlərin doğru, yoxsa yanlış olduğunu müəyyən et.

<u>Cavab</u>: 1 – D, 2 – D, 3 – Y, 4 – D, 5 – D, 6 – Y.

**İş dəftəri, səh. 17**

**b.** "Sadiq dostlar" mətnində hansı suala cavab yoxdur?

<u>Cavab</u>: c. Don Kixotun "Rosinant" adlı atının heykəli hansı şəhərdədir?

**Dərslik, səh. 33**

**c.** Koroğlunun Həmzəyə dediyi sözləri şərh edərək igidin atına olan münasibətini dəyərləndirin. Koroğlunun bu sözləri mətndəki hansı fikri təsdiqləyir?

Şagirdlər mətndən Koroğlunun Həmzəyə müraciət etdiyi hissəni bir daha oxuyurlar:

Canım Həmzə, gözüm Həmzə,
Həmzə, incitmə Qıratı.
Budu sənə sözüm, Həmzə,
Həmzə, incitmə Qıratı.

Qırat mənim iki gözüm,
Belə dərdə necə dözüm?
Həmzə, sənə budu sözüm,
Oğul, incitmə Qıratı.

<u>Şagirdlərin cavabı təxminən belə ola bilər</u>: Koroğlu Həmzəyə Qıratı incitməməyi tapşırırdı. Onun

Layihə

sözlərindən aydın olur ki, Koroğlu atını çox sevir. İnsan üçün gözləri necə qiymətlidirsə, Qırat da Koroğlu üçün elə qiymətlidir. İgid Qıratdan ayrı yaşamağı ağır dərd hesab edir.

**İş dəftəri, səh. 17**

**c.** "Qaçaq Nəbi" dastanında qəhrəmanın dilindən deyilən şeir parçasını oxu və kontekstə əsasən sözlərin mənalarını müəyyən et.

Cavab: 1 – c, 2 – d, 3 – a, 4 – b

Qaçaq Nəbi ağır döyüşə hazırlaşır. İgid vəfalı dostuna – Bozata güvənir. İnanır ki, atı ona ağır döyüşdən sağ-salamat çıxmağa kömək edəcək. Bunun əvəzində atına daha yaxşı qulluq edəcəyini vəd edir.

**Dərslik, səh. 33**

**ç.** Mətni iki bitkin hissəyə ayırın və yarımbaşlıqlarla adlandırın.

Bu tapşırıq şagirdlərdə mətni məzmun-struktur baxımından təhlil etmək bacarığını inkişaf etdirir. Mətnin ilk 4 abzasında atların sahiblərinə olan sədaqətindən danışılır. Şagirdlər mətnin bu hissəsini məzmuna uyğun müxtəlif yarımbaşlıqlarla adlandıra bilərlər. Məsələn: "İgidlərin yaxın dostu". Mətnin II hissəsində isə insanın daha bir vəfalı dostu olan itdən bəhs olunur. Bu hissəni "Sədaqət rəmzi" yarımbaşlığı ilə adlandırmaq olar.

**Dərslik, səh. 33**

**d.** Aşağıdakı parçanı hansı yarımbaşlığa əlavə etmək olar?

Cavab: Tapşırıqda verilmiş cümlədə "Kitabi-Dədə Qorqud" dastanından qəhrəmanların və onların atlarının adı çəkilib. Məsələn, Beyrəyin atının adı Boz Aygır, Qazan bəyin atının adı Qonur olub. Deməli, bu cümləni mətnin I yarımbaşlığına, atlardan bəhs edən hissəyə artırmaq lazımdır.

**Dərslik, səh. 33**

**e.** Keçən dərsdə aldığınız məlumatlardan və əlavə biliklərinizdən çıxış edərək mətnə "Ədəbiyyatda heyvan obrazları" adlı yarımbaşlıq əlavə edin və danışın.

Müəllim şagirdlərin diqqətini giriş dərsində oxuduqları annotasiyalara yönəldir. Frontal sorğu ilə annotasiyalar xatırlanır. Şagirdlər əldə etdikləri məlumatlara əsasən "Ədəbiyyatda heyvan obrazları" adlı yarımbaşlıq tərtib edirlər. Hazırladıqları abzası sinfə təqdim edirlər.

Şagirdlər təxminən bu məzmunda abzas hazırlaya bilərlər:

Məşhur dünya yazıçıları baş qəhrəmanı heyvanlar olan əsərlər yazırlar. Məsələn, Amerika yazıçısı Cek Londonun "Bəyaz Diş", azərbaycanlı gənc yazıçı Aysel Şıxlının "İşıq", Anna Syuelin "Qara İnci" əsəri buna nümunə ola bilər. Müəlliflər bu əsərlərdə cəmiyyətin heyvanlara qarşı münasibətini işıqlandırırlar. Heyvanların da insanlar kimi duyğulara sahib olduğunu, bəzən insanların daha düşüncəsiz, duyğusuz hərəkət etdiyini göstərirlər. Heyvansevər müəlliflər sübut edirlər ki, heyvanın taleyi sahiblərinin əlindədir. Belə ki, heyvanlar müxtəlifxasiyyətli insanlarla rastlaşır, ya vəfalı dost, ya da qəddar sahib qazanırlar.

**Diferensial təlim.** Bu tapşırığı cütlərlə iş formasında həyata keçirmək olar. Bununla Azərbaycan dilində nitq bacarığı zəif səviyyədə olan şagirdlərə tapşırığı yerinə yetirmək üçün imkan yaratmaq mümkündür.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndə açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir. | Tapşırıq b (dərslik); a, b (iş dəftəri) |
| Bədii mətndəki obrazlara, onların davranışına münasibət bildirir. | Tapşırıq c (dərslik); c (iş dəftəri) |



Layihə

| | |
|---|---|
| Mətnin tərkib hissələrini müəyyən edir. | Tapşırıq ç, d, e (dərslik) |

# 2-ci DƏRS
# İşıq (I hissə)

**<u>Təlim nəticələri</u>:**
- Bədii mətndəki obrazlara, onların davranışına münasibət bildirir (st. 3.1.4).
- Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir (st. 1.1.2).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 34**

**a.** Sizcə, heyvanlar haqqında əsər yazmaq üçün müəllif hansı biliklərə malik olmalıdır?

Şagirdlər tapşırıqda qoyulmuş suala cavab verərək bu mövzuda düşüncələrini bölüşürlər.

**Oxu**

**Mətnlə iş.** "İşıq" mətninin I hissəsi müxtəlif şagirdlər tərəfindən oxunur. Mənası aydın olmayan sözlər izah edilir.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 35**

**b.** Əsər kimin dilindən nəql olunur? Mətndən fikrinizi əsaslandıran üç cümlə seçin.

<u>Cavab</u>: Əsərin baş qəhrəmanı heyvandır, yəqin ki, itdir. Çünki mətndə qeyd olunub ki, *o, darvaza açılmamış sahibinin qoxusunu hiss edər, qabağına qaçardı*. Hamıya məlumdur ki, itlərin iybilmə hissiyyatları çox güclüdür. Daha sonra deyilir ki, *o, qabaq pəncələrini sahibinin dizinə söykəyib quyruğunu bulayardı, əllərinin qabarmış dərisini yalayardı.* İtlər quyruqlarını bulamaqla sevindiklərini bildirirlər.

**Dərslik, səh. 35**

**c.** Mətnə əsasən Tofiq haqqında nə demək olar? Tofiqin xeyirxah olduğunu və İşığın ona sevgisini göstərən cümlələri seçib oxuyun.

Tapşırıq şagirdlərin analizetmə bacarığını inkişaf etdirir. <u>Cavab</u>: Tofiq heyvansevər, xeyirxah, mülayim insandır. Müəllif baş qəhrəmanın, İşığın dilindən Tofiqi belə təsvir edir: "İnsan" adlanan ikiayaqlılar arasında ən çox onu sevirdim. Sinəsində daim bir parıltı var idi. Sanki günəş balacalanıb onun sinəsinə qonmuşdu, qaranlıq düşəndə belə itmirdi.

**Dərslik, səh. 35**

**ç.** Sizcə, nə üçün Tofiq İşığı və onun qardaşlarını evdən çıxardı?

Tapşırıq şagirdlərin təxminetmə bacarığının, yaradıcı təfəkkürünün inkişafına imkan yaradır. Şagirdlər tapşırıqda qoyulmuş suala müxtəlif cavablar verə bilərlər.

**Dinləmə**

**Dərslik, səh. 35**

**ç.** "İtlərdə duyğu və emosiyalar" mətnini dinləyin. Bu mətndə verilmiş elmi məlumatlar İşıq obrazının hansı davranışlarını təsdiq və ya təkzib edir?

***İtlərdə duyğu və emosiyalar***

*Amerikalı neyrobioloq Qreqori Börns araşdırmaları ilə sübut edir ki, heyvanlar insanlarla eyni hissləri yaşayır. İtlərin də qoxubilmə, dadbilmə, görmə, eşitmə, toxunma kimi hissləri var. Onların bəzi hissləri insanlarla müqayisədə daha yüksək, bəziləri isə zəif inkişaf etmişdir.*

*İtlərin qoxubilmə hissi çox həssasdır. Təsəvvür edin ki, insanlarda beş milyona qədər qoxu reseptoru olduğu halda, itlərdə bu rəqəm 300 milyon ola bilər. Yer üzündə milyonlarla qoxunun olmasına baxmayaraq, itlər çaşmır və bir çox müxtəlif qoxunun arasından axtardıqlarını asanlıqla tapırlar. İtlərin bu bacarığından müxtəlif sahələrdə istifadə edirlər. Oğurluq əşyalar, itkin düşmüş insanlar, partlayıcı*

Layihə

*maddələr, qaz sızması, cinayətkarlar, qəza və fəlakət qurbanlarının axtarışında bu canlıların köməyi əvəzsizdir.*

*İtlərin eşitmə qabiliyyəti də güclüdür. Onların böyük, dik qulaqları istənilən məsafədən səsləri eşitməyə imkan verir. İtlər hətta diqqətlərini yayındıran səsləri eşitməmək üçün daxili qulaqlarını da bağlaya bilirlər.*

*İtlərin görmə qabiliyyətləri isə zəifdir. İtlər anadan olduqdan yalnız 10–18 gün sonra gözlərini açırlar. Onların görmə qabiliyyəti 8 həftə ərzində tədricən inkişaf edir. İtlər qara və ağ rənglərlə yanaşı, sarı və mavi çalarları da fərqləndirirlər. Məsələn, itiniz çəmənliyə düşmüş mavi rəngli topunu o dəqiqə seçəcək.*

*İtlərin dadbilmə hissi də zəif inkişaf etmişdir. Buna baxmayaraq itlər də şirin, duzlu, turş, acı və ləzzətli dadları fərqləndirirlər.*

*İtlər bığları ilə toxunur, ətraf aləmi hiss edirlər. Bığlarındakı sinir ucları ilə havanın temperaturunu, küləyin istiqamətini, yaxınlıqdakı obyektlərin yerini müəyyən edirlər.*

*Əlbəttə, itlər danışa bilmir. Lakin davranışları vasitəsilə sahibi ilə ünsiyyət qurmağa çalışır. Məsələn, əgər sevimli dostunuz əllərinizi və üzünüzü yalayırsa, sizə sevgi və sədaqətini bildirmək istəyir. Əgər ayaqlarınızı yalayırsa, deməli, diqqətinizi cəlb etmək istəyir. Ətrafınızda fırlanıb quyruqlarını bulamaları isə darıxmasının və oynamaq istəməsinin əlamətidir.*

**Müəllimin nəzərinə!** Şagirdlər mətni bir dəfə dinlədikdən sonra aşağıdakı suallar vasitəsilə mətni nə dərəcədə diqqətlə dinlədiklərini yoxlamaq olar:

1. İtlərin hansı hissləri var?
2. Onların hansı hissləri daha güclüdür?
3. İtlərin hansı qabiliyyəti zəifdir?
4. İtlər gözlərini anadan olandan neçə gün sonra açırlar?
5. İtlər hansı rəngləri fərqləndirə bilirlər?
6. İtlər sahibi ilə necə ünsiyyət qururlar?

Şagirdlərin ilk dəfədən bu sualların hamısına cavab verməları, yəqin ki, mümkün olmayacaq. Lakin ikinci dəfə dinləyərkən diqqət etməli olduqları məqamlara istiqamətləndirəcək. Şagirdlər mətni ikinci dəfə dinləyir və cavab verə bilmədikləri sualları yenidən cavablandırırlar.

Daha sonra şagirdlərin diqqəti tapşırıqda qoyulmuş cədvələ yönəldilir.

<u>Cavab</u>:

| "İşıq" mətnindən nümunələr | Dinləmə mətninə görə |
|---|---|
| Gözümü açdım. | Yeni doğulmuş it gözlərini aça bilərmi? **Xeyr,** itlər anadan olduqdan yalnız 10–18 gün sonra gözlərini açırlar. Onların görmə qabiliyyəti 8 həftə ərzində tədricən inkişaf edir. |
| Sarmaşığın yamyaşıl yarpaqları darvazanı bəzəyirdi. | İtlər yaşıl rəngi digər rənglərdən seçə bilirlərmi? **Xeyr,** itlər yalnız qara, ağ, sarı və mavi çalarları seçə bilirlər. |
| Darvaza açılmamış onun qoxusunu hiss edərdim. | İtlər uzaqdan qoxunu hiss edə bilirlərmi? **Bəli,** itlərin qoxubilmə hissləri çox həssasdır. Onlar tanış qoxunu uzaqdan və müxtəlif qoxuların arasından hiss edirlər. |
| Qabaq pəncələrimi dizinə söykəyib quyruğumu bulayardım. | Pəncələrini yuxarı qaldırıb quyruğunu bulaması itin hansı emosiyasını ifadə edir? Sahibi üçün darıxmasını və oynamaq istəməsini bildirir. |



Layihə

| | |
|---|---|
| Əllərinin qabarmış dərisini yalayardım. | Adamın əlini yalaması itin hansı emosiyasını ifadə edir? Əgər sevimli dostunuz əllərinizi və üzünüzü yalayırsa, sizə sevgi və sədaqətini bildirmək istəyir. |

**İş dəftəri, səh. 18**

**a.** Mətnə və təxəyyülünə əsasən "İşıq" mətnindəki obrazları təsvir et.

Cavab: *İşıq*

Görünüşü: Ağappaq tükləri var idi.

Davranışı: Oynamağı sevirdi. Digər qardaşlarından fərqli olaraq sahibinə daha bağlı idi. O gələnə qədər darvazanın ağzında oturub onu gözləyərdi. Darvaza açılmamış onun qoxusunu hiss edər, qabağına qaçardı. Qabaq pəncələrini dizinə söykəyib quyruğunu bulayar, əllərinin qabarmış dərisini yalayardı. Onun yanından ayrılmaz, arxasınca gəzərdi.

Şagirdlər növbəti iki yarımbaşlığa aid münasibətlərini ifadə edirlər.

*Tofiq*

Görünüşü: Böyük və kobud əlləri var idi. Çox işlədiyi üçün əllərinin içi qabar olmuşdu.

Davranışı: Həssas insan idi, heyvanları çox sevirdi. Onlara nəvaziş göstərirdi. İşığı xüsusi sevirdi.

*Nəzakət*

Görünüşü: Bəstəboy, dolu qadın idi. Həmişə nədənsə narazı olar, qaşqabağı yer süpürərdi.

Davranışı: Nəzakət heyvanları sevməzdi. Həyətindəki itə və balalarına tez-tez acıqlanardı. Məhz Nəzakət Tofiqi məcbur etdi ki, itləri evdən uzaqlaşdırsın.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii mətndəki obrazlara, onların davranışına münasibət bildirir. | Tapşırıq b, c, ç (dərslik); a (iş dəftəri) |
| Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir. | Tapşırıq d (dərslik) |

# 3-cü DƏRS
# İşıq (II hissə)

**Təlim nəticələri:**
- Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir (st. 3.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Verbal və qrafik materialları şərh etməklə mövzu üzrə danışır (st. 2.1.3).

**Mövzuya yönəltmə.** Müəllim yönəldici suallar vasitəsilə "İşıq" mətninin I hissəsinin məzmununu xatırladır.

**Dərslik, səh. 35**

**a.** Mətndəki bu cümləyə diqqət yetirin.
*Bu darvazadan o tərəfdəki dünyadan xəbərim yox idi.*

"İşıq" mətninin I hissəsi natamam qalmışdı. I hissədə İşığın belə bir fikri verilmişdi: Bu darvazadan o tərəfdəki dünyadan xəbərim yox idi.

Müəllimə şagirdlərin diqqətini həmin cümləyə cəlb etmək tövsiyə edilir. Müəllim şagirdlərə müraciətlə soruşur:



Layihə

– Sizcə, İşıq həmin dünya ilə tanış olacaqmı?
– Baş qəhrəmanı yeni dünyada nələr gözləyir?
Hadisələrin davamı ilə bağlı fərziyyələrinizi söyləyin.
Şagirdlər öz düşüncələrinə əsasən mətnin II hissəsinin məzmununu təxmin edirlər.

**Oxu**

**Mətnlə iş.** "İşıq" mətninin II hissəsi müxtəlif şagirdlər tərəfindən oxunur. Mənası aydın olmayan sözlər izah edilir.

**Söz ehtiyatı**

**Dərslik, səh. 37**

**a.** "Söz mücrüsü"ndəki hərəkət bildirən sözlərdən hansı yalnız itə aid ola bilər?

Cavab: b. zingildəmək

**Oxuyub-qavrama**

**Dərslik, səh. 38**

**c.** Mətnə əsasən suallara cavab verin.

Şagirdlər tapşırıqdakı suallara cavab verərək mətni nə qədər diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

**İş dəftəri, səh. 19**

**a.** "İşıq" mətninin II hissəsinə istinad etməklə hadisələrin ardıcıllığını müəyyən et.

Cavab: 1 – e, 2 – ç, 3 – c, 4 – d, 5 – b, 6 – a.

**İş dəftəri, səh. 19**

**b.** "İşıq" mətninin II hissəsində bu obrazlar iştirak etmir:

Cavab: "İşıq" mətninin II hissəsində Tofiq və Nəzakət iştirak etmirlər.

**İş dəftəri, səh. 19**

**c.** "İşıq" mətninin II hissəsinə istinad etməklə cədvəli tamamla.

Cavab:
- İşıq sarışın, balaca qızı çox sevirdi, çünki balaca qızın sinəsində yanıb-sönən parıltı ona Tofiqi xatırladırdı. Qızcığaz da Tofiq kimi mehriban, sevgi dolu insan idi.
- İşıq qıvrımsaç oğlandan qorxurdu, çünki oğlan onunla kobud rəftar edirdi.
- İşıq qıvrımsaç oğlanın qolunu dişlədi, çünki o özünü müdafiə edirdi. Belə ki, oğlan onun boğazındakı kəndirdən yapışıb İşığı göyə qaldırmışdı. İşıq nəfəs ala bilmirdi. Xilas olmaq üçün oğlanın biləyini dişlədi.
- İşıq üzünü göyə tutub ulamağa başladı, çünki Tofiq üçün, sarmaşıqlı həyət üçün darıxmışdı.

**Danışma**

**Dərslik, səh. 38**

**ç.** Sizcə, mətni bitmiş hesab etmək olarmı? İşığın aqibəti haqqında nələri bilmək istərdiniz? Bu haqda suallar tərtib edib yazın.

> **Müəllimin nəzərinə!** Müəllimə şagirdlərin diqqətini mətnin sonunda qoyulmuş üç nöqtə durğu işarəsinə cəlb etmək tövsiyə edilir. Üç nöqtənin funksiyalarından biri fikrin bitmədiyini bildirməkdir.

Şagirdlər İşığın aqibəti haqqında onları düşündürən sualları səsləndirirlər.

**Dərslik, səh. 38**

**d.** İllüstrasiyalara əsasən hadisələrin davamı ilə bağlı mətn qurub nəql edin.

Tapşırıq şagirdlərin danışma bacarığının inkişafına yönəldilib.

**Diferensial təlim.** Bu tapşırığı biri nitq bacarığı güclü, digəri zəif olan şagird cütlüyü ilə yerinə yetirmək olar. Bu zaman nitq bacarığı güclü olan şagird yoldaşına dəstək olur. Və yaxud cütlüyün hər

Layihə

iki üzvü nitq bacarığı zəif olan şagirdlər seçilir. Bu zaman müəllim onlara şəkli təsvir etmək üçün suallar təqdim edə bilər. Məsələn, I illüstrasiyaya aid suallara nümunə:

- Sizcə, əynində uniforma olan kişilər kimdir?
- Onlar nə üçün İşığı tutmağa çalışırlar?

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir. | Tapşırıq b (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq c (dərslik); a, b, c (iş dəftəri) |
| Verbal və qrafik materialları şərh etməklə mövzu üzrə danışır. | Tapşırıq ç, d (dərslik) |

# 4-cü DƏRS
# İşıq

**Təlim nəticələri:**
- Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir (st. 3.1.4).
- Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn (məktub, rəy) yazır (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Müəllim yönəldici suallar vasitəsilə "İşıq" mətninin məzmununu xatırladır.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 39**

**a.** İşıqla davranışına görə mətndəki obrazlara münasibət bildirin.

Tapşırıqda "İşıq" mətninə aid müəyyən epizodlar verilib. Bu epizodlarda obrazların xarakteri açılıb. Şagirdlər hər bir obraz haqqında danışır, onların davranışına münasibət bildirirlər.

**Dərslik, səh. 39**

**b.** "İşıq" mətnində hansı epizod sizə daha çox təsir etdi? Həmin epizodu danışın və keçirdiyiniz hissləri ifadə edin.

Şagirdlərin cavabları müxtəlif ola bilər.

**Müəllimin nəzərinə!** Fəal müzakirəni təmin etmək üçün şagirdlərə "niyə?", "necə?" əvəzliklərinin iştirakı ilə suallar vermək tövsiyə edilir. Məsələn:

- Niyə məhz bu epizod sənə təsir etdi?
- Bu epizodu oxuyarkən hansı hisslər keçirdin?

**Dərslik, səh. 39**

**c.** Mətnin mövzu və ideyasını müəyyən edin. Sizcə, müəllif oxucunun diqqətini hansı problemə yönəldir?

Şagirdlər tapşırıqdakı suala cavab verərək mətnin ideyasını anladıqlarını nümayiş etdirirlər.

Şagirdlərin cavabı təxminən belə ola bilər: "İşıq" mətnini yazmaqla müəllif sahibsiz heyvanların problemlərini işıqlandırmağa çalışır.

**Dərslik, səh. 39**

**ç.** "İşıq" mətnindən seçilmiş cümlələri oxuyun. Sizcə, müəllif İşığın davranışlarını təsvir etməklə itlərin hansı hisslərini oxucuya çatdırmaq istəyib?

Layihə

Cavab:

1. *Qabaq pəncələrimi dizinə söykəyib quyruğumu buladım*. Sahibini gördüyü üçün sevindiyini bildirir.

2. *Qabağa keçib var gücümlə hürməyə başladım.* Buradan aydın olur ki, itlər hürməklə özlərini və yaxud sahiblərini müdafiə etmək istəyirlər.

3. *Qulaqlarımı sallayıb ona yazıq-yazıq baxır, zingildəyirdim.* Səhvini anladığını bildirmək istəyir.

4. *İçimdə nəyinsə məni incitdiyini hiss etdim. Bu nə idi? Həsrət?! Ulamağa başladım.* İşığın evi üçün, ilk sahibi üçün darıxdığını bildirir.

**Dərslik, səh. 39**

**d.** Sizcə, müəllif aşağıdakı cümlələrlə obrazların hansı xüsusiyyətlərini təsvir edib? Müəllifin çatdırmaq istədiyi fikri şərh edin.

Cavab:

• Müəllif Tofiqin rəhmli, mehriban, sevgi dolu bir insan olduğunu göstərmək üçün onu belə təsvir edib. “Sinəsində daim bir parıltı var idi. Sanki günəş balacalanıb onun sinəsinə qonmuşdu, qaranlıq düşəndə belə itmirdi”.

• Tofiqdən fərqli olaraq, onun sinəsində heç vaxt parıltı görməmişdim... Müəllif Tofiqin arvadı Nəzakəti belə təsvir etməklə onun nə qədər hissiz, soyuqqanlı olduğunu göstərmək istəyir.

• Müəllif İşığın yeni sahibi balaca qızcığazı təsvir edərkən onun da Tofiq kimi rəhmdil olmasını belə göstərir: Burada mənə tanış gələn yeganə şey balaca qızın sinəsində yanıb-sönən parıltı idi.

**Yazı**

**İş dəftəri, səh. 20**

**a.** “İşıq” mətni ilə bağlı rəy yaz.

Tapşırıq şagirdlərin tənqidi yanaşma və yazı bacarığını inkişaf etdirir. Əslində, bu tapşırığa qədər yerinə yetirilmiş tapşırıqlar şagirdlərin “İşıq” mətni haqqında rəy yazmaları üçün zəmin yaradır.

**Dərslik, səh. 39**

**e.** “İşıq” əsərinin müəllifi Aysel Şıxlının elektron ünvanını öyrənin və əsərlə bağlı ona məktub yazın.

Tapşırıq şagirdlərə müəllif ilə əlaqə yaratmaq, əsər haqqında düşüncələrini bölüşmək imkanı yaradır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii mətndəki obrazlara, onların davranışına, müəllif mövqeyinə münasibət bildirir. | Tapşırıq a, b, c, ç, d (dərslik) |
| Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn (məktub, rəy) yazır. | Tapşırıq e (dərslik); a (iş dəftəri) |

Layihə

# 5-ci DƏRS
# Sifətin müqayisə dərəcələri və yazılışı

**Təlim nəticələri:**
- Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir (st. 4.1.3).
- Sözlərin bitişik, ayrı və defislə yazılış qaydalarına riayət edir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 39**

**a.** Cümlələrdəki sifətləri seçib aid olduğu sözlə birlikdə yazın. Uyğunluğu müəyyən edin.

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi daşıyır.
Cavab:
1. ***Şirin*** (necə?) söhbətləri – a. keyfiyyət normal dərəcədədir.
2. ***Kəmşirin*** (necə?) çay – c. keyfiyyət normadan azdır.
3. ***Şipşirin*** (hansı?) almalar – b. keyfiyyət normadan çoxdur.

**Dərslik, səh. 40**

**b.** Sifətləri cədvəl üzrə qruplaşdırın.

**Müəllimin nəzərinə!** Tapşırığı kollektiv şəkildə yerinə yetirmək tövsiyə edilir. Şagirdlər bu tapşırığı qaydanı izah etmədən əvvəl empirik yolla yerinə yetirirlər. Məqsəd şagirdlərin diqqətini azaltma və çoxaltma mənası yaradan hissəciklərə, sözlərə yönəltməkdir.

Cavab:
Adi dərəcədə olan sifətlər: göy, acı, yumru, doğru, ağ, sağlam, ağıllı
Azaltma dərəcəsində olan sifətlər: göyümtül, acıtəhər, yumrutəhər, ağımtıl
Çoxaltma dərəcəsində olan sifətlər: gömgöy, çox acı, yupyumru, lap doğru, dümağ, sapsağlam, daha ağıllı

**"Bunları bilməliyik" rubrikası.** Müəllim şagirdlərin diqqətini "Bunları bilməliyik" rubrikasına yönəldir. Rubrikadakı məlumatları və nümunələri şərh edir.

**Dərslik, səh. 40**

**c.** Uyğun samitlərdən istifadə etməklə sifətləri çoxaltma dərəcəsində işlədin.

Cavab: dümdüz, ağappaq, dosdoğma, tərtəmiz, qapqara, bapbalaca

**Dərslik, səh. 40**

**ç.** Azaltma və çoxaltma dərəcəsində verilmiş sifətlərin düzgün yazılışını müəyyən edin.

Cavab: qıpqırmızı, zil qara, ağappaq, çox xırda, ala-çiy

**Dərslik, səh. 40**

**d.** Aşağıdakı ifadələrin hansında dərəcə əlaməti yoxdur? Fikrinizi əsaslandırın.

**"Yadda saxla" rubrikası.** Tapşırığı yerinə yetirməzdən əvvəl şagirdlərə bu rubrikadakı məlumatlar izah edilir. Cavab:

1. "Açıq-aydın məsələ" ifadəsinin tərkibində işlənən açıq-aydın mürəkkəb sözdür. Çünki rəng bildirməyən sözə qoşulub. Açıq və aydın sözləri yaxınmənalı sifətlər olduğu üçün defislə yazılan mürəkkəb söz yaradıb.

2. "Kəm-kəsirli iş" ifadəsinin tərkibindəki "kəm" və "kəsir" sözləri yaxınmənalı sifətlər olduğu üçün defislə yazılan mürəkkəb söz yaradıb.

3. "Tünd çay" ifadəsinin tərkibində işlənən tünd sözü sadə sifətdir, rəng bildirən sifətə deyil, ismə aiddir.

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin sifətin müqayisə dərəcələri haqqında aldıqları

Layihə

biliklərin tətbiqi və möhkəmləndirilməsinə yönəlmişdir.

**İş dəftəri, səh. 21**

**a.** Cümlələrdəki sifətləri seçib cədvəl üzrə qruplaşdır.

Cavab:
Adi dərəcədə olan sifətlər: ucsuz-bucaqsız, iri
Azaltma dərəcəsində olan sifətlər: açıq-çəhrayı, göyümtül, şirintəhər
Çoxaltma dərəcəsində olan sifətlər: çox doğma, dümağ, masmavi, ən dərin

**İş dəftəri, səh. 21**

**b.** Nöqtələrin yerinə *m, p, r, s* samitlərindən uyğun gələnini artırmaqla çoxaltma dərəcəsində olan sifət düzəlt.

Cavab: qapqara, dosdoğma, tərtəmiz, dopdoğru, gömgöy, qupquru, sapsarı, bomboş

**İş dəftəri, səh. 21**

**c.** Sifətlərin düzgün yazılışını müəyyən et.

| Yanlış | Düzgün |
|---|---|
| ağ-appaq | ağappaq |
| xəstə-təhər | xəstətəhər |
| açıq qəhvəyi | açıq-qəhvəyi |
| tündgöy | tünd-göy |

**İş dəftəri, səh. 21**

**ç.** Aşağıdakı ifadələrdə *açıq* və *tünd* sözləri dərəcə əlaməti (DƏ) bildirir, yoxsa mürəkkəb sifətlər (MS) yaradıb?

Cavab:
Dərəcə əlaməti bildirənlər: açıq-qəhvəyi, tünd-qırmızı, tünd-göy
Mürəkkəb söz və ya söz birləşməsi tərkibində işlənənlər: açıqürəkli, tündxasiyyət, açıq-aydın

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir. | Tapşırıq a, b (dərslik); a (iş dəftəri) |
| Sözlərin bitişik, ayrı və defislə yazılış qaydalarına riayət edir. | Tapşırıq c, ç, d (dərslik); b, c, ç (iş dəftəri) |

Layihə

# 2-ci fəsil
# AT İGİDİN YARAŞIĞIDIR

## 1-ci DƏRS
## Qara İnci

**Təlim nəticələri:**
- Mətndə rast gəldiyi yeni sözlərin mənasını müəyyən edir (st. 3.1.2).
- Əlavə biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələri izah edir (st. 3.1.4).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 41**

**a.** Atlar haqqında nə bilirsiniz?
- İnsanlar atlardan hansı məqsədlərlə istifadə edirlər?
- Atın ayağına nə üçün nal vururlar?

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəltmək məqsədi daşıyır.

**Oxu**

**Mətnlə iş**. Şagirdlər növbə ilə "Qara İnci" mətnini oxuyurlar. Tanış olmayan söz və ifadələrin mənası izah edilir.

> **Müəllimin nəzərinə!** "Qara İnci" mətni həcmcə bir qədər böyükdür. Mətnin məzmunu ilə hamının tez bir zamanda tanış olmaları üçün "növbə ilə" oxu üsulundan istifadə məqsədəuyğundur.

**Söz ehtiyatı**

**Dərslik, səh. 44**

**b.** Mətnə əsasən "əldən-ayaqdan getmək" və "dünyaya göz açmaq" ifadələrinin mənasını izah edin. Bu ifadələri yaxınmənalı sözlərlə əvəz edin.

Cavab: əldən-ayaqdan getmək – çox istəmək
dünyaya göz açmaq – doğulmaq

**Dərslik, səh. 44**

**c.** Sözləri izahlarla uyğunlaşdırın.
- Kontekstdən çıxış edərək seçiminizi əsaslandırın.

Cavab: 1 – c, 2 – d, 3 – b, 4 – a, 5 – ç.

**Dərslik, səh. 44**

**ç.** Mətndə fərqləndirilmiş cümləni oxuyun və kontekstə əsasən "intuisiya" sözünün mənasını izah edin. Cümlədə bu sözün hansı sinonimi verilmişdir?

Şagirdlərin diqqəti mətndə kursivlə verilmiş cümləyə yönəldilir. Cümlə bir daha şagirdlər tərəfindən oxunur:

*Heyvanlar isə güclü intuisiyaya sahibdirlər, öz qüvvətli fəhmləri, hissetmə qabiliyyətləri sayəsində istənilən təhlükə anında özlərini də, sahiblərini də xilas eləməyi bacarırlar.*

Cavab: intuisiya – hissetmə, fəhm.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 44**

Layihə

**d.** Cənab Qordonun nitqinə əsasən şüur və intuisiya anlayışlarının fərqini izah edin. Mətndən və həyatdan nümunələr gətirməklə "Heyvanlar güclü intuisiyaya sahibdirlər" fikrini əsaslandırın.

Şagirdlərin diqqəti Cənab Qordon ilə Conun dialoquna yönəldilir. Şagirdlər mətnin bu hissəsini bir daha oxuyurlar:

*Qara İnci sözümə qulaq assaydı, indi o dünyadaydıq. Bilirsən, Con, insanlar şüurlu varlıqlardır, ona görə də başlarına gələn, yaxud gələ biləcək hər şeyi dərk edirlər. Heyvanlar isə güclü intuisiyaya sahibdirlər, öz qüvvətli fəhmləri, hissetmə qabiliyyətləri sayəsində istənilən təhlükə anında özlərini də, sahiblərini də xilas eləməyi bacarırlar. Bir qədər əvvəl Qara İnci bunu sübut etdi!*

*– Eh, ser, – Con ah çəkərək dilləndi, – insanlar atlara, itlərə, pişiklərə qarşı daha diqqətli, şəfqətli davransaydılar, dünyada hər şey daha yaxşı olardı!*

Şagirdlərin cavabı təxminən belə ola bilər: Şüur – dərketmədir. Məsələn, insanlar hər şeyi dərk edirlər, analiz edirlər. Heyvanların isə hissetmə qabiliyyəti güclüdür, səbəbini anlamasalar da, təhlükəni hiss edirlər. Məsələn, atlar zəlzələdən və yaxud daşqından əvvəl narahat olurlar.

**İş dəftəri, səh. 22**

**a.** Mətndə rast gəlinən sözlərin izahından çıxış edərək krosvordu həll et.

Cavab:

Soldan sağa: 1. qamçı; 6. yüyən; 7. intuisiya; 8. nohur.

Yuxarıdan aşağı: 2. mehtər; 3. şlaqbaum; 4. firavan; 5. şüurlu.

**İş dəftəri, səh. 22**

**b.** Mətni oxuyarkən daha hansı sözlərin mənası sənə tanış olmadı? Həmin sözləri yaz. Qarşısında təxmin etdiyin mənanı qeyd et.

Tapşırıq şagirdlərdə kontekstə əsasən sözlərin mənasını təxminetmə və sözü izahetmə kimi vacib bacarıqları inkişaf etdirir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tapşırıq b, c, ç (dərslik); a, b (iş dəftəri) |
| Əlavə biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələri izah edir. | Tapşırıq d (dərslik) |

## 2-ci DƏRS
## Qara İnci

**Təlim nəticələri:**
- Mətndə açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir (st. 3.1.3).
- Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir (st. 3.1.2).
- Bədii mətndəki obrazlara, onların davranışına münasibət bildirir (st. 3.1.4).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 45**

**a.** Mətnə əsasən suallara cavab verin.

Tapşırıq şagirdlərin oxuyub-qavrama bacarıqlarını yoxlamağa xidmət edir.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 45**

Layihə

**b.** Epizodların ardıcıllığını müəyyən edərək “Qara İnci” mətninin məzmununu danışın.

Cavab:
1. Doğma yurdun təsviri
2. Təlim günləri
3. Cənab Qordonun malikanəsi
4. Fırtınalı havada səfər
5. Təhlükədən xilas

**Müəllimin nəzərinə!** Hər epizodu bir şagirdin danışması tövsiyə edilir. Şagirdlərin nitqində yeni sözlərin istifadəsinə diqqət edilməlidir.

**İş dəftəri, səh. 23**

**a.** “Qara İnci” mətnində hansı suallara cavab yoxdur?

Cavab: 1-ci və 5-ci suallara mətndə cavab yoxdur.

**İş dəftəri, səh. 23**

**b.** Mətnə əsasən cümlələri tamamla.

Cavab:

1. Qara İnci cənab Qordonun malikanəsində firavan həyat sürürdü, belə ki, burada atlarla yaxşı rəftar edirdilər. Tövlə böyük və işıqlı idi.

2. Cənab Qordonun şəhərdə işləri çox idi, ona görə də evə qayıtmaq üçün yalnız axşam yola çıxa bildik.

3. Qara İnci sahibinin əmrinə tabe olmur, körpünü keçmək istəmirdi, çünki qarşıda nə isə bir təhlükə olduğunu hiss edirdi.

4. Qara İnci sahibini ölümdən xilas etdi, belə ki, əgər onu dinləyib körpüyə qalxsa idi, sel körpünü dağıdacaq, onları da qarşısına alıb aparacaqdı.

5. Bir gün cənab Qordonun xanımı bərk xəstələndi. Yaşadığı yerin iqlimi onun səhhətinə pis təsir etdiyi üçün Cənab Qordon malikanəni və bütün atlarını satıb şəhərə köçdü.

**İş dəftəri, səh. 23**

**c.** Mətnə istinad etməklə “fəhm” və “intuisiya” sözlərinin sinonim olduğunu əsaslandır.

Cənab Qordon Con ilə dialoqunda “intuisiya” sözünü “fəhm” sözü ilə izah edir. (Heyvanlar isə güclü intuisiyaya sahibdirlər, öz qüvvətli fəhmləri, hissetmə qabiliyyətləri sayəsində istənilən təhlükə anında özlərini də, sahiblərini də xilas eləməyi bacarırlar). Sözün mənasını izah etməyin bir üsulu da sinonimindən istifadə etməkdir. Buna əsasən fəhm və intuisiya sözlərinin sinonim olduğu nəticəsinə gəlmək olar.

**İş dəftəri, səh. 23**

**ç.** Mətnə istinad etməklə Qara İncinin yüksək intuisiyaya malik olduğunu əsaslandır.

Şagirdlər mətndən müvafiq hissəni oxumaqla fikirlərini belə izah edə bilərlər: Qara İnci körpüyə yaxınlaşanda bir narahatlıq hiss etdi. Sanki hansısa qüvvə atı tutub saxlayır, yerindən tərpənməyə qoymurdu. Sahibi onu möhkəm qamçılasa da, yerindən tərpənmədi. Elə həmin an aydın oldu ki, yaxşı ki, körpüyə qalxmayıblar. Yoxsa sel onları da alıb aparacaqdı. Deməli, at təhlükəni intuisiyası ilə hiss edibmiş.

**Dərslik, səh. 45**

**c.** Aşağıdakı obrazları hansı xüsusiyyət birləşdirir? Mətndən müvafiq epizodları danışmaqla fikrinizi əsaslandırın.

Cavab: Qara İncinin ilk sahibi, Con və cənab Qordon müxtəlif sahələrdə çalışsalar da, hər üçü həlim, rəhmli, mərhəmətli insanlardır. Məsələn, mətnin əvvəlində Qara İncinin dilindən ilk sahibi belə təsvir edilir: “Sahibim, həqiqətən də, olduqca yaxşı adam idi, başqalarından xeyli fərqlənirdi: qayğıkeş, meh-

Layihə

riban, mərhəmətli biri idi. Onunla qarşılaşdığım üçün taleyimə çox minnətdar idim".

Yeni sahibi Cənab Qordon və onun köməkçisi Con da Qara İnci və digər atlarla xoş rəftar edirdilər. Qara İnci Cənab Qordonun malikanəsində firavan həyat sürdüyünü qeyd edirdi.

Conun nitqindən bu cümləyə diqqət edək: "İnsanlar atlara, itlərə, pişiklərə qarşı daha diqqətli, şəfqətli davransaydılar, dünyada hər şey daha yaxşı olardı!" Conun bu düşüncəsi nə qədər mərhəmətli bir insan olduğunu sübut edir.

**Dərslik, səh. 45**

**ç.** Mehtər Conun fikrini şərh edin. Bu mövzuya münasibət bildirin, öz fikirlərinizi də əlavə etməklə Conun nitqini genişləndirin.

Şagirdlər bölmədən aldıqları məlumatlardan, oxuduqları əsərlərdən nümunələr gətirməklə Conun fikrini şərh edirlər. Atların, itlərin sahibinə qarşı sadiqliyi açar ifadə kimi vurğulanmalıdır.

**Dərslik, səh. 45**

**d.** Atlar haqqında faktlarla tanış olun. Müəllif bu faktlardan hansı epizodlarda istifadə edib?

| Atlar haqqında faktlar | Müəllifin bu faktlardan istifadə etdiyi epizodlar |
|---|---|
| Güclü intuisiya, qoxubilmə və eşitmə hissi atlara təhlükəni uzaqdan hiss etməyə imkan verir. | Qara İncinin sel təhlükəsini əvvəlcədən hiss etməsi |
| Otyeyən heyvanlardır. | Qara İncinin öz doğma yurdunun çəmənliklərini həvəslə təsvir etməsi |
| İlxı ilə yaşayır, asanlıqla ünsiyyət qurur, təklikdə darıxırlar. | Qara İncinin yeni sahibinin tövləsində digər atlarla dostlaşması |
| Təlim keçdikdən sonra müxtəlif əmrləri yerinə yetirirlər. | Qara İncinin ilk sahibindən ayrılarkən fikirləri; Fırtınalı havada davranışı |
| Atlara, əsasən, 4 yaşdan sonra ciddi təlim keçirilir. | 4 yaşında ilk sahibinin Qara İnciyə təlim keçməsi |
| Güclü yaddaşları olduğu üçün illər əvvəl tanış olduqları insanları, yerləri xatırlayırlar. | Qara İncinin ilk sahibini, doğulduğu yerləri unutmaması |

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətndə açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir. | Tapşırıq a, b (dərslik); a, b (iş dəftəri) |
| Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir. | Tapşırıq c (iş dəftəri) |
| Bədii mətndəki obrazlara, onların davranışına münasibət bildirir. | Tapşırıq c, ç, d, e (dərslik); ç (iş dəftəri) |

# 3-cü DƏRS
# Qara İncinin taleyi

**<u>Təlim nəticələri</u>:**
• Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 2.1.3).
• Dinlədiyi mətnin məzmununu anladığını nümayiş etdirir (st. 1.1.1).
• Dinlədiyi mətndəki obraz, fakt və fikirlərə münasibət bildirir (st. 1.1.2).

**Mövzuya yönəltmə.** Müəllim yönəldici suallar vasitəsilə "Qara İnci" mətninin I hissəsinin məzmununu xatırladır.

**Danışma**

**Dərslik, səh. 46**

"Qara İnci" mətninin I hissəsi natamam qalmışdı. I hissənin sonunda qeyd edilirdi ki, Cənab Qordon malikanəsini və atlarını satıb şəhərə köçür.

Şagirdlər Qara İncinin aqibəti haqqında onları maraqlandıran suallar hazırlayırlar. Bu suallara bəzi nümunələr təqdim edirik:

• Cənab Qordon Qara İncini kimə satdı?
• Qara İncinin yeni sahibi necə insan idi?
• Qara İnci ilə necə rəftar edirdilər?

Şagirdlərin diqqəti 46-cı səhifədə verilmiş illüstrasiyalara cəlb edilir. Şagirdlər illüstrasiyalara əsasən mətnin II hissəsinin məzmununu təxmin edirlər.

**Dinləmə**

**Dərslik, səh. 46**

a. Qeydlər götürməklə "Qara İncinin taleyi" mətnini dinləyin. Qeydlərinizə və illüstrasiyalara əsasən mətnin uyğun epizodlarını nəql edin.

***Qara İncinin taleyi***

*Məni Nikolas Skinner adlı bir nəfər almışdı. Skinnerin əyri burnu, iri, ancaq boş, ifadəsiz gözləri, ciyiltili, xoşagəlməz səsi vardı. O, atlarına heç vaxt istirahət günü vermirdi. Günün sonunda o qədər yorulurdum ki, yemək yeməyə belə heyim olmurdu.*

*Faytonçu sarıdan da bəxtim gətirməmişdi. O, qəddarlıqda Skinnerdən geri qalmırdı. Qamçısının ucuna iti bir şey bağlamışdı. Yerimdən tərpənəndən mənzil başına çatanadək məni qamçılayırdı. Artıq gözəlliyimdən əsər-əlamət qalmamışdı, yorğa, şux yerişimi itirmişdim.*

*Bir gün vağzalın yaxınlığında dörd nəfərdən ibarət bir ailə arabama yaxınlaşdı: yüksək səslə danışan bir kişi, onun arvadı və iki yeniyetmə övladı: bir oğlan və bir qız. Yükləri çox ağır idi.*

*– Ata! Ata! – qız birdən qışqırdı. – Bir bu yazıq heyvana bax! O çox yorğundur, bizi bu qədər yüklə uzağa apara bilməyəcək!*

*– Yox, miss! – faytonçu istehzayla gülümsədi. Kənardan elə görünür. – Əslində, bundan güclü at tapa bilməzsiniz.*

*– Ata, başqa bir fayton da tut, – ağıllı qız ona inanmadı. Yüklərimizin bir hissəsini ora yükləyərik. Yoxsa yazıq atın canı çıxacaq.*

*– Qreys, sən bizi gecikdirirsən. Mən iş adamıyam, atların dərdini çəkmək mənə qalmayıb. Tez ol, əyləş, gedək!*

*Qız dərin ah çəkib faytona mindi. Faytonçu qamçısını şaqqıldatdı və mən ağzınacan dolu faytonu birtəhər çəkməyə başladım. Güclə hərəkət edirdim, üstəlik, səhərdən heç nə yeməmişdim. Yoxuşadək birtəhər irəliləyə bildim. Sonra ayaqlarım boşaldı, böyrü üstə yıxıldım. Hərəkətsiz qalmışdım, mənə elə gəlirdi ki, ölürəm. Qızın sözləri qulaqlarımda cingildəyirdi:*

*– Yazıq at! Onu biz öldürdük!*

*Gözümü açanda Skinnerin tövləsində idim. Sahibim baytarla birlikdə başımın üstündə dayanmışdı. Baytar məni diqqətlə müayinə etdikdən sonra dedi:*

Layihə

*– At xəstə deyil, sadəcə, çox yorğundur. Beş-altı ay dincəlməlidir. Sonra yenidən işləyə biləcək.*

*Skinner qəzəblə bağırdı:*

*– Mənim işə yaramayan atlara yedizdirəcək nə kəpəyim var, nə yulafım.*

*Baytar məsləhət gördü:*

*– Cənab, on gündən sonra at bazarı olacaq. Bu müddət ərzində ata yaxşı baxsanız, sata bilərsiniz.*

*Deyəsən, bu fikir Skinnerin ağlına batdı. O, mehtərə əmr etdi ki, məni yemləsin. Səbirsizliklə at bazarının açılacağı günü gözləyirdim. Fikirləşirdim ki, Skinnerdən daha pis adamın əlinə düşmərəm. Həmin gün başımı dik tutub mehtərlə birlikdə bazara yollandım.*

Şagirdlər mətni dinlədikdən sonra lövhədəki suallara bir daha nəzər salınır. Şagirdlər cavab tapdıqları sualları seçirlər. Daha sonra hər kəs müəyyən bir epizodu nəql edir.

**Dərslik, səh. 46**

**b.** Dinlədiyiniz mətnin məzmununa əsasən suallara cavab verin.

Şagirdlər tapşırıqda qoyulmuş suallara cavab verməklə dinlədikləri mətnin məzmununu anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 47**

**c.** Qara İncinin yeni sahibi Skinner əvvəlkilərdən nə ilə fərqlənirdi? Oxuduğunuz və dinlədiyiniz mətnlərdən epizodlar danışmaqla fikrinizi əsaslandırın.

Şagirdlərin cavabı təxminən belə ola bilər: Qara İncinin ilk iki sahibi qayğıkeş, insaflı, xoşrəftar, mərhəmətli insanlar idi. İstər ilk sahibi, istərsə də Cənab Qordon Qara İnciyə yaxşı qulluq edir, Qara İncinin də sahiblərinə yaxşı xidmət göstərməsi üçün şərait yaradırdılar. Qara İncinin hər bir xidmətini qiymətləndirirdilər.

Məsələn, Qara İnci Cənab Qordon və Conu xilas edəndən sonra mehtər Con onu kəpək və yulafdan hazırlanmış sıyıqla mükafatlandırdı.

**"Yadda saxla" rubrikası.** Müəllim şagirdlərin diqqətini bu rubrikaya yönəldir və məlumatları şərh edir.

**Dərslik, səh. 47**

**ç.** Skinnerin təsvirini oxuyun. Sizcə, obrazı detallı təsvir etməkdə müəllifin məqsədi nədir?

Cavab: Müəllif Skinnerin bədii portretini yaratmaqla, yəni onun xarici görünüşünü detallı təsvir etməklə oxucuda bu obraz haqqında təsəvvür yaratmaq istəyib. Mətndən görünür ki, Skinner çox qəddar, zalım insandır. Müəllif Skinnerin burnunu əyri, iri gözlərini ifadəsiz, səsini ciyiltili, xoşagəlməz təsvir etməklə sanki obrazın qəddarlığını daha da qabartmağa çalışıb.

**Dərslik, səh. 47**

**d.** Qreysin xüsusiyyətlərindən çıxış edərək bu obrazın bədii portretini yaradın.

Şagirdlərin cavabı təxminən belə ola bilər:

Qreys ucaboylu, zərif bir qız idi. Günəşi xatırladan sarı saçları çiyinlərinə tökülmüşdü. İri, mavi gözləri ona xüsusi gözəllik verirdi.

**Müəllimin nəzərinə!** Qreysin müsbət xüsusiyyətlərini şagirdlərin nəzərinə çatdırmaq tövsiyə edilir. Obrazın bədii portretini yaradarkən onun daxili aləmini qabartmağın vacibliyini vurğulamaq lazımdır.

**Dərslik, səh. 47**

**e.** Qara İncinin nitqinə aid hissəni oxuyun. Bu fikirlərə münasibət bildirin. Mətnin məzmunu ilə əlaqələndirib şərh edin.

Tapşırıq şagirdlərin təhliletmə və nəticəçıxarma bacarığını inkişaf etdirir. Bölmədə oxuduqları "İşıq" və "Qara İnci" mətnlərində sahiblərinin heyvanların həyatında böyük rol oynadığından bəhs edilir.



Layihə

**İş dəftəri, səh. 24**

**a.** “Qara İnci” mətninin II hissəsini dinlə və hekayə xəritəsini tamamla.

Şagirdlər tapşırığı yerinə yetirməklə mətni dinləyib qavradıqlarını nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir. | Tapşırıq a (dərslik) |
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq b (dərslik); a (iş dəftəri) |
| Dinlədiyi mətndəki obraz, fakt və fikirlərə münasibət bildirir. | Tapşırıq c, ç, d, e (dərslik) |

# 4-cü DƏRS
# Təqdimat

**Təlim nəticələri:**
- Kontekstdən çıxış edərək ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
- Fikrini əsaslandırmaqla fakt və hadisələrə münasibət bildirir (st. 2.1.2).
- Təqdimat zamanı fikirlərin məntiqi ardıcıllığına riayət edir (st. 2.1.3).

**Mövzuya yönəltmə.** Müəllim monitorda nümunədə təqdim edilmiş şəkilləri və yaxud bu mövzuda kiçik rolikləri sinfə təqdim edərək şagirdlərin diqqətini dərsin mövzusuna yönəldə bilər.









**Söz ehtiyatı**

**Dərslik, səh. 47**

**a.** Aşağıdakı sözlərin izahı ilə tanış olun və mətnin məzmunu ilə əlaqələndirin.

Tapşırıqda verilmiş “istismar” və “istismar etmək” ifadələri dərsdə keçiriləcək müzakirələrin açar ifadələridir. Buna görə də bu sözlərin izahına xüsusi diqqət ayrılmalıdır. Şagirdlər bu sözlərin izahını “Qara İnci” mətninin məzmunu ilə əlaqələndirirlər. Məsələn, Qara İncinin üç sahibi olur. İlk iki sahibi mərhəmətli, qayğıkeşdir. Üçüncü sahibi isə pul qazanmaq üçün onu daim işlədir, zəhmətindən faydalanır, onu istismar edir.

**Danışma**

**Dərslik, səh. 47**

**b.** Sizcə, heyvanları yaşadıqları mühitdən ayırıb sirk, delfinari, zoopark kimi yerlərdə saxlamaq, əyləncə məqsədilə istismar etmək düzgündürmü?

Tapşırıqda qoyulmuş sualın müzakirəsi şagirdlərdə “beyin fırtınası” yaradır və növbəti tapşırığın

Layihə

daha uğurla yerinə yetirilməsi üçün zəmin yaradır.

**Müəllimin nəzərinə!** Müzakirənin daha canlı keçməsi üçün şagirdlərə istiqamətləndirici suallar verilməsi tövsiyə edilir. Nümunə:

- Zooparkda olmusunuzmu? Qəfəsdə olan heyvanları müşahidə edəndə hansı hissləri keçirmisiniz?
- Sizcə, öz mühitindən uzaqlaşdırılan heyvanlar üçün yeni mühitə uyğunlaşmaq asandırmı? Bu, heyvanlar üçün hansı təhlükə yarada bilər?
- Uşaqların çoxu sirkdə arenaya çıxarılan heyvanları seyr etməyi sevirlər. Bəs, sizcə, əyləncə məqsədilə heyvanları istismar etmək düzgündürmü?

**Dərslik, səh. 47**

**c.** Qruplarla iş. “Ümumdünya Heyvanları Müdafiə Günü” mövzusu ilə bağlı təqdimat hazırlayın.

**Müəllimin nəzərinə!** Sinfin texniki təchizatını nəzərə alaraq müəllim araşdırma tapşırığını şagirdlərə bir gün öncədən tapşıra bilər. Tapşırıq qruplarla iş formasında yerinə yetirildiyi üçün qrupların da bir gün öncə müəyyən edilməsi arzuolunandır. Bu, qrup üzvləri arasında əvvəlcədən iş bölgüsünün aparılmasına kömək edə bilər. Qrupların hazırlayacağı təqdimatın mövzusunun püşkatma üsulu ilə müəyyənləşdirilməsi tövsiyə edilir.

Təqdimat materialının dizaynına xüsusi diqqət yetirilir. Sinfin kompüter təchizatı imkan verərsə, təqdimatın slaydlar şəklində hazırlanması arzuolunandır.

**I qrup:**

**Heyvan sığınacaqlarına yardım ilə bağlı elana nümunə:**

2024-cü il oktyabr ayının 4-də saat 11:00-da 18 nömrəli məktəbdə şagirdlərin təşəbbüsü ilə yaradılan “Heyvansevərlər” klubu tərəfindən sahibsiz heyvanlara yardım üçün xeyriyyə aksiyası keçiriləcək. Aksiyada şagirdlər tərəfindən hədiyyə edilmiş müxtəlif növ kitablar, evdə hazırlanmış un məmulatları və aksesuarlar təqdim olunacaq. Toplanmış vəsait sahibsiz heyvanların qida, həkim və sığınacaq xərclərinin ödənişinə sərf olunacaq.

Məktəb rəhbərliyi

**II qrup:**

**Mövzu üzrə çağırış xarakterli plakata nümunə:**




**III qrup:**

**Heyvanların kütləvi ovlanmasına qarşı etiraz posterinə nümunə:**

Layihə



**IV qrup:**
**Heyvanların müdafiəsi ilə bağlı təkliflər planına nümunə:**
Heyvan dərisindən və yaxud xəzindən əşyalar hazırlanmasın.
Heyvan dərisindən və yaxud xəzindən hazırlanan əşyalardan istifadə edən insanlar cərimələnsin.
Heyvanların ovlanmasına limit qoyulsun.
Heyvanlar öz mühitindən uzaqlaşdırılmasın.
Sahibsiz itlər və pişiklər üçün sığınacaqlar yaradılsın.
**Formativ qiymətləndirmə**
Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək ifadələrin mənasını müəyyən edir. | Tapşırıq a (dərslik) |
| Fikrini əsaslandırmaqla fakt və hadisələrə münasibət bildirir. | Tapşırıq b (dərslik) |
| Təqdimat zamanı fikirlərin məntiqi ardıcıllığına riayət edir. | Tapşırıq c (dərslik) |

# 5-ci DƏRS
## Say və onun məna növləri. Miqdar sayının növləri

**Təlim nəticələri:**
• Kontekstdən və qrammatik formadan çıxış edərək sözlərin qrammatik-semantik xüsusiyyətlərini izah edir (st. 4.1.3).

**Mövzuya yönəltmə.** Müəllim lövhədə iki cümlə yazır:
1. Rəfdə beş kitab var idi.
2. Rəfdən beşinci kitabı götürüb mənə ver.
Daha sonra şagirdlərə müraciətlə soruşur:
– Hansı cümlədə fərqləndirilmiş söz kitabın miqdarını bildirir?
– Bəs hansı cümlədə fərqləndirilmiş söz kitabın sırasını bildirir?
**Dərslik, səh. 48**

**a.** Hansı saylar aid olduğu varlığın miqdarını, hansılar sırasını bildirir?

Cavab:
Varlığın miqdarını bildirən sözlər: beş dəftər, az su, xeyli qab, beş yüz il
Varlığın sırasını bildirən sözlər: üçüncü qapı, birinci sinif
Müəllim şagirdlərin diqqətini “Bunları bilməliyik” rubrikasına yönəldir.
**“Bunları bilməliyik” rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları və nümunələri şərh edir.

**Dərslik, səh. 48**

**b.** Cümlələrdəki sayları seçib mənaca növünü müəyyən edin.

Cavab:
1. Heyvanların Beynəlxalq Müdafiəsi Günü **1931-ci** ildən qeyd olunur. (sıra sayı)
2. **Bir** əldə **iki** qarpız tutmaq olmaz. *(Atalar sözü)* (miqdar sayı)
3. O hadisədən **xeyli** vaxt keçmişdi. (miqdar sayı)
4. Məhsulun **üçdə biri** xarab olmuşdu. (miqdar sayı)

**"Bunları bilməliyik" rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları və nümunələri şərh edir.

**Dərslik, səh. 48**

**c.** Verilmiş sayları müvafiq varlıqlara aid edərək cümlədə işlədin və miqdar sayının hansı növünə aid olduğunu müəyyən edin.

Cavab: müəyyən miqdar sayı: iki yüz əlli, dörd
qeyri-müəyyən miqdar sayı: xeyli
kəsr sayı: üç tam onda beş

**Dərslik, səh. 48**

**ç.** Nöqtələrin yerinə uyğun saylar yazaraq cümlələri tamamlayın. Sayların növünü müəyyən edin.

Cavab:
1. **Xeyli** söhbətdən sonra razılığa gəldilər. (qeyri-müəyyən miqdar sayı)
2. Sahənin **üçdə bir** hissəsinə artıq dərman səpilmişdi. (kəsr sayı)
3. Bu qüllənin hündürlüyü **18** metrdir. (müəyyən miqdar sayı)
4. Bu gün **altıncı** siniflər arasında yarış keçiriləcək. (sıra sayı)
5. İbtidai sinif şagirdləri **birinci** sırada əyləşdilər. (sıra sayı)
6. Yer kürəsinin **dörddə üç** hissəsi sudan ibarətdir. (kəsr sayı)

**İş dəftəri, səh. 25**

**a.** Cümlələrdə sayları müəyyənləşdir və məna növünü qeyd et.

Cavab:
1. Sabah tətilin **sonuncu** günüdür. (sıra sayı)
2. **Üç** gün idi ki, payız yağışı ara vermirdi. (miqdar sayı)
3. Everest dəniz səviyyəsindən **8848** metr yüksəklikdə yerləşir. (miqdar sayı)
4. O, **yüzlərlə** xəstəni sağlamlığına qovuşdurdu. (miqdar sayı)
5. Taxılın **dörddə biri** anbarlara daşındı. (kəsr sayı)
6. **2020-ci** ildə Şuşa işğaldan azad edildi. (sıra sayı)

**İş dəftəri, səh. 25**

**b.** Hansı cümlədə qeyri-müəyyən miqdar sayı işlənmişdir?

Cavab: d. Azadlıq meydanına **minlərlə** insan toplaşmışdı.

**İş dəftəri, səh. 25**

**c.** Miqdar sayının növlərinə aid nümunələr yazmaqla cədvəli tamamla.

Şagirdlər miqdar sayının növlərinə aid müxtəlif nümunələr yaza bilərlər.

**İş dəftəri, səh. 25**

**ç.** Sayın məna növlərinə görə biri məntiqi ardıcıllığı pozur:

Cavab:
I sırada d variantında verilmiş "beş" müəyyən miqdar, digərləri isə qeyri-müəyyən miqdar sayıdır.
II sırada c variantında verilmiş "üçüncü" müəyyən miqdar, digərləri isə kəsr sayıdır.

Layihə

III sırada a variantında verilmiş "bir" müəyyən miqdar, digərləri isə sıra sayıdır.

IV sırada c variantında verilmiş "bir neçə" qeyri-müəyyən miqdar, digərləri isə müəyyən miqdar sayıdır.

**İş dəftəri, səh. 25**

**d.** Sayın məna növlərinə görə məntiqi ardıcıllığı davam etdir.

Cavab:

Sıra sayları: üçüncü, yeddinci, **beşinci**

Kəsr sayları: beşdə bir, dörddə iki, **dörddə üç**

Qeyri-müəyyən miqdar sayı: çoxlu, dörd-beş, **xeyli**

Miqdar sayı: yüz min, iyirmi altı, **milyon**

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən və qrammatik formadan çıxış edərək sözlərin qrammatik-semantik xüsusiyyətlərini izah edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

# 3-cü fəsil
# HEYVANLARDA DOĞMALIQ HİSSİ

## 1-ci DƏRS
## Həsrət

**Təlim nəticələri:**
- Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
- Açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir (st. 3.1.3).
- Təhkiyəçini dəyişməklə mətni nəql edir (st. 2.1.3).
- Eyni mövzuda olan mətnləri məzmun və ideya baxımından müqayisə edir (st. 3.1.5).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 49**

**a.** Sizcə, öz mühitindən ayrılmaq heyvanların həyat tərzinə necə təsir edir?

Bu motivasiya tapşırığı şagirdlərin diqqətini fəslin mövzusuna yönəldir. Müəllim şagirdlərdə "beyin fırtınası" yaratmaq üçün düşündürücü suallar verə bilər:

– Sizcə, pinqvinlər hansı mühitdə rahat yaşayarlar? Nə üçün belə düşünürsünüz?

– Təsəvvür edin ki, ağ ayını Şimal Buzlu okeanın sahillərindən, buzlaqlardan ayırıb səhralara gətirirlər. Bu onun həyatına necə təsir edər?

**Oxu**

**Mətnlə iş.** Şagirdlər verilmiş vaxt ərzində "Həsrət" mətninin bir hissəsini səssiz oxuyurlar, onlara tanış olmayan söz və ifadələri dəftərlərində qeyd edirlər.

**Dərslik, səh. 49**

**b.** Sizcə, mətnin baş qəhrəmanı kimdir? Mətndən uyğun cümlələri oxumaqla seçiminizi əsaslandırın.

Şagirdlər mətndən aşağıdakı cümlələri seçib oxuyurlar:
- Şuşanın başı üzərinə yağan alovlu mərmilərdən ürkərək meşəyə tərəf qaçmışdı.
- Saatlarca həyətdə vurnuxdu, o tərəf, bu tərəfə qaçaraq sahibini axtardı, axtardı... tapmadı.

"Ürkmək" və "qorxmaq" sözləri yaxınmənalı olsalar da, "ürkmək" sözü, adətən, heyvanlar haqqında söylənilir. Digər cümlədə "vurnuxmaq" və "sahibini axtarmaq" ifadələri də baş qəhrəmanın dördayaqlı dostlarımızdan biri olduğunu göstərir.

**Söz ehtiyatı**

**Dərslik, səh. 50**

Müəllim oxu prosesində tanış olmayan və "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını izah edir.

**Dərslik, səh. 51**

**c.** Mətnin məzmununa əsasən "cıdır" sözünün mənasını təxmin edin, sonra lüğət vasitəsilə dəqiqləşdirin. Cümlələrdə bu sözün yazılışına diqqət edin. Sizcə, nə üçün ikinci cümlədə bu söz böyük hərflə yazılmışdır?

Cavab:

"Cıdır" sözünün mənası "at yarışı" deməkdir. Məsələn, cıdıra çıxmaq, yəni at yarışına çıxmaq, at yarışında iştirak etmək, at çapmaqda yarışmaq anlamına gəlir.

Cıdır düzü – Şuşa şəhəri yaxınlığında yerləşən, tarixən cıdır yarışlarının keçirildiyi və Qarabağ xanlığı dövründən yerli türk əhalinin Novruz bayramını, bir çox yarışları keçirdiyi ərazi.

**Dərslik, səh. 51**

Layihə

**ç.** Mətndən verilmiş cümlədə "dilini tapmaq" ifadəsi hansı mənada işlənib?

Cavab: Mətndə "dilini tapmaq" ifadəsi anlaşmaq, yola getmək, nə istədiyini anlamaq mənasında işlənmişdir.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 51**

**d.** Mətnin məzmununa əsasən cümlələri tamamlayın.

Cavab:

1. Həmişə hay-küylü olan evdən səs-səmir gəlmirdi, çünki Şuşa tamam boşalmış, tərk edilmişdi.
2. Yeni sahibin Qarabağ atlarına xüsusi marağı var idi, çünki İsveçrədə yaşasa da, uşaqlığı Qarabağda keçmişdi.
3. At yemək-içməkdən kəsildi, çünki doğma yurdu üçün darıxırdı.
4. At artıq yeni sahibinə öyrəşmişdi, çünki bu adam ona istədiyi otu, suyu gətirmişdi. Bundan başqa, o, atın dilini tapmışdı, onunla azərbaycanca danışırdı.
5. Qarabağ gözəli finiş xəttini təkbaşına keçdi, çünki o, Lorensi belindən atmışdı.

**Dərslik, səh. 51**

**e.** Mətndə müəllif ata ad verməyib. İllüstrasiyalara və atın xüsusiyyətlərinə istinad edərək ata ad verin. Niyə məhz bu adı seçdiyinizin səbəbini izah edin.

Şagirdlərin cavabları müxtəlif ola bilər.

**Müəllimin nəzərinə!** Heyvanlara ad seçərkən onların rənginə, xarici görünüşündəki fərqli cəhətlərə, xüsusiyyətlərə diqqət edildiyini şagirdlərin nəzərinə çatdırmaq məqsədəuyğundur.

**Dərslik, səh. 51**

**ə.** Hekayə neçənci şəxsin dilindən nəql olunur?

Cavab: Hekayəni III şəxs, yəni müəllif danışır.

**"Sözlərin izahı" rubrikası.** Bu rubrikada verilmiş "təhkiyə" və "təhkiyəçi" sözlərinin mənası izah edilir. Məsələn, "Həsrət" mətnində dialoqdan istifadə edilməyib, bütün hekayə müəllifin dilindən söylənir.

**Dərslik, səh. 51**

**f.** Mətni elə nəql edin ki, təhkiyəçi hekayənin baş qəhrəmanı olsun.

Tapşırığı qruplarla yerinə yetirmək tövsiyə edilir. Hər qrup bir yarımbaşlığa aid nitq hazırlayır.

**I qrup baş qəhrəmanın tərk edilmiş yurdundan ayrılanda keçirdiyi hissləri təsvir edir. Onların nitqinə nümunə:**

Şuşanın başı üzərinə alovlu mərmilər yağırdı. Ürküb meşəyə tərəf qaçdım. Atəş kəsiləndən sonra evimə qayıtdım. Küçələr bomboş idi. Həmişə hay-küylü olan evimdən səs-səmir gəlmirdi. Saatlarca həyətdə vurnuxdum, o tərəf, bu tərəfə qaçaraq sahibimi axtardım, amma tapmadım. Ağladım. Ağlıma sığışdıra bilmirdim ki, hər gün məni tumarlayan əllər necə yox ola bilər.

Birdən həyətə bir dəstə qara geyimli adam doluşdu. Onları görən kimi gizlənməyə yer axtardım. Çünki insanları öldürdüklərini görmüşdüm. Lakin gizlənə bilmədim, qara geyimlilər məni gördülər, tanış olmayan dildə bir-birinə nəsə deyib güldülər. Məni dövrəyə alaraq tutmağa çalışdılar. Çırpınaraq xilas olmağa çalışdım, amma bacarmadım, məni tutdular! Zorla yük maşınına qaldıranda dırnaqlarım ilə yeri eşib doğma torpağın bir parçasını özümlə apardım.

**II qrup atın yeni sahibi, yeni evi haqqında düşüncələrindən bəhs edir. Onların nitqinə nümunə:**

Məni Lorens adlı bir əcnəbiyə satdılar. O mənə yaxşı qulluq edirdi: oxşayıb əzizləyirdi, qarşıma ot qoyurdu. Lakin mən öz doğma yurdumu, yaşıl çəmənliklərimi istəyirdim. Yeni sahibim cürbəcür ot gətirirdi, amma nə qədər çalışsa da, ona isinişə bilmirdim, öz sahibimi axtarırdım, onun üçün, yurdum üçün çox darıxırdım. Bir gün Lorens mənim qarşıma yenə bir dəstə ot qoydu. Otun iyini alanda dəli



Layihə

kimi kişnədim, əvvəlcə otu yaladım, yaladım, sonra acgözlüklə yeməyə başladım. Suyu da bol-bol içəndən sonra dizlərimi bükərək başımı otun üstünə qoydum, qoxusunu içimə çəkməyə başladım. Yeni sahibim mənimlə Azərbaycan dilində danışmağa başladı. Doğma sözləri eşidəndə bir qədər ona isinişdim.

**III qrup yarış zamanı sahibini belindən atmasının səbəbini izah edir. Onların nitqinə nümunə:**

Lorens məni yarışa aparmışdı. Jokey Lorens özü idi. Yarış başladı. İşarə verilən kimi ildırım sürəti ilə irəli atıldım. Rəqiblərimi bir-bir arxada qoyaraq irəli keçdim. Birdən Lorens mənə tanış olmayan bir dildə bağırdı. Ayaqlarım altındakı torpağın yadlığını hiss etdim. İxtiyarsız başımı qaldırıb qarşıdakı nəhəng düzəngaha, onun sonunda görünən dağlara baxdım. Mənə elə gəldi ki, qarşımdakı Cıdır düzüdür. Var qüvvəmlə irəli atıldım. Finişə çatmağa bir neçə addım qalmışdı, Lorens yenə də öz dilində bağırdı. Bu bağırtı məni diksindirdi. Şahə qalxaraq dəli bir kişnərti çəkdim. Lorens məni qamçı ilə vuranda bir də şahə qalxdım və qəzəblə ayaqlarımı yerə çırpdım. Bu zərbədən sanki torpaq titrədi. Üçüncü dəfə şahə qalxaraq dəli bir kişnərti ilə Lorensi belimdən atdım və finiş xəttini təkbaşına keçərək öz cıdırıma sarı üz tutdum.

Məni həsrət bürümüşdü. Baş götürüb doğma yurduma doğru qaçırdım. Bu yerlər nə qədər gözəl olsa da, nə qədər Qarabağ çöllərini xatırlatsa da, yad idi, yadların idi. Mən isə öz yurdumu, öz torpağımı axtarırdım, ona görə də dəli kimi ürəyim atlana-atlana qaçır, qaçır, qaçırdım...

**Dərslik, səh. 51**

**g.** Bu bölmədə oxuduğunuz "İşıq", "Qara İnci" və "Həsrət" mətnlərini müqayisə edin. Əsərlərin mövzusu, ideyası və təhkiyə forması arasındakı fərqli və oxşar cəhətləri müəyyən edin.

Cavab: "İşıq", "Qara İnci" mətnlərinin mövzusu və ideyası eynidir. Heyvanlara qayğı göstərməyin, onları müdafiə etməyin vacib olması bu əsərlərin əsas ideyasıdır. "İşıq", "Qara İnci" mətnlərinin təhkiyə forması da eynidir. Hər iki mətn I şəxsin dilindən nəql edilir.

"Həsrət" mətninin mövzusu vətənpərvərlikdir. İdeyası isə belədir: "Yurd həsrəti bütün canlılar üçün eynidir. Sədaqət rəmzi sayılan dördayaqlı dostlarımız belə doğma yurdu unutmurlar". "Həsrət" mətninin təhkiyə forması ilk iki mətndən fərqlənir. Belə ki, burada hadisələr III şəxsin dilindən nəql edilir.

**İş dəftəri, səh. 26**

**a.** "Həsrət" mətninə aid hekayə xəritəsini tamamla.

Tapşırıq şagirdlərin mətndə açıq şəkildə ifadə olunmuş informasiyanı necə qavradıqlarını yoxlamağa imkan yaradır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq c, ç (dərslik) |
| Açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir. | Tapşırıq d (dərslik); a (iş dəftəri) |
| Təhkiyəçini dəyişməklə mətni nəql edir. | Tapşırıq ə, f (dərslik) |
| Eyni mövzuda olan mətnləri məzmun və ideya baxımından müqayisə edir. | Tapşırıq g (dərslik) |

# 2-ci DƏRS
# Qarabağ atları

**Təlim nəticələri:**
- Mətnin tərkib hissələrini müəyyən edir (st. 3.1.5).
- Açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir (st. 3.1.3).
- Mətni dil-üslub xüsusiyyətlərinə görə təhlil edir (st. 3.1.5).
- Eyni mövzuda olan mətnləri məzmun və ideya baxımından müqayisə edir (st. 3.1.5).

**Mövzuya yönəltmə.** Müəllim sinfin təchizatından asılı olaraq şagirdlərə Cıdır düzündən, Qarabağ atlarından bəhs edən kiçik kadrlar və yaxud şəkillər nümayiş etdirə bilər.

**Dərslik, səh. 52**

**a.** Mətni oxuyun və yarımbaşlıqlara ayırıb adlandırın.

**Mətnlə iş.** Şagirdlər verilmiş vaxt ərzində "Qarabağ atları" mətnini səssiz oxuyurlar, onlara tanış olmayan söz və ifadələri dəftərlərində qeyd edirlər. Sözlərin mənasını lüğət vasitəsilə araşdırır və yaxud müəllimdən soruşurlar.

Cavab: Mətni aşağıdakı yarımbaşlıqlara ayırmaq olar:
I abzas – Qarabağ atlarının yayıldığı ərazi
II abzas – Qarabağ atlarının görünüşü
III və IV abzas – Qarabağ atlarının tipi

**Söz ehtiyatı**

**Dərslik, səh. 52**

**b.** Mətndən rəng bildirən sözləri seçin və lüğətin köməyi ilə mənasını izah edin. Hansı rəng bildirən sözlər yalnız atlar haqqında işlədilir?

Mətndə izaha ehtiyacı olan rəng bildirən sözlər:
kürən – saçı, tükü parıltılı sarı-qırmızı rəngdə olan, sarımtıl
qonur – şabalıd rəngli, açıq-qəhvəyi
kəhər – açıq-şabalıdı rəng

"tünd-şabalıdı", "boz", "parlaq qızılı-kürən" sözləri də rəng bildirir, yalnız xüsusi izaha ehtiyac duyulmur.

"Kəhər" sözü yalnız atlar haqqında işlənir.

**Oxuyub-qavrama**

**İş dəftəri, səh. 27**

**a.** "Qarabağ atları" mətninə əsasən fikirlərin doğru, yoxsa yanlış olduğunu müəyyən et.

Cavab: 1 – D, 2 – Y, 3 – D, 4 – D, 5 – Y, 6 – D.

**İş dəftəri, səh. 27**

**b.** Aşağıdakı fikirlər hansı mətnə aiddir? Uyğun cavab variantını seç.

Cavab:
1. Qarabağ atları haqqında danışılır. **C**
2. Qeyri-bədii mətndir. **A**
3. Mətndə dəqiq və konkret faktlara daha çox yer ayrılıb. **A**
4. Mətn 3-cü şəxsin dilindən yazılıb. **C**
5. Mətndə bənzətmə və məcazi mənalı sözlərdən istifadə edilib. **B**
6. Qarabağ atları haqqında sistemli məlumat verilir. **A**

**Dərslik, səh. 52**

**c.** Mətnin 2–4-cü abzaslarını məzmuna uyğun yarımbaşlıqla adlandırın.

Layihə

Cavab: Qarabağ atlarının görünüşü

**Dərslik, səh. 52**

**ç.** Sağ tərəfdə verilmiş qrafik informasiyaya əsasən mətnə "Qarabağın simvolu" adlı yarımbaşlıq əlavə edib yazın.

**"Qarabağın simvolu" yarımbaşlığına aid nümunə:**

Qarabağ atları Qarabağın simvoluna çevrilib. Məsələn, gerblərdə doğma torpağın, onun təbiətinin sərvətləri, adamlarının əməyi, qəhrəmanlığı əks olunur. Qarabağ xanlığının mərkəzi sayılan Şuşanın gerbində yaşıl sahədə çapan qızıl Qarabağ atı təsvir edilmişdir. Hətta "Qarabağ" futbol klubunun loqotipində Qarabağ atlarının təsvirini görmək olar.

**Dərslik, səh. 52**

**d.** "Qarabağ atları" mətni bu bölmədə oxuduğunuz digər mətnlərdən nə ilə fərqlənir?

Cavab: Bu fəsildə təqdim edilmiş "İşıq", "Qara İnci" və "Həsrət" mətnləri bədii mətnlərdir, lakin "Qarabağ atları" qeyri-bədii mətndir. İlk üç mətnin müəllifinin məqsədi oxucunu hər hansı bir mənəvi dəyər haqqında düşündürməkdir. "Qarabağ atları" mətni isə oxucuya bir at cinsi haqqında faktlar təqdim edir, onu məlumatlandırır.

**İş dəftəri, səh. 27**

**c.** Mətnə əsasən Qarabağ atları haqqında məlumat vərəqi tərtib et.

Şagirdlər Qarabağ atları ilə bağlı məlumat vərəqi hazırlamaqla mətnin məzmununu və strukturunu anladıqlarını nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin tərkib hissələrini müəyyən edir. | Tapşırıq a, c, ç (dərslik) |
| Mətni dil-üslub xüsusiyyətlərinə görə təhlil edir. | Tapşırıq b (dərslik) |
| Açıq şəkildə ifadə olunmuş informasiyanı mənimsədiyini nümayiş etdirir. | Tapşırıq a, b, c (iş dəftəri) |
| Eyni mövzuda olan mətnləri məzmun və ideya baxımından müqayisə edir. | Tapşırıq d (dərslik) |

# 3-cü DƏRS
# Miqdar saylarının yazılışı

**Təlim nəticələri:**
- Sayların yazılış qaydalarına əməl edir (st. 4.1.3).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 53**

**a.** Hansı cümlədəki sayı yazıda rəqəmlə ifadə etmək olmur?

Cavab: 1-ci cümlədəki sayları (bir neçə və çoxlu) rəqəmlə ifadə etmək mümkün deyil.

Tapşırıq şagirdlərin diqqətini miqdar saylarının yazılışına yönəldir.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları və nümunələri şərh edir.

**Dərslik, səh. 53**

**b.** Yalnız sözlə ifadə olunan sayları seçib cümlədə işlədin.

Layihə

Cavab: bir neçə, milyonlarla, yüzlərlə, çoxlu, xeyli.
**Dərslik, səh. 53**

**c.** Verilmiş sayları sözlə ifadə edib yazın.

Cavab: beşdə üç, bir tam onda beş, yüzdə qırx beş, ikidə bir.
**Dərslik, səh. 53**

**ç.** Hansı cümlələrdə sayın yazılışında səhvə yol verilmişdir? Qaydalara istinad edərək səhvləri izah edin.

Cavab:

1. Noyabrın 9-unda deyil, noyabrın 9-da yazılmalıdır. Çünki saylar eyni zamanda həm mənsubiyyət, həm də hal şəkilçisi qəbul edərsə, rəqəmdən sonra yalnız hal şəkilçisi yazılır.

2. 1000-lərlə deyil, minlərlə yazılmalıdır. "Minlərlə" qeyri-müəyyən miqdar sayı yalnız sözlə ifadə olunur.

3. May ayının 5-indədir deyil, 5-dədir yazılmalıdır. Çünki saylar eyni zamanda həm mənsubiyyət, həm də hal şəkilçisi qəbul edərsə, rəqəmdən sonra yalnız hal şəkilçisi yazılır.

**Dərslik, səh. 53**

**d.** Altından xətt çəkilmiş sayları rəqəmlə ifadə edin.

Cavab: Qarabağ atlarına həsr olunmuş ilk poçt markası 1993-cü il fevralın 1-də buraxılmışdır. Növbəti markalar isə 1995-ci il noyabrın 30-da, 2006-cı il iyunun 27-də və 2011-ci il noyabrın 16-da "Azərmarka" şirkəti tərəfindən təqdim edilmişdir.

**İş dəftəri, səh. 28**

**a.** Sayların yazılışında səhvi tap və düzgün yaz.

Cavab:

| Yanlış | Düzgün |
|---|---|
| şagirdlərin 3-ünə | şagirdlərin 3-nə |
| ayın 4-ündədir | ayın 4-dədir |
| martın 21-ində | martın 21-də |
| qoyunların 2-sində | qoyunların 2-də |

**İş dəftəri, səh. 28**

**b.** Miqdar saylarından sonra uyğun şəkilçi artırmaqla cümlələri tamamla.

1. Səidə 8-ə 10 dəqiqə işləmiş yuxudan oyandı.
2. Uşaqların 6-sı bu gün dərsə gəlməmişdi.
3. Qardaşımın ad günü ayın 28-dədir.
4. Dərnəkdə dərslər saat 2-dən 5-ə qədər davam edir.
5. Uçuş mayın 9-u saat 3-dədir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sayların yazılış qaydalarına əməl edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

# 4-cü DƏRS
# Sıra saylarının yazılışı

**Təlim nəticələri:**
- Sayların yazılış qaydalarına əməl edir (st. 4.1.3).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 54**

**a.** Cümlələrdə işlənmiş saylar varlığın miqdarını, yoxsa sırasını bildirir?

Tapşırıq şagirdlərin diqqətini sıra saylarına yönəldir. Cavab: Cümlələrdə sıra sayları işlənmişdir.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim rubrikada sıra sayları haqqında verilmiş məlumatları və nümunələri şərh edir.

**Dərslik, səh. 54**

**b.** Sıra saylarının yazılış qaydalarına aid iki nümunə yazın.

Cavab: Sözlə: beşinci, on doqquzuncu
Ərəb rəqəmləri ilə: 5-ci, 19-cu
Roma rəqəmləri ilə: V, XIX

**Dərslik, səh. 54**

**c.** Sayları Roma rəqəmləri ilə ifadə edərək cümlədə işlədin.

Cavab: XIX əsr, II Qarabağ müharibəsi, III minillik

**Dərslik, səh. 54**

**ç.** Hansı cümlələrdə sayın yazılışında səhvə yol verilmişdir? Qaydalara istinad edərək səhvləri izah edin.

Cavab: 2. 2-inci deyil, 2-ci kimi yazılmalıdır. Çünki ərəb rəqəmləri ilə ifadə olunduqda -ıncı⁴ şəkilçisinin birinci hecası ixtisar olunur.

3. XXI-inci deyil, XXI kimi yazılmalıdır. Çünki sıra sayları Roma rəqəmləri ilə ifadə olunduqda şəkilçidən istifadə olunmur.

5. 1895-inci deyil, 1895-ci kimi yazılmalıdır. Çünki ərəb rəqəmləri ilə ifadə olunduqda -ıncı⁴ şəkilçisinin birinci hecası ixtisar olunur.

**Dərslik, səh. 54**

**d.** Dördündən biri say deyil:

Cavab: Birinci sırada "bir dəfə", ikinci sırada "onluq" sözləri say deyil.

**Dərslik, səh. 54**

**e.** Sözləri kök və şəkilçiyə ayırın. Hansı sözdə şəkilçi ilk saitini itirdi? Sizcə, bunun səbəbi nədir?

Cavab: bir-inci, üç-üncü, beş-inci, altı-ncı. "Altıncı" sözündə -ıncı şəkilçisi ilk saitini itirdi. Çünki "altı" sözü saitlə bitib.

**İş dəftəri, səh. 28**

**c.** Verilmiş sözlərə -ıncı⁴ şəkilçisi artırıb yaz. Həmin sözləri rəqəmlə ifadə et.

Cavab:

| Sözlə | Rəqəmlə |
|---|---|
| qırxıncı | 40-cı |

Layihə

| | |
|---|---|
| beşinci | 5-ci |
| doqquzuncu | 9-cu |
| üçüncü | 3-cü |

**İş dəftəri, səh. 28**

**ç.** Sayları Roma rəqəmləri ilə yaz.

Cavab: I, VII, X, XV, XI, IX, XIII, XIX

**İş dəftəri, səh. 28**

**d.** Düzgün yazılış variantını seç.

Cavab: 1. XXI əsr yüksək texnologiyalar əsridir.
2. Kitabxana 4-cü mərtəbədə yerləşir.
3. Sinfimizin II yarımil üzrə göstəriciləri yüksəkdir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Sayların yazılış qaydalarına əməl edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

# Ümumiləşdirici təkrar

**Təlim nəticələri:**
- Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir (st. 4.1.3).
- Sözlərin bitişik, ayrı və defislə yazılış qaydalarına riayət edir (st. 4.1.2).
- Sayların yazılış qaydalarına əməl edir (st. 4.1.3).

Dərslikdə və iş dəftərində verilmiş ümumiləşdirici təkrar müəllimə şagirdlərin bölmə üzrə keçilmiş mövzular haqqında aldıqları bilikləri möhkəmləndirməyə imkan yaradır.

**Dərslik, səh. 55**

**1.** Sifətləri cədvəl üzrə qruplaşdırın.

| Adi | Azaltma | Çoxaltma |
|---|---|---|
| cəsarətli | uzunsov | masmavi |
| müdrik | turştəhər | ən böyük |
| dairəvi | göytəhər | tərtəmiz |
| doğma | sarımtıl | dümqırmızı |
| qısa | | dosdoğma |
| xəstə | | daha düzgün |
| səxavətli | | |

**Dərslik, səh. 29**

**2.** Nöqtələrin yerinə uyğun sifətlər artırıb cümlələri tamamlayın.

Cavab:
1. Dənizin **təmiz** suyu, ləpələrin həzin səsi məni sakitləşdirirdi. (adi dərəcədə)
2. Bu ərazinin **yamyaşıl** meşələri göz oxşayırdı. (m, p, r, s samitləri ilə düzələn çoxaltma dərəcəsində)
3. Nazik qabıqlı narların **turştəhər** dadı olur. (təhər sözü ilə düzələn azaltma dərəcəsi)
4. Yay tətilində **çox maraqlı** bir kitab oxudum. (çox sözü ilə düzələn çoxaltma dərəcəsi)
5. Bu dəfə qarpız yaxşı çıxmadı, **kəmşirin** dadı var idi. (kəm sözü ilə düzələn azaltma dərəcəsi)

**Dərslik, səh. 55**

**3.** Fərqləndirilmiş sözlərin düzgün yazılışını müəyyən edin.

Cavab:
1. tünd-yaşıl, açıq-yaşıl
2. şirintəhər
3. qapqara
4. ən yaxın
5. ala-yarımçıq
6. açıqürəkli

**Dərslik, səh. 55**

**4.** Cümlələrdəki sayları seçib mənaca növünü müəyyən edin.

Cavab:
1. Rizvan müəllim **2-3** gün işə çıxmadı. (qeyri-müəyyən miqdar sayı)
2. Şeirin **birinci** bəndini şərh edin. (sıra sayı)
3. **1914-cü** ildə "Leyli və Məcnun" operası Tiflisdə tamaşaya qoyulmuşdu. (sıra sayı)
4. Yolun **üçdə iki** hissəsi arxada qalmışdı, bir azdan kəndə çatmalı idik. (kəsr sayı)
5. Viktoriya və Albert Muzeyi "Şeyx Səfi" xalçasını **2000** funt sterlinqə satın aldı. (müəyyən miqdar

Layihə

sayı)

**Dərslik, səh. 55**

**5.** Hansı cümlədəki sayı rəqəmlə ifadə etmək mümkün deyil?

Cavab: c. Yaylaqda **onlarla** alaçıq qurulmuşdu.

**Dərslik, səh. 55**

**6.** Düzgün yazılış variantlarını seçin.

Cavab:

1. Uşaqların Beynəlxalq Müdafiəsi Günü iyunun 1-idir.
2. Konsert yanvar ayının 17-dədir.
3. Aprelin 3-dən tətil günləri başlayır.

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin dil qaydaları üzrə aldıqları biliklərin möhkəmləndirilməsinə yönəlib.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir. | Tapşırıq 1, 4 (dərslik) |
| Sözlərin bitişik, ayrı və defislə yazılış qaydalarına riayət edir. | Tapşırıq 2, 3 (dərslik) |
| Sayların yazılış qaydalarına əməl edir. | Tapşırıq 5, 6 (dərslik) |

Layihə

# Bölmə 3 TARİXİ DƏYİŞDİRƏN ALİMLƏR

| Dərs | Mövzu | Məzmun xətti | Dərslik səh. | İş dəftəri səh. | Metodik vəsait səh. |
|---|---|---|---|---|---|
| 1-ci fəsil. **Elmin gücü** | | | | | |
| 1 | Arximed | Oxu | 58-59 | 30 | 79-80 |
| 2 | Sirli ada<br>Arximed möcüzəsi: mif, yoxsa reallıq? | Dinləmə. Oxu | 60-62 | 31 | 80-83 |
| 3 | Arximed vinti | Oxu. Danışma | 62-63 | | 83-84 |
| 4 | Evrika | Dinləmə | 64 | 32 | 84-87 |
| 5 | Saylardan sonra isimlərin təkdə və ya cəmdə olması | Yazı | 65 | 33 | 87-89 |
| 2-ci fəsil. **Təbiblərin hökmdarı** | | | | | |
| 6 | Əmir və Loğman | Oxu | 66-68 | 34 | 90-91 |
| 7 | İbn Sina | Oxu. Dinləmə. Danışma | 68-70 | 35-36 | 92-95 |
| 8 | Feilin zamana və şəxsə görə dəyişməsi | Yazı | 71 | 37 | 96-97 |
| 3-cü fəsil. **Dahilərin uşaqlığı** | | | | | |
| 9 | Karl Qauss | Oxu. Danışma | 72-75 | 38 | 98-100 |
| 10 | Eynşteyn dərslərindən “2” alırdı? | Dinləmə. Yazı | 75 | 39 | 100-102 |
| 11 | Zərfin məna növləri.<br>Zərfin digər nitq hissələri ilə ortaq xüsusiyyətləri | Yazı | 76 | 40 | 102-103 |
| 4-cü fəsil. **Cığır açan alimlər** | | | | | |
| 12 | İlk proqramçı | Oxu. Danışma | 77-79 | 41 | 104-106 |
| 13 | Görkəmli alimlər haqqında təqdimat | Danışma. Yazı | 79 | 42 | 106-107 |
| 14 | Ümumiləşdirici təkrar | Yazı | 80-81 | 43 | 108-110 |

Layihə

# GİRİŞ DƏRSİ

## Qədim Misirdə elm

**Təlim nəticələri:**
- Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür (st. 2.1.4).
- Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 2.1.3).
- Kontekstdən çıxış edərək ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
- Təqdimat zamanı fikirlərin məntiqi ardıcıllığına riayət edir (st. 2.1.3).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərin diqqətini bölmənin adına yönəldir və soruşur:

– Sizcə, bu bölmədə nədən danışılır?

Şagirdlər suala cavab verməklə bölmənin mövzusu haqqında fikirlərini bildirirlər. Bu mövzuda ilkin biliklərini nümayiş etdirirlər.

**Dərslik, səh. 56**

**a.** Qədim Misir haqqında nə bilirsiniz? Piramidaların tikintisi, suvarma sistemlərinin çəkilməsi hansı elmi biliklərdən xəbər verir?

Cavab: Şagirdlər bu sualı digər fənlərdən aldıqları bilgilərə əsasən cavablandırırlar.

**Dərslik, səh. 56**

**b.** Aşağıdakı şəkillər və faktlar əsasında “Qədim Misirdə elm” mövzusunda danışın.

Müəllim şagirdlərə aşağıdakı əlavə məlumatları verə bilər:

Misir Qədim Şərqin inkişaf etmiş mədəniyyət mərkəzlərindən biri hesab olunurdu. Qədim Misirdə elm çox inkişaf etmişdi. Məhz Misirdə böyük əhəmiyyətə malik olan elmi ixtiralar edilmişdi.

Yazı bəşəriyyətin ən böyük kəşflərdən biri hesab olunur. Miladdan əvvəl IV minillikdə Qədim Misir xalqı öz yazı sistemini yaratdı. Misir yazısı yüzlərcə heroqlifdən ibarət idi. Bəzi heroqliflər sözü, yəni anlayışı, bəziləri isə səsi ifadə edirdi. Bir çox heroqliflər insan, heyvan, bitki və səma cisimlərinin şəkillərindən ibarət idi. Heroqliflər həm də mücərrəd anlayışları ifadə edirdi. Məsələn, piktoqrafik yazıda günəş şəkli günəşi, quş şəkli quşu, arı şəkli arını ifadə edirdi. Misir yazısı çox böyük əhəmiyyətə malikdir. Bu yazı başqa yazıların yaranmasına təsir etmişdir.

Misir həkimləri insan orqanizmi barədə dərin biliklərə malik idilər. Onlar cərrahiyyə əməliyyatları aparır, hətta itirilmiş bədən üzvləri üçün protezlər düzəldirdilər. Arxeoloqlar Qədim Misir məzarlarından birində unikal fakt aşkar ediblər. Onlar 2000 il əvvəl ölmüş qızın mumiyalanmış cəsədində kətan bintlə sarınmış yara tapıblar. Müəyyən edilib ki, qədim misirlilər ilk fironların hakimiyyətə gəlməsindən təxminən min il əvvəl, yəni 6 min il öncə kiçik cərrahiyyə əməliyyatları, o cümlədən qırılmış sümüklərin birləşdirilməsi sahəsində böyük təcrübəyə malik olublar. Onlar həmçinin papiruslarda reseptləri göstərilmiş çoxsaylı dərmanlardan istifadə ediblər.

Misirlilər onluq hesablama sistemini yaratmaqla riyaziyyat sahəsində də böyük inkişafa səbəb oldular. Onlar milyona qədər sayır və ədədləri işarə etməyi bilirdilər. Riyazi biliklər tikinti və təsərrüfat işlərini düzgün qurmağa kömək edirdi.

Kainat və göy cisimləri haqqında biliklər təqvim yaratmağa imkan verdi. Misir təqviminə görə, bir il 12 aydan, bir ay 30 gündən, bir gün 24 saatdan ibarət idi. İlin sonuna 5 gün əlavə edirdilər. Bu hesabla, bir il 365 gündən ibarət idi. Onlar gecə-gündüzü 24 saata bölürdülər. Su və günəş saatları icad etmişdilər.

**Dərslik, səh. 57**

**c.** Aldığınız məlumatlara əsasən aşağıdakı fikirləri əsaslandırın.

“c” tapşırığını yerinə yetirməzdən əvvəl müəllim şagirdlərin diqqətini “Sözlərin izahı” rubrikasına yönəldir və “sivilizasiya” sözünün mənasını izah edir.

Layihə

Cavab:

1. Misirlilər ilkin riyazi biliklərə malik olublar. Onlar riyaziyyatda ən böyük müvəffəqiyyət sayılan onluq say sistemini yaradıblar.

2. Misirlilərin astronomiya sahəsində elmi təsəvvürləri var idi. Misirlilər təqvim yaratmışdılar.

3. Misir erkən mədəniyyət və sivilizasiyanın olduğu bir dövlət idi. Misir Qədim Şərqin inkişaf etmiş mədəniyyət mərkəzlərindən biri hesab olunurdu. Qədim Misirdə elm çox inkişaf etmişdi. Məhz Misirdə böyük əhəmiyyətə malik olan elmi ixtiralar edilmişdi.

**Söz ehtiyatı**

**Dərslik, səh. 57**

**ç.** Aşağıdakı ifadələrin mənasını izah edin və bölmənin mövzusu ilə əlaqələndirib şərh edin.

Şagirdlərin cavabı təxminən belə ola bilər:

"Tarixə düşmək" və "tarixin yaddaşına yazılmaq" ifadələri böyük xidmətləri ilə tarixin yaddaşında qalmaq, unudulmamaq, adı qalmaq, yadda qalmaq mənasını verir.

"Tarixi dəyişmək" isə mədəniyyət və sivilizasiyanın inkişafına təkan verən ixtiralara imza atmaq mənasında işlənir.

Bölmənin adından aydın olur ki, bu bölmədə tarixi dəyişdirən ixtiralar edən, öz yaradıcılığı ilə elmin və mədəniyyətin inkişafına səbəb olan, adını tarixin səhifələrinə yazdıran şəxslərdən, alimlərdən danışılacaq.

**Dərslik, səh. 57**

**d.** Aşağıda verilmiş izahlara əsasən müvafiq elm sahələri haqqında bildiklərinizi söyləyin.

Şagirdlər sözlərin izahı ilə tanış olurlar. Tapşırıqda qoyulmuş istiqamətləndirici suallar vasitəsilə müvafiq elm sahəsi haqqında bildiklərini danışırlar:

• Sizcə, bu elm sahələrinin tədqiqat obyekti nədir?
• Bu elm sahələri ilə məşğul olan alimlər necə adlanır?

Tapşırığı cütlərlə yerinə yetirmək də olar. Hər cütlüyün tapşırıqda verilmiş bir elm sahəsi haqqında danışması daha məqsədəuyğundur.

**Dərslik, səh. 57**

**e.** Qruplara ayrılaraq bu alimlər haqqında araşdırma aparın. Təqdimatınızda bu şəxslərin "tarixi dəyişdirən" alimlər olduğunu sübut edin.

**Müəllimin nəzərinə!** Sinfin texniki təchizatını nəzərə alaraq müəllim araşdırma tapşırığını şagirdlərə bir gün öncədən tapşıra bilər. Tapşırıq qruplarla iş formasında yerinə yetirildiyi üçün qrupların da bir gün öncə müəyyən edilməsi məqsədyönlüdür. Bu, qrup üzvləri arasında əvvəlcədən iş bölgüsünün aparılmasına kömək edə bilər.

Tapşırıqda verilmiş alimlər haqqında araşdırma aparan şagirdlər müzakirələr əsasında təqdimata hazırlaşırlar. Təqdimat materialının dizaynına xüsusi diqqət yetirirlər. Sinfin kompüter təchizatı imkan verərsə, təqdimatın slaydlar şəklində hazırlanması arzuolunandır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tapşırıq a, c, d (dərslik) |
| Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir. | Tapşırıq b (dərslik) |
| Kontekstdən çıxış edərək ifadələrin mənasını müəyyən edir. | Tapşırıq ç (dərslik) |
| Təqdimat zamanı fikirlərin məntiqi ardıcıllığına riayət edir. | Tapşırıq e (dərslik) |

Layihə

# 1-ci fəsil
# ELMİN GÜCÜ

## 1-ci DƏRS
## Arximed

**Təlim nəticələri:**
• Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 3.1.2).
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
• Mətndəki məlumatlardan çıxış edərək yeni informasiya əldə edir (st. 3.1.4).
• Mətnin tərkib hissələrini, struktur elementlərini (yarımbaşlıq) onun əsas məzmunu ilə əlaqələndirir (st. 3.1.5).

**Mövzuya yönəltmə**
**Dərslik, səh. 58**

**a.** Oxuyacağınız mətnə nəzər salın: başlığı və yarımbaşlıqları oxuyun.
Sizcə, hər hansı alim haqqında yazılan informativ mətnin strukturu necə olmalıdır?
• Girişdə hansı məlumatlar verilməlidir?
• Əsas hissə hansı yarımbaşlıqlardan ibarət ola bilər?
• Mətnin sonluğunda hansı məlumatlar öz əksini tapmalıdır?

Tapşırıqda qoyulmuş istiqamətləndirici suallar şagirdlərin diqqətini mətnin strukturuna yönəldir. Şagirdlər "Arximed" mətninin nümunəsində bioqrafik mətnlərin strukturu ilə tanış olurlar. Bioqrafik mətnlərdə hər hansı şəxsiyyətin həyat və fəaliyyəti xronoloji ardıcıllıqla əks etdirilir.

**Mətnlə iş.** "Arximed" mətni şagirdlər tərəfindən növbə ilə, hər yarımbaşlığı bir şagird tərəfindən oxunur.

**Söz ehtiyatı**
Müəllim "Söz mücrüsü"ndə və "Sözlərin izahı" rubrikasında verilmiş sözlərin mənasını şagirdlərə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.
**Dərslik, səh. 59.**

**b.** "Söz mücrüsü"ndən izahlara aid sözləri oxuyun.

Cavab: 1 – cisim, 2 – kütlə, 3 – həcm, 4 – maye, 5 – təməl.
**Dərslik, səh. 59**

**c.** Mətnin hər yarımbaşlığına aid 3 sual tərtib edin. Sualları sinfə təqdim edib cavablarınızı müzakirə edin.

Tapşırıq faktoloji qavramanı yoxlamaqla yanaşı, şagirdlərin diqqətini yenidən mətnin yarımbaşlıqlarına yönəldir.
**Dərslik, səh. 59**

**ç.** Mətndən aşağıdakı fikri sübut edən faktları müəyyən edin.

Şagirdlər mətndə qeyd olunan tarixləri, rəqəmləri müqayisə edərək birbaşa ifadə olunmayan məlumatları müəyyənləşdirirlər.

Cavab: Mətnin "Uşaqlığı və təhsili" yarımbaşlığında Arximedin anadan olduğu tarix göstərilmişdir. "Ömrünün son günləri" yarımbaşlığında isə vəfat tarixi qeyd edilmişdir. Şagirdlər bu məlumatlara əsasən Arximedin 75 il yaşadığını sübut edirlər.

Mətnin "Arximed qanunu", "Pi ədədi" yarımbaşlıqlarında riyaziyyat və fizika elmlərinin inkişafında

Layihə

Arximedin mühüm rol oynamış kəşfləri haqqında faktlar təqdim edilmişdir. “Döyüş maşınları” yarımbaşlığında isə Pun müharibəsi zamanı Arximedin icad etdiyi döyüş maşınları haqqında məlumat öz əksini tapır.

**Dərslik, səh. 59**

**d.** Mətnin tərkib hissələri ilə bağlı suallara cavab verin.

*Giriş hissəsində* Arximed haqqında ümumi məlumat verildi: Arximed antik dövrün məşhur alimi, riyaziyyatçısı və fiziki olub.

*Əsas hissədəki* yarımbaşlıqlar Arximedin həyat və fəaliyyəti haqqında xronoloji ardıcıllıqla məlumat almağa imkan verir.

*Mətnin sonluğunda* “Ömrünün son günləri” yarımbaşlığında Arximed haqqında rəvayətdən bəhs edilir. Əsgərlər onun yazılarını tapdalayarkən onlara qışqırıb müqavimət göstərmiş və nəticədə Roma əsgərləri onu qılınclamışlar. Rəvayətə görə, Arximedin ölərkən söylədiyi son sözlər “Yazılarımı tapdalamayın!” olmuşdur. Deməli, Arximed elmi işlərini həyatından üstün tuturmuş.

**Dərslik, səh. 59**

**e.** Mətnə aid fikri seçin.

Cavab: a. Faktlar sistemli şəkildə verilib və yarımbaşlıqlar altında qruplaşdırılıb.

**İş dəftəri, səh. 30**

**a.** “Arximed” mətninə əsasən alimlə bağlı fikirlərin doğru, yoxsa yanlış olduğunu müəyyən et.

Cavab: 1 – D, 2 – Y, 3 – D, 4 – Y, 5 – D, 6 – Y.

**İş dəftəri, səh. 30**

**b.** Mətnə istinad etməklə cədvəli tamamla.

İş dəftərində təqdim edilmiş tapşırıq şagirdlərin mətnin məzmununu qavradıqlarını yoxlamaqla bərabər mətnin tərkib hissələri ilə bağlı aldıqları məlumatları da möhkəmləndirir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tapşırıq b (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq c (dərslik); a (iş dəftəri) |
| Mətndəki məlumatlardan çıxış edərək yeni informasiya əldə edir. | Tapşırıq ç (dərslik) |
| Mətnin tərkib hissələrini, struktur elementlərini (yarımbaşlıq) onun əsas məzmunu ilə əlaqələndirir. | Tapşırıq d, e (dərslik); b (iş dəftəri) |

# 2-ci DƏRS
# Arximed möcüzəsi: mif, yoxsa reallıq?

**Təlim nəticələri:**
- Dinlədiyi və müşahidə etdiyi hadisə və varlıqlar haqqında danışır (st. 2.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Qeyri-bədii mətni məzmun-struktur xüsusiyyətlərinə görə təhlil edir (st. 3.1.5).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün sual verir:



Layihə

Sizcə, qədim zamanlarda insanlar ildırım, dolu kimi təbiət hadisələrindən nə üçün qorxurdular? Bu cür təbiət hadisələrini nə üçün möcüzə hesab edirdilər?

**Dinləmə. Danışma**

**Dərslik, səh. 60**

**a.** Jül Vernin "Sirli ada" mətnindən bir parçanı dinləyin. Plan əsasında qısa məzmununu danışın.

**Müəllimin nəzərinə!** Mətndə şagirdlərin mənasını bilmədiyi bir neçə çətin söz var. Yaxşı olardı ki, mətni dinləmədən əvvəl belə sözlərin mənası şagirdlərə izah edilsin: qasırğa, bir göz qırpımı, siferblat, gil, yosun.

***Jül Vern "Sirli ada"***

*...Qasırğaya düşmüş hava balonu yavaş-yavaş aşağı enirdi. Mühəndis Mister Smit balonu suyun səthi ilə sahilə, quruya tərəf istiqamətləndirməyə çalışırdı. Birdən hündür bir dalğa balona çırpılıb bir göz qırpımında onları sahilə atdı. Qumun üzərinə sərilmiş səyyahlar bir müddətdən sonra özlərinə gəlib ətrafa boylandılar.*

*– Bura haradır? Deyəsən, kimsəsiz adaya düşmüşük, – deyə Mister Smit dilləndi.*

*Dənizçi Conatan islanmış paltarını sıxa-sıxa dedi:*

*– Hava çox soyuqdur, ocaq qalamaq lazımdır, amma heç birimizdə kibrit yoxdur.*

*Mister Smit cavab verdi:*

*– Narahat olmayın, bir yol taparıq. Siz bişirmək üçün bir şey tapın. Yəqin ki, buralarda yeməli bitkilər, ov heyvanları olmamış deyil.*

*Sonra Smit Herbertin qolundakı saata baxıb əlavə etdi:*

*– Herbert, sən mənimlə qal.*

*Conatan təəccüblə mühəndisə baxdı, amma bir söz demədi. Yoldaşları ilə birlikdə ov üçün meşəyə getdi.*

*Bir müddət sonra onlar geri qayıdanda uzaqdan göyə qalxan tüstünü gördülər. Conatan heyrətlə soruşdu:*

*– Odu kim yandırdı?*

*– Günəş! – deyə mühəndis gülümsədi.*

*Mühəndis Conatanın heyrətdən bərəlmiş gözlərini görüb izah etdi:*

*– Özümün və Herbertin saatından siferblatları çıxartdım. Onların kənarlarını gillə yapışdırdım. Sonra düzəltdiyim şüşəni günəş şüalarının altına tutdum. Belə şüşə günəş şüalarını bir nöqtəyə yönəldə bilir. Həmin nöqtədə yandırıcı istilik əmələ gəlir. Şüşəni quru yosunların üzərində saxladım və onlar dərhal yandı.*

*Conatan heyranlıqla mühəndisə baxıb dilləndi:*

*– Mister Smit, siz dahisiniz!*

**İş dəftəri, səh. 31**

**a.** "Sirli ada" dinləmə mətninə istinad etməklə hadisələrin ardıcıllığını müəyyən et.

Bu tapşırıq şagirdlərin dinləyib-anlama bacarıqlarını yoxlamağa imkan yaradır.

Cavab: 1 – d, 2 – ç, 3 – a, 4 – b, 5 – c.

**Dərslik, səh. 60**

**b.** Mətnə və şəklə əsasən Mister Smitin odu necə əldə etməsini izah edin.

Cavab: Mister Smit özünün və Herbertin saatından siferblatları çıxartdı. Onların kənarlarını gillə yapışdırıb lupa düzəltdi. Lupanı günəş şüalarının altına tutdu. Lupa günəş şüalarını bir nöqtəyə, yəni quru yosunların üzərinə yönəltdi. Həmin nöqtədə yandırıcı istilik əmələ gəldi və yosunlar dərhal yandı.

**Mətnlə iş.** "Arximed möcüzəsi: mif, yoxsa reallıq?" mətni şagirdlər tərəfindən səssiz oxunur.

**Söz ehtiyatı**

**Dərslik, səh. 61**

Daha sonra müəllim "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını şagirdlərə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

Layihə

**Dərslik, səh. 61**

**c.** Mətnə əsasən suallara cavab verin.

Bu tapşırıq faktoloji qavramanı yoxlamağa xidmət edir. Şagirdlər mətnə aid sualları cavablandırmaqla mətnin məzmununu anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 61**

**ç.** Mətndə verilmiş məlumatlardan istifadə edərək güzgülü dəzgahın tədqiqi tarixinin xronoloji cədvəlini tamamlayın.

Cavab:

| Nə vaxt? | Kim? | Nə edib? |
|---|---|---|
| XVIII əsr | Fransız alimi Jorj Lui Byuffon | 128 güzgü vasitəsilə quru şam ağacının bir hissəsini yandırıb. |
| XX əsr | İtalyan alimlər | 450 güzgü vasitəsilə yelkəni yandırmağa nail olurlar. |
| 1973-cü ildə | yunanıstanlı fizik İoanis Sakkos | Eksperimenti gəminin üzərində aparır və gəmini yandırmağı bacarır. |

**Dərslik, səh. 62**

**"Yadda saxla" rubrikası.** Müəllim "mövqe", "arqument" sözlərini izah etməklə rubrikada arqumentativ mətnlər haqqında verilmiş məlumatları şərh edir.

**Dərslik, səh. 62**

**d.** Aşağıdakı suallara cavab verməklə "Arximed möcüzəsi: mif, yoxsa reallıq?" mətninin arqumentativ mətn olduğunu əsaslandırın.

Cavab:

• Mətndə hansı mübahisəli məsələyə toxunulur?

Görəsən, doğrudanmı gəmini güzgü vasitəsilə yandırmaq mümkündür?!

• Müəllifin bu məsələ ilə bağlı mövqeyi necədir?

Dünyanın bir çox tədqiqatçıları dəfələrlə "Arximed möcüzəsi"nin reallıq olduğunu sübut etmişlər.

• O, fikrini sübut etmək üçün hansı arqumentlərdən istifadə edir?

Müəllif güzgülü dəzgahın tədqiqi haqqında faktlardan istifadə edir. Şagirdlər "ç" tapşırığındakı məlumatları nümunə kimi səsləndirə bilərlər.

**İş dəftəri, səh. 31**

**b.** "Arximed möcüzəsi: mif, yoxsa reallıq?" mətnində adı çəkilən döyüş maşınları haqqında məlumat yaz.

Şagirdlər tapşırığı yerinə yetirməklə mətnin məzmununu anladıqlarını nümayiş etdirirlər.

**İş dəftəri, səh. 31**

**c.** "Arximed möcüzəsi: mif, yoxsa reallıq?" mətninin hissələri hansı mətn tipinə aiddir?

Cavab: "Arximed möcüzəsi: mif, yoxsa reallıq?" mətni qarışıq tipli mətndir. Belə ki, mətnin birinci hissəsi (I və II abzas) məlumatvericidir. Arximedin ixtiralarının hərb işində istifadəsi haqqında, sadəcə, məlumat verir. Mətnin III və IV abzasında isə həmin qurğuların işləmə prinsipi izah edilir. V, VI və VII abzaslarda isə müəllif qurğu haqqında deyilənlərin həqiqət olduğunu əsaslandırır.

1. Mancanaq – b    2. Qaldırıcı qurğu – c    3. Güzgü dəzgahı – a

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

Leyla

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi və müşahidə etdiyi hadisə və varlıqlar haqqında danışır. | Tapşırıq a, b (dərslik); a (iş dəftəri) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq c, ç (dərslik); b (iş dəftəri) |
| Qeyri-bədii mətni məzmun-struktur xüsusiyyətlərinə görə təhlil edir. | Tapşırıq d (dərslik); c (iş dəftəri) |

# 3-cü DƏRS
# Arximed vinti

**<u>Təlim nəticələri</u>:**
- Verbal və qrafik materialları (şəkil) şərh etməklə mövzu üzrə danışır (st. 2.1.3).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Qeyri-bədii mətni məzmun-struktur xüsusiyyətlərinə görə təhlil edir (st. 3.1.5).

**Mövzuya yönəltmə.** Müəllim lövhədə *kim? nə? hara? necə? nə üçün?* suallarını yazıb soruşur:
– Sizcə, müsahibin ətraflı danışması, fikrini izah etməsi üçün hansı suallardan istifadə olunur?

**Danışma**

**Dərslik, səh. 62**

**a.** Təsəvvür edin ki, yoldaşınıza şəkildə gördüyünüz qurğunu təsvir edirsiniz. Suallara cavab verərək şəkildəki qurğu haqqında danışın.

Tapşırıq şagirdlərin təsvir edərək danışma bacarığını inkişaf etdirir. Şagirdlər şəkildə əks olunmuş qurğunun formasını, funksiyasını, işləmə prinsipini təsvir edirlər. Danışma fəaliyyətini istiqamətləndirmək üçün tapşırıqda yönəldici suallar verilmişdir.

**Müəllimin nəzərinə!** Tapşırığı qruplarla yerinə yetirməklə vaxta qənaət etmək mümkündür. Bəzi qruplar qurğunun formasını təsvir edir, bəziləri funksiyasını izah edir, hansı məqsədlə istifadə edildiyini açıqlayır, bir başqa qrup isə işləmə prinsipini şərh edir.

Şagirdlərə istifadə edəcəkləri söz ehtiyatı verilə bilər: vint, silindr, spiralşəkilli, burğu şəklində olan, hansısa bir qurğunu hərəkətə gətirən mexanizm və s.

**Oxu**

**Mətnlə iş.** “Arximed vinti” mətni şagirdlər tərəfindən səssiz oxunur. Mənası anlaşılmayan sözlər seçilib dəftərə qeyd edilir və araşdırılır.

**Dərslik, səh. 63**

**b.** Mətnə əsasən suallara cavab verin.

Tapşırıq şagirdlərin mətnin məzmununu necə qavradıqlarını yoxlamağa imkan yaradır.

**Dərslik, səh. 63**

**c.** Verilmiş şəkillərdən istifadə edərək mətnin son cümləsini genişləndirib danışın.

<u>Cavab nümunəsi</u>: Bu gün məişətdə və istehsalatda istifadə olunan bir çox qurğuların yaradılmasında da Arximed vintindən istifadə olunmuşdur. Məsələn, ətçəkən maşını və yaxud burğu aləti olan dreli hərəkətə gətirmək üçün spiralşəkilli, vintəbənzər hissədən istifadə olunur. Bundan əlavə gəmi, yaxud təyyarəni hərəkətə gətirən mexanizmlərin əsas hissəsini də vintlər təşkil edir.

**Dərslik, səh. 63**

**ç.** Mətnin növünü və hansı məqsədlə yazıldığını müəyyən edin.

<u>Cavab</u>: b. İzahedici mətndir, mexanizmi, hadisəni izah etmək üçün yazılıb.

Layihə

**Dərslik, səh. 63**

**d.** Mətnə istinad etməklə fikrinizi əsaslandırın.

Şagirdlər "ç" tapşırığında "Arximed vinti" mətninin növünü və hansı məqsədlə yazıldığını müəyyən etdilər. "d" tapşırığında isə fikirlərini əsaslandırırlar. Şagirdlər təxminən belə cavab verə bilərlər:

"Arximed vinti" mətnində hər hansı bir qurğunun, yəni vintin funksiyası və iş prinsipi izah edilir.

**"Yadda saxla" rubrikası.** Müəllim şagirdlərin diqqətini "Yadda saxla" rubrikasına yönəldir. Şagirdlərin oxuduqları mətnlərə istinad edərək izahedici mətnlərin fərqini izah edir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və qrafik materialları (şəkil) şərh etməklə mövzu üzrə danışır. | Tapşırıq a, c (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq b (dərslik) |
| Qeyri-bədii mətni məzmun-struktur xüsusiyyətlərinə görə təhlil edir. | Tapşırıq ç, d (dərslik) |

# 4-cü DƏRS
# Evrika

**Təlim nəticələri:**
- Bədii və qeyri-bədii mətnləri məzmun-struktur xüsusiyyətlərinə görə təhlil edir (st. 3.1.5).
- Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir (st. 3.1.2).
- Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.1).
- Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 63**

**a.** Tarixi şəxsiyyətlər haqqında oxuduğunuz rəvayətləri xatırlayın. Bu mətnlər informativ mətnlərdən nə ilə fərqlənir?

Tapşırıq şagirdlərin diqqətini "rəvayət" sözünə yönəldir. Rəvayətlər bədii mətnlər olub xalqın təxəyyülü əsasında yaranır. İnformativ mətnlər rəvayətlərdən fərqli olaraq qeyri-bədii mətnlərdir.

**Dərslik, səh. 63**

**b.** "Arximed" mətninə (səh. 58-59) bir daha nəzər salın. Sizcə, sağda verilmiş şəkil Arximedin hansı kəşfi ilə bağlıdır?

Cavab: Arximed qanunu.

**Dinləmə**

**Dərslik, səh. 64**

**c.** "Evrika" mətnini dinləyin və rəvayət olduğunu əsaslandırın.

***Evrika***

*Yəqin ki, bəzi insanların "Evrika!" deyərək sevindiyini görmüsünüz. Bu sözün çox maraqlı yaranma tarixçəsi var.*

*Deyilənə görə, qədim Sirakuza şəhərinin hakimi Hieron Arximedlə söhbət etməyi çox xoşlayardı. O hər bir işdə böyük alimdən məsləhət alardı.*

*Bir gün Hieron zərgərə qızıl verib tac düzəltməyi əmr edir. Bir müddət sonra zərgər tacı*

Layihə

*hazırlayır. Hieron zərgərin işini çox bəyənir. Lakin ona xəbər verirlər ki, zərgər qızılın bir hissəsini oğurlayıb, onun əvəzinə gümüş qatıb. Tacı tərəzidə çəkirlər. Tacın çəkisi hökmdarın zərgərə verdiyi qızılın çəkisinə bərabər idi. Hieronun məsləhətçiləri deyirlər ki, bu hələ tacın təmiz qızıldan olduğunu sübut etmir.*

*Hieron Arximedi yanına çağırır. Əhvalatı danışıb məsələnin həllini tapmağı tapşırır.*

*Bir neçə gün keçir. Arximed xeyli fikirləşsə də, bir nəticəyə gələ bilmir. Fikirləşməkdən yorğun düşmüş alim vanna qəbul etmək istəyir. Vannanı ağzına kimi su ilə doldurur. Arximed vannaya girən kimi suyun bir hissəsi daşıb yerə tökülür. O, tökülən suya baxa-baxa fikirləşir: "Görəsən, özüm ağırlıqda bir daşı vannaya salsaydım, nə qədər su töküləәrdi?" Elə bu yerdə tac məsələsi onun yadına düşür. Alim yeni bir kəşf etdiyini anlayır: deməli, suya salınmış hər bir əşya öz həcmi qədər suyu sıxışdırıb çıxarır. Əşyaların çəkisi eyni ola bilər, lakin hansının həcmi artıqdırsa, o da daha çox suyu çıxardacaq. Arximed "Evrika!" (Tapdım) qışqırıb ayağa qalxır.*

*Ertəsi gün Arximed Hieronun yanına gedir. O, əvvəlcə çəkisi tacın çəkisinə bərabər olan qızılı su ilə doldurulmuş qaba salır. Suyun nə qədər qalxdığını qeyd edir. Daha sonra tacı suya salıb suyun səviyyəsini ölçür və deyir:*

*– Sizin tacınız təmiz qızıldan deyil. Əgər eyni çəkidə olan iki əşya eyni metaldan hazırlansaydı, su eyni səviyyədə qalxardı. Bu o deməkdir ki, tacla qızılın həcmi eyni deyil.*

*Bunu eşidən Hieron qəzəblənir və zərgəri cəzalandırır.*

**Müəllimin nəzərinə!** Şagirdlərə dinləyib-anlamanı yoxlamaq məqsədilə faktoloji suallar vermək olar. Məsələn:

Hieron kim idi?
Hieronun Arximedə münasibəti necə idi?
Hieron Arximedə nə tapşırdı?
Zərgəri nədə günahlandırırdılar?
Arximed zərgərin günahkar olduğunu necə sübut edir?

**"Xatırla" rubrikası.** Şagirdlərin diqqəti "Xatırla" rubrikasına yönəldilir. Onlar aşağı siniflərdə rəvayət haqqında aldıqları məlumatları xatırlayırlar. Bu rubrikadakı məlumatlar "c" tapşırığını asanlıqla yerinə yetirməyə imkan yaradır.

**Söz ehtiyatı**

**Dərslik, səh. 64**

**ç.** "Evrika" sözünün izahını oxuyun. Sizcə, bu ifadə hansı situasiyalarda istifadə edilir? Bu ifadənin işlənə biləcəyi bir hadisə düşünüb danışın.

Cavab belə ola bilər: Cavid riyaziyyata aid ev tapşırıqlarını edirdi. Məsələnin biri çox çətin idi. Cavid neçə dəqiqə idi ki, məsələnin həlli yolları haqqında düşünürdü. Birdən müəllimin izah etdiyi düsturu xatırladı. O: "Evrika!" – deyə bərkdən qışqırdı.

**Dinləyib-anlama**

**Dərslik, səh. 64**

**d.** Mətnə əsasən cümlələri tamamlayın.

Şagirdlər "Evrika" mətninə istinad etməklə cümlələri tamamlayır və mətni anladıqlarını nümayiş etdirirlər. Cavab:

1. Sirakuza şəhərinin hakimi Hieron həmişə Arximedlə məsləhətləşərdi, çünki ***o, Arximedin ağlına, zəkasına güvənirdi.***

2. Hieron zərgərdən şübhələnirdi, belə ki, ***zərgərin qızılın bir hissəsini oğurlayıb onun əvəzinə gümüş qatdığını eşitmişdi.***

3. Arximed vannadan daşıb tökülən suyu görəndə anlayır ki, ***suya salınmış hər bir əşya öz həcmi qədər suyu sıxışdırıb çıxarır.***

4. Arximed tacın təmiz qızıldan hazırlanmadığını sübut edir, ***belə ki, çəkisi tacın çəkisinə bərabər olan qızılı və ondan hazırlanmış tacı suya salıb suyun səviyyəsini ölçərək tacdakı qızılın çəkisinin az***

Ləylə

***olduğunu göstərir.***

**Dərslik, səh. 64**

**e.** Sizcə, "Evrika" mətnini yazmaqda müəllifin əsas məqsədi nədir?

Cavab: c. məşhur bir ifadənin yaranma tarixçəsini danışmaq

**Dərslik, səh. 64**

**ə.** Cədvəli tamamlamaqla bu fəsildə eyni mövzuda verilmiş müxtəlif mətn tipləri haqqında danışın.

Bu bölmədə şagirdlər qədim yunan alimi Arximed haqqında müxtəlif tipli mətnlər oxuyublar. Şagirdlər eyni mövzuda olan mətnləri müəllifin məqsədi baxımından müqayisə edirlər. Qeyri-bədii mətnləri növündən asılı olaraq məzmun-struktur xüsusiyyətlərinə görə təhlil edirlər.

Cavab:

| Mətn tipi | Məqsəd | Nümunə |
|---|---|---|
| İnformativ mətn | Müəllifin məqsədi oxucuya qədim yunan alimi Arximed haqqında məlumat verməkdir. Bu mətndə, əsasən, *kim? nə? hara? nə vaxt?* kimi suallara cavab tapmaq mümkündür. | Məsələn, 58-59-cu səhifədə verilmiş "Arximed" mətni Arximedin həyatı və elmi yaradıcılığından bəhs edən informativ mətndir. |
| Arqumentativ mətn | Müəllifin məqsədi "Güzgülər vasitəsilə gəmini yandırmaq mümkündürmü?" fikrinə öz münasibətini bildirməkdir. Müəllif oxucunu öz mövqeyinə inandırmaq üçün fikrini əsaslandırmağa çalışır. Bunun üçün o, müxtəlif arqumentlərdən istifadə edir. | Məsələn, 60-61-ci səhifədə təqdim edilmiş "Arximed möcüzəsi: mif, yoxsa reallıq?" mətni arqumentativ mətndir. |
| İzahedici mətn | Müəllifin məqsədi "Arximed vinti"nin işləmə mexanizmini izah etməkdir. Bu mətndə, əsasən, *necə? nə üçün?* suallarına cavab tapmaq mümkündür. | Məsələn, 62-63-cü səhifədə verilmiş "Arximed vinti" izahedici mətnə nümunədir. |
| Bədii mətn | Məşhur "Evrika" ifadəsinin yaranması ilə bağlı hadisələr təxəyyülə əsasən təsvir edilib. Mətndəki epizodlarda obrazların xarakteri aydınlaşır. Mətnin bir çox hissələri dialoqlardan ibarətdir. Müəllifin məqsədi oxucunu müəyyən dəyərlər haqqında düşünməyə istiqamətləndirməkdir. | "Evrika" dinləmə mətni |

**İş dəftəri, səh. 32**

**a.** Aşağıdakı fikirlərin bu fəsildə oxuduğun və dinlədiyin hansı mətnə aid olduğunu müəyyən et.

Cavab: 1 – B, 2 – A, 3 – C, 4 – Ç.

**Yazı**

**İş dəftəri, səh. 32**

**b.** Bu fəsildə öyrəndiyin məlumatlardan istifadə etməklə “Elmin gücü” adlı esse yaz.

Tapşırıq şagirdlərin yazı bacarığının inkişafına yönəldilib. Şagirdlər bu fəsildə Arximed haqqında oxuduqları mətnlərə, aldıqları məlumatlara istinad edərək “Elmin gücü” adlı esse yazırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii və qeyri-bədii mətnləri məzmun-struktur xüsusiyyətlərinə görə təhlil edir. | Tapşırıq a, c, e, ə (dərslik); a (iş dəftəri) |
| Kontekstdən çıxış edərək sözün mənasını müəyyən edir. | Tapşırıq ç (dərslik) |
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq d (dərslik) |
| Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir. | Tapşırıq b (iş dəftəri) |

# 5-ci DƏRS
## Saylardan sonra isimlərin təkdə və ya cəmdə olması

**Təlim nəticələri:**

• Saylardan sonra gələn isimlərin təkdə və ya cəmdə işlənmə məqamlarını müəyyənləşdirir (st. 4.1.2).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 65**

**a.** Cümlələrdə işlənmiş sayların məna növünü və aid olduğu sözü müəyyən edin. Saylardan sonra gələn isimlərin təkdə, yoxsa cəmdə işləndiyini qeyd edin.

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini sayların məna növünə və aid olduğu sözlərə yönəldir. Şagirdlərin artıq sayların məna növləri haqqında bilgiləri var. Müəllim yönəldici suallar vasitəsilə şagirdlərə əvvəlki biliklərini xatırladır. Cavab:

1. qırx otaqdan (müəyyən miqdar sayı, aid olduğu isim təkdə işlənmişdir)
2. onlarla adam (qeyri-müəyyən miqdar sayı, aid olduğu isim təkdə işlənmişdir)
3. onuncu siniflər (sıra sayı, aid olduğu isim cəmdə işlənmişdir)
4. üçdə bir hissəsi (kəsr sayı, aid olduğu isim təkdə işlənmişdir)

**“Bunları bilməliyik” rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları və nümunələri şərh edir.

**Dərslik, səh. 65**

**b.** Nöqtələrin yerinə uyğun isimlər artırıb cümlələri tamamlayın. Qaydaya əsasən həmin isimlərin təkdə və ya cəmdə işlənməsini əsaslandırın.

Cavab:

1. Müsabiqədə iyirmi şagird iştirak edirdi. (Müəyyən miqdar sayları ilə işlənən isimlər təkdə olur.)
2. Bir sıra suallar mənim üçün tam aydın olmadı. (Bir sıra, bir çox saylarından sonra gələn isimlər həmişə cəmdə işlənir.)
3. Bu işdə mənə kömək etmək üçün iki-üç fəhlə lazımdır. (Qeyri-müəyyən miqdar saylarından sonra gələn isimlər, əsasən, təkdə olur.)
4. Birinci rəfə/rəflərə düzdüyüm kitablar bu il nəşr olunmuşdur. (Sıra sayları ilə işlənən isimlər həm təkdə, həm də cəmdə ola bilər.)
5. Vərəqin dörddə bir hissəsi boş qalmışdı. (Kəsr sayları ilə işlənən isimlər təkdə olur).

Layihə

**Dərslik, səh. 65**

**c.** Hansı cümlədə saydan sonra işlənən isim cəmdə olmalıdır?

Cavab: c. Dünyada bir çox möcüzələrin sirri hələ də açılmamışdır. (Bir sıra, bir çox saylarından sonra gələn isimlər həmişə cəmdə işlənir.)

**Dərslik, səh. 65**

**ç.** Cümlələrdə sayla işlənən isimlərlə bağlı səhvləri tapıb düzəldin.

Cavab:

1. İdarənin həyatində xeyli adam toplaşmışdı. (Qeyri-müəyyən miqdar saylarından sonra gələn isimlər, əsasən, təkdə olur.)

2. Onların evi üçüncü mərtəbələrdə yerləşir. (Sıra sayları ilə işlənən isimlər həm təkdə, həm də cəmdə ola bilər. Bu cümlədə konkret bir mərtəbədən danışıldığı üçün sıra sayından sonra işlənən isim təkdə olmalıdır.)

3. Arximedin həyatı ilə bağlı bir çox əhvalatlar danışılır. (Bir sıra, bir çox saylarından sonra gələn isimlər həmişə cəmdə işlənir.)

4. Piroqun xəmirinə 3 yumurta qatmışam. (Müəyyən miqdar sayları ilə işlənən isimlər təkdə olur.)

5. Gənc olmasına baxmayaraq, artıq bir sıra ekspedisiyalarda iştirak etmişdi. (Bir sıra, bir çox saylarından sonra gələn isimlər həmişə cəmdə işlənir.)

İş dəftərində verilmiş tapşırıqlar şagirdlərin aldıqları biliklərin möhkəmləndirilməsinə yönəldilib.

**İş dəftəri, səh. 33**

**a.** Cümlələrdə saylarla işlənən isimlərin düzgün, yoxsa yanlış yazıldığını müəyyən et.

Cavab:

| | Yanlış | Düzgün | Əsaslandırma |
|---|---|---|---|
| 1 | Bir sıra yeni park | Bir sıra yeni parklar | Bir sıra, bir çox saylarından sonra gələn isimlər həmişə cəmdə işlənir. |
| 2 | | Bir çox məktəblərdə | |
| 3 | | Minlərlə insan | Çox, çoxlu, yüzlərlə, onlarla saylarından sonra gələn isimlər həm təkdə, həm də cəmdə ola bilər. |
| 4 | | Onlarla gül dəstələri | Çox, çoxlu, yüzlərlə, onlarla saylarından sonra gələn isimlər həm təkdə, həm də cəmdə ola bilər. |
| 5 | 5-6 şagirdlər | 5-6 şagird | 5-6 tipli qeyri-müəyyən miqdar saylarından sonra gələn isimlər təkdə olur. |
| 6 | bir neçə adamlara | bir neçə adama | Bir neçə sayından sonra gələn isimlər təkdə olur. |

**İş dəftəri, səh. 33**

**b.** Verilmiş saylardan sonra gələn isimlərin təkdə, ya cəmdə işləndiyini müəyyənləşdir.

Cavab: yüzlərlə – C; bir neçə – A; əlli – A; bir çox – B; bir qədər – A; birinci – C; xeyli – A; bir sıra – B; az – A; çoxlu – C.

**İş dəftəri, səh. 33**

**c.** "B" tapşırığında verilmiş saylardan beşini seç və uyğun isimlər artırıb cümlə qur. Saylardan sonra gələn isimlərin yazılışına diqqət et.

Cavab: Şagirdlər müxtəlif məzmunlu cümlələr yaza bilərlər. Lakin saylardan sonra gələn isimlərin təkdə, yoxsa cəmdə işlənməsi qaydalarına əməl edilməlidir.

Layihə

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Saylardan sonra gələn isimlərin təkdə və ya cəmdə işlənmə məqamlarını müəyyənləşdirir. | Dərslik və iş dəftərində verilmiş tapşırıqlar |

Layihə

# 2-ci fəsil
# TƏBİBLƏRİN HÖKMDARI

## 1-ci DƏRS
## Əmir və Loğman

**Təlim nəticələri:**
- Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Bədii mətni məzmun-struktur xüsusiyyətlərinə görə təhlil edir (st. 3.1.5).
- Bədii mətndəki obrazlara, onların davranışına münasibət bildirir (st. 3.1.4).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 66**

**a.** Aşağıdakı cümlələri oxuyun. Fərqləndirilmiş sözlərin mənasını təxmin edin. Hansı nümunələrdəki sözlər bir-biri ilə sinonimdir?

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəldir, onları mövzu ətrafında danışmaq üçün istiqamətləndirir.

**Mətnlə iş.** Şagirdlər "Əmir və Loğman" mətnini səssiz oxuyurlar. Mətndə bəzi ifadələr fərqləndirilmişdir. Oxudan əvvəl şagirdlərə xəbərdarlıq edilir ki, həmin ifadələrin kontekstdəki mənalarına diqqət etsinlər. Oxudan sonra "Söz mücrüsü"ndəki sözlərin mənası müzakirə edilir.

**Söz ehtiyatı**

**Dərslik, səh. 67**

**b.** Verilmiş frazeoloji birləşmələrin mənasını təxmin edin. Lüğət vasitəsilə yoxlayın. "Çarə" və "əlac" sözlərinin sinonim olduğunu əsaslandırın.

Cavab: "Çarəsi kəsilmək" və "əlacı kəsilmək" frazeoloji birləşmələrinin asılı tərəfi müxtəlif sözlərlə ifadə olunsa da, hər ikisi ümidsiz qalmaq, çıxış yolu tapa bilməmək mənasını verir. Deməli, "əlac" və "çarə" sinonim sözlərdir. Eləcə də "əlac tapmaq" və "başına çarə qılmaq" söz birləşmələrinin tərkibində "əlac" və "çarə" sözləri işlənsə də, ikisinin də mənası "çıxış yolu tapmaq" deməkdir.

**Dərslik, səh. 67**

**c.** Kontekstə əsasən "bəxti gətirmək" ifadəsinin mənasını izah edin. Aşağıdakılardan hansı bu ifadəni əvəz edə bilər?

Cavab: c. bəxti üzünə gülmək

**Oxuyub-qavrama**

**Dərslik, səh. 67**

**ç.** Mətnə əsasən cümlələri tamamlayın.

1. Vəzir gənc həkimin əmiri müalicə edəcəyinə inanmır, çünki *o çox cavan, təcrübəsiz idi.*
2. Əmir gənc həkimin onu müayinə etməsinə razılıq verir, çünki *başqa çarəsi qalmamışdı.*
3. Həkim əmirin yatağının yanında yağlı plov və şirniyyatlar görəndə anlayır ki, *əmirin xəstəliklərinin əsas səbəbi onun düzgün qidalanmaması və hərəkətsizliyidir.*
4. Saray adamları gənc həkimin təyin etdiyi müalicəyə gülürlər, çünki *o, xüsusi bir müalicə yazmamışdı, sadəcə, pəhriz saxlamağı tapşırmışdı.*
5. Əmir həkimin arzusunu eşidəndə təəccüblənir, çünki *xidmətinin qarşılığında yalnız saray kitabxanasına giriş icazəsi istəyirdi.*

Layihə

**İş dəftəri, səh. 34**

**a.** "Əmir və Loğman" mətninə əsasən uyğun cavab variantını seç.

Cavab:
Əmir düzgün qidalanmırdı – **A**
Əmir bir çox Şərq ölkələrində hökmdar tituludur – **C**
Gənc həkim əmiri müalicə edə bilmir – **B**
Hüseyn xidmətinin qarşılığında kitabxanaya giriş icazəsi istəyir – **A**
Hüseynin on yeddi yaşı var idi – **C**
Əmir Hüseyni sarayın baş həkimi təyin edir – **A**

**Dərslik, səh. 68**

**d.** "Əmir və Loğman" mətninin rəvayət olduğunu əsaslandırın.

Cavab: Rəvayətlər, adətən, "deyilənə görə", "rəvayətə görə" ifadələri ilə başlayır. "Əmir və Loğman" mətni də "deyilənə görə" ifadəsi ilə başlayıb. Rəvayətlərdə çox vaxt əsas obrazlar tarixi şəxslər olur. Bu mətndə görkəmli alim İbn Sina haqqında hadisədən bəhs edilir.

**Dərslik, səh. 68**

**e.** Rəvayətdə gənc həkimin hansı xüsusiyyətləri ön plana çəkilir?

Cavab: gözütox, savadlı, müşahidəçi, elmə marağı və s.

**İş dəftəri, səh. 34**

**b.** İbn Sinaya aid xüsusiyyətləri müəyyənləşdir və obraz xəritəsini tamamla.

Cavab:

**Obrazın təqdimatı:** Rəvayətdə Hüseyn adlı gənc həkimdən danışılır. O, sonralar dünyada İbn Sina kimi şöhrət qazanır.

Hekayənin əvvəlində: Hüseyn gənc, təcrübəsiz həkim kimi təqdim edilir.

Əsaslandırma: Sarayın vəziri Hüseyni əmirə təqdim edərkən qeyd edir ki, ölkədə sizi müayinə etməyən daha heç bir həkim qalmayıb. Bircə Hüseyn adında yenicə həkimliyə başlamış bir nəfər var. Onu da hüzurunuza gətirməyə cürət etmədik. Çünki çox cavandır, təcrübəsizdir.

Hekayənin sonunda: Hüseyn uğur qazanmış, şöhrətli bir şəxs kimi təqdim edilir.

Əsaslandırma: Əmir onu sarayın baş həkimi vəzifəsinə təyin edir. Hüseyn zəngin saray kitabxanasındakı kitabları mütaliə edərək biliklərini genişləndirir. Bu gənc həkim dünya şöhrətli alimə çevrilir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq a, b, c (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq ç (dərslik); a (iş dəftəri) |
| Bədii mətni məzmun-struktur xüsusiyyətlərinə görə təhlil edir. | Tapşırıq d (dərslik) |
| Bədii mətndəki obrazlara, onların davranışına münasibət bildirir. | Tapşırıq e (dərslik); b (iş dəftəri) |

Layihə

# 2-ci DƏRS
# İbn Sina

**<u>Təlim nəticələri</u>:**
• Bədii və qeyri-bədii mətnləri məzmun-struktur xüsusiyyətlərinə görə təhlil edir (st. 3.1.5).
• Sözləri ümumi mənalarına görə qruplaşdırır (st. 3.1.2).
• Dinlədiyi kiçikhəcmli mətnləri ümumi məzmun səviyyəsində anladığını nümayiş etdirir (st. 1.1.1).
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 4.1.1).

**Müəllimin nəzərinə!** Bu dərsdə görkəmli alim İbn Sina haqqında bir oxu və iki dinləmə mətni üzrə tapşırıqlar verilmişdir. Dərslikdə və iş dəftərində verilmiş tapşırıqların sayı çox olduğu üçün seçim ilə yerinə yetirmək olar.

**Mövzuya yönəltmə. Danışma**

Müəllim keçən dərsdə oxunmuş "Əmir və Loğman" mətninə aid frontal sorğu keçirir. Frontal sorğu üçün sual nümunələri:

İbn Sina kim idi?

"Əmir və Loğman" mətnində İbn Sinanın hansı xüsusiyyətləri açılır?

"Əmir və Loğman" mətninin hansı xüsusiyyətləri rəvayət olduğunu sübut edir?

**Dərslik, səh. 68**

**a.** Mətni oxuyun və müəllifin çatdırmaq istədiyi fikri müəyyən edin.

**Oxudan əvvəl.** Müəllim şagirdlərə qeyri-bədii mətnlərin müxtəlif məqsədlərlə yazılması haqqında xatırlatma edir. Şagirdlərin diqqətini oxuyacaqları mətnin yarımbaşlıqlarına yönəldir:

Sizcə, mətnin yarımbaşlıqlara ayrılmasının oxucu üçün hansı faydası var?

**Mətnlə iş.** Oxudan sonra şagirdlər müəllifin çatdırmaq istədiyi fikri müəyyən edirlər.

<u>Cavab</u>: Müəllif "İbn Sina" mətnini oxuculara dünya şöhrətli həkim haqqında məlumat vermək məqsədilə yazmışdır.

**Söz ehtiyatı**

**Dərslik, səh. 69**

**b.** Lüğətin köməyi ilə aşağıdakı sözlərin mənasını izah edin və nümunələr söyləməklə qəbirüstü abidə olduğunu əsaslandırın.

Şagirdlər lüğətin köməyi ilə tapşırıqda verilmiş sözlərin mənasını araşdırırlar:

*Türbə* – böyük, yaxud müqəddəs sayılan şəxslərin qəbirləri üzərində tikilən və sonradan çox vaxt ziyarətgah olan bina; məqbərə, mavzoley.

*Mavzoley* – qəbir üzərində tikilən böyük memarlıq abidəsi; türbə.

*Məqbərə* – qəbirlərin üzərində xüsusi tikili; türbə, mavzoley.

*Ehram* – Qədim Misirdə fironların nəhəng məqbərəsi, sərdabəsi; piramida.

Daha sonra bildikləri tarixi abidələrin adını çəkməklə nümunələr söyləyirlər; məsələn: *Möminə Xatun türbəsi, Xeops ehramı, Şeyx Səfi məqbərəsi*

**Oxuyub-qavrama**

**Dərslik, səh. 69**

**c.** Mətndə İbn Sina haqqında hansı məlumatlar "Əmir və loğman" adlı rəvayətdə də öz əksini tapıb?

<u>Cavab</u>:

Əbu Əli Hüseyn ibn Abdulla ibn Sina Buxarada yaşamışdır. "Əmir və Loğman" mətnində də hadisələr Buxarada baş verir.



Layihə

Hər iki mətndə İbn Sinanın kitablara marağı, mütaliə edərək biliklərini artırması vurğulanır. Gənc yaşlarında Buxara əmirini müalicə etməsi haqqında hər iki mətndə danışılır.

**Dərslik, səh. 69**

**ç.** Aşağıdakı məlumatla hansı yarımbaşlığı genişləndirmək olar?

Cavab: Tapşırıqda sağlam olmaq üçün məsləhətlər, qaydalar verilib. Bu məlumatlarla İbn Sina mətninin "Elmi yaradıcılığı" yarımbaşlığını genişləndirmək mümkündür. Bu yarımbaşlıqda alimin "Təbabət elminin qanunu" adlı kitabının adı çəkilir. Kitab haqqında danışarkən onun məzmununa aid nümunələr söyləməklə kitabla bağlı daha ətraflı təsəvvür yaratmaq olar.

**Dərslik, səh. 69**

**d.** "Əmir və loğman" rəvayətində həkimin əmiri müayinə etdiyi epizodu bir daha oxuyun. Həkim əmirin yuxarıda sadalanan hansı qaydalara əməl etmədiyini aşkarladı?

| İbn Sinanın sağlamlıq üçün məsləhətləri | Əmirin həyat tərzi |
|---|---|
| Qidaya diqqət etmək lazımdır. | Əmir yağlı yeməklər yeyir, cürbəcür şirniyyatlar sevirdi. |
| Düzgün nəfəs almağa diqqət etmək lazımdır. | Əmir kök olduğu üçün ağır nəfəs alırdı. |
| Bədən quruluşunu düzgün formada saxlamaq lazımdır. | Mətnə çəkilmiş illüstrasiyadan da görünür ki, düzgün qidalanmadığı üçün əmir həddən artıq kökdür. |
| Fiziki və əqli aktivliyə diqqət etmək lazımdır. | Əmirin xəstəliyinin səbəblərindən biri hərəkətsizliyi idi. |

**İş dəftəri, səh. 35**

**a.** Aşağıdakı suallara mətnin hansı yarımbaşlıqlarından cavab tapmaq olar?

Cavab:
- İbn Sina hansı xəstəlikdən əziyyət çəkirdi? – **D**
- Buxara şəhəri nə ilə fərqlənirdi? – **A**
- İbn Sina hansı elmlərə yiyələnmişdi? – **B**
- İbn Sinanın qəbri hansı şəhərdədir? – **D**
- Alimin hansı kitabı dünyada məşhurdur? – **Ç**
- Hansı hadisə İbn Sinanın məşhurlaşmasına səbəb oldu? – **C**

**İş dəftəri, səh. 35**

**b.** "İbn Sina" mətninə istinad etməklə aşağıdakı fikirlərin doğru, yoxsa yanlış olduğunu əsaslandır.

Cavab:

**1. Bədii mətndir.** Yanlış. Çünki mətndə tarixi şəxsiyyət haqqında faktlar əks olunub.

**2. Müəllifin məqsədi oxucunu məlumatlandırmaqdır.** Doğru. Müəllifin məqsədi oxucuya Şərq dünyasının məşhur təbibi İbn Sina haqqında məlumat verməkdir. Bu mətnə əsasən kim? nə? hara? nə vaxt? kimi suallara cavab tapmaq mümkündür. Belə mətnlərdə hər hansı şəxsiyyətin həyat və fəaliyyəti xronoloji ardıcıllıqla əks etdirilir.

**3. Müəllif oxucunu öz mövqeyinə inandırmaq üçün fikrini əsaslandırmağa çalışır.** Yanlış. Çünki bu mətndə İbn Sina haqqında mübahisəli bir məsələyə toxunulmur. Müəllifin məqsədi, sadəcə, tarixi şəxsiyyətin həyat və yaradıcılığı haqqında xronoloji ardıcıllıqla məlumat verməkdir.

**4. İzahedici mətndir, müəllif "necə?" sualına cavab verir.** Yanlış. Müəllifin məqsədi oxucunu İbn Sinanın həyat və yaradıcılığı ilə tanış etməkdir.

**5. Müəllifin məqsədi oxucunu duyğulandırmaq, əyləndirməkdir.** Yanlış. "İbn Sina" mətni bioqrafik

Ləylə

mətndir. Burada süjet xətti, müsbət və mənfi obrazlar, dialoqlar yer almayıb.

**Dinləmə**

**Dərslik, səh. 70**

**e.** Qeydlər götürməklə "İbn Sina və müəllimi" və "İbn Sina və şagirdi" mətnlərini dinləyin. Qeydlərinizə əsasən fikirlərin hansı mətnə aid olduğunu müəyyən edin.

***İbn Sina və müəllimi***

*Belə rəvayət edirlər ki, İbn Sina ilə birlikdə Ömər adlı bir uşaq oxuyurmuş. Ömərin atası tez-tez müəllimin yanına gəlib oğlunun təhsili ilə maraqlanırmış.*

*Bir dəfə müəllim sinifdə Ömərin atası ilə söhbət edərkən İbn Sinanı tərifləyib nümunə göstərir. Ömərin atası etiraz edir:*

*– Axı onlar eyni sinifdə oxuyurlar, eyni müəllimdən dərs alırlar. Bu necə ola bilər?*

*Müəllim uşaqlardan xahiş edir ki, onlar bir qədər dəhlizdə gözləsinlər. Özü isə İbn Sina ilə Ömərin döşəkçəsinin altına dəftər qoyur. Sonra uşaqları sinfə çağırır. Sinfə qayıdan uşaqlar öz yerlərində əyləşirlər. Ömər heç nə hiss etmir. İbn Sina isə narahat görünür. Müəllim soruşur:*

*– Uşaqlar, bir dəyişiklik hiss etdinizmi?*

*Ömər cavab verir:*

*– Xeyr, müəllim, nə olub ki?*

*İbn Sina isə deyir:*

*– Bilmirəm, ya mən böyüdüm, ya da tavan aşağı gəldi.*

***İbn Sina və şagirdi***

*Deyilənə görə, bir gün İbn Sina dəmirçixanaya gedir. Bu zaman bir uşaq dəmirçixanaya girib deyir:*

*– Usta, anam deyir, ocağımız sönüb, köz versin.*

*Usta uşağın əlinə baxır:*

*– Get, bir qab gətir. Ovcunda aparacaqsan?*

*Uşaq qətiyyətlə cavab verir:*

*– Aparacağam, sən od ver.*

*Usta uşağın üzünə baxıb başını bulayır:*

*– Sənin əlin dəmirdəndir? Yanar axı.*

*– Yox, dəmirdən deyil.*

*Usta baxdı ki, uşaq tərslik edir, maşa ilə kürədən qıpqırmızı bir köz götürüb uşağa tərəf uzadır. Uşaq yerdən ovcuna torpaq yığıb ona sarı uzadır:*

*– Qoy torpağın üstünə.*

*Usta mat qalır.*

*Kənardan bu hadisəni izləyən İbn Sinanı da heyrət götürür, uşağın ağlına heyran qalır. Alim uşaqdan soruşur:*

*– Sənin adın nədir?*

*– Bəhmənyardır, – deyib uşaq qaçaraq gedir.*

*Belə deyirlər ki, İbn Sina həmin gündən Bəhmənyarın valideynləri ilə danışıb təlim-tərbiyəsini öz üzərinə götürür və onu bir alim kimi yetişdirməyə başlayır.*

Cavab:

1. İbn Sinanın uşaqlığından bəhs edilir. **(İbn Sina və müəllimi)**
2. Bəhmənyar İbn Sinanın yetişdirdiyi alimlərdən biridir. **(İbn Sina və tələbəsi)**
3. Bəhmənyarın uşaqlığından danışılır. **(İbn Sina və tələbəsi)**
4. Müəllimi şagirdinin müşahidə qabiliyyətinin nə qədər güclü olduğunu sübut edir. **(İbn Sina və müəllimi)**
5. Müəllimi şagirdinin iti ağlına heyran olur. **(İbn Sina və müəllimi)**
6. Hadisələr məktəbdə baş verir. **(İbn Sina və müəllimi)**

Layihə

**Dərslik, səh. 70**

| |
|---|
| **ə.** Aşağıdakı illüstrasiyaların hansı mətnə aid olduğunu müəyyən edin və həmin epizodu danışın. |

Tapşırıq şagirdlərin dinləyib-anlama bacarığını yoxlamaqla yanaşı, şifahi nitqin inkişafına yönəlmişdir.

**Dərslik, səh. 70**

| |
|---|
| **f.** Dinlədiyiniz mətnlərin rəvayət olduğunu əsaslandırın. Sizcə, bu rəvayətlərdə İbn Sinanın hansı xüsusiyyətləri vurğulanır? |

Cavab: Rəvayətlər, adətən, "deyilənə görə", "rəvayətə görə" ifadələri ilə başlayır. Şagirdlərin dinlədiyi mətnlər də "deyilənə görə" və "belə rəvayət edirlər ki..." ifadələri ilə başlayıb. Rəvayətlərdə çox vaxt tarixi şəxslər əsas obraz olur. Bu rəvayətlər görkəmli alim İbn Sina haqqındadır. Rəvayətlərdə İbn Sinanın güclü müşahidə qabiliyyətinin olmasından, zəkasından bəhs edilir.

**Dərslik, səh. 70**

| |
|---|
| **g.** Mətnə istinad edərək İbn Sina və şagirdinin ortaq xüsusiyyətlərini müəyyən edin. Uyğun epizodları danışmaqla fikrinizi əsaslandırın. |

Cavab: İbn Sina və şagirdi Bəhmənyar güclü müşahidə qabiliyyətinə və iti ağıla mənsub insanlar idi. İbn Sina o qədər diqqətcil şagird idi ki, müəlliminin döşəkçəsinin altına qoyduğu dəftərin yaratdığı fərqi belə hiss edir. Bəhmənyar hələ kiçik yaşlarından iti ağlı ilə seçilirdi. Usta közü qoymaq üçün qab axtararkən Bəhmənyar yerdən bir ovuc torpaq götürüb ona tərəf uzadır.

**İş dəftəri, səh. 36**

| |
|---|
| **c.** Dinlədiyin mətnlərə aid hekayə xəritəsini tamamla. |

Şagirdlər dinlədikləri mətnlərə aid hekayə xəritəsini tamamlamaqla dinləyib-anlama bacarıqlarını nümayiş etdirirlər.

**Təqdimat**

**Dərslik, səh. 70**

| |
|---|
| **ğ.** Bu fəsildə İbn Sina haqqında aldığınız məlumatlara əsasən alim haqqında təqdimat hazırlayın. |

Şagirdlər bu fəsildə İbn Sina haqqında həm bədii, həm də qeyri-bədii mətnlər oxumuş və yaxud dinləmişlər. Tapşırığın məqsədi bədii və qeyri-bədii mətnlərin dil-üslub xüsusiyyətini fərqləndirmək bacarığını inkişaf etdirməkdir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Bədii və qeyri-bədii mətnləri məzmun-struktur xüsusiyyətlərinə görə təhlil edir. | Tapşırıq a, c, ç, d, f (dərslik); a, b (iş dəftəri) |
| Sözləri ümumi mənalarına görə qruplaşdırır. | Tapşırıq b (dərslik) |
| Dinlədiyi kiçikhəcmli mətnləri ümumi məzmun səviyyəsində anladığını nümayiş etdirir. | Tapşırıq e, ə, g (dərslik); c (iş dəftəri) |
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır. | Tapşırıq ğ (dərslik) |

Layihə

# 3-cü DƏRS
# Feilin zamana və şəxsə görə dəyişməsi

**Təlim nəticələri:**
• Feilin zaman və şəxs şəkilçilərindən düzgün istifadə edir (st. 4.1.3).

**Mövzuya yönəltmə**
Dərslik, səh. 71

a. Cümlələrdəki feilləri seçin və uyğunluğu müəyyən edin.

Tapşırıq motivasiya xarakterlidir və şagirdlərin diqqətini mövzuya yönəldir. Şagirdlər aşağı siniflərdə feilin zamanları haqqında məlumat alıblar. Bu məlumatlara əsasən tapşırığı yerinə yetirirlər.

Cavab: 1 – b, 2 – c, 3 – a.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları və nümunələri şərh edir.

Dərslik, səh. 71

b. Cümlələrdəki feilləri seçib zamanına görə qruplaşdırın.

Cavab:
Keçmiş zamanda işlənmiş feillər: getdik, tikilmişdir
İndiki zamanda işlənmiş feillər: hazırlaşırlar
Gələcək zamanda işlənmiş feillər: təqdim edəcək, həll edərsən

**"Bunları bilməliyik" rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları və nümunələri şərh edir.

Dərslik, səh. 71

c. Cümlələrdəki feillərin zamanını və hansı şəxsə aid olduğunu müəyyən edin.

Cavab:
Tapılmışdır – keçmiş zaman, III şəxsin təki
Əl tutur – indiki zaman, III şəxsin təki
Təşkil edəcəyik – gələcək zaman, I şəxsin cəmi
Davam etdirərsən – gələcək zaman, II şəxsin təki
Oxumuşam – keçmiş zaman, I şəxsin təki

Dərslik, səh. 71

ç. Feilləri müvafiq zamana və şəxsə görə dəyişib cümlədə işlədin.

Cavab: artırır, düşündünüz/düşünübsünüz/düşünmüşsünüz, bəyənəcəyəm/bəyənərəm, dəyişirsən, tanındıq/tanınmışıq, tutar/tutacaq.

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin feilin zamanları və şəxsə görə dəyişməsi haqqında biliklərinin tətbiqinə və möhkəmləndirilməsinə yönəldilib.

İş dəftəri, səh. 37

a. Sözləri kök və şəkilçiyə ayır, sxem üzrə qruplaşdır.

Cavab:
**Keçmiş zaman:** gör-üb
**İndiki zaman:** axtar-ır
**Gələcək zaman:** gül-əcək, danış-ar

İş dəftəri, səh. 37

b. Cümlələrdəki feillərə əsasən cədvəli tamamla.

| Cümlədəki feillər | Zaman | Şəxs | Tək/cəm |
|---|---|---|---|
| yazmışdır | keçmiş | III şəxs | tək |
| anlayıram | indiki | I şəxs | tək |

Laylhə

| | | | |
|---|---|---|---|
| qaytaracaqsınız | gələcək | II şəxs | cəm |
| sevinərlər | gələcək | III şəxs | cəm |
| müalicə etdik | keçmiş | I şəxs | cəm |

**İş dəftəri, səh. 37**

**c.** Feilləri zamana və şəxsə görə dəyiş.

Şagirdlər tapşırıqda verilmiş feilləri zamana və şəxsə görə dəyişməklə bu mövzu haqqında öyrəndikləri bilikləri tətbiq edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Feilin zaman və şəxs şəkilçilərindən düzgün istifadə edir. | Dərslik və iş dəftərində verilmiş tapşırıqlar |

Layihə

# 3-cü fəsil
# DAHİLƏRİN UŞAQLIĞI

## 1-ci DƏRS
## Karl Qauss

**Təlim nəticələri:**
- Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir (st. 3.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 2.1.3).
- Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).
- Qeyri-bədii mətni məzmun-struktur xüsusiyyətlərinə görə təhlil edir (st. 3.1.5).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 72**

**a.** 1-dən 100-ə qədər ədədləri toplamağa çalışın. Sizcə, bu tapşırıq nə qədər vaxtınızı alar?

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəldir.

**Mətn üzrə iş.** Şagirdlər mətni səssiz oxuyur, əsas məlumatları müəyyən edirlər.

**Dərslik, səh. 73**

**b.** Aşağıda verilmiş sözləri uyğun nöqtələrin yerinə artırmaqla cümlələri tamamlayın. Artırdığınız sözlərə sual verməklə aralarındakı məna fərqini izah edin. Hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirin.

Cavab:
1. Qardaşım ***riyaziyyat (isim)*** fənni üzrə olimpiadanın qalibi oldu.
2. Məşhur ***riyaziyyatçı (isim)*** Pifaqor eradan əvvəl 570–495-ci illərdə Yunanıstanda yaşayıb.
3. Qauss hələ uşaqlıqdan öz ***riyazi (sifət)*** bilikləri ilə seçilirdi.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 73**

**c.** Mətndə hansı suala cavab tapmaq mümkün deyil?

Cavab: a. Qaussun valideynlərinin adı nə idi?

**Dərslik, səh. 73**

**ç.** Mətndən aşağıdakı nəticəyə gəlmək üçün əsas verən iki faktı seçin.

Cavab:
I fakt. Karl Qauss 1777-ci ildə anadan olmuşdur.
II fakt. O, 78 yaşında vəfat etmişdir.

**Dərslik, səh. 74**

**d.** “Karl Qauss” mətnindəki hadisələrin ardıcıllığını bərpa edin və mətnin məzmununu danışın.

Tapşırıq oxuyub-qavrama ilə yanaşı, danışma bacarığını da inkişaf etdirir.

Cavab:
1. Yazıb-oxumağa həvəsi
2. Atanın hesablamalarındakı səhv
3. Müəllimin çətin tapşırığı
4. Karlın ilk riyazi kəşfi

Layihə

5. Dünyanın məşhur riyaziyyatçısı

**Dərslik, səh. 74**

**e.** Mətndə hansı epizodlar Qaussa aid aşağıdakı xüsusiyyətləri əks etdirir?

Cavab:

Dərrakəli idi. Qauss müəllimin verdiyi tapşırığın asan həlli yolunu tapdı.

Diqqətli idi. Fəvvarə ustası işləyən atasının hesablamalarında səhv tapmışdı.

Çalışqan idi. Qauss hələ kiçik yaşlarından yazıb-oxumağı öyrənmiş, daim biliklərini inkişaf etdirmişdi.

Müşahidəçi idi. Hələ kiçik yaşlarından ətraf aləmi müşahidə edir, onu maraqlandıran suallarla valideynlərindən, müəllimlərindən nə isə öyrənməyə, kəşf etməyə çalışırdı.

**Dərslik, səh. 74**

**ə.** Mətnin məzmununa əsasən Qauss üsulunu izah edin.

Tapşırıq şagirdlərin oxuyub-qavrama bacarığı ilə yanaşı, riyazi biliklərinə də istinad edir.

**İş dəftəri, səh. 38**

**a.** "Karl Qauss" mətninə istinad etməklə aşağıdakı fikirlərin doğru, yoxsa yanlış olduğunu əsaslandır.

Şagirdlər mətndən uyğun epizodları göstərməklə verilmiş fikirlərin doğru olub-olmadığını müəyyənləşdirirlər.

**Dərslik, səh. 74**

**f.** "Karl Qauss" mətnini yazmaqda müəllifin əsas məqsədi nədir?

Cavab: c. Qauss üsulunun necə yaranması barədə məlumat vermək

**Dərslik, səh. 74**

**g.** "Karl Qauss" mətninin növünü müəyyən edin.

Debat xarakteri daşıyan bu tapşırıq, əslində, şagirdlərin diqqətini vacib bir məsələyə yönəldir. Göründüyü kimi, "Karl Qauss" mətnində görkəmli riyaziyyatçı alim haqqında danışılır. Karl Qauss real tarixi şəxsiyyətdir. Lakin mətndə həm də dialoqlardan istifadə edilib. Diqloqlardan, əsasən, bədii mətnlərdə istifadə olunur. Bəs "Karl Qauss" mətni bədii, yoxsa qeyri-bədii mətndir?

Müəllim şagirdlərin versiyalarını dinlədikdən sonra "Yadda saxla" rubrikasında verilmiş məlumatları şərh edir.

Cavab: "Karl Qauss" qeyri-bədii mətndir. Qeyri-bədii mətnlərdə bəzən real hadisə və faktlar haqqında bədii, obrazlı şəkildə məlumat verilir. Bu mətnin bəzi hissələrində də Karl Qauss haqqında obrazlı məlumatlar verilib. Müəllif mətnin bəzi epizodlarını öz təxəyyülünə uyğun təsvir edib. Məsələn, Karlın anası ilə dialoqu müəllifin təxəyyülünə əsasən yazılıb. Bu dialoqda Karlın xarakteri, düşüncələri, hiss-həyəcanı təsvir edilib.

**Dərslik, səh. 74**

**ğ.** "Karl Qauss" mətnində müəllifin təxəyyülünə uyğun təsvir olunmuş epizodları danışın.

Şagirdlər Karl ilə anasını arasındakı dialoqun məzmununu danışırlar.

Müəllim "h" tapşırığını yerinə yetirməzdən əvvəl "Sözlərin izahı" rubrikasındakı sözlərin mənasını şərh edir.

**Dərslik, səh. 75**

**h.** "Karl Qauss" mətnində verilmiş hansı məlumat təxəyyül deyil, faktdır?

Cavab: 1. Fakt 2. Təxəyyül 3. Fakt 4. Fakt

Layihə

İş dəftəri, səh. 38

**b.** Şəkildə gördüyün alim haqqında məlumat vərəqi hazırla.

Cavab: Şagirdlər Karl Qauss haqqında məlumat vərəqi tərtib etməklə mətnin məzmununu qavradıqlarını, mövzuya aid əsas məlumatları mənimsədiklərini nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir. | Tapşırıq b (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq c, ç (dərslik); a, b (iş dəftəri) |
| Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir. | Tapşırıq d (dərslik) |
| Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir. | Tapşırıq e, ə (dərslik) |
| Qeyri-bədii mətni məzmun-struktur xüsusiyyətlərinə görə təhlil edir. | Tapşırıq f, g, ğ, h (dərslik) |

# 2-ci DƏRS
# Eynşteyn dərslərindən "2" alırdı?

**Təlim nəticələri:**
- Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.1).
- Qeyri-bədii mətni məzmun-struktur xüsusiyyətlərinə görə təhlil edir (st. 3.1.5).
- Əldə etdiyi məlumatlar əsasında arqumentativ mətn yazır (st. 4.1.1).

**Mövzuya yönəltmə**

Dərslik, səh. 75

**a.** Qeydlər götürməklə "Eynşteyn dərslərindən "2" alırdı?" mətnini dinləyin. Suallara cavab verin.

***Eynşteyn dərslərindən "2" alırdı?***

*Albert Eynşteyn XX əsrin ən böyük alimlərindən biridir. Onun haqqında geniş yayılmış bir fikir var ki, guya Eynşteyn orta məktəbdə pis oxuyurmuş. Doğrudanmı dahi fizik, Nobel mükafatı laureatı Albert Eynşteyn orta məktəb proqramını mənimsəyə bilmirmiş?*

*Eynşteynin 1896-cı ildə aldığı orta məktəb attestatından görünür ki, 17 yaşlı Albertin cəbr, həndəsə, fizika, tarix fənləri üzrə bilikləri ən yüksək qiymətə layiq görülüb. Gələcək dahinin cəmi bir "3"ü olub: fransız dilindən. Bununla belə, Eynşteyn 20 il sonra dünyanın məşhur universitetlərində müxtəlif dillərdə, o cümlədən fransız dilində mühazirələr oxuyurdu.*

*Bəs elə isə Eynşteynin zəif şagird olması haqqında əfsanə necə yaranıb?*

*Gənc Albert gimnaziyada təhsil alarkən müəllimlərlə münasibəti həmişə gərgin olub. Azad düşüncəli şagirdin hərbi qaydaları xatırladan davranış normalarından heç vaxt xoşu gəlməyib. O, həmişə gimnaziyadakı əzbərçilik sisteminə etiraz edib: "Ən ağır cəzaya dözməyə hazıram, təki məni bu cəfəngiyyatı əzbərləməyə məcbur etməsinlər".*

*Beləliklə, Eynşteynin attestatında bəzi fənlərdən yazılan aşağı qiymətlər, çox güman ki, müəllimlərlə gərgin münasibəti ilə bağlı olub.*

Şagirdlər mətni dinləyir və tapşırıqdakı sualları cavablandırmaqla məzmununu anladıqlarını

Layihə

nümayiş etdirirlər.

**İş dəftəri, səh. 39**

**a.** “Eynşteyn dərslərindən “2” alırdı?” mətnində hansı suallara cavab yoxdur?

Cavab: 3, 4.

**İş dəftəri, səh. 39**

**b.** Mətnə əsasən cədvəli tamamla.

| Albert gimnaziyada təhsil alarkən müəllimlərlə münasibəti gərgin olub | |
|---|---|
| **Səbəb** | **Nəticə** |
| Azad düşüncəli şagirdin hərbi qaydaları xatırladan davranış normalarından heç vaxt xoşu gəlməyib. O, həmişə gimnaziyadakı əzbərçilik sisteminə etiraz edib: “Ən ağır cəzaya dözməyə hazıram, təki məni bu cəfəngiyyatı əzbərləməyə məcbur etməsinlər”. | Beləliklə, Eynşteynin attestatında bəzi fənlərdən yazılan aşağı qiymətlər, çox güman ki, müəllimlərlə gərgin münasibəti ilə bağlı olub. |

**İş dəftəri, səh. 39**

**c.** Mətndən verilmiş məlumatların fakt və ya fikir olduğunu müəyyən et.

Cavab: 1 – fakt, 2 – fikir, 3 – fakt, 4 – fakt, 5 – fikir, 6 – fakt.

**Dərslik, səh. 75**

**b.** Mətndə hansı mübahisəli məsələyə toxunulur? Müəllifin bu məsələ ilə bağlı mövqeyi necədir? O, fikrini sübut etmək üçün hansı arqumentlərdən istifadə edir?

Tapşırıq şagirdlərin diqqətini arqumentativ mətnlərə yönəldir. Adından da göründüyü kimi “Eynşteyn dərslərindən “2” alırdı?” mətnində müəllif mübahisəli bir məsələyə toxunur. Həqiqətən də, görkəmli alim məktəbdə zəif oxuyurmuş? Daha sonra müəllif bu məsələ ilə bağlı mövqeyini bildirir. Eynşteynin attestatını əsas göstərərək mövqeyini dəstəkləyən arqumentlər sadalayır.

**İş dəftəri, səh. 39**

**ç.** “Eynşteyn dərslərindən “2” alırdı?” hansı mətn tipinə aiddir? Fikrini əsaslandır.

Şagirdlər tapşırığı yerinə yetirməklə qeyri-bədii mətnlərin növlərini məzmun-struktur xüsusiyyətlərinə görə fərqləndirdiklərini nümayiş etdirirlər.

Cavab: “Eynşteyn dərslərindən “2” alırdı?” mətni arqumentativ mətndir.

**Yazı**

**Dərslik, səh. 75**

**c.** Götürdüyünüz qeydlərə əsasən “Eynşteyn dərslərindən “2” alırdı?” mətninin məzmununu aşağıdakı struktura uyğun yazın.

Dərslikdə təqdim edilmiş “b” və iş dəftərindəki “ç” tapşırıqlarını yerinə yetirdikdən sonra şagirdlər bu tapşırığı asanlıqla yazacaqlar.

**Müəllimin nəzərinə!** Dinləmə mətninin məzmunu ilə yanaşı, stukturunun düzgün qurulmasına diqqət edilməlidir. Şagirdlərin yazısı tapşırıqda qoyulmuş plana uyğun olmalıdır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq a (dərslik);<br>a, b, c (iş dəftəri) |



Leyla

| | |
|---|---|
| Qeyri-bədii mətni məzmun-struktur xüsusiyyətlərinə görə təhlil edir. | Tapşırıq b (dərslik); ç (iş dəftəri) |
| Əldə etdiyi məlumatlar əsasında arqumentativ mətn yazır. | Tapşırıq c (dərslik) |

# 3-cü DƏRS
# Zərfin məna növləri

**Təlim nəticələri:**
• Zərfin mənaca növlərini fərqləndirir (st. 4.1.3).
• Qrammatik xüsusiyyətlərinə görə zərfi digər nitq hissələrindən fərqləndirir (st. 4.1.3).

**Mövzuya yönəltmə**
**Dərslik, səh. 76**

**a.** Fərqləndirilmiş sözlər hansı suallara cavab verir? Uyğunluğu müəyyən edin.

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini cümlələrdəki zərflərə və suallarına yönəldir.
**"Bunları bilməliyik" rubrikası.** Müəllim rubrikadakı məlumatları şərh edərək şagirdlərə zərfin məna növlərini izah edir. Dərslikdə və iş dəftərində verilmiş tapşırıqlar möhkəmləndirmə xarakterlidir.
**Dərslik, səh. 76**

**b.** Nöqtələrin yerinə uyğun zərflər artırmaqla cümlələri tamamlayın. Zərfin növünü müəyyən edin.

Cavab:
1. Yazıçının yaradıcılığı ilə ***yaxından*** tanış olmuşdu. ***(tərzi-hərəkət zərfi)***
2. Deyilən söz ***geri*** qayıtmaz. ***(yer zərfi)***
3. Sərgidəki rəsmlərə ***maraqla*** tamaşa edirdi. ***(tərzi-hərəkət zərfi)***
4. ***Doğru*** danış ki, ***sonra*** xəcalət çəkməyəsən. ***(tərzi-hərəkət və zaman zərfi)***

**"Bunları bilməliyik" rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları və nümunələri şərh edir. Zərfin digər nitq hissələri ilə ortaq xüsusiyyətlərini nümunələrlə izah edir.
**Dərslik, səh. 76**

**c.** Fərqləndirilmiş sözlər hansı nitq hissəsidir?

Cavab:
1. **Yayda** dincəlmək üçün kəndimizə gedirik. **(zərf, nə vaxt?)**
2. Yazı **yay** əvəz edir. **(isim, nə?)**
3. **Doğru** cavabı müəyyən edin. **(sifət, necə?)**
4. Səninlə razıyam, **doğru** deyirsən. **(zərf, necə?)**
5. Yol boyu **xeyli** ağac əkdik. **(say, nə qədər?)**
6. Müəlliminin sözləri onu **xeyli** ruhlandırmışdı. **(zərf, nə qədər?)**

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin zərfin məna növləri və digər nitq hissələri ilə ortaq xüsusiyyətləri haqqında aldıqları biliklərin möhkəmləndirilməsinə yönəlmişdir.
**İş dəftəri, səh. 40**

**a.** Zərfləri cədvəl üzrə qruplaşdır. Hər sütuna daha bir nümunə yaz.

Cavab:

| Tərzi-hərəkət | Zaman | Yer | Kəmiyyət |
|---|---|---|---|
| yavaş | sabah | aşağı | az-maz |

| | | | |
|---|---|---|---|
| asan | həmişə | irəli | birə-beş |
| | hərdən | | |

**İş dəftəri, səh. 40**

**b.** Cümlələrdəki zərfləri seç və cədvəli tamamla.

| | Zərf | Sualı | Məna növü | Aid olduğu feil |
|---|---|---|---|---|
| 1 | ora-bura | hara? | yer zərfi | vurnuxurdular |
| 2 | içəri | hara? | yer zərfi | daxil oldular |
| 3 | üzbəüz | necə? | tərzi-hərəkət zərfi | oturdular |
| 4 | tələsik | necə? | tərzi-hərəkət zərfi | cavab verdi |
| 5 | hərdən | nə vaxt? | zaman zərfi | ver |
| 6 | az, çox | nə qədər? | kəmiyyət zərfi | danış, dinlə |

**İş dəftəri, səh. 40**

**c.** Sözləri cümlələrdə müxtəlif nitq hissələri kimi işlət.

Şagirdlər müxtəlif məzmunlu cümlələr yaza bilərlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Zərfin mənaca növlərini fərqləndirir. | Tapşırıq a, b (dərslik); a, b (iş dəftəri) |
| Qrammatik xüsusiyyətlərinə görə zərfi digər nitq hissələrindən fərqləndirir. | Tapşırıq c (dərslik); c (iş dəftəri) |

Layihə

# 4-cü fəsil
# CIĞIR AÇAN ALİMLƏR

## 1-ci DƏRS
## İlk proqramçı

**Təlim nəticələri:**
- Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Əlavə biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələri izah edir (st. 3.1.4).
- Qeyri-bədii mətni məzmun-struktur xüsusiyyətlərinə görə təhlil edir (st. 3.1.5).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 77**

**a.** Hansı kompüter proqramlarını tanıyırsınız? Bu proqramların funksiyası haqqında danışın.

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəldir.

**Mətn üzrə iş.** Şagirdlər mətni səssiz oxuyur, əsas məlumatları müəyyən edirlər.

**Söz ehtiyatı**

Mətn oxunduqdan sonra, ilk növbədə, söz ehtiyatı üzərində iş aparılır. "Söz mücrüsü"ndəki, eləcə də şagirdlərin mənasını anlamadıqları digər sözlər izah edilir.

**Dərslik, səh. 78**

**b.** Nöqtələrin yerinə "Söz mücrüsü"ndən uyğun gələnləri artırıb cümlələri tamamlayın.

Cavab:
1. Maşının bütün hissələrini özü ***quraşdırmışdı***.
2. Bu gün riyaziyyat dərsində yeni ***formul*** öyrəndik.
3. "***Əlamətdar*** və tarixi günlər təqvimi" ilə tanış olduq.
4. Anam mətbəx üçün müxtəlif funksiyaları olan ***universal*** bir maşın istəyirdi.

**Dərslik, səh. 78**

**c.** "Universal" sözünün izahları ilə tanış olun. *Universal proqram, universal işçi, universal alət* ifadələrinin hansı mənaya uyğun gəldiyini müəyyən edin.

Tapşırıq şagirdlərin söz ehtiyatının zənginləşdirilməsinə xidmət edir.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 78**

**ç.** Mətnə əsasən fikirlərin doğru, yoxsa yanlış olduğunu müəyyən edin.

Cavab: 1 – D, 2 – Y, 3 – D, 4 – Y, 5 – D.

**Dərslik, səh. 78**

**d.** Mətndən aşağıdakı nəticələrə gəlmək üçün zəmin yaradan iki faktı seçin.

| I fakt | II fakt | Nəticə |
|---|---|---|
| Ada Lavleys 1815-ci ildə anadan olmuşdur. | 12 yaşı olanda Ada uçan aparat quraşdırıb. | Ada 1827-ci ildə uçan aparat yaratmışdı. |

Layihə

| | | |
|---|---|---|
| Ada Lavleys 1815-ci ildə anadan olmuşdur. | 37 yaşında xərçəng xəstəliyindən dünyasını dəyişib. | Ada Lavleys 1852-ci ildə vəfat etmişdir. |

**İş dəftəri, səh. 41**

**a.** “İlk proqramçı” mətninə istinad etməklə uyğunluğu müəyyən et.

Cavab: 1 – b, 2 – c, 3 – a.

**İş dəftəri, səh. 41**

**b.** Mətnə əsasən cümlələri tamamla.

Cavab:
1. Corc Bayronun qızının adını ***Ada*** qoydular.
2. Adanın elmə, xüsusilə də ***riyaziyyata*** böyük marağı var idi.
3. 12 yaşı olanda Ada ***uçan aparat*** quraşdırmışdı.
4. Adanın həyatında ən əlamətdar hadisə ***Çarlz Bebbiclə*** tanışlığı oldu.
5. 10 dekabr – Ada Lavleysin ad günü ***proqramçıların*** peşə bayramı kimi qeyd edilir.

**Dərslik, səh. 79**

**e.** Sizcə, “İlk proqramçı” bədii, yoxsa qeyri-bədii mətndir? Mətndən aşağıdakı fikirləri təsdiqləyən nümunələr seçərək fikrinizi əsaslandırın.

Şagirdlər tapşırığı yerinə yetirməklə qeyri-bədii mətnlərin növlərini məzmun-struktur xüsusiyyətlərinə görə fərqləndirdiklərini nümayiş etdirirlər.

Cavab:

| Mətnin xüsusiyyətləri | Əsaslanma |
|---|---|
| Müəllifin əsas məqsədi oxucuya həqiqətəuyğun, dəqiq məlumat verməkdir. | Ada Lavleys real tarixi şəxsiyyətdir. Müəllif alimin həyatı və elmi fəaliyyəti haqqında oxucuya məlumat verir. |
| Mətndə real faktlar, tarixi hadisələr öz əksini tapıb. | Mətndə Ada Lavleys haqqında təqdim edilmiş məlumatların həqiqiliyini sübut etmək mümkündür. |
| Mətndə hadisələrin dəqiq tarixi, yeri, real şəxslərin adları göstərilir. | • Ada Lavleys 1815-ci il dekabr ayının 10-da anadan olmuşdur.<br>• Atası Corc Bayron ingilis şairi olub.<br>• Ada 1837-ci ildə uçan aparat quraşdırıb.<br>• Çarlz Bebbic ilk hesablama maşınının yaradıcısıdır. |
| Mətn tarixi sənədlərin şəkilləri və fotolarla müşayiət olunur. | Mətnə Çarlz Bebbicin ixtira etdiyi maşının şəkli əlavə edilib. |

**İş dəftəri, səh. 41**

**c.** “İlk proqramçı” mətninə istinad etməklə aşağıdakı fikirləri təsdiq və ya inkar et.

Şagirdlər tapşırığı yerinə yetirməklə qeyri-bədii mətnlərin məzmun-struktur xüsusiyyətlərini anladıqlarını nümayiş etdirirlər.

Layihə

**Dərslik, səh. 79**

**ə.** Mətndə altından xətt çəkilmiş cümləni bir daha oxuyun. Aşağıdakı məlumatlar Ada Lavleysin hansı fikirlərini sübut edir?

Cavab: Verilmiş məlumatlar Ada Lavleysin musiqi bəstələmək, şəkil çəkməklə bağlı düşüncələrinin reallaşdığını göstərir. Hal-hazırda insanlar şəkil çəkmək, musiqi bəstələmk üçün müxtəlif proqramlardan istifadə edirlər.

**Dərslik, səh. 79**

**f.** Təsəvvür edin ki, keçmişə səyahət edib Çarlz Bebbic və Ada Lavleyslə görüşmüsünüz. Kompüter bilgilərinizdən istifadə edərək onlara müasir kompüter texnologiyalarının imkanları haqqında məlumat verin.

Şagirdlər informatika fənnindən öyrəndiklərinə və şəxsi fikirlərinə istinad edərək tapşırığı yerinə yetirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq b, c (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq ç, d (dərslik); a, b (iş dəftəri) |
| Qeyri-bədii mətni məzmun-struktur xüsusiyyətlərinə görə təhlil edir. | Tapşırıq e (dərslik); c (iş dəftəri) |
| Əlavə biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələri izah edir. | Tapşırıq ə, f (dərslik) |

# 2-ci DƏRS
# Görkəmli alimlər haqqında təqdimat

**Təlim nəticələri:**
- Təqdimat zamanı fikirlərin məntiqi ardıcıllığına riayət edir (st. 2.1.3)
- Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərə müraciət edir:

– Bu bölmədə hansı alimlər haqqında məlumat aldınız?

**Təqdimat**

**Dərslik, səh. 79**

**a.** Qruplara ayrılın və adları çəkilən alimlər haqqında araşdırma aparın. Bu bölmədə öyrəndiyiniz və araşdırma nəticəsində tapdığınız məlumatlara əsasən təqdimat hazırlayın.

**Müəllimin nəzərinə!** Sinfin texniki təchizatını nəzərə alaraq müəllim araşdırma tapşırığını şagirdlərə bir gün öncədən tapşıra bilər. Tapşırıq qruplarla iş formasında yerinə yetirildiyi üçün qrupların da bir gün öncə müəyyən edilməsi məqsədyönlüdür. Bu, qrup üzvləri arasında əvvəlcədən iş bölgüsünün aparılmasına kömək edə bilər.

Tapşırıqda verilmiş alimlər haqqında araşdırmalar aparan şagirdlər müzakirələr əsasında təqdimata hazırlaşırlar. Təqdimat materialının dizaynına xüsusi diqqət yetirirlər. Sinfin kompüter təchizatı imkan verərsə, təqdimatın slaydlar şəklində hazırlanması arzuolunandır.

**Dərslik, səh. 79**

**b.** Bu təqdimatlardan hansı yeni məlumatlar aldınız? Bir-birinizin təqdimatına rəy bildirin.

Layihə

**Müəllimin nəzərinə!** Tapşırıqda təqdim edilmiş təlimat əsasında qiymətləndirmə meyarları tərtib edib şagirdlərə vermək olar. Şagirdlər təqdimatları izləyərkən həmin meyarlar əsasında fikir söyləyə bilərlər.

**Qiymətləndirmə meyarları belə ola bilər:**

| Meyarlar | Bəli | Xeyr | Qismən |
|---|---|---|---|
| Təqdimatı cəlbedici girişlə başladı. | | | |
| Təqdimatda alimin həyat və yaradıcılığı haqqında maraqlı faktlar verilib. | | | |
| Alimin elmi fəaliyyətindəki əsas məqamlar vurğulandı. | | | |

**Yazı**

**İş dəftəri, səh. 42**

**a.** Məlumatları rabitəli mətn şəklində təqdim et.

Tapşırıq şagirdlərin yazı bacarığını inkişaf etdirir. Şagirdlər Əbu Reyhan əl-Biruni haqqında məlumatverici mətn yazır və bununla da qeyri-bədii mətnlərin məzmun-struktur baxımdan xüsusiyyətlərini fərqləndirdiklərini nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Təqdimat zamanı fikirlərin məntiqi ardıcıllığına riayət edir. | Tapşırıq a (dərslik) |
| Əldə etdiyi məlumatlar əsasında məlumatverici mətn yazır. | Tapşırıq a (iş dəftəri) |

Layihə

# Ümumiləşdirici təkrar

**Təlim nəticələri:**

• Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir (st. 4.1.3).

Dərslik, səh. 80

**1.** Nöqtələrin yerinə uyğun isimlər artırıb cümlələri tamamlayın. Saylarla işlənən isimlərin təkdə və cəmdə işlənməsi səbəbini izah edin.

Cavab:
1. Sərgidə bir çox ***nəşriyyatlar*** nəşr etdikləri kitabları nümayiş etdirirdi.
2. Deyilənə görə, Arximedin tapşırığı ilə 450 ədəd ***güzgü*** hazırlanır.
3. Festivalda yüzlərlə ***insan*** iştirak edirdi.
4. Mündəricat kitabın birinci ***səhifəsində*** verilmişdi.
5. “Elm” jurnalının bu nömrəsində onlarla ***alimin/alimlərin*** məqaləsi verilib.
6. Konsertin bitməsinə 5–10 ***dəqiqə*** qalıb.

Dərslik, səh. 80

**2.** Hansı cümlədə sayla işlənən isim cəmdə olmalıdır?

Cavab: c. Şəhərin bir çox yollarında təmir işləri aparılır.

Dərslik, səh. 80

**3.** Cümlələrdə fərqləndirilmiş sözlərə diqqət edin və feilləri müvafiq zamanda işlədin.

Cavab:
1. ***Dünən*** “Gələcəyin alimləri” adlı konfransda *iştirak etdim.*
2. Şirvanşahlar sarayı ***XV əsrdə*** Şirvanşah I Xəlilullah tərəfindən *tikdirilmişdir.*
3. ***Gələn il*** məktəbimizdə təbiət fənləri üzrə olimpiada *keçiriləcək.*
4. ***Srağagün*** çox güclü yağış *yağdı.*
5. ***Növbəti həftə*** Bakı ətrafı kəndlərə ekskursiya *təşkil edəcəyik.*
6. Təbiətsevərlər ***hər il*** minlərlə ağac *əkirlər.*

Dərslik, səh. 80

**4.** Cümlələrdəki feillərin zamanını və hansı şəxsə aid olduğunu müəyyən edin.

Cavab:
1. Müəllim sinfə müraciətlə sualı **təkrarladı.** (keçmiş zaman, III şəxsin təki)
2. Alimlər bu ərazidə arxeoloji qazıntılar **aparacaqlar.** (gələcək zaman, III şəxsin cəmi)
3. Oğul, qısa zamanda bu sənətin sirlərini **öyrəndin.** (keçmiş zaman, II şəxsin təki)
4. Bu bitki iki ildən bir çiçək **açacaq.** (gələcək zaman, III şəxsin təki)
5. Biz hər gün dəniz sahilinə **gedirik.** (indiki zaman, I şəxsin cəmi)

Dərslik, səh. 80

**5.** Feilləri zamana və şəxsə görə dəyişib cümlədə işlədin.

Cavab:
gözləyir (indiki zaman, III şəxsin təki)
soruşdunuz/soruşmusunuz (keçmiş zaman, II şəxsin cəmi)
başlayacağam/başlayaram (gələcək zaman, I şəxsin təki)
sevinirsən (indiki zaman, II şəxsin təki)
səslədik/səsləmişik (keçmiş zaman, I şəxsin cəmi)
aparacaq/aparar (gələcək zaman, III şəxsin təki)

Layihə

**Dərslik, səh. 81**

**6.** Cümlələrdən zərfləri seçib cədvəl üzrə qruplaşdırın. Hər sütuna daha iki zərf özünüz əlavə edin.

Cavab:

| | Tərzi-hərəkət zərfi | Zaman zərfi | Yer zərfi | Kəmiyyət zərfi |
|---|---|---|---|---|
| 1 | cəld | | irəli | |
| 2 | | səhərə yaxın, günorta | | |
| 3 | birlikdə | | | |
| 4 | | yayda, çoxdan | | |
| 5 | | | | dəfələrlə |
| 6 | | bu gün | | tamamilə |

**Dərslik, səh. 81**

**7.** Hansı cümlədə tərzi-hərəkət zərfi işlənib?

Cavab: 2

**Dərslik, səh. 81**

**8.** Dördündən biri zərfin məna növünə görə fərqlidir:

Cavab:
1-ci sırada "birdən" tərzi-hərəkət, digərləri isə yer zərfidir.
2-ci sırada "az" kəmiyyət, digərləri isə tərzi-hərəkət zərfidir.
3-cü sırada "orada" yer, digərləri isə zaman zərfidir.
4-cü sırada "xeyli" kəmiyyət, digərləri isə zaman zərfidir.

**Dərslik, səh. 81**

**9.** Zərfin məna növlərinə görə məntiqi ardıcıllığı davam etdirərək hər sıraya iki nümunə artırın.

Cavablara nümunə ola bilər:
arabir, dərhal, gec, **həmişə, indi**
qəhrəmancasına, birlikdə, qeyri-ixtiyari, **cəld, sevinclə**
sağa, bura, geri, **yuxarı, ora**
dəfələrlə, birə-beş, az-çox, **xeyli, tamamilə**

**Dərslik, səh. 81**

**10.** Aşağıdakı sözləri cümlələrdə həm zərf, həm də başqa nitq hissəsi kimi işlədin.

Cavab nümunələri:
1. Konsertə *az* adam gəlmişdi.
Uşaq *az* danışırdı.
2. Fiqurları taxtanın üstünə *düz.*
Sən *düz* danışırsan.
Çoban sürünü *düzə* çıxarmışdı.
3. *Gecə* yağış yağırdı.
*Gecə* düşdü.
4. Xahiş edirəm, bir qədər *aydın* danış.
*Aydın* göy üzündə ulduzlar parlayırdı.
5. Sən çox *yaxşı* insansan.
Dərslərini *yaxşı* oxuyursanmı?

Layihə

İş dəftəri, səh. 43

**1.** Hansı cümlədə nöqtələrin yerinə cəm şəkilçisi yazılmalıdır?

Cavab: b. Bir sıra məsələ... müzakirəyə çıxarıldı.

İş dəftəri, səh. 43

**2.** "Aparmaq" feilini zamana və şəxsə görə dəyiş.

Şagirdlər feillərin zaman və şəxs şəkilçilərindən düzgün istifadə etdiklərini nümayiş etdirirlər.

İş dəftəri, səh. 43

**3.** Nöqtələrin yerinə uyğun zərflər əlavə edib cümləleri tamamla. Zərfin hansı suala cavab verdiyini qeyd et.

Cavab:
1. ***Doğru (necə?)*** danış ki, sonra xəcalət çəkməyəsən.
2. Ölkəmizə gələn turistlər milli yeməkləri ***çox (nə qədər?)*** xoşlayırlar.
3. ***Dünən (nə vaxt?)*** meşəyə göbələk yığmağa getmişdik.
4. Qonaqlar yayda buraya ***(haraya?)*** dincəlməyə gəlirlər.
5. Bir neçə gündən sonra kəşfiyyatçılar ***geri (hara?)*** qayıtdılar.
6. O, rəqibinə ***çətinliklə (necə?)*** qalib gəldi.

İş dəftəri, səh. 43

**4.** Fərqləndirilmiş sözlərin hansı nitq hissəsinə aid olduğunu müəyyən et.

Cavab: 1 – sifət, 2 – zərf, 3 – sifət, 4 – zərf, 5 – zərf, 6 – isim.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

Bölmə 4

# RABİTƏ

| Dərs | Mövzu | Məzmun xətti | Dərslik səh. | İş dəftəri səh. | Metodik vəsait səh. |
|---|---|---|---|---|---|
| 1-ci fəsil. **Teleqraf** | | | | | |
| 1 | Teleqrafın ixtirası | Oxu | 84-86 | 44 | 115-117 |
| 2 | Zəfərin adı – teleqraf telləri | Dinləmə. Yazı | 87 | 45 | 117-120 |
| 3 | Morze, yoxsa Veyl əlifbası? | Oxu | 88-90 | 46 | 120-122 |
| 4 | Təqdimat | Yazı | 90 | | 122-123 |
| 5 | Təsriflənməyən feillər. Məsdər | Yazı | 91 | 47 | 123-124 |
| 2-ci fəsil. **Telefon** | | | | | |
| 6 | Telefonun ixtirası: daha bir tarixi ədalətsizlik | Oxu | 92-95 | 48 | 125-127 |
| 7 | Aleksandr Bell – dünyada ən bahalı patentin sahibi | Dinləmə. Danışma | 95 | 49 | 127-129 |
| 8 | Telefon texnologiyasının inkişafı (XX əsr) | Oxu. Yazı | 96-98 | 50 | 130-131 |
| 9 | Feili sifət. Feildən düzələn sifət | Yazı | 99 | 51 | 132-133 |
| 3-cü fəsil. **Mobil telefonlar** | | | | | |
| 10 | Texnologiya əsrinin möhtəşəm ixtirası | Oxu | 100-103 | 52 | 134-136 |
| 11 | Mobil telefonlar. İnternet | Dinləmə. Danışma | 103-105 | 53 | 136-138 |
| 12 | Debat | Danışma | 105 | | 139-140 |
| 13 | Feili bağlama | Yazı | 106 | 54 | 140-142 |
| 14 | Ümumiləşdirici təkrar | Yazı | 107 | 55 | 143-144 |

Layihə

# GİRİŞ DƏRSİ

## Qədimdə rabitə

**Təlim nəticələri:**
- Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür (st. 2.1.4).
- Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir (st. 3.1.2).
- Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir (st. 3.1.5).

**Mövzuya yönəltmə. Danışma**

Şagirdləri mövzuya yönəltmək üçün müəllim onlara belə suallar verə bilər:

Qədim dövrlərdə insanlar bir-birinə necə xəbər göndərirdilər?

Məktub göndərmək üçün insanlar qədimdə hansı materiallardan istifadə edirdilər? (məsələn, papirus, daş, ağac)

Qədim dövrlərdə rabitə üçün heyvanlardan necə istifadə olunurdu?

Sizin fikrinizcə, qədimdə rabitə vasitələrindən istifadə daha sadə idi, yoxsa mürəkkəb?

**Dərslik, səh. 82**

**a.** Sağda verilmiş izahların köməyi ilə kommunikasiya və rabitə arasındakı fərqi nümunələr əsasında şərh edin.
- Sizcə, bunlardan hansı daha ümumi anlayışdır: kommunikasiya, yoxsa rabitə?

Bu tapşırığı yerinə yetirərkən əvvəlcə "Sözlərin izahı" rubrikasına diqqət yetirilməlidir. Şagirdlər "kommunikasiya", "rabitə", "verbal" və "qeyri-verbal" sözlərinin mənaları ilə tanış olurlar.

Gün ərzində ayrı-ayrı şəxslər arasında məlumat mübadiləsi baş verir. Məsələn, sinifdə müəllimlə şagirdlər arasında, dostlar arasında, evdə ailə üzvləri arasında olan dialoq, söhbət. Bu, kommunikasiyadır. Kommunikasiyanı həm şifahi, həm də rabitə vasitələrinin köməyi ilə həyata keçirmək olar. Keçmişdən bu günə qədər müxtəlif rabitə vasitələri mövcud olmuşdur: teleqraf, poçt, telefon və s. Məsələn, uzaqda yaşayan dostumuzla telefon vasitəsilə kommunikasiya yarada bilərik.

Cavab: kommunikasiya daha ümumi anlayışdır.

**Dərslik, səh. 82**

**b.** Ünsiyyət prosesində nitq bacarıqlarının (dinləmə, danışma, oxu, yazı) rolu haqqında danışın.
- Hansı nitq bacarıqları informasiyanı anlamaq üçündür?
- Hansı nitq bacarıqları vasitəsilə informasiya ötürürük?
- Verbal və qeyri-verbal informasiyaya nümunə gətirin.

Sizcə, bunlardan hansı informasiyanı daha dəqiq ifadə etməyə imkan verir?

Şagirdlərin cavabı təxminən belə ola bilər:

Ünsiyyət prosesində dörd nitq bacarığından istifadə olunur: dinləmə, danışma, oxu, yazı. Biz daim ətrafımızdakılardan məlumat qəbul edirik, eyni zamanda öz hiss və düşüncələrimizi, fikirlərimizi onlara çatdırırıq. İnformasiya qəbul etmək və onu ötürmək prosesi həm yazılı, həm də şifahi yolla baş verir, yəni biz dinləməklə və oxumaqla informasiya alırıq, danışmaqla və yazmaqla informasiya ötürürük. Oxu kimi, dinləmənin də məqsədi informasiya qəbul etmək, anlamaqdır. Dinləmə zamanı diqqətli olmaq çox vacibdir. Çünki bu, dərketməni asanlaşdırır.

İnsan danışma prosesində öz fikirlərini ifadə edir. Hər kəs fikrini səlis ifadə etməyi bacarmalıdır, əks halda, müsahibinə məlumatı aydın şəkildə ötürə bilməz. Biz yazı vasitəsilə də öz fikirlərimizi ifadə edirik. Danışma kimi, onun da əsas məqsədi hiss və düşüncələri, məlumatları başqalarına çatdırmaqdır. Bundan əlavə, yazıda ədəbi dilin normalarına da diqqət yetirmək lazımdır.

Cavab: anlamaq üçün – dinləmə, oxu; ötürmək üçün – danışma, yazı.

Layihə

Dil vasitəsilə insanlar arasındakı ünsiyyət prosesi *nitq* adlanır. Bu zaman verbal ünsiyyət yaranır. Məsələn, məktəbdə sinif yoldaşlarımızla söhbətlər verbal ünsiyyət sayılır. Qeyri-verbal informasiyaya müxtəlif ifadəli hərəkətlər, mimika, pantomim, işarələr sistemi və s. ilə ötürülən məlumatı aid etmək olar. Məsələn, sağollaşarkən əl yelləmək, dərs vaxtı cavab vermək üçün əl qaldırmaq və s. Şübhəsiz ki, verbal ünsiyyət zamanı məlumat daha dəqiq ifadə edilir.

**Oxu**

**Dərslik, səh. 82-83**

**Mətnlə iş.** Verilmiş vaxt ərzində "Qədimdə rabitə" mətni səssiz oxunur. Şagirdlər onlara tanış olmayan söz və ifadələri dəftərlərində qeyd edirlər. Müəllim həmin sözlərin mənasını izah edir.

**Söz ehtiyatı**

**Dərslik, səh. 83**

**c.** Kontekstdən çıxış edərək mətndə fərqləndirilmiş *zəncir, qanad, yazmaq* sözlərinin məcazi mənada işləndiyini əsaslandırın. Bu sözlərin həqiqi və məcazi mənaları arasındakı yaxınlığı müəyyən edin.

Cavab: 1. Bu qüllələr **zənciri** 720 km uzunluğunda idi.

Zəncir "bir-birinə keçmiş halqalardan ibarət dəmir bağ; silsilə" deməkdir. Bu cümlədə qüllələrin ardıcıl düzülüşü zəncirə bənzədilib, bu isə "zəncir" sözünün məcazi mənada işləndiyini göstərir.

2. Bunun üçün o, dayağa bərkidilmiş güzgülü **qanadlardan** ibarət bir cihaz düzəltdi.

Qanad quşlarda və cücülərdə uçmaq orqanıdır. Cihazın qanadları olmaz. Ona bərkidilmiş vasitələr qanada bənzədiyi üçün belə adlanır. Deməli, cümlədə həmin söz məcazi mənada işlənib.

3. Bu cihaz vasitəsilə bir dəqiqədə iki söz **"yazmaq"** olurdu.

Məlumdur ki, "yazmaq" dedikdə kağız üzərində qrafik işarələr cızmaq nəzərdə tutulur. Bu, insanın yerinə yetirdiyi hərəkətdir. Cihazın yazması məcazi mənada ifadə olunub. Amma bu prosesdə də müəyyən işarələr meydana çıxa bilər.

**Dərslik, səh. 83**

**ç.** Mətndə danışılan hansı rabitə vasitəsilə verbal informasiya ötürmək mümkün deyildi?

Cavab: tonqal vasitəsilə

**Dərslik, səh. 83**

**d.** Mətnə istinad edərək sualları cavablandırın.
• Helioqraf vasitəsilə "İgid əsgərlərimiz Şuşanı düşməndən azad etdilər" cümləsini qonşu qülləyə neçə dəqiqəyə ötürmək olar?
• Hər hansı xəbər Fransanın bütün helioqraf qüllələrinə neçə dəqiqəyə ötürülə bilərdi?
Sizcə, helioqraf vasitəsilə günün hansı vaxtı şərqdən qərbə məlumat göndərmək mümkün idi?

Cavab: Helioqraf vasitəsilə "İgid əsgərlərimiz Şuşanı düşməndən azad etdilər" cümləsini qonşu qülləyə 3 dəqiqəyə ötürmək olar.

Hər hansı xəbər Fransanın bütün helioqraf qüllələrinə 60 dəqiqəyə ötürülə bilərdi (təxminən 4800 : 1200 x 15 = 60).

Helioqraf vasitəsilə günün ikinci yarısında şərqdən qərbə məlumat göndərmək mümkün idi. Çünki Günəş günün 2-ci yarısında qərb tərəfə keçir. Şüalarını şərqə göndərir. Güzgüdə şüalar şərqdən qərbə doğru əks olunur.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
| --- | --- |

Layihə

| | |
|---|---|
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tapşırıq a, b (dərslik) |
| Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir. | Tapşırıq c (dərslik) |
| Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir. | Tapşırıq ç, d (dərslik) |

Layihə

# 1-ci fəsil
# TELEQRAF

## 1-ci DƏRS
## Teleqrafın ixtirası

**Təlim nəticələri:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
- Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir (st. 3.1.5).
- Verbal və qrafik materialları (sxem) şərh etməklə mövzu üzrə danışır (st. 2.1.3).
- Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərin diqqətini fəslin adına yönəldir. Şagirdlər sözün mənası və bu sözün onlarda yaratdığı assosiasiya haqqında danışırlar. Daha sonra müəllim uşaqlara belə suallar verə bilər:

*– Teleqraf vasitəsilə informasiyanın necə ötürülməsi barədə məlumatınız varmı?*

*– Morze əlifbası haqqında eşitmisinizmi?*

**Danışma**

**Dərslik, səh. 84**

**a.** Keçən dərsdə məlumat aldığınız rabitə vasitələrinin hansı çatışmazlıqları var idi? Onları müasir rabitə vasitələri ilə müqayisə edin.

Cavab:

1) Qasidlər və çaparların məlumatı çatdırması üçün bəzən günlər, həftələr lazım gəlirdi.
2) Tonqalın yanmasına hava şəraiti mane ola bilərdi (məsələn, külək, yağış).
3) Poçt göyərçinləri yalnız müəyyən bir istiqamət üzrə uça bilirdilər.
4) Helioqrafın fəaliyyəti Günəşdən asılı idi.

Müasir rabitə vasitələri sürətlidir, havadan, zamandan asılı deyil. Onlarla istənilən istiqamət üzrə informasiya göndərmək olar.

**Oxu**

**Dərslik, səh. 84-85**

**Təbiət fənni ilə inteqrasiya.** Şagirdlər təbiət fənnində elektrik enerjisi haqqında öyrəndiklərini danışırlar. Bildirirlər ki, bir çox cihazların fəaliyyətində mühüm rol oynayan elektrik enerjisi elektrik stansiyalarında istehsal edilir və elektrik xətləri ilə ötürülür.

**Mətnlə iş.** "Teleqrafın ixtirası" mətni qeyd götürməklə oxunur. Şagirdlər mətni oxuduqca onlara aydın olmayan və maraq doğuran faktları, tanış olmayan söz və ifadələri dəftərlərində qeyd edirlər. Oxu prosesi bitdikdən sonra müəllim uşaqların suallarına aydınlıq gətirə bilər. Həmçinin "Söz mücrüsü"ndəki sözlər də izah edilir.

**Söz ehtiyatı**

**Dərslik, səh. 85**

**b.** Mətndə göy rənglə verilmiş cümləni şərh edin. Bu cümlədə hansı söz məcazi mənada işlənmişdir?

Cavab: Yəni teleqrafın köməyi ilə informasiyanı müxtəlif ölkələrə, hətta qitələrə sürətlə göndərmək mümkün oldu.

Göy rənglə verilmiş cümlədə "yaxınlaşdırdı" sözü məcazi mənada işlənib.

Layihə

**Dərslik, səh. 85**

**c.** Aşağıdakı cümlələrdə işlədilən “cərəyan” sözünü *elektrik cərəyanı* ifadəsindəki eyni sözlə müqayisə edin və məna yaxınlığını müəyyənləşdirin.

Cavab: 1-ci cümlədə işlənən “cərəyan” sözünün mənası budur: “dənizlərdə, okeanlarda suyun hər hansı bir istiqamətdə hərəkəti”

2-ci cümlədə işlənən “cərəyan” sözünün mənası budur: “baş vermək, olmaq”

“Elektrik cərəyanı” ifadəsindəki “cərəyan” sözünün mənası budur: “elektrik yükünün hərəkəti”.

• Bu sözün mənalarını izah etmək üçün hansı açar sözdən istifadə etmək olar? Hər bir halda hərəkət mənası üzə çıxır, deməli, açar söz “hərəkət”dir.

**İş dəftəri, səh. 44**

**a.** İzahları sözlərlə uyğunlaşdır.

Şagirdlər verilmiş izahları sözlərlə uyğunlaşdırmalıdırlar. Tapşırığın yerinə yetirilməsində çətinlik çəkən şagirdlərə tövsiyə edilə bilər ki, sözləri mətndə tapsınlar, hansı mənada işləndiyini müəyyənləşdirsinlər. Cavab: 1 – c; 2 – d; 3 – a; 4 – b; 5 – ç.

**Dərslik, səh. 86**

**ç.** Mətndə hansı suala cavab yoxdur?

Mətni oxuduqdan və “Söz ehtiyatı” rubrikasından sonra şagirdlər faktoloji suallara cavab verirlər.

Cavab: c. Avropada ilk teleqraf xətti hansı şəhərlər arasında çəkildi?

**İş dəftəri, səh. 44**

**b.** Mətndə hansı suallara cavab var?

Cavab: Mətndə 4 suala cavab var. Həmin suallar aşağıdakılardır:

1. Teleqraf sisteminin yaradılması üçün hansı ideyalar və cəhdlər var idi?
2. Elektrik teleqrafının iş prinsipi necə idi?
4. Nə üçün elektrik teleqrafı optik teleqrafı üstələyə bilmirdi?
5. Teleqrafın ixtirası dünyada kommunikasiya və informasiya mübadiləsinə necə təsir etdi?

Mətndə 3-cü suala cavab yoxdur: Avropa ilə ABŞ arasında teleqraf xəttinin çəkilməsində hansı şirkətlər iştirak ediblər?

**Dərslik, səh. 86**

**d.** Mətndəki faktlardan istifadə etməklə hansı suala cavab tapmaq mümkündür?

Cavab: Mətndəki faktlara əsasən bir suala cavab tapmaq olar. Aydın olur ki, elektrik teleqrafını ixtira edərkən Morze 46 yaşında idi.

b. Elektrik teleqrafını ixtira edəndə Morzenin neçə yaşı var idi?

**Dərslik, səh. 86**

**e.** Mətnə əsasən aşağıdakı fikri əsaslandırın.

Şagirdlər “Teleqrafın ixtirası” mətninə əsasən sualı cavablandırırlar.

Cavab təxminən belə ola bilər: O dövrdə elektrik teleqrafının bəzi çatışmazlıqları var idi. Burada müxtəlif hərfləri işarə etmək üçün çoxlu naqillərdən istifadə etmək lazım gəlirdi. Bundan başqa, o, informasiyanı yazıya almırdı. Bu səbəblərə görə hələ ki elektrik teleqrafı Avropada geniş yayılmış optik teleqrafı üstələyə bilmirdi.

**Dərslik, səh. 86**

**ə.** Oxuduğunuz mətndən və təbiət fənnində elektrik haqqında əldə etdiyiniz biliklərdən çıxış edərək aşağıdakı sxemi şərh edin.

Cavab: Ötürücü açar aşağı hərəkət edəndə elektrik xətti qapanır. Onun təsiri ilə elektromaqnit qələmi lentin üzərinə düşməyə məcbur edir. Lent hərəkət edərkən üzərində müxtəlif işarələr yazılır. Ötürücü açar yuxarı qalxan kimi elektrik xətti açılır. Qələm yenə yuxarı qalxır. Ötürücü açarın

Layihə

hərəkətindən asılı olaraq lent üzərində ya nöqtə, ya da tire meydana çıxır.

**Yazı**

**İş dəftəri, səh. 44**

**c.** Dərslikdəki sxemi şərh edərək qısa informativ mətn yaz.

Şagirdlər dərslikdəki ə tapşırığında sxemlə bağlı şərhdən istifadə edərək qısa mətn yaza bilərlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a (dərslik) |
| Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq b, c (dərslik); a (iş dəftəri) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq ç (dərslik); b (iş dəftəri) |
| Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir. | Tapşırıq d, e (dərslik) |
| Verbal və qrafik materialları (sxem) şərh etməklə mövzu üzrə danışır. | Tapşırıq ə (dərslik) |
| Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır. | Tapşırıq c (iş dəftəri) |

# 2-ci DƏRS
# Zəfərin adı – teleqraf telləri

**Təlim nəticələri:**

- Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir (st. 3.1.5).
- Dinlədiyi kiçikhəcmli mətnləri ümumi məzmun səviyyəsində anladığını nümayiş etdirir (st. 1.1.1).
- Dinlədiyi mətndəki obraz, fakt və fikirlərə münasibət bildirir (st. 1.1.2).
- Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1.)

**Mövzuya yönəltmə.** Müəllim "Teleqrafın ixtirası" mətnini xatırlatmaq üçün frontal sorğu keçirə bilər. Bununla da şagirdlər mətnin məzmununu xatırlayırlar.

*1. Teleqraf necə ixtira edildi? O necə işləyirdi?*
*2. Morzenin elektrik teleqrafının quruluşu necə idi?*
*3. Teleqraf erasının başlanğıcı hansı dövrə düşür?*
*4. Teleqraf ölkələri bir-birinə necə yaxınlaşdırdı?*

**Dərslik, səh. 87**

**a.** Aşağıdakı cümlələri mətnin hansı hissələrinə əlavə etmək olar?

Tapşırığın məqsədi mətnə aid əsas faktları seçmə bacarığının yoxlanılmasına xidmət etməkdir.

Cavab: 2-ci cümlə mətnin əsas hissəsinə, 1 və 3-cü cümlələr mətnin sonluq hissəsinə əlavə edilə bilər.

**Dinləmə**

**Dərslik, səh. 87**

**b.** "Zəfərin adı – teleqraf telləri" mətnini dinləyin və qeydlər götürün. Mətnin məzmununa aid suallar tərtib edin.

***Zəfərin adı – teleqraf telləri***

*Türkiyə Cümhuriyyətinin qurucusu Qazi Mustafa Kamal Atatürkün İstiqlal savaşı zamanı əsas xəbərləşmə vasitəsi teleqraf idi. Teleqraf olmasa, ordu hissələri arasında əlaqə itər, çaşqınlıq yaranardı. Bununla bağlı 19 may 1919-cu ildə Samsunda yaşanan hadisəni o hadisəyə şahidlik etmiş bir teleqraf məmuru belə nəql edir:*

*"Hava yağışlı idi, tez-tez ildırım çaxırdı. O zamanlar ildırım vurma təhlükəsini önləyən torpaqlama sistemi yox idi. Gecəyarısına az qalmış qapıdakı növbətçi qaça-qaça xəbər gətirdi:*

*Mustafa Kamal Paşa gəlir. Elə o anda Mustafa Kamal Paşa bir otaqdan ibarət teleqrafxanaya girdi. Mən ayağa qalxdım:*

*– Buyurun, Paşam.*

*– Dərhal Amasya ilə əlaqə saxlamalıyam, – dedi.*

*– Hava elektriklidir, telləri torpağa verdik, əlaqə yarada bilmərəm!*

*– Bu, vətənin qurtuluşu ilə bağlıdır. Mütləq əlaqə saxlamalıyam, ya ölərik, ya vətən qurtular, – dedi.*

*Bunu deyib sol əlimdən tutdu.*

*– Sən ölsən, mən də öləcəyəm – dedi.*

*Əlimi buraxması üçün israr etməyimə məhəl qoymadı. Telləri dövrəyə qoşmaqdan başqa, bir çarəm qalmadı. O, əlimi uzun müddət buraxmadı.*

*Amasyaya xəbər göndərdim. Dərhal cavab gəldi. Növbətçi məmur Kamal Paşadan əmr gözlədiklərini söylədi. Paşa şifrəli bir məlumat verdi, yazdım. Gələn şifrəli cavaba əlimi buraxmadan baxdı. Tez bir kağıza şifrəli nəsə yazdı. Təcili göndərməyimi söylədi. Xəbəri göndərdikdən sonra: "Oh, çox şükür, indi vətən qurtuldu" – dedi və yanındakılarla çıxıb getdi.*

*Donub qalmışdım. Oturduğum yerdən qalxa bilmədim. Mustafa Kamal Paşa həyatını ortaya qoyan bir insan idi. O, gerçək bir vətənsevərdi. Atatürkə heyranlığım yağışlı bir gecədə beləcə başladı..."*

*Sonralar bir xarici müxbir Mustafa Kamal Atatürkdən müsahibə alarkən: "Zəfəri necə qazandınız?" – deyə soruşmuşdu. Atatürkün cavabı belə olmuşdu: "Teleqrafın telləriylə..."*

Şagirdlər mətnin məzmununa aid suallar tərtib etməklə mətni diqqətlə dinlədiklərini və qavradıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 87**

**c.** Qeydləriniz əsasında aşağıdakı sualları cavablandırın.

Şagirdlər mətni dinlədikdən sonra suallara cavab verirlər. Bununla onlar mətni necə dinlədiklərini nümayiş etdirirlər.

Cavab: 1. Poçt məmurunun
2. 1919-cu ildə
3. Hava şəraiti pis idi.
4. O, poçt məmuru ilə bərabər cihazı tutdu.

**Dərslik, səh. 87**

**ç.** Sizcə, nə üçün bu mətn belə adlandırılıb? Müəllif bununla hansı fikri çatdırmaq istəyib? Fikrinizi əsaslandırın.

Cavab: Müəllif həmin dövrdə teleqrafın əhəmiyyətini göstərmək istəyib. Teleqrafla göndərilən məlumatlar zəfərə gedən yolda böyük rol oynamışdır.

**Dərslik, səh. 87**

**d.** Mətnə əsasən sübut edin ki:
1. Müharibə dövründə teleqraf çox vacib kommunikasiya vasitəsi idi.
2. İnsan bədəni elektriki keçirir.

Şagirdlərin cavabı təxminən belə ola bilər:



Layihə

1. Teleqraf olmasa, ordu hissələri arasında əlaqə itər, çaşqınlıq yaranardı, lazımi məlumatları çatdırmaq və qəbul etmək mümkün olmazdı.

2. Teleqraf işləyərkən ildırımdan əmələ gələn elektrik həm poçt məmurunu, həm də Atatürkü öldürə bilərdi.

**Dərslik, səh. 87**

**e.** "Zəfərin adı – teleqraf telləri" mətninin bədii, yoxsa qeyri-bədii mətn olduğunu əsaslandırın.

Cavab: Şagirdlər bədii və qeyri-bədii mətnlərin xüsusiyyətlərini xatırlayıb suala cavab verə bilərlər. Onlar aşağıdakı xüsusiyyətlərə əsasən mətnin bədii olduğunu müəyyənləşdirirlər:

Mətn real hadisələrə əsaslanır. Amma bu hadisələrə təsirli bir yanaşma göstərilir. Məqsəd təkcə məlumat ötürmək deyil, həm də oxucuda emosional və estetik zövq oyatmaqdır. Mətndə müəllifin hissləri, düşüncələri və baxış bucağı əks olunur. Mətn oxucuda müxtəlif hisslər yaradır. Burada əsas qəhrəmanlar real şəxslərdir. Mətnin bir çox hissələri dialoqlardan ibarətdir. Müəllif oxucunu müəyyən dəyərlər haqqında düşünməyə istiqamətləndirir. Mətndəki epizodlarda obrazların xarakteri aydınlaşır.

**Dərslik, səh. 87**

**ə.** Mətndəki epizodlara istinad etməklə Mustafa Kamalın xarakterini təhlil edin.

Şagirdlər mətnin müvafiq epizodları əsasında Mustafa Kamala xas xüsusiyyətləri müəyyənləşdirirlər. Bu tapşırıq tənqidi təfəkkürün inkişafına xidmət edir.

Cavab: *vətənsevər, cəsur, qayğıkeş, ağıllı*

**Yazı**

**Dərslik, səh. 87**

**f.** Şəklə baxaraq dinlədiyiniz mətni Mustafa Kamal Atatürkün dilindən yazın. Poçt məmurunun əlindən tutarkən onun keçirdiyi hissləri təsvir edin.

Diferensial təlim. Müəllim şagirdlərin səviyyəsindən asılı olaraq fəaliyyəti təşkil edə bilər. Daha fəal siniflərdə mətn tam səsləndirilir. Çətinlik çəkən siniflərdə isə mətn hissə-hissə səsləndirilə bilər. Şagirdlər öz qeydləri əsasında mətni yazırlar.

**İş dəftəri, səh. 45**

**a.** Uyğun cavab variantını seç.

Cavab: 1 – A; 2 – C; 3 – B; 4 – C; 5 – A; 6 – A.

**İş dəftəri, səh. 45**

**b.** Dinləmə mətninə əsasən cümlələri tamamla.

Bu tapşırıq şagirdlərin mətndən öyrəndiklərinin tətbiqinə xidmət edir. Nöqtələrin yerinə uyğun cavabları yazmaqla cümlələri tamamlamaq lazımdır. Cavab:

1. Poçt məmuru teleqraf aparatını işə salmaq istəmirdi, çünki *hava yağışlı idi, tez-tez ildırım çaxırdı.*

2. Mustafa Kamal Paşa Amasyaya şifrəli məktub göndərdi, çünki *məlumat düşmənin əlinə keçə bilərdi.*

3. Poçt məmuru Mustafa Kamal Paşaya heyran olmuşdu, çünki *vətəni xilas etmək üçün canından keçməyə hazır idi.*

**İş dəftəri, səh. 45**

**c.** Mətni yazmaqda müəllifin məqsədi ilə bağlı fikirlərdən birini seç və mətnə istinad etməklə seçimini əsaslandır.

Cavab: a) teleqrafın əhəmiyyəti haqqında məlumat vermək

*Teleqrafla lazımi məlumatlar verilməsəydi, bəlkə də, zəfər qazana bilməzdilər.*

Layihə

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir. | Tapşırıq a (dərslik) |
| Dinlədiyi kiçikhəcmli mətnləri ümumi məzmun səviyyəsində anladığını nümayiş etdirir. | Tapşırıq b, c (dərslik) |
| Dinlədiyi mətndəki obraz, fakt və fikirlərə münasibət bildirir. | Tapşırıq ç, d, e, ə (dərslik); a, b, c (iş dəftəri) |
| Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir. | Tapşırıq f (dərslik) |

# 3-cü DƏRS
# Morze, yoxsa Veyl əlifbası?

**Təlim nəticələri:**
- Aldığı məlumatları sadə formada şərh edir və genişləndirir (st. 2.1.3).
- Mətni ifadəli oxumaqla məzmunu anladığını nümayiş etdirir (st. 3.1.1).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 3.1.5).
- Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir (st. 1.1.2).

**Mövzuya yönəltmə.** Əvvəlki dərsdə Morzenin ixtira etdiyi teleqraf, kod sistemi haqqındakı məlu - mat şagirdlərə xatırladılır. Müəllim bu məqsədlə suallar da verə bilər.

Dərslik, səh. 88

a. Morze əlifbasına bir daha nəzər salın. Hərf və rəqəmləri işarə edən nöqtə və tirelərin sayında və kombinasiyasında məntiqi uyğunluq görürsünüzmü?

Cavab: Çox işlənən hərf və rəqəmlər daha sadə kodlara malikdir.

- Hansı hərfləri işarə edən kodlar cəmi bir və ya iki elementdən ibarətdir? Sizcə, kodlarda elementlərin sayı və düzülüşü təsadüfidirmi?
- 0-dan 5-ə kimi rəqəmlərin işarələnməsində qanunauyğunluğu müəyyən edin.
- 6-dan 9-a kimi rəqəmlərin işarələnməsində qanunauyğunluğu müəyyən edin.

1) A, E, I, M, N, T
Bu hərflər çox işlənən olduğu üçün elementlərin sayı azdır.
2) 0-dan 5-ə kimi rəqəmlərdə nöqtələrin sayı getdikcə çoxalır, tirelərin sayı isə azalır.
3) 6-dan 9-a kimi rəqəmlərdə nöqtələrin sayı getdikcə azalır, tirelərin sayı isə çoxalır.

**Oxu**

**Mətn üzrə iş.** “Morze, yoxsa Veyl əlifbası?” mətni qeydgötürmə üsulu ilə oxunur.

Dərslik, səh. 88

b. Aşağıdakı mətni oxuyun və ad, tarix, əsas faktları qeyd edin.

Şagirdlər bu tapşırığı yerinə yetirməklə dərslikdə oxuduqları mətnin məzmununu necə qavradıqlarını nümayiş etdirirlər. Tapşırıq eyni zamanda əsas faktları seçə bilmək bacarığını formalaşdırır.

Mətn oxunduqdan sonra şagirdlər “Sözlərin izahı” rubrikasında verilmiş sözlərin izahı ilə tanış olurlar.

Dərslik, səh. 89

c. Suallara cavab verin.

Lavinə

Cavab:

1. 1837-ci ildə

2. O, Morzenin təklif etdiyi kod sistemini dəyişdi, Morzenin işarələr sistemini sadələşdirdi, daha yaddaqalan əlifba hazırladı.

3. 1865-ci ildə

4. Beynəlxalq Elektrik Rabitəsi İttifaqı buraya nöqtə-tire-tire-nöqtə-tire-nöqtə (. – – . – .) "işarəsi" daxil edib.

**Dərslik, səh. 89**

**ç.** Mətnə istinad etməklə cümlələri tamamlayın.

Cavab: 1. Samuel Morze teleqraf aparatı üzərində işini Alfred Veyllə davam etdirdi, çünki *Alfredin atası pul, emalatxana verdi və şərt qoydu.*

2. Kod sistemi bütün dünyada "Morze əlifbası" kimi tanındı, çünki *Morze və Veyl arasındakı razılaşmaya əsasən teleqraf və onunla bağlı bütün ixtiraların patenti Samuel Morzenin adına alındı.*

**Dərslik, səh. 90**

**d.** Aşağıdakı məlumatlardan mətndəki hansı fikri əsaslandırmaq üçün istifadə etmək olar?

Cavab: İlkin variantda kodlar çox mürəkkəb və uzun idi: kiçik bir xəbəri deşifrə etmək üçün bir neçə səhifə doldurmaq lazım gəlirdi.

**Dərslik, səh. 90**

**e.** Mətndə göy rənglə verilmiş cümləyə və Morze əlifbasına istinad edərək ingilis dilində işlənmə tezliyi daha yüksək olan ilk altı hərfi müəyyən edin.

Cavab: A, E, I, M, N, T

**İş dəftəri, səh. 46**

**a.** Morze əlifbasında rəqəmlərin işarələnməsi ilə bağlı qanunauyğunluğu göstərən fikirləri işarələ.

Cavab: 1-dən 5-ə kimi Morze rəqəmlərində tire "0" ədədini bildirir.
Rəqəm bildirən bütün işarələrdə nöqtə "1" ədədini bildirir.

**İş dəftəri, səh. 46**

**b.** Morze əlifbası ilə yazılmış sözü müəyyən et.

Cavab: dostluq

**İş dəftəri, səh. 46**

**c.** Sözləri Morze əlifbası ilə yaz.

Şagirdlər verilmiş sözləri Morze əlifbası ilə yazırlar.

**İş dəftəri, səh. 46**

**ç.** "Morze, yoxsa Veyl əlifbası?" mətnində hansı məlumatlar yoxdur?

Şagirdlər tapşırığı yerinə yetirməklə mətnin məzmununu qavradıqlarını nümayiş etdirirlər.
Cavab: 3. Morze Alfreddən 18 yaş böyük idi.
5. Veyl və Morzenin əməkdaşlığı sonralar davam etdi.

**İş dəftəri, səh. 46**

**d.** "Morze, yoxsa Veyl əlifbası?" hansı mətn tipinə aiddir? Fikrini əsaslandır.

Tapşırıq həm şagirdlərin mətnin məzmununu necə qavradığını yoxlamağa imkan yaradır, həm də fikrini əsaslandıra bilmə bacarığını inkişaf etdirir.

Cavab: b. izahedici

İzahedici mətnlər oxucuya bir anlayışı, prosesi, hadisəni və ya mövzunu aydınlaşdırmaq, izah etmək üçün yazılan mətnlərdir. Onların əsas məqsədi məlumat vermək və mövzunu oxucu üçün anlaşıqlı şəkildə təqdim etməkdir. Bu mətnlərdə obyektivlik və dəqiqlik ön plandadır. Mövzuya dair məlumatlar məntiqi bir ardıcıllıqla təqdim olunur.

**Dərslik, səh. 90**

**ə.** Oxuduğunuz və dinlədiyiniz mətnləri müqayisə edin.

Cavab:

1. Təsvir və dialoqlar vasitəsilə oxucuda obraza maraq oyadılır. ("Zəfərin adı – teleqraf telləri")
2. Tarixi faktlar haqqında xronoloji qaydada məlumat verilir. ("Teleqrafın ixtirası")
3. Təsvir olunan hadisələrə müəllifin münasibəti açıq hiss olunur. ("Zəfərin adı – teleqraf telləri", "Morze, yoxsa Veyl əlifbası?")
4. Müəllifin məqsədi oxucunu öz fikrinə inandırmaqdır. ("Morze, yoxsa Veyl əlifbası?")
5. Mətnin mövzusunda teleqrafın rolu xüsusi yer tutur. ("Teleqrafın ixtirası", "Zəfərin adı – teleqraf telləri", "Morze, yoxsa Veyl əlifbası?")
6. Müəllifin məqsədi tarixi fakt haqqında obyektiv məlumat verməkdir. ("Teleqrafın ixtirası", "Zəfərin adı – teleqraf telləri")

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Aldığı məlumatları sadə formada şərh edir və genişləndirir. | Tapşırıq a (dərslik) |
| Mətni ifadəli oxumaqla məzmunu anladığını nümayiş etdirir. | Tapşırıq b (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq c (dərslik) |
| Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir. | Tapşırıq ç, d, e (dərslik), a, ç, d (iş dəftəri) |
| Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir. | Tapşırıq c (dərslik) |

# 4-cü DƏRS
# Təqdimat

**Təlim nəticələri:**
• Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Şagirdləri mövzuya yönəltmək üçün müəllim belə suallar verə bilər:
*Kömək siqnalları barədə nə bilirsiniz?*
*Hansı məşhur kömək siqnalı var? Ondan harada istifadə edirlər?*

**Dərslik, səh. 90**

**a.** Teleqraf rabitə sistemində geniş istifadə olunan SOS siqnalı haqqında araşdırma aparın və təqdimat edin.

Şagirdlərə SOS siqnalı haqqında araşdırma aparmaq tapşırılır. Bu, şagirdlərin mövzu üzrə yaradıcı düşünməsinə kömək edir. Araşdırmanın nəticəsi ilə bağlı təqdimat etməlidirlər. Bunun üçün dərslikdəki təlimata əsaslanmaq lazımdır.

**Müəllimin nəzərinə!** Araşdırmanı bir gün öncədən də tapşırmaq olar. İnternetdən istifadə etmək imkanları olan siniflərdə şagirdlərə araşdırma üçün linklər təqdim edilə bilər. Əgər belə bir imkan yox-

Layihə

dursa, mövzu ilə bağlı məlumat əldə etmək üçün ensiklopediyalar və yaxud məqalələr, qəzetlər, jurnallar, informativ mətnlər təqdim oluna bilər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır. | Tapşırıq a (dərslik) |

# 5-ci DƏRS
# Təsriflənməyən feillər

**Təlim nəticələri:**
- Məsdərin qrammatik xüsusiyyətlərini müəyyən edir (st. 4.1.3).

**Mövzuya yönəltmə.** Şagirdləri mövzuya yönəltmək üçün müəllim suallar verə bilər:

*Siz hansı feil formalarını bilirsiniz?*

*Təsriflənməyən feillərin əsas xüsusiyyəti nədir?*

Şagirdlər müqayisə üçün verilən sözlər vasitəsilə fikirlərini izah edə bilərlər. Məsələn:

oxumaq – oxuyuram – oxuyuruq – oxuyanda – oxuyan

Müəllim şagirdlərə xatırlada bilər ki, sözlər feil olsa da, heç də hamısı feilin suallarına cavab vermir, şəxsə görə dəyişmir. Bəziləri cümlə daxilində başqa nitq hissələrinin suallarına cavab verir (oxumaq – *nə?* oxuyanda – *nə zaman?* oxuyan – *hansı?*).

**Dərslik, səh. 91**

**a.** Cümlələrdə fərqləndirilmiş feilləri müqayisə edin. Hansı feillərin aid olduğu şəxsi müəyyən etmək mümkün deyil?

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini feillərin təsriflənməyən formaları mövzusuna yönəldir. Şagirdlərin aşağı siniflərdən bu feillər haqqında bilgiləri var. Müəllim yönəldici suallar vasitəsilə şagirdlərə əvvəlki biliklərini xatırladır.

Cavab: 2. Bir az *dincəlmək* lazımdır. 2. Avtobus *çatanda* axşam idi.

Müəllim "Bunları bilməliyik" rubrikasında təsriflənməyən feillər haqqında verilmiş məlumatları izah edir.

**Dərslik, səh. 91**

**b.** Mötərizədə verilmiş feilləri uyğun qrammatik formada işlətməklə cümlələri tamamlayın. Hansı suallara cavab verdiyini müəyyən edin.

Tapşırığın tələbinə əsasən məsdər formasında olan feilləri lazım olan formada işlətmək – uyğun şəkilçilər artırmaq lazımdır. Məqsəd cümlədə feilləri digər sözlərlə düzgün əlaqələndirmək bacarığını möhkəmlətməkdir.

Cavab: 1. Nailə süfrədən qabları yığıb mətbəxə apardı.

2. Mən oxuduğum kitabı rəfdə öz yerinə qoydum.

3. Yolu keçəndə diqqətli ol.

4. Anam mənə saymağı öyrədib.

**İş dəftəri, səh. 47**

**a.** Cümlələrdə təsriflənməyən feilləri tap və krosvordun uyğun xanasında yaz.

Cavab: Soldan sağa: 4. göndərdiyim; 5. oxumaq; 6. oynamaq

Yuxarıdan aşağı: 1. gözləyəndə; 2. yetişmiş; 3. baxdıqca

Layihə

**Dərslik, səh. 91**

**c.** Altından xətt çəkilmiş sözləri qrammatik cəhətdən müqayisə edin.
- Hansı şəkilçini qəbul edib?
- Hansı nitq hissəsinə aiddir?

Motivasiya xarakterli bu tapşırıqla şagirdlərin nəzərinə çatdırılır ki, hər iki söz yönlük hal şəkilçisini qəbul edib. Amma biri isim, digəri məsdər formasında olan feildir.

Daha sonra müəllim "Bunları bilməliyik" rubrikasında təsriflənməyən feillərdən biri olan məsdər haqqında verilmiş məlumatları izah edir, onun ikili xüsusiyyət daşıdığını bildirir.

**Dərslik, səh. 91**

**ç.** Aşağıdakı cümlələrdə məsdərləri tapın və qrammatik xüsusiyyətlərini izah edin.

Şagirdlər məsdərləri müəyyən etdikdən sonra ismə və feilə aid qrammatik xüsusiyyətlərini izah edirlər.

Cavab: 1. böyüməsi – mənsubiyyət şəkilçisi qəbul edib.
2. hazırlaşmaq – hərəkət bildirir.
3. gəzməyin – yiyəlik hal şəkilçisi qəbul edib.

**İş dəftəri, səh. 47**

**b.** Mötərizədəki məsdərləri uyğun qrammatik formada işlətməklə cümlələri tamamla.

Cavab:
1. Biz məktəbin ətrafını yaşıllaşdırmağı qərara aldıq.
2. Qarda gəzməkdən xoşum gəlir.
3. Konsertə getməyə həvəsim yoxdur.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Məsdərin qrammatik xüsusiyyətlərini müəyyən edir. | Dərslik və iş dəftərində verilmiş tapşırıqlar |

**Müəllimin nəzərinə!** Növbəti dərs üçün şagirdlərə telefonun ixtiraçıları barədə araşdırma aparmağı tapşırmaq məqsədəuyğundur.

Layihə

# 2-ci fəsil
# TELEFON

## 1-ci DƏRS
## Telefonun ixtirası: daha bir tarixi ədalətsizlik

**Təlim nəticələri:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
- Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 3.1.5).
- Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir (st. 3.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).

**Mövzuya yönəltmə.** Mətnə qədər olan tapşırıqlarla şagirdləri mövzuya yönəltmək olar. Şagirdlər suallara cavab verməklə mühüm rabitə vasitələrindən biri olan telefon barədə fikir yürüdə bilərlər.

**Dərslik, səh. 92**

**a.** "Teleqrafın ixtirası" mətninin son cümləsini xatırlayın:
*XIX əsrin ortalarından başlayaraq teleqraf 100 ildən çox dünya rabitə sistemində hegemonluq etdi.*
- Sizcə, 20-ci əsrin ortalarında hansı rabitə vasitəsi teleqrafın hegemonluğuna son qoydu?

Cavab: telefon

**Dərslik, səh. 92**

**b.** Uzaqda olan tanışlarınızla əlaqə saxlamaq üçün hansı rabitə vasitələrindən istifadə edirsiniz? Bu vasitələr arasında teleqraf da varmı?

Cavab: telefon, internet

**Dərslik, səh. 92**

**c.** "Telefonu kim ixtira edib?" sualını yazmaqla internetdə araşdırma aparın. Daha çox kimin adına rast gəldiniz? Bu alim haqqında nə bilirsiniz?

Tapşırıq şagirdlərin araşdırma aparma bacarıqlarını formalaşdırmağa xidmət edir.

**Dərslik, səh. 92**

**ç.** Mətnin adını, yarımbaşlıqları və birinci abzası oxuyun. Sizcə, bu mətni yazmaqda müəllifin məqsədi nədir?

Cavab: b. mövzu ilə bağlı problemi araşdırmaq və oxucunu öz fikrinə inandırmaq

**Oxu**

**Mətn üzrə iş.** "Telefonun ixtirası: daha bir tarixi ədalətsizlik" mətni üzrə insert oxu üsulu tətbiq edilə bilər. Şagirdlər cədvəldə qeydlər edirlər. Bunun üçün mətni diqqətlə oxumalı, əldə etdikləri məlumatı təhlil etməlidirlər. Sonra isə cədvəldə qeyd olunanlarla bağlı müzakirə aparıla bilər.

| Bu məlumat tanışdır. | Bu məlumat yenidir. | Əvvəl bildiklərimlə ziddiyyət təşkil edir. | Bu hissə aydın olmadı. |
|---|---|---|---|
| | | | |

**Söz ehtiyatı**

**Dərslik, səh. 94**

**d.** Etimoloji izahları rabitə vasitələrinin adları ilə əlaqələndirin və şərh edin.

Layihə

Bu tapşırıq yeni sözlərin mənimsədilməsinə xidmət edir. Şagirdlər etimoloji izahlara əsasən yeni tanış olduqları sözlərin mənalarını şərh edirlər.

Cavab:
helioqraf – Günəş işığının köməyi ilə məlumatı ötürən cihaz
teleqraf – məlumatı naqillərlə uzaq məsafəyə ötürən cihaz
telefon – uzaqdakı insanlarla danışmaq üçün cihaz

**Dərslik, səh. 94**

**e.** Mətndə "prototip" sözü hansı mənada işlənmişdir?

Şagirdlər sözü kontekstə əsaslanaraq izah etməyə çalışırlar.
Cavab: b

**Dərslik, səh. 94**

**ə.** "Dekorasiya" sözünün izahından çıxış edərək "dekorativ", "dekorator" sözlərinin mənalarını təxmin edin və lüğət vasitəsilə dəqiqləşdirin.

Tapşırığın əsas məqsədi şagirdlərin yeni sözləri kontekstə uyğun olaraq işlətmək bacarığını inkişaf etdirməkdir.

Cavab: Dekorativ – parlaq, gözəl, mənzərəli, bəzəmək üçün istifadə edilən nə isə.
Dekorator – dekorasiya rəssamı; bəzək mütəxəssisi.

**Dərslik, səh. 95**

**f.** Suallara cavab verməklə mətnin məzmununa aid cümlələri genişləndirin.

Suallar oxuyub-qavrama bacarığının inkişafına yönəlmişdir. Şagirdlər tapşırıqda verilmiş suallara cavab verib cümlələri genişləndirməklə mətnin məzmununu faktoloji baxımdan qavradıqlarını nümayiş etdirirlər. Cavab:

1. Antonio Meuççi 1808-ci ildə Florensiya şəhərində anadan olub.
2. Havana teatrlarının birində səhnə dekorasiyalarını quraşdırmaq vəzifəsinə işə düzəldi.
3. 1849-cu ildə elektrikin səs ötürmək xüsusiyyətini kəşf etdi.
4. Meuççi 1860-cı ildə qəzetlərdən birində telektrofon icad etdiyi barədə elan verdi.
5. Vestern Yunion şirkəti onun ixtirası ilə maraqlandı.
6. 1871-ci ildə patent almaq üçün patent bürosuna müraciət etdi.
7. Bell 1876-cı ildə telefonun ixtirasına patent aldı.

**Dərslik, səh. 95**

**g.** Mətndəki məlumatlardan istifadə etməklə suallara cavab verin.

Cavab: 1. Aleksandr Bell neçənci ildə anadan olub? 1847-ci ildə
2. Telefonun ixtirasına patent alanda Bellin neçə yaşı var idi? 29 yaşı
3. Antonio Meuççi neçə yaşında vəfat edib? 81 yaşında

**İş dəftəri, səh. 48**

**a.** Mətnə əsasən hadisələrin ardıcıllığını müəyyən et.

Şagirdlər tapşırığı yerinə yetirməklə mətndəki hadisələrin məntiqi ardıcıllığını müəyyən etmək bacarıqlarını nümayiş etdirirlər.

Cavab: c) V, II, I, VI, IV, III

**İş dəftəri, səh. 48**

**b.** Mətnə istinad etməklə cədvəli tamamla.

Tapşırıq şagirdlərin mətndəki səbəb və nəticə əlaqəsini müəyyən etmək, hadisələri uyğunlaşdırma bacarığını inkişaf etdirir. Onlar mətnin məzmunu ilə bağlı səbəb-nəticə cədvəlini tamamlayır və hadisələrin məntiqi ardıcıllığını müəyyən etmək bacarıqlarını nümayiş etdirirlər.

Layihə

Cavab:

| Səbəb | Nəticə |
|---|---|
| Meuççinin maddi çətinlikləri vardı. | Meuççi İtaliyadan çıxıb getdi. |
| Meuççi qəzetdə telektrofon haqda elan verdi. | Vestern Yunion onunla əlaqə yaratdı. |
| Ağır xəstə olan həyat yoldaşı Ester evin 2-ci mərtəbəsində qalırdı. | Meuççi yaşadığı evin zirzəmisi ilə 2-ci mərtəbəsi arasında telefon xətti çəkdi. |
| Qəzetlərdə Bellin "danışan teleqraf" – telefon ixtira etdiyi haqda xəbərlər dərc olundu. | Meuççi Aleksandr Belli məhkəməyə verdi. |
| Meuççinin maddi imkanı yox idi. | Meuççi patentin vaxtını uzada bilmədi. |

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a, b, c (dərslik) |
| Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir. | Tapşırıq ç (dərslik) |
| Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir. | Tapşırıq d, e, ə (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq f, g (dərslik); a (iş dəftəri) |
| Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir. | Tapşırıq b (iş dəftəri) |

# 2-ci DƏRS
# Aleksandr Bell – dünyada ən bahalı patentin sahibi

**Təlim nəticələri:**
- Dinlədiyi kiçikhəcmli mətnləri ümumi məzmun səviyyəsində anladığını nümayiş etdirir (st. 1.1.1).
- Aldığı məlumatları sadə formada şərh edir və genişləndirir (st. 2.1.3).

**Mövzuya yönəltmə.** Müəllim bildirir ki, patent bir kəşf və ya yeni bir icad üçün verilən xüsusi bir hüquqdur. Yəni bir kəşfin, ixtiranın yalnız müəyyən bir şəxsə aid olmasına imkan verən bir sənəddir. Təsəvvür edin ki, siz yeni tipli qələm icad etmisiniz, bu qələm daha rahat yazmağı təmin edir. Patent aldığınız zaman bu qələmi yalnız siz sata bilərsiniz və başqaları ondan istifadə etmək istəsə, əvvəlcə sizdən icazə almalıdır. Patent ixtiraçıya həmin yenilik üzərində xüsusi hüquqlar verir, yəni başqaları icazəsiz həmin şeyi istehsal edə və ya sata bilməzlər. Amma patentin bir müddəti var, məsələn, 20 il. Bu müddət bitəndə başqaları da həmin icaddan istifadə edə bilər.

**Dinləmə**

**Dərslik, səh. 95**

a. "Aleksandr Bell – dünyada ən bahalı patentin sahibi" mətnini dinləyin və suallara cavab verin.

Layihə

***Aleksandr Bell – dünyada ən bahalı patentin sahibi***

*Aleksandr Bell 1847-ci ildə Şotlandiyanın paytaxtı Edinburq şəhərində professor Aleksandr Melvil Bell və Eliza Qreysin ailəsində anadan olub. Bellin atası eşitmə qüsurlu insanların danışa bilməsi üçün elmi araşdırmalarla məşğul idi. Maraqlıdır ki, "bell" sözü ingilis dilində səs, zəng deməkdir.*

*Uşaqlıqdan çox istedadlı olan Bellin ilk ixtirası elektrik fortepianosu idi. Bu fortepiano elektrik siqnalları vasitəsilə musiqi notlarını ötürərək səs yaradırdı.*

*Bell 12 yaşında olarkən anası tədricən eşitmə qabiliyyətini itirmişdi. Anasının vəziyyətindən təsirlənən Bell işarət dilini öyrənmişdi. Atasının davamçısı kimi o, eşitmə qüsurları mövzusunda tədqiqat aparırdı.*

*Təhsilini bitirdikdən sonra Bell ABŞ-nin Boston şəhərində eşitmə qüsurlu insanlar üçün dil müəllimləri hazırlayan məktəb açmışdı. O, zəif eşidən uşaqlara dərs deməklə bərabər, daim səslə bağlı eksperimentlər aparırdı. Məhz həmin dövrdə, yəni 1874-cü ildə Bell telefonun nəzəriyyəsini işləyib hazırladı.*

*1875-ci ildə Bell səsin elektrik naqilləri ilə ötürülməsini kəşf etdi. Ancaq səs anlaşılmırdı. Bir gün Bell emalatxanada sınaqlarını davam etdirirdi. Qonşu otaqdan köməkçisi Vatsonu çağırdı: "Mister Vatson, bura gəlin, siz mənə lazımsınız". Vatson telefondan onun səsini eşitdi. Beləliklə, bu cümlə dünya tarixində telefonla ötürülən ilk ifadə oldu.*

*1876-cı ildə telefonun patentini alan Bell bu texnologiyanın əsasını qoymaqla kommunikasiya dünyasında inqilab yaratdı. Patent nömrəsi 174.465 olan bu sənəd telefonun ilkin versiyası üçün verilmişdir və Bellin adını telefon ixtiraçısı kimi əbədiləşdirmişdir.*

*Bellin patentini əfsanəvi edən yalnız onun dəyəri deyil, həm də onun sahibinə gətirdiyi uğur idi. Bell bu ixtira üzərində intensiv çalışmağa başladı və tezliklə "Bell Telefon Compani" şirkətini qurdu. Bellin telefon texnologiyası qısa müddətdə geniş yayıldı və çox böyük tələbat yaratdı. Böyük şirkətlər bu texnologiyanı almaq üçün milyonlarla dollar təklif etdilər, amma Bell bu təklifləri rədd etdi. Bu, düzgün qərar idi, çünki Bell, onun ailəsi və tərəfdaşları bu patentdən onilliklər boyu böyük gəlir əldə etdilər. Bellin şirkəti uzun müddət telekommunikasiya sahəsində liderliyini qoruyub saxladı. Bu gün də telefonun ixtirasına görə Bellin sahib olduğu patent dünya tarixində ən bahalı patentlərdən biri sayılır.*

*Bell ömrünün sonuna qədər elmlə məşğul olmuş, ixtiralarından qazandıqlarını eşitmə qüsurunun müalicə üsullarının tapılması üçün sərf etmişdir. Deyilənə görə, onun vəfatı günü – 1922-ci il avqustun 2-də dünyanın bütün telefonları xatirəsini anmaq üçün bir dəqiqəlik söndürülüb...*

Cavab: 1. Elektrik fortepianosu

2. Anasının eşitməməsi, Bellin eşitmə qüsurlu insanlara dərs keçməsi, səslə bağlı tədqiqatlar aparması

3. 1876-cı ildə

4. Bell, onun ailəsi və tərəfdaşları bu patentdən onilliklər boyu böyük gəlir əldə etdilər.

**Dərslik, səh. 95**

**b.** Sizcə, ixtiranı patentləşdirmək nə üçün vacibdir?

Cavab: 1) Başqaları icazəsiz olaraq ixtiradan istifadə edə bilməz.

2) Patent öz sahibinə ixtiradan gəlir əldə etmə imkanı verir.

3) Patentləşdirilmiş məhsul və ya texnologiya başqaları tərəfindən təkrarlana bilməz.

**Danışma**

**Dərslik, səh. 95**

Layihə

**c.** Teleqrafın və telefonun ixtirasında mühüm rol oynamış şəxsləri müqayisə edin.
• Rabitə vasitələrinin inkişafında bu şəxslərin rolunu, xarakter və fəaliyyətlərindəki oxşar və fərqli cəhətləri müəyyən edin.
• Bu ixtiralarda patentin rolu haqqında danışın.

Cavab təxminən belə ola bilər:

Teleqraf və telefonun rabitənin inkişafında böyük rolu olub. Morze ilə Veyl, Meuççi ilə Bell arasında böyük yaş fərqi vardı. Veyl və Meuççinin fəaliyyəti arxa planda qalıb. Morze ilə Bellin adı məşhurlaşıb. Veyl və Morze əməkdaşlıq ediblər, amma Meuççi ilə Bell ayrı-ayrılıqda fəaliyyət göstəriblər.

Patent Morze və Bellə gəlir, şan-şöhrət gətirib. Veyl patent müəllifi olmayıb. Meuççi pulu olmadığı üçün patent almayıb.

İxtiralarda patentin rolu çox böyükdür. Patent bir ixtiraçıya imkan verir ki, müəyyən bir müddət üçün (adətən, 20 il) ixtiralarını hüquqi cəhətdən qoruya bilsin. Bu hüquq ixtiranın istifadə olunmasını, istehsalını və satılmasını yalnız sahibinin icazəsi ilə həyata keçirməyə imkan verir. Patentlər yeni fikirlərin inkişafına yol açır, təzə texnologiyaların yaranmasına və elmin inkişafına səbəb olur. Patent hüquqları ixtiraçılara öz ideyalarından pul qazanmağa imkan verir.

**Dərslik, səh. 95**

**ç.** Təxəyyülünüzə uyğun olaraq "Antonio Meuççi Aleksandr Bellə qarşı" məhkəmə prosesini səhnələşdirin.
• Rolları aranızda bölüşdürün: hakim, iddiaçı, müttəhim, vəkillər, şahidlər və s.

Əvvəlcə rol bölgüsü aparılır. Daha sonra təxmini ssenari üzrə səhnələşdirməni həyata keçirmək olar. Müəllim nəzarət etməlidir ki, şagirdlər çıxış zamanı fikirlərini dəqiq və aydın şəkildə ifadə etsinlər. Belə tapşırıqlar dərsin maraqlı keçməsinə və şagirdlərin mətndəki hadisələri daha yaxşı mənimsəməsinə şərait yaradır.

**İş dəftəri, səh. 49**

**a.** Mətnin məzmunu ilə bağlı doğru fikirləri seç.

Tapşırıq faktoloji qavramanı yoxlamaq məqsədi daşıyır.

Cavab: 1, 2, 4

**İş dəftəri, səh. 49**

**b.** Mətnə istinad edərək Aleksandr Bell haqqındakı məlumat vərəqini tamamla.

Şagirdlər Aleksandr Bell haqqında öyrəndiklərini ümumiləşdirib məlumat vərəqində qeyd etməlidirlər. Bu tapşırıq onların mətni necə qavradığını göstərir.

**İş dəftəri, səh. 49**

**c.** Hansı məlumat dinləmə mətninin məzmununa uyğun deyil?

Cavab: 3. Bell ağ ciyərləri zəif olan adamlar üçün süni tənəffüs aparatının ilkin variantını hazırlamışdı.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi kiçikhəcmli mətnləri ümumi məzmun səviyyəsində anladığını nümayiş etdirir. | Tapşırıq a (dərslik); a, b, c (iş dəftəri) |
| Aldığı məlumatları sadə formada şərh edir və genişləndirir. | Tapşırıq b, c (dərslik) |

Layihə

# 3-cü DƏRS
# Telefon texnologiyasının inkişafı (XX əsr)

**Təlim nəticələri:**
- Müşahidə etdiyi əşya və hadisələr haqqında danışır (st. 2.1.2).
- Verbal və qrafik materialları (şəkil) şərh etməklə mövzu üzrə danışır (st. 2.1.3).
- Məqsədə uyğun olaraq sadə əməli yazı yazır (st. 4.1.1).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).

**Mövzuya yönəltmə.** İlk tapşırıqla şagirdləri mövzuya yönəltmək olar.

**Danışma**

**Dərslik, səh. 96**

**a.** Telefon dəstəyini qaldırarkən ilk sözünüz nə olur? Sizcə, "alo" sözünün mənası nədir? Nə üçün məhz "alo"?

Cavab: Dəstəyi qaldıranda "alo" deyirik. "Alo" sözü "hello" sözünə bənzəyir.

**Dərslik, səh. 96**

**b.** Sağdakı şəkildə patent alarkən öz telefon aparatını nümayiş etdirən Aleksandr Bell təsvir olunub. Onun qurğusu müasir telefon aparatlarından nə ilə fərqlənir?

Cavab: Aparat özü böyükdür, mikrofon hissəsi ayrıdır. Telefonun dəstəyi aparata naqillə birləşib.

**Oxu**

**Mətn üzrə iş.** "Telefon texnologiyasının inkişafı (XX əsr)" mətni üzrə növbəli oxu üsulu tətbiq edilə bilər. Müəllim şagirdləri qruplara ayırır. Şagirdlərə tapşırılır ki, mətnin əsas ideyasını əks etdirən məqamları qeyd etsinlər və açar sözləri çıxarsınlar.

**Dərslik, səh. 98**

**c.** Telefon aparatlarının detallarına diqqətlə baxın. Mətndəki məlumatlardan da istifadə etməklə bu aparatların inkişafı haqqında danışın.

Şagirdlərin cavabı təxminən belə ola bilər:

1-ci aparatın mikrofon hissəsi uzun və böyükdür, dəstəyi indiki aparatlardan çox fərqlidir. Aparatın yan tərəfində nömrə yığmaq üçün xüsusi dəstək var, nömrə yığanda onu fırlatmaq lazımdır. 2-ci aparat 1-cidən dəstəyi və mikrofonun quruluşu ilə fərqlənir. 3-cü aparatın üstündə nömrə yığmaq üçün rəqəmli dairəvi qurğu var. 4-cü aparat daha çox təkmilləşmiş formadadır. 5-ci aparat düyməlidir, əvvəlkilərdən çox fərqlənir.

**Dərslik, səh. 98**

**ç.** Funksiyaların hansı rabitə vasitəsinə aid olduğunu müəyyənləşdirin.

Şagirdlər mətndəki məlumatlar əsasında cavabları müəyyən edə bilərlər.

Cavab: a) teletayp b) telefaks c) peycer

1. Mətnlər klaviaturada yığılaraq elektrik siqnalları vasitəsilə ötürülür. a
2. Daha çox polislər və həkimlər üçün nəzərdə tutulur. c
3. Sənəd və şəkillərin surətləri telefon xətti ilə ötürülür. b
4. Qısa mətn şəklində mesaj göndərmək üçün nəzərdə tutulub. c
5. Daha çox xəbər agentlikləri tərəfindən istifadə olunurdu. a
6. Əlaqə birtərəflidir, yalnız xəbər qəbul edə bilir. c

**Dərslik, səh. 98**

**d.** Müasir dövrdə hansı rabitə vasitələrindən daha geniş istifadə olunur? Onların əvvəlki vasitələrlə müqayisədə üstünlüyü nədədir?

Cavab: Mobil telefon, internet, elektron poçt. Onlar məlumatı daha sürətlə ötürür.

**Yazı**

Lavihə

Dərslik, səh. 98

**e.** “Telefon texnologiyasının inkişafı” mətninin xülasəsini yazın.

Cavab təxminən belə ola bilər:

***Xülasə***

Mətndə telefon texnologiyasının inkişafından bəhs olunur. Qeyd edilir ki, telefon söhbətləri üçün seçilmiş “allo” ifadəsi Tomas Edisonun “hello” sözündən yaranmışdır. Telefon rabitəsi XIX əsrin sonlarında əmələ gəlmiş, yalnız iki obyekt arasında əlaqəni təmin etmişdir. Daha sonra telefon mərkəzləri fəaliyyətə başladı, operatorlar vasitəsilə bir abunəçinin digər abunəçilərlə əlaqəsi mümkün oldu. Azərbaycanda ilk telefon xətti 1881-ci ildə çəkildi, 1884-cü ildə isə ilk mərkəzi telefon stansiyası quruldu. XX əsrin ortalarında teletayp, telefaks cihazları, peycerlər məlumat mübadiləsini daha da sürətləndirdi. Amma daha sonra elektron poçt, mobil telefonlar yarandı və həmin cihazların əhəmiyyəti azaldı. Bu texnologiyaların inkişafı insanlar arasında əlaqəni daha da yaxşılaşdırdı.

İş dəftəri, səh. 50

**a.** Mətnə istinad edərək suallara cavab yaz.

Cavab: 1. “Hello” sözünü
2. Abunəçilər arasında rabitə qurmaq üçün
3. Xəbər agentlikləri, dövlət orqanları və böyük şirkətlərdə
4. Çünki elektron poçt inkişaf etdi.
5. Qısa mətn mesajları və ya siqnalları qəbul etmək

İş dəftəri, səh. 50

**b.** Mətnə əsasən fikirlərin doğru, yoxsa yanlış olduğunu müəyyən et.

Cavab: 1 – Y, 2 – D, 3 – Y, 4 – D, 5 – Y.

İş dəftəri, səh. 50

**c.** Boşluqların yerinə “Söz mücrüsü”ndən uyğun gələn sözləri yaz.

Şagirdlər cümlələrin məzmununa uyğun olaraq öyrəndikləri yeni sözləri boşluqlara yazırlar.
Cavab: 1. Mən dostuma təbrik mesajı yazacağam.
2. Telefon operatorları abunəçilər arasında əlaqə yaradırdılar.
3. Yutubda bəzi kanalların çoxlu abunəçiləri vardır.
4. Peyvənd bir çox xəstəliklərə qarşı effektiv olur.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müşahidə etdiyi əşya və hadisələr haqqında danışır. | Tapşırıq a, b, d (dərslik) |
| Verbal və qrafik materialları (şəkil) şərh etməklə mövzu üzrə danışır. | Tapşırıq c (dərslik) |
| Məqsədə uyğun olaraq sadə əməli yazı yazır. | Tapşırıq e (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq ç (dərslik); a, b (iş dəftəri) |

Layihə

# 4-cü DƏRS
# Feili sifət

**Təlim nəticələri:**
- Feili sifətin qrammatik xüsusiyyətlərini müəyyən edir (st. 4.1.3).

**Mövzuya yönəltmə.** Dərslikdə verilmiş **a** tapşırığı motivasiya xarakterlidir və şagirdlərin diqqətini mövzuya yönəldir.

**Dərslik, səh. 99**

**a.** Altından xətt çəkilmiş sözlərin oxşar və fərqli cəhətlərini müəyyən edin.

Cavab: Həmin sözlər ismin qarşısında gələrək onun əlamətini bildirir. Amma 1-ci cümlədəki söz feil, 2-ci cümlədəki isə sifətdir.

"Bunları bilməliyik" rubrikasında feili sifət haqqındakı məlumat izah edilir.

**Dərslik, səh. 99**

**b.** Feili sifətləri kök və şəkilçiyə ayırın. Feili sifət yaradan şəkilçiləri müəyyənləşdirin.

Tapşırığın məqsədi feili sifətin şəkilçilərini müəyyənləşdirməkdir. Şagirdlər feili sifətləri seçir, sonra onları kök və şəkilçiyə ayıraraq feili sifətə xas olan şəkilçiləri müəyyənləşdirirlər.

**Müəllimin nəzərinə!** -dıq$^4$ + mənsubiyyət şəkilçisindən ibarət feili sifət şəkilçisi üzərində dayanmaq tövsiyə edilir. Belə ki, bu şəkilçi -dığım$^4$ və s. formasında bütövlükdə feili sifət şəkilçisi hesab olunur. O, mənsubiyyət şəkilçisinin iştirakı ilə formalaşıb. Bundan əlavə, qeyd etmək lazımdır ki, -acaq$^2$ şəkilçisi də mənsubiyyət şəkilçisi ilə işlənə bilər.

Cavab: 1. yatmış – yat+mış: -mış
2. yuyulan – yu+yul+an: -an
3. görüləsi – gör+ül+əsi: -əsi
4. yazdığım – yaz+dığım: -dığım
5. öyrəniləcək – öyrən+il+əcək: -əcək

"Bunları bilməliyik" rubrikasında feili sifət və feildən düzələn sifət barədə məlumat verilir. Feili sifətdən fərqli olaraq feildən düzələn sifət düzəltmə sözdür, əşyaya aid daimi əlamət bildirir.

**Dərslik, səh. 99**

**c.** İnkarda işlətməklə feili sifəti feildən düzələn sifətdən fərqləndirin.

Tapşırıq feili sifəti feildən düzələn sifətdən fərqləndirməyə xidmət edir. Belə ki, şagirdlər feili sifəti inkarda işlətməklə bunu müəyyənləşdirirlər.

Cavab: *yorulmuş adam – yorulmamış adam, kəsilən qarpız – kəsilməyən qarpız, gülən körpə – gülməyən körpə, qorxmuş uşaq – qorxmamış uşaq*

**Dərslik, səh. 99**

**ç.** Feilləri feili sifət kimi işlətməklə cümlələri söz birləşməsinə çevirin.

Cavab: 1. Meyvə yetişib – yetişmiş meyvə
2. Dəniz dalğalanır – dalğalanan dəniz
3. Ərzaq aldıq – aldığımız ərzaq
4. İmtahan verəcəyik – verəcəyimiz imtahan
5. Yol çəkildi – çəkilmiş yol

**İş dəftəri, səh. 51**

**a.** Uyğunluğu müəyyən et.

Şagirdlər verilmiş feili sifətləri cümlələrin məzmununa uyğunlaşdırıb nöqtələrin yerinə yazırlar.

Layihə

Cavab: 1 – b; 2 – c; 3 – d; 4 – a; 5 – ç.
**İş dəftəri, səh. 51**

**b.** Hansı cümlədə feili sifət yoxdur?

Cavab: c) Bu işdə düzgün qərar vermək lazımdır.
**İş dəftəri, səh. 51**

**c.** Feili sifətləri və feildən düzəlmiş sifətləri müəyyən et və uyğun sütunlara yaz.

Cavab:

| Feili sifət | Feildən düzəlmiş sifət |
|---|---|
| deyəcəyim söz | sürüşkən yer |
| silinmiş lövhə | ürkək maral |
| açılan gül | tutqun hava |
| oxunmalı kitab | utancaq qız |
| yediyimiz alma | uçuq divar |

**Formativ qiymətləndirmə**
Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Feili sifətin qrammatik xüsusiyyətlərini müəyyən edir. | Dərslik və iş dəftərində verilmiş tapşırıqlar |

Layihə

# 3-cü fəsil
# MOBİL TELEFONLAR

## 1-ci DƏRS
## Texnologiya əsrinin möhtəşəm ixtirası

**Təlim nəticələri:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 2.1.3).
- Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1).
- Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 3.1.2).

**Mövzuya yönəltmə.** Müəllim dərslikdəki ilk tapşırıqla şagirdləri mövzuya yönəldə bilər.

**Danışma**

**Dərslik, səh. 100**

**a.** Keçən dərslərdə son 150 ildə istifadə olunan rabitə vasitələri – teleqraf, telefon, teletayp, telefaks, peycer haqqında məlumat aldınız.
Bəs siz bu gün hansı rabitə vasitələrindən istifadə edirsiniz?
Bu vasitənin əvvəlkilərdən hansı fərqli cəhətləri və üstünlükləri var?

Cavab: Ev telefonu, mobil telefon, internet. Mobil telefonla hər yerdə danışmaq mümkündür, onu özünlə hər yerə apara bilərsən. İnternet vasitəsilə istənilən informasiyanı almaq olur.

Müəllim mətnin əvvəlindəki epiqrafı oxuyur və şagirdlərə Bellin fikirləri ilə bağlı suallar verir:

*1. Sizin fikrinizcə, Bellin bu sözləri söylədiyi dövrdə insanlar həmin ideyanı mümkün hesab edirdimi?*

*2. Bugünkü görüntülü zənglər Bellin xəyal etdiyinə nə qədər yaxındır?*

*3. Sizcə, bu kəşfin insanların həyatına təsiri necə olub?*

*4. Bir texnologiya icad etmək imkanı versəydilər, siz nə yaradardınız?*

**Müəllimin nəzərinə!** Bu suallar şagirdləri həm tənqidi düşünməyə, həm də texnologiya və gələcək haqqında yaradıcı təsəvvürlərini inkişaf etdirməyə həvəsləndirə bilər.

Müəllim bu barədə fikirləri yekunlaşdıraraq qeyd edə bilər ki, bu sitat Aleksandr Bellin gələcəklə bağlı uzaqgörənliyini əks etdirir. Telefon texnologiyasının hələ ilkin inkişaf mərhələsində olduğu bir dövrdə Bellin görüntülü ünsiyyəti təsəvvür etməsi çox maraqlıdır. Günümüzdə görüntülü zənglərin geniş yayıldığı bir zamanda bu sözlər texnologiyanın necə sürətlə irəlilədiyini və insanın xəyal gücünün bu prosesdəki rolunu xatırladır.

Mətni oxumazdan əvvəl yeni sözlərin izahı üzrə iş aparılır.

**Oxu**

**Mətn üzrə iş.** "Texnologiya əsrinin möhtəşəm ixtirası" mətni üzrə qruplarla oxu təşkil edilə bilər. Müəllim şagirdləri qruplara ayırır. Mətnin hissələrini qruplar arasında bölüşdürür.

**Söz ehtiyatı**

Mətni oxuduqdan sonra şagirdlər "Söz mücrüsü"ndə verilmiş yeni sözlərlə tanış olur və lüğət vasitəsilə mənalarını müəyyən edirlər.

**Dərslik, səh. 102**

**b.** Suallara cavab verin.

Şagirdlər suallara cavab verməklə mətni necə qavradıqlarını göstərirlər.

Cavab: 1. Martin Kuperin adı ilə

2. İnkişaf etmiş əməliyyat sistemi var, internetə qoşula bilir.
3. 19 il
4. Əməliyyat sistemi və internetlə əlaqə
5. SMS xidməti, mobil tətbiqlər

**Dərslik, səh. 102**

**c.** Hansı bəndlərdə ilk mobil telefonun çəkisi sözlə düzgün ifadə olunub?

Cavab: b. bir kilo yüz otuz qram; ç. bir tam yüzdə on üç kilo

**Dərslik, səh. 102**

**ç.** Aleksandr Bellin epiqrafda verilmiş fikrini mətnin məzmunu ilə əlaqələndirin. Fikrinizi əsaslandırın.

Cavab təxminən belə ola bilər: Doğrudan da, elə bir vaxt gəlib çatdı ki, insanlar telefonda danışarkən bir-birini görə bilirlər. Bu, smartfonlar sayəsində mümkün olmuşdur. Smartfonların funksiyaları texnologiyanın zamanla necə dəyişdiyini və inkişaf etdiyini anlamaq üçün əsas verir. Keçmiş və müasir cihazların müqayisəsi texnoloji inkişafı daha yaxşı nümayiş etdirir. Əgər kimsə sadə ünsiyyət üçün cihaz axtarırsa, mobil telefon; geniş funksionallıq istəyirsə, smartfon seçə bilər.

**Danışma**

**Dərslik, səh. 102**

**d.** Siz hansı mobil tətbiqlərdən istifadə edirsiniz? Onların əhəmiyyəti haqqında danışın.

Tapşırığın tələbinə əsasən şagirdlər mobil tətbiqlər barədə fikirlərini bölüşürlər və onların əhəmiyyətini izah edirlər.

**Dərslik, səh. 103**

**e.** Aşağıdakı cədvəldən və əlavə biliklərinizdən istifadə etməklə ilk mobil telefonlarla son nəsil smartfonların fərqi haqqında rabitəli mətn qurub danışın.

Cədvəldə mobil telefonlarla smartfonların fərqli cəhətləri müəyyən meyarlar əsasında təqdim edilmişdir. Bu məlumatlardan istifadə edərək şagirdlər mətn qurub danışırlar. Cədvəl şagirdləri məlumatları təhlil etməyə, oxşarlıqları və fərqləri qiymətləndirməyə təşviq edir. Bu da onların analitik düşünmə qabiliyyətini artırır.

**İş dəftəri, səh. 52**

**a.** Başlıqlara uyğun olaraq fikirlərini boş sətirlərdə yaz.

Şagirdlər mətndən aldıqları məlumatlar və öz bildikləri əsasında fikirlərini yazırlar.

**İş dəftəri, səh. 52**

**b.** Uyğunluğu müəyyən et.

Cavab: 1 – ç; 2 – d; 3 – a; 4 – c; 5 – b.

**İş dəftəri, səh. 52**

**c.** Mətndə hansı məlumatlar yoxdur?

Cavab: 2. Hansı mobil telefon ilk dəfə satışa çıxarıldı?
4. Gələcəkdə smartfonlarda hansı tətbiqlər olacaq?

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a, ç, d (dərslik) |

Layihə

| | |
|---|---|
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq b, c (dərslik); c (iş dəftəri) |
| Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir. | Tapşırıq e (dərslik) |
| Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir. | Tapşırıq a (iş dəftəri) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tapşırıq b (iş dəftəri) |

# 2-ci DƏRS
# Mobil telefonlar. İnternet

**Təlim nəticələri:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
- Dinlədiyi mətndəki fakt və hadisələri şərh edir (st. 1.1.2).
- Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür (st. 2.1.4).
- Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Müəllim şagirdləri mövzuya yönəltmək üçün belə suallar verə bilər:
*İnternet nədir və necə işləyir?*
*İnternetin yaranma tarixi haqqında nə bilirsiniz?*
*İnternetin əsas funksiyaları hansılardır?*

**Dərslik, səh. 103**

**a.** Oxuduğunuz mətndə vurğulanır ki, internetlə əlaqə smartfonun ən böyük üstünlüyüdür. İnformatika üzrə biliklərinizdən istifadə etməklə bu fikri şərh edin və əsaslandırın.

Cavab təxminən belə ola bilər:

**İnternet qlobal əlaqə imkanları yaradır:** Smartfonların internetə qoşulmaq funksiyası insanlara dünyanın istənilən nöqtəsi ilə əlaqə yaratmaq imkanı verir. Sosial şəbəkələr, e-poçt, videozənglər vasitəsilə insanlar həm şəxsi, həm də işgüzar əlaqələrini davam etdirə bilirlər. Məsələn, sosial media platformaları (Facebook, Instagram, WhatsApp və s.) yalnız internet üzərindən işləyir və insanlar bu sayədə əlaqələrini genişləndirirlər.

İnternetə qoşulma smartfon istifadəçilərinə istənilən məlumatı bir anda əldə etmək imkanı verir. Bu, təhsil, biznes və gündəlik həyat üçün böyük bir üstünlükdür. Məsələn, şagirdlər dərs mövzuları ilə bağlı araşdırmalar üçün smartfonlardan istifadə edirlər.

**Funksional tətbiqlər:** İnternet bağlantısı smartfonlardakı tətbiqlərin çoxunu aktiv edir. Bank, onlayn alış-veriş, xəritələr, əyləncə tətbiqləri və bir çox xidmətlər internetə əsaslanır. Məsələn, Google Maps vasitəsilə yol tapmaq və ya bank tətbiqləri ilə ödənişlər etmək internet olmadan mümkün deyil.

**Əyləncə:** Smartfonlar internet vasitəsilə əyləncə imkanları təklif edir. Filmlər, musiqi, oyunlar və onlayn yayımlar istifadəçilər üçün əyləncəni əlçatan edir. Məsələn, yutub kimi platformalar vasitəsilə istifadəçilər hər yerdə əyləncə məzmunlarından faydalana bilirlər.

**Rahatlıq və funksionallıq:** Smartfonların internetə qoşulması onları bir çox digər cihazları əvəz edən universal vasitəyə çevirir. Kamera, kompüter, GPS cihazı kimi funksiyalar tək bir cihazda toplanıb.

Virtual köməkçilər (Siri, Google Assistant) və ağıllı ev texnologiyaları smartfonların internetə qoşulmasını tələb edir.

**Dərslik, səh. 103**

**b.** İnternetdən nə məqsədlə istifadə edirsiniz? Hansı texniki vasitələrlə internetə daxil olursunuz?

Layihə

Şagirdlər bu sualları fərdi şəkildə cavablandırırlar.

**Dinləmə**

**Dərslik, səh. 103**

**c.** "Mobil telefonlar. İnternet" mətnini dinləyin və qeydlər götürün.

***Mobil telefonlar. İnternet***

*Tarixdə yazının meydana gəlməsi, kitab çapının ixtirasından sonra üçüncü informasiya inqilabı internetin yaradılmasıdır. 1969-cu ildə Amerikada alimlər strateji məlumatların saxlandığı bir neçə kompüteri vahid sistemdə birləşdirdi. Beləliklə, internet meydana gəldi. O, hərbi məqsədlər üçün yaradılmışdı. Lakin tezliklə aydın oldu ki, internetlə çox rahat bir şəkildə elektron məktublar göndərmək və məlumatları bölüşmək olar. İndi internet bütün dünyanı əhatə edən nəhəng bir sistemdir və ondan hamı istifadə edə bilər.*

*İnformasiya texnologiyalarının inkişafı nəticəsində insanlar arasında ünsiyyət dəyişdi. Əvvəllər insanlar məktublaşırdılar, sonra teleqraf, telefonla əlaqə saxlayırdılar. Daha sonra internet meydana çıxdı və onlar elektron məktub, SMS yazmağa başladılar. Hazırda insanlar günün çox hissəsini internetdə keçirirlər: işlə bağlı yazışırlar, xəbərləri oxuyurlar, əylənirlər, dostlar tapırlar.*

*Müasir kommunikasiyanın əsasını sosial şəbəkələr təşkil edir. Sosial şəbəkə internet-platformadır. Burada istifadəçilər bir-biri ilə ünsiyyətdə olurlar.*

*İnternet bizə geniş imkanlar yaradır: istənilən informasiyanı tapmaq, uzaq məsafədən ünsiyyət yaratmaq, onlayn təhsil almaq və s.*

*Mobil telefonlarda internetin tətbiqi, yəni mobil internet əsas və əhatəli bir xidmətdir. Ağıllı telefonların inkişafı ilə bərabər, internet resurslarının mobil cihazlar üçün tətbiqi də dəyişib inkişaf etmişdir. İnternet sayəsində indi mobil telefonlarımız bizi dünya ilə əlaqələndirmək və daimi olaraq məlumat əldə etmək üçün əsas vasitədir.*

*Mobil internet bu cihazların funksionallığını artıran bir elementdir. Ağıllı telefonların inkişafı ilə istifadəçilər artıq elektron poçtdan istifadə etmək, sosial şəbəkələr və mesencerlə ünsiyyət saxlamaq, məlumat axtarmaq, eyni zamanda videooyun oynamaq və s. üçün internetdən istifadə edirlər.*

*Bundan başqa, internetdə bir sıra süni intellektlə təchiz olunmuş tətbiqlər, çatbotlar da var ki, onlar müştəri sorğularını ani mesajla cavablayır. Bu süni intellekt proqramları internetlə istifadəçi arasında interaktivliyi təmin edir.*

*Bir sözlə, müasir dövrdə mobil internet həm işdə, həm təhsildə, həm də maişətdə həyatımızın ayrılmaz bir hissəsi olub.*

**Dərslik, səh. 103**

**ç.** İnternet müasir insan üçün hansı imkanları yaradır?

Cavab: İnsanlar elektron məktub, SMS göndərirlər, işlə bağlı yazışırlar, xəbərləri oxuyurlar, əylənirlər, dostlar tapırlar, sosial şəbəkələrdə bir-biri ilə ünsiyyətdə olurlar.

**Dərslik, səh. 103**

**d.** Dinlədiyiniz mətndə internetlə bağlı hansı mövzuya toxunulmayıb?

Cavab: c) internetdə informasiya təhlükəsizliyi

**Dərslik, səh. 104**

**e. Debat.** "Texnologiya əsrinin möhtəşəm ixtirası" mətninin sonunda müəllif hansı problemi qaldırır? Bu problemlə bağlı VI$^b$ sinfinin şagirdləri debat keçiriblər. Komandaların arqumentləri ilə tanış olun və problemlə bağlı fikirlərinizi müəyyənləşdirin.

Mətni oxumaq üçün şagirdlər arasında rollar bölüşdürülür. Sonra mətn rollar üzrə oxunur. Şagirdlər "Sözlərin izahı" olan hissəyə diqqət etməlidirlər.

Layihə

Debat və müzakirələrin təşkili şagirdlərin tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir, həmçinin müxtəlif mövqelərə hörmətlə yanaşmağı aşılayır. Bu zaman emosionallığın yaranması labüddür. Lakin həddindən artıq emosional davranış debat və müzakirənin yarımçıq qalmasına səbəb ola bilər. Ona görə də iştirakçılar həssas davranmalı, səslənən əks-arqumentlərə səbirlə yanaşmağı bacarmalıdırlar.

**Müəllimin nəzərinə!** Diqqət yetirmək lazımdır ki, debat zamanı şagirdlər qarşı tərəfin fikrinə hörmətlə yanaşsınlar, razılaşmadığı məqamlarda səbirli olsunlar. Heç kəsin sözünü kəsməsinlər, diqqətlə dinləməyi bacarsınlar.

**Dərslik, səh. 105**

**ə.** Komandaların spikerləri öz tezislərini əsaslandırmaq üçün hansı arqumentlərdən istifadə etdilər?

Cavab: Hüseynin komandasının arqumentləri: smartfon ünsiyyət vasitəsi, informasiya və əyləncə mənbəyidir. İşgüzar insanlar öz biznesləri üçün smartfondan istifadə edirlər. Smartfonla internetdən mətn yükləmək, araşdırma aparmaq, onlayn təhsil almaq mümkündür.

Gülyazın komandasının arqumentləri: həyatımız bu cihazdan asılı vəziyyətə düşüb. Bu, sağlamlığımıza mənfi təsir göstərir. Bəzən biz dostlarımızla futbol, şahmat oynamaq əvəzinə internetdə süni intellektlə oynayırıq. Smartfonlar bizi həm əqli, həm də fiziki cəhətdən tənbəlləşdirir, inkişafımıza mane olur.

**Dərslik, səh. 105**

**f.** Debatla bağlı öz mövqeyinizi müəyyənləşdirin və fikrinizi əsaslandırmaq üçün əlavə arqumentlərdən istifadə edin.

Şagirdlər verilmiş fikirlərə münasibət bildirir və mətndəki məlumatlardan çıxış edərək fikirlərini əsaslandırırlar, əlavə arqumentlər düşünürlər. Debatın əsas məqsədi şagirdlərin dinləmək, danışmaq və araşdırmaq bacarıqlarını inkişaf etdirməkdir. Şagirdlər hər bir fikri əsaslandırmaq üçün arqument (dəlil, sübut) axtarmalı və onları şifahi nitq bacarıqlarının köməyi ilə effektiv şəkildə təqdim etməlidirlər.

**İş dəftəri, səh. 53**

**a.** "Rabitənin inkişaf tarixi: teleqrafdan internetə" mövzusunda informativ mətn yaz.

Şagirdlər verilmiş tərkib hissələrə uyğun olaraq mətnlərdən öyrəndikləri əsasında informativ mətn yazırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a, b (dərslik) |
| Dinlədiyi mətndəki fakt və hadisələri şərh edir. | Tapşırıq ç, d (dərslik) |
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tapşırıq e, ə, f (dərslik) |
| Əldə etdiyi məlumatlar əsasında kiçikhəcmli informativ mətn yazır. | Tapşırıq a (iş dəftəri) |

Layihə

# 3-cü DƏRS
# Debat

**Təlim nəticələri:**
• Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür (st. 2.1.4).

**Mövzuya yönəltmə.** Keçən dərsdə oxuduqları mətnə uyğun olaraq, şagirdlər verilmiş tezislər əsasında debat təşkil edirlər. Müəllim onlara debatın formatına əməl etməyi tapşırır.

**Dərslik, səh. 105**

a. Aşağıdakı tezislər üzrə debat keçirin. Verilmiş suallara və struktura əsaslanın.

***1-ci komandanın tezisi:***
**Uşaqlar üçün telefondan istifadəyə məhdudiyyət qoyulmalıdır.**
Cavab təxminən belə ola bilər:
*Telefondan uzun müddət istifadə etmək uşaqların görmə qabiliyyətinə mənfi təsir göstərə, boyun və onurğa problemlərinə səbəb ola bilər. Həmçinin fiziki aktivliyin azalması uşağın ümumi sağlamlığına mənfi təsir edir. Uşaqlarda telefondan asılılıq yaranır və bu, diqqət pozğunluğuna və ya stresə səbəb ola bilər. Onlar dərslərə az vaxt ayırırlar. Bu zaman öyrənmə prosesinə zərər gələ bilər. Həm oyun, həm də təhsil üçün telefonlardan istifadə zamanı balans yaratmaq vacibdir. Uşaqlar daha çox faydalı, yaradıcı və fiziki fəaliyyətlərlə məşğul olmalıdırlar.*

***2-ci komandanın tezisi:***
**Uşaqlar üçün telefondan istifadəyə məhdudiyyət qoyulmamalıdır.**
*Telefonlar uşaqların təhsilinə böyük töhfə verə bilər. Onlar müxtəlif məlumat mənbələrinə, təhsil proqramlarına və öyrədici oyunlara çıxış əldə edə bilərlər. Məhdudiyyət qoyulmaması uşaqların öz maraq dairələrinə uyğun biliklər kəşf etməsinə imkan yaradır. Müasir dünyada texnologiyadan istifadə vacibdir. Uşaqlar telefondan istifadə etməklə gələcəkdə lazım olacaq rəqəmsal bacarıqlarını inkişaf etdirə bilərlər. Onlar şəkil çəkmək, video montaj etmək və ya musiqi yaratmaq üçün tətbiqlərdən istifadə edə bilərlər. Telefonlar uşaqlara dostları və ailə üzvləri ilə əlaqə saxlamağa, yeni sosial dairələr qurmağa da imkan verir.*

• Aşağıdakı suallarla bağlı fikrinizi bildirin:

Cavab təxminən belə ola bilər:
**1. Uşaqlara neçə yaşında telefon alına bilər?**
Telefon alarkən yaş qrupu və ehtiyaclar nəzərə alınmalıdır:
**7 yaşdan əvvəl:** Bu yaş qrupu üçün telefon almaq, ümumiyyətlə, tövsiyə edilmir.
**8-12 yaş:** İlk telefon almaq üçün uyğun yaş sayılır. Bu yaşda uşaqlar, adətən, məktəbdə valideynlərlə əlaqə saxlamaq üçün telefona ehtiyac duya bilərlər. Sadə funksiyalı, yalnız zəng və mesaj göndərmə xüsusiyyətləri olan telefonlar məsləhətdir.
**13 yaş və yuxarı:** Daha geniş funksiyalı smartfonların alınması üçün uyğun vaxtdır. Bu yaşda uşaqlar texnologiyadan daha məsuliyyətlə istifadə edə bilirlər və təhsil məqsədləri üçün telefondan faydalana bilərlər.
Uşaqların texnologiyadan istifadə etməsi valideyn nəzarəti altında olmalı və mümkün qədər məhdudlaşdırılmalıdır.
**2. Şagirdlərə məktəbdə telefondan istifadəyə icazə verilməlidirmi?**
Bu məsələni daha yaxşı anlamaq üçün həm müsbət, həm də mənfi tərəfləri nəzərdən keçirə bilərik:
**Müsbət cəhətlər**
1. Telefonlar dərs materiallarına, tədris proqramlarına və elmi mənbələrə çıxışı asanlaşdırır. Müasir təhsil texnologiyaları ilə şagirdlər dərslərdə aktiv şəkildə iştirak edə bilərlər.
2. Telefonlar təcili hallarda şagirdlərin valideynləri ilə tez bir zamanda əlaqə saxlamasına imkan yaradır.

Layihə

3. Texnologiya ilə daha yaxından tanış olmaq şagirdlərin rəqəmsal savadlılığını artırır və gələcəkdə texnologiyadan səmərəli istifadə üçün baza yaradır.

**Mənfi cəhətlər**

1. Telefon dərslərdə şagirdlərin diqqətini yayındıra bilər.
2. Şagirdlərin ünsiyyəti azalar və məktəbdə sosial əlaqələr zəifləyər.
3. Nəzarətsiz telefon istifadəsi şagirdlərin yaşlarına uyğun olmayan məzmunlarla tanışlıq ehtimalını artırır.
4. Telefonlardan istifadənin artması kiber zorakılıq halları ilə nəticələnə bilər.

Ən yaxşı həll yollarından biri məhdud və nəzarətli istifadəni təmin etməkdir:

• Telefonlar yalnız tədris üçün nəzərdə tutulan zamanlarda istifadə edilməlidir.
• Məktəblər şagirdlər üçün telefon istifadəsi ilə bağlı xüsusi qaydalar tərtib edə bilər.

**3. Uşaqlar hansı aplikasiyaları yükləyə bilərlər?**

Uşaqlar üçün uyğun tətbiqlər seçərkən onların yaşına, maraqlarına və ehtiyaclarına uyğun, həmçinin təhlükəsizlik və təhsil dəyərlərinə cavab verən proqramlar nəzərə alınmalıdır. Məsələn: Duolingo, Lingokids (Dil öyrənməyi əyləncəli edən proqramlar), Khan Academy Kids (Təhsil məqsədli videolar), ABCmouse (Oxuma, yazma, riyaziyyat və digər fənlər üzrə interaktiv dərslər), Draw and Tell (Uşaqlar üçün rəsm çəkmə və nağıl yaratma proqramları), Minecraft: Education Edition (Yaradıcı bacarıqları inkişaf etdirən və təhsil yönümlü oyun tətbiqi), Tynker (Kodlaşdırma öyrənmək üçün başlanğıc səviyyəsi proqramları) və s.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tapşırıq a (dərslik) |

# 4-cü DƏRS
# Feili bağlama

**Təlim nəticələri:**
• Feili bağlamanın qrammatik xüsusiyyətlərini müəyyən edir (st. 4.1.3).

**Mövzuya yönəltmə.** Dərslikdə verilmiş a tapşırığı motivasiya xarakterlidir və şagirdlərin diqqətini mövzuya yönəldir.

**Dərslik, səh. 106**

**a.** Hərəkətin zamanını bildirən sözləri tapın və onların qrammatik xüsusiyyətlərini müəyyən edin.

Şagirdlər nə vaxt? sualına cavab verən sözləri müəyyən edirlər. Məlum olur ki, 2-ci cümlədə bu suala cavab verən "axşam" sözü sadəcə olaraq zaman bildirən zərfdir. 1-ci cümlədəki "açılanda" sözü isə hərəkətin zamanını bildirən feil formasıdır.

Cavab: 1. Hava açılanda gəzməyə gedərik.
2. Axşam mənə zəng etməyi unutma.

Müəllim "Bunları bilməliyik" rubrikasında verilmiş məlumatları izah edir. Feili bağlama haqqında məlumat verir.

**Dərslik, səh. 106**

**b.** Cümlələrdə feili bağlamaları seçin. Feilə və zərfə aid xüsusiyyətlərini müəyyənləşdirin.

Şagirdlər tapşırığı yerinə yetirməklə cümlələrdəki feili bağlamaların hərəkət bildirdiyini, zərf kimi feilə aid olduğunu, eyni suallara cavab verdiyini müəyyən edirlər.

Layihə

Cavab: 1. utana-utana   2. uzanınca   3. görüb   4. tutaraq

**Dərslik, səh. 106**

**c.** Feili bağlamaları kök və şəkilçiyə ayırın. Feili bağlama yaradan şəkilçiləri müəyyən edin.

Tapşırığın məqsədi feili bağlamanın şəkilçilərini müəyyənləşdirməkdən ibarətdir. Şagirdlər feili bağlamaları seçir, sonra onları kök və şəkilçiyə ayıraraq feili bağlamaya xas olan şəkilçiləri müəyyənləşdirirlər.

Cavab: 1. öyrənib – öyrən+ib: -ib
2. görüb – gör+üb: -üb
3. gülə-gülə – gül+ə-gül+ə: -ə
4. keçdikcə – keç+dikcə: -dikcə
5. gülümsəyərək – gülümsə+yərək: -yərək

**Dərslik, səh. 106**

**ç.** Cümlələri oxuyun, fərqləndirilmiş feili uyğun feili bağlama ilə əvəz edin.

Cavab: 1. Rüstəm əmi ayağa ***durdu*** və danışdı. – rüstəm əmi ayağa durub danışdı.
2. Mən ***gəldim*** və o yola düşdü. – Mən gəlincə o yola düşdü.
3. Quş qanadlarını ***çırpdı*** və səmaya qalxdı. – Quş qanadlarını çırparaq səmaya qalxdı.
4. Payız ***gəlir*** və yarpaqlar saralır. – Payız gələndə yarpaqlar saralır.

**Dərslik, səh. 106**

**d.** Feili bağlamaları cümlələrdə işlədin.

Verilmiş feili bağlamaları müxtəlif cümlələrdə işlətməklə şagirdlər bu mövzunu necə qavradıqlarını nümayiş etdirirlər.

**İş dəftəri, səh. 54**

**a.** Hansı xüsusiyyət feili bağlamaya aid deyil?

Cavab: d) Mənsubiyyət şəkilçisi qəbul edə bilir.

**İş dəftəri, səh. 54**

**b.** Hansı cümlələrdə nə vaxt? sualına cavab verən söz feili bağlamadır? Həmin sözlərin altından xətt çək.

Cavab: 2. Ağaclar böyüyəndə bağımız daha da gözəlləşəcək.
4. Yolu keçəndə ehtiyatlı ol.
6. Kitab oxuyanda qeydlər götürürsən?

**İş dəftəri, səh. 54**

**c.** Cümlələrdəki feili bağlamaları seç və qarşısında sualını yaz.

Cavab: 1. Bu xəbəri eşidəndə çox təəccübləndim. – nə vaxt?
2. Uşaq qışqıra-qışqıra ağlayırdı. – necə?
3. Sürücü qırmızı işığı görüb maşını saxladı. – niyə?

**İş dəftəri, səh. 54**

**ç.** Cümlələrdə feili bağlamaların məna növünü müəyyən et və cədvəlin uyğun sütunlarına yaz.

Cavab:

| Tərz bildirən | Zaman bildirən | Səbəb bildirən |
|---|---|---|
| ölçüb-biçmədən | bitirəndə | eşidib |

Layihə

| işləyə-işləyə | gedərkən | düşünərək |
|---|---|---|
| | | |
| | | |

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Feili bağlamanın qrammatik xüsusiyyətlərini müəyyən edir. | Dərslik və iş dəftərində verilmiş tapşırıqlar |

Layihə

# Ümumiləşdirici təkrar

**Təlim nəticələri:**
- Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir (st. 4.1.3).

**Dərslik, səh. 107**

**1.** Hansı cümlələrdə təsriflənməyən feillər yoxdur?

Cavab: 2. Bir azdan konsert qurtaracaq.
4. İşə vaxtında başlayın.

**İş dəftəri, səh. 55**

**1.** Fərqləndirilmiş ifadələrə sual ver. Uyğunluğu müəyyən et.

Cavab: 1 – ç; 2 – e; 3 – a; 4 – c; 5 – b; 6 – d.

**Dərslik, səh. 107**

**2.** Cümlələrdəki məsdərləri tapın. Onların feilə və ismə aid xüsusiyyətlərini müəyyən edin.

Cavab: 1. üzməyi; 2. gülmək, əylənmək; 3. qurtarmağa; 4. oynamaqdan; 5. gəlməyini.

**İş dəftəri, səh. 55**

**2.** Mötərizədəki məsdərləri müvafiq hal və ya mənsubiyyət şəkilçiləri ilə işlətməklə cümlələri tamamla.

Cavab: 1. Balaca Vüsal cizgi filmlərinə *baxmağı* xoşlayır. *(baxmaq)*
2. Dərsi diqqətlə *dinləmək* bizə çox kömək edir. *(dinləmək)*
3. Şəhərdə *qalmağa* qərar verdinmi? *(qalmaq)*
4. Onun belə *danışmağını* gözləmirdim. *(danışmaq)*

**Dərslik, səh. 107**

**3.** Fərqləndirilmiş sözlərin feildən düzələn sifət və ya feili sifət olduğunu müəyyən edin.

Cavab: 1. **çalışqan** – feildən düzələn sifət
2. **kəsici** – feildən düzələn sifət
3. **döşənmiş** – feili sifət
4. **sevdiyim** – feili sifət
5. **qızğın** – feildən düzələn sifət

**Dərslik, səh. 107**

**4.** Aşağıdakı sözlərdən feili sifət düzəltməklə cümlələri tamamlayın.

Cavab: 1. Bayaq *gələn* adam kim idi?
2. Bilirəm ki, bacımın *hazırladığı* yemək çox dadlı olacaq.
3. *Tikdirdiyim* kostyum çox xoşuma gəldi.
4. Burada *yuyulmuş* paltarlar var.
5. *Bəzənmiş* qızlar şənliyə tələsirdilər.

**İş dəftəri, səh. 55**

**3.** 1-ci sütunda altından xətt çəkilmiş şəkilçilərdən istifadə edərək digər sütundakı nümunələri tamamla.

Cavab: axtardığım əşya
içilmiş çay
oynayan uşaqlar
satılacaq məhsullar

Layihə

tikilməli evlər

**Dərslik, səh. 107**

**5.** Verilmiş cümlələrdə feili bağlamaları seçin və hansı məna bildirdiyini müəyyən edin.

Cavab: 1. Yaz olanda (zaman) kəndimiz yaşıllığa bürünür.
2. O, məktəbə çatdıqda (zaman) zəng vurulmuşdu.
3. Əli çantasını götürüb (tərz) getdi.

**İş dəftəri, səh. 55**

**4.** Boşluqların yerinə mötərizədəki şəkilçilərdən uyğun gələnini yaz.

Cavab: 1. Mesajımı *oxuyunca* tez mənə cavab yaz. *(-yunca / -madan)*
2. Müəllim *gülümsəyib* bizə baxdı. *(-yəndə / -yib)*
3. Qardaşımı *gözləyərkən* yağış başladı. *(-yib / -yərkən)*
4. Maşınlar *dayananda* yolu keçdim. *(-anda / -madan)*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlədə əsas nitq hissələrini leksik-qrammatik xüsusiyyətlərinə uyğun işlədir. | Dərslik və iş dəftərində verilmiş tapşırıqlar |

Layihə

Bölmə 5

# XEYRİYYƏÇİLƏR

| Dərs | Mövzu | Məzmun xətti | Dərslik səh. | İş dəftəri səh. | Metodik vəsait səh. |
|---|---|---|---|---|---|
| 1-ci fəsil. **Mesenatlıq** | | | | | |
| 1 | Qay Silnius Mesenat | Oxu | 110-111 | 56 | 148-150 |
| 2 | Sezar. Eponimlər | Dinləmə. Danışma | 112 | 57 | 150-152 |
| 3 | Əvəzliklərin məna növləri | Yazı | 113-114 | 58 | 152-154 |
| 2-ci fəsil. **Hökmdarlar və alimlər** | | | | | |
| 4 | Hülakü xan və Nəsirəddin Tusi | Oxu | 115-116 | 59 | 155-156 |
| 5 | Hülakü xan və Nəsirəddin Tusi | Oxu | 117 | | 157-158 |
| 6 | İsmi və feili birləşmələr | Yazı | 118 | 60 | 158-160 |
| 3-cü fəsil. **Azərbaycanlı mesenat** | | | | | |
| 7 | Hacı Zeynalabdin Tağıyev | Oxu | 119-121 | 61 | 161-162 |
| 8 | Hacı Zeynalabdin Tağıyev | Oxu. Yazı | 121-122 | | 162-165 |
| 9 | Tağıyevin dolayı xeyriyyəçiliyi | Dinləmə | 123 | 62 | 165-167 |
| 10 | Tağıyev haqqında rəvayətlər | Oxu | 124-126 | 63 | 168-169 |
| 11 | Tağıyev haqqında hekayə | Yazı | 126 | | 170 |
| 12 | İsmi birləşmələrin müəyyənlik və qeyri-müəyyənlik bildirməsi | Yazı | 127 | 64 | 170-172 |
| 4-cü fəsil. **Mesenat sahibkarlar** | | | | | |
| 13 | Məşhur mesenatlar | Oxu. Danışma | 128-129 | 65 | 173-174 |
| 14 | Diaqram üzrə iş | Danışma. Yazı | 130 | 66 | 174-175 |
| 15 | Ümumiləşdirici təkrar | Yazı | 131 | 67 | 176-178 |

Layihə

# GİRİŞ DƏRSİ

## Heydər Əliyev fondu

**Təlim nəticələri:**
- Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir (st. 3.1.2).
- Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 2.1.3).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərin diqqətini bölmənin adına yönəldir və soruşur:

– Sizcə, bu bölmədə nədən danışılır?

Şagirdlər suala cavab verməklə bölmənin mövzusu haqqında fikirlərini bildirirlər. Bu mövzuda ilkin biliklərini nümayiş etdirirlər.

**Söz ehtiyatı**

**Dərslik, səh. 108**

**a.** Lüğətin köməyi ilə "xeyr" və "xeyir" sözlərinin leksik mənaları arasındakı fərqi izah edin.

**Müəllimin nəzərinə!** Müəllim şagirdlərə aşağıdakı əlavə məlumatları verə bilər: Dilimizdə tərkibində bir hərfə görə fərqlənən sözlər vardır. Səslənməsinə görə bir-birinə oxşar olan sənəd – sənət, süfrə – sürfə, qəlb – qəlp, məhsul – məsul, mətn – mətin, əmr – əmir, atlaz – atlas, əsr – əsir, şahid – şəhid, xeyr – xeyir, həyat – həyət, ahəng – əhəng və s. Bu sözlər omonim deyil, çünki yazılışları fərqlidir. Belə sözlər paronim adlanır.

Cavab: Xeyr – yox, xeyir – fayda, mənfəət, yaxşılıq.

**Dərslik, səh. 108**

**b.** Sizcə, "xeyriyyə" sözü "xeyir" sözünün hansı mənasından yaranmışdır?

Cavab: Xeyir sözünün bir neçə mənası var:
1. Fayda, mənfəət. Bir işin xeyrini görmək
2. Yaxşılıq, yaxşı iş

"Xeyriyyə" sözü xeyir sözünün yaxşılıq mənasından yaranmışdır.

**Dərslik, səh. 108**

**c.** Sizcə, xeyriyyə təşkilatlarının missiyası nədir?

**Müəllimin nəzərinə!** Tapşırığı yerinə yetirmədən əvvəl şagirdlərin diqqətini "Sözlərin izahı" rubrikasına yönəltmək və "missiya" sözünün mənasını izah etmək tövsiyə edilir.

**Dərslik, səh. 108**

**ç.** Aşağıdakı məlumatlara əsasən Heydər Əliyev Fondunun missiyası haqqında danışın.

Şagirdlər Heydər Əliyev Fondu haqqında məlumat vərəqi ilə tanış olurlar. Məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edirlər.

**Müəllimin nəzərinə.** Tapşırığı cütlərlə yerinə yetirmək də olar. Hər cütlük məlumat vərəqində verilmiş bir yarımbaşlıq haqqında məlumatları təqdim edə bilər.

**Dərslik, səh. 109**

**d.** Aşağıdakı şəkillərin siyahıda verilmiş hansı məlumata aid olduğunu müəyyən edin və yarımbaşlığı genişləndirin.

Şagirdlərin cavabı təxminən belə ola bilər:

**I şəkil.** "Vatikanda Azərbaycan xalçalarının nümayişi" altyazılı şəkil ilə məlumat vərəqindəki "Mədəniyyət" yarımbaşlığını genişləndirmək olar. Nümunə: Heydər Əliyev fondunun missiyalarından biri Azərbaycan mədəniyyətini dünyada təbliğ etməkdir. Fond bu məqsədlə müxtəlif layihələr həyata keçirir, incəsənət festivalları və sərgilər təşkil edir. Məsələn, Vatikanda Azərbaycan xalçalarını nümayiş etdirməklə Azərbaycan xalçaçılıq sənətini dünyada tanıtmışdır.



Layihə

**II şəkil.** Heydər Əliyev fondunun əsas missiyalarından biri də ətraf mühitin müdafiəsidir. Bu məqsədlə müxtəlif layihələr həyata keçirilir. Onlardan biri də ağacəkmə aksiyalarının təşkili, ağacların kəsilməsinə qarşı mobil qrupun və qaynar xəttin yaradılmasıdır. Məsələn, fond hər il "Ağac əkək, qoruyaq, bu ənənəni yaşadaq!" adlı ağacəkmə aksiyası keçirir.

**III şəkil.** Heydər Əliyev fondu Azərbaycanda idman sahəsinin inkişafı üçün də bir çox layihələr həyata keçirir. Məktəblərdə idman zalları, futbol meydançaları yaratmaqla şagirdlərdə hələ kiçik yaşlardan idmana maraq yaradır. Parklarda ministadionlar, idman qurğuları ilə təchiz olunmuş sahələrin yaradılması isə idmanın şəhər əhalisinin günlük rejiminə çevrilməsinə kömək edir. Müxtəlif idman marafonları və yarışlarının təşkili insanlarda sağlam rəqabət hissini formalaşdırır. "Küləyə qalib gəl" şüarı altında keçirilən Bakı marafonu əhali tərəfindən maraqla qarşılanır. Hər il minlərlə adam bu marafonda iştirak edir.

**IV şəkil.** Heydər Əliyev fondu Azərbaycanda təhsil sahəsinin inkişafına xüsusi diqqət ayırır. Uşaq evləri və internat məktəbləri tikilir, təmir etdirilir. Yeni orta məktəblər, uşaq bağçaları inşa edilir və avadanlıqla təchiz olunur. Fond tərəfindən tez-tez uşaq festivalları təşkil edilir ki, bu da öz növbəsində yaradıcı uşaqları həvəsləndirir. Fondun rəhbəri Mehriban xanım Əliyeva həmin festivallarda iştirak edir, uşaqları dəstəkləyir.

**Dərslik, səh. 109**

**e.** İnternet vasitəsilə Heydər Əliyev Fondunun gördüyü işlər barədə araşdırma aparın. Oxuduğunuz məlumatlardan bir neçəsini əldə etdiyiniz faktlarla əsaslandırın.

**Müəllimin nəzərinə.** Sinfin texniki təchizatını nəzərə alaraq müəllim araşdırma tapşırığını şagirdlərə bir gün öncədən tapşıra bilər.

Araşdırma aparan şagirdlər təqdimata hazırlaşırlar. Təqdimat materialının dizaynına xüsusi diqqət yetirirlər. Sinfin kompüter təchizatı imkan verərsə, təqdimatın slaydlar şəklində hazırlanması arzuolunandır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir. | Tapşırıq a, b, c (dərslik) |
| Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir. | Tapşırıq ç, d, e (dərslik) |

Layihə

# 1-ci fəsil
# MESENATLIQ

## 1-ci DƏRS
## Qay Silnius Mesenat

**Təlim nəticələri:**
- Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
- Mətni dil-üslub xüsusiyyətlərinə görə təhlil edir (st. 3.1.5).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Mətnin tərkib hissələrini, struktur elementlərini onun əsas məzmunu ilə əlaqələndirir (st. 3.1.5).
- Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir (st. 3.1.5).

**Mövzuya yönəltmə**

**Söz ehtiyatı**

**Dərslik, səh. 110**

**a.** "Himayə" sözünün izahına əsasən aşağıdakı söz və ifadələrin mənasını təxmin edin.

Cavab: Himayədar – qeydinə qalan, arxa olan, kömək edən adam;
himayəsinə götürmək – qayğısını, məsuliyyətini öz üzərinə götürmək;
himayə etmək – köməklik etmək, arxa durmaq.

**Mətnlə iş.** "Qay Silnius Mesenat" mətni şagirdlər tərəfindən səssiz oxunur.

**Söz ehtiyatı**

Müəllim "Söz mücrüsü"ndə verilmiş sözlərin mənasını şagirdlərə izah edir. Şagirdlər yeni sözləri cümlələrdə işlətməklə onların mənasını anladıqlarını nümayiş etdirirlər.

**Dərslik, səh. 111**

**b.** "Söz mücrüsü"ndən izahlara uyğun gələn sözləri seçin.

Cavab:
1. **Maliyyə** – dövlətə, yaxud ayrı-ayrı şəxslərə məxsus pul vəsaiti.
2. **İmtiyaz** – üstünlük, güzəşt.
3. **Təkid** – bir şeyin üstündə durma, israr etmə.

**Dərslik, səh. 111**

**c.** "Dəstək" sözünün mətndə işləndiyi mənasını müəyyən edin.

Cavab: 2. Kömək, yardım, tərəfdar. Ən böyük dəstəyi anası idi.

**Dərslik, səh. 111**

**ç.** Mətndən verilmiş cümləni bir daha oxuyun. "Qızıl dövr" ifadəsinin mənasını izah edin.

**"Sözlərin izahı" rubrikası.** Müəllimə tapşırığı yerinə yetirmədən əvvəl bu rubrikadakı məlumatı şərh etmək tövsiyə edilir. Tapşırıqda verilmiş "Bu səbəbdən Avqustun hakimiyyət illəri latın ədəbiyyatının qızıl dövrü kimi tanınır" cümləsində "qızıl" sözü epitetdir. Epitet – varlığın əlamətinin obrazlı şəkildə ifadəsi, məcazi mənada işlənən əlamət bildirən sözdür. "Qızıl" sözünün ilkin mənası "qiymətli metal" deməkdir. Lakin "qızıl dövr" ifadəsində qızılın qiymətli, dəyərli metal olması xüsusiyyəti məcazlaşmışdır.

Layihə

**Dərslik, səh. 111**

**d.** Aşağıdakı ifadələrdə əlamət bildirən sözləri seçin və epitet olduğunu əsaslandırın.

Cavab:

• "Polad biləklər" ifadəsində "polad" sözü epitetdir, çünki biləyin əlamətini obrazlı şəkildə ifadə edib. "Polad" sözünün ilkin mənası "möhkəm metal" deməkdir. Bu birləşmədə məhz möhkəmlik xüsusiyyəti məcaziləşib.

• "Dəmir iradə" ifadəsində "dəmir" sözü epitetdir, çünki iradənin əlamətini obrazlı şəkildə ifadə edib. "Dəmir" sözünün ilkin mənası "möhkəm metal" deməkdir. Bu birləşmədə məhz möhkəmlik xüsusiyyəti məcaziləşib.

• "Soyuq baxışlar" ifadəsində "soyuq" sözü epitetdir, çünki baxışın əlamətini obrazlı şəkildə ifadə edib. Məsələn, "soyuq hava" birləşməsində "soyuq" həqiqi mənada işlənmişdir.

**Dərslik, səh. 111**

**e.** Mətnin məzmununa əsasən suallara cavab verin.

Tapşırıq vasitəsilə şagirdlərin mətni necə qavradıqlarını yoxlamaq mümkündür.

**Dərslik, səh. 111**

**ə.** Mətnlə bağlı şəkilaltı məlumatı oxuyun. Mövzuya aid hansı yeni məlumatları aldınız?

Cavab: Şəkilaltı məlumatlardan belə nəticəyə gəlmək olar ki, mesenat öz bağçasında tez-tez şeir məclisləri qurar, həmin dövrün şairlərini dəvət edərmiş.

**Dərslik, səh. 111**

**f.** "Mesenat" mətnini yazmaqda müəllifin əsas məqsədi nədir? Mətnə istinad etməklə cavabınızı əsaslandırın.

Cavab: d. "Mesenat" sözünün mənşəyini izah etmək. Mətndə "mesenat" sözünün etimologiyası verilib.

**İş dəftəri, səh. 56**

**a.** Qay Silnius Mesenat haqqında hansı məlumatlar mətndə öz əksini tapıb?

Cavab: 1, 3, 4

**İş dəftəri, səh. 56**

**b.** Mətnə istinad etməklə cədvəli tamamla.

Cavab:

1. Mesenat həm dostlar, həm də rəqiblər arasında böyük nüfuza malik idi. *Çünki mülayim xasiyyətli, nəzakətli insan idi.*

2. Mesenat elm, ədəbiyyat, incəsənət adamları üçün dövlətdən xeyli imtiyazlar aldı. *Nəticədə ölkənin incəsənət xadimlərinə himayədarlıq etdi.*

3. Mesenat kitabxanalar yaradır, gənc yazarlar üçün yaradıcı mühit formalaşdırırdı. *Bu səbəbdən Avqustun hakimiyyət illəri latın ədəbiyyatının qızıl dövrü kimi tanındı.*

**İş dəftəri, səh. 56**

**c.** Mətnə əsasən sübut et ki, "mesenat" sözünün "xeyriyyəçi" mənası kəsb etməsi təsadüfi deyil.

Şagirdlərin cavabı təxminən belə ola bilər:

"Mesenat" sözü Romanın rəssamlarına və şairlərinə himayədarlıq edən dövlət xadimi Qay Silnius Mesenatın adından götürülmüşdür. Xeyriyyəçiliklə məşğul olduğu üçün, elm, təhsil və mədəniyyətə himayədarlıq etdiyi üçün onun adı "xeyriyyəçi" sözü kimi istifadə edilir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

Layihə

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq a, b, c, ç (dərslik), c (iş dəftəri) |
| Mətni dil-üslub xüsusiyyətlərinə görə təhlil edir. | Tapşırıq d (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq e (dərslik); a, b (iş dəftəri) |
| Mətnin tərkib hissələrini, struktur elementlərini onun əsas məzmunu ilə əlaqələndirir. | Tapşırıq ə (dərslik) |
| Mətndən əsas fikri müəyyənləşdirməyə kömək edən məqamları seçir. | Tapşırıq f (dərslik) |

# 2-ci DƏRS
## Sezar

**Təlim nəticələri:**
- Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.1).
- Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərin diqqətini mövzuya yönəltmək üçün sual verir:

– Sizcə, elm, təhsil və mədəniyyətə himayədarlıq edən və ona maliyyə dəstəyi verən xeyriyyəçiləri nə üçün "mesenat" adlandırırıq?

**Dinləmə**

**Dərslik, səh. 112**

a. Qeyd götürməklə "Sezar" mətnini dinləyin və suallara cavab verin.

**Müəllimin nəzərinə**! Mətndə şagirdlərin mənasını bilmədiyi bir neçə çətin söz və ifadələr var. Yaxşı olardı ki, mətni dinləmədən əvvəl belə sözlərin mənası şagirdlərə izah edilsin: siyasi lider, sui-qəsd, nüfuz

***Sezar***

*Miladdan öncə 100-cü ildə anadan olmuş Qay Yuli Sezar romalı hərbçi, siyasi lider və dünya tarixinin ən güclü şəxsiyyətlərindən biridir. Roma imperiyasının yaranmasında əsas rol oynamışdır.*

*Sezarla bağlı olan bir çox ifadələr tarixin yaddaşında qalıb. "Brut, sən də", "Püşk atılıb, geriyə yol yoxdur", "Gəldim, gördüm, qələbə çaldım" kimi ifadələr bu gün də zərbi-məsəl kimi bir çox dillərdə işlədilir. Lakin bu mətndə biz "Sezar" adının özü haqqında söhbət açacağıq.*

*E.ə. 44-cü ildə Yuli Sezar sui-qəsd nəticəsində öldürülür. Beləliklə, böyük əziyyətlə yaratdığı imperiyanın imperatoru olmaq ona qismət olmur. Sezar öldürüldükdən sonra bacısı nəvəsi Qay Oktavian hökmdar olur. Dayısına qarşı böyük sevgisi olan Qay Oktavian adını dəyişərək Qay Yuli Sezar Oktaviana çevrilir. O, Romanın ilk imperatoru olaraq Avqust adı ilə hökmranlıq edir.*

*Romanın sonrakı dörd imperatoru da Sezar adı ilə tanınırdılar. Sezar və Avqustun nüfuzları o qədər böyük idi ki, sonralar bir çox xalqlar "Sezar" adını ali hökmdar tituluna çevirdilər. Yəni "sezar" sözü "imperator" sözünün sinonimi kimi işlədilməyə başlandı.*

*Latın dilində bu söz "kizar" kimi tələffüz olunurdu. Germanlar bu tələffüzü qoruyub saxladılar və "kayzer" kimi yazmağa başladılar. Alman dilində "kayzer" "imperator" deməkdir.*

*Rusiya hökmdarları isə sözü bir az dəyişərək əvvəlcə "kesar"a, sonra isə "çar"a (царь) çevirdilər. İlk olaraq bu adı rəsmi şəkildə 1547-ci ildə IV İvan Qroznı götürdü.*

Layihə

Dərslik, səh. 112

**b.** Uyğunluğu müəyyən edin.

Cavab: 1 – ç, 2 – c, 3 – b, 4 – a, 5 – d.

Dərslik, səh. 112

**c.** "Mesenat" mətninə əsasən "mesenat" sözünün eponim olduğunu sübut edin.

**"Sözlərin izahı" rubrikası.** Tapşırığı yerinə yetirməzdən əvvəl bu rubrikada verilmiş "eponim" sözünün mənası şagirdlərə izah edilir.

Cavab: "Mesenat" sözü tarixi şəxsin adından (Qay Silnius Mesenat) yarandığı üçün eponimdir.

Dərslik, səh. 112

**ç.** Mətnə və aşağıdakı məlumatlara istinad edərək "sezar" sözünün eponim olduğunu əsaslandırın.

Cavab: "Sezar" sözü tarixi şəxsin adından (Qay Yuli Sezar) yarandığı üçün eponimdir.

Dərslik, səh. 112

**d.** Qruplara ayrılın. Aşağıdakı sözlərin mənşəyi haqqında araşdırma aparın. Bu sözlərdən yaranan eponimlər haqqında təqdimat edin.

**Müəllimin nəzərinə!** Sinfin texniki təchizatını nəzərə alaraq müəllim araşdırma tapşırığını şagirdlərə bir gün öncədən tapşıra bilər. Araşdırma aparan şagirdlər təqdimata hazırlaşırlar. Təqdimat materialının dizaynına xüsusi diqqət yetirirlər. Sinfin kompüter təchizatı imkan verərsə, təqdimatın slaydlar şəklində hazırlanması arzuolunandır.

İş dəftəri, səh. 57

**a.** Mətni oxu və suallara cavab ver.

Şagirdlər "Audi" avtomobil brendi haqqında mətni oxuyur, tapşırıqları yerinə yetirməklə mətnin məzmununu anladıqlarını nümayiş etdirirlər.

İş dəftəri, səh. 57

**b.** Mətni məzmuna uyğun başlıqla adlandır.

Şagirdlərin cavablarına aid nümunələr: "Audi" avtomobil brendi; Məşhur avtomobil brendi; Horç, yoxsa Audi?

İş dəftəri, səh. 57

**c.** Aşağıdakı sözün izahına əsasən "konstruktor" sözünün mənasını izah et.

Cavab: Konstruksiya düzəldən mütəxəssis.

İş dəftəri, səh. 57

**ç.** Mətndən uyğun cümlələri seçməklə "kompaniya" və "şirkət" sözlərinin sinonim olduğunu əsaslandır.

Cavab: "Horç & C" (Horç və kompaniyası) adlı avtomobil şirkəti açır. Bu cümlədə "kompaniya" və "şirkət" sözləri sinonim kimi istifadə edilib.

İş dəftəri, səh. 57

**d.** Mətndə verilmiş "audi" sözünün mənasından çıxış edərək aşağıdakı sözləri izah et.

Cavab: audiomətn – səsli mətn, yəni səsləndirilən, səslə ötürülən mətn.
audiokitab – səsli kitab, yəni səsləndirilən kitab.

İş dəftəri, səh. 57

**e.** Səncə, "Audi" markasının adını eponim adlandırmaq olarmı? Fikrini əsaslandır.

Layihə

Şagirdlərin cavabı təxminən belə ola bilər: Horç şirkətin yaradıcısının soyadıdır. Alman dilində "horç" və latın dilində "audi" sözlərinin hər ikisinin mənası eynidir. Buna görə də bu sözlər eponim hesab edilə bilər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq a, b (dərslik) |
| Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq c, ç (dərslik); c, ç, d, e (iş dəftəri) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq b (iş dəftəri) |
| Verbal və vizual məlumatlardan ibarət təqdimat materialı hazırlayır. | Tapşırıq d ( dərslik) |

# 3-cü DƏRS
## Əvəzliyin məna növləri

**Təlim nəticələri:**
- Əvəzliklərin semantik xüsusiyyətlərini müəyyən edir (st. 4.1.3).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 113**

**a.** Nöqtələrin yerinə uyğun şəxs əvəzlikləri əlavə edin. Seçiminizi əsaslandırın.

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini feillərdəki şəxs şəkilçilərinə yönəldir. Müəllim yönəldici suallar vasitəsilə hərəkətin hansı şəxs tərəfindən icra olunduğunu soruşur və şəxs əvəzliklərini xatırladır. Cavab:

1. Uşaqlar, ***mən*** oyunu diqqətlə izləyirdim.
2. **Siz** bu gün yaxşı məşq etdiniz.
3. **O**, şəhərin sakit küçələri ilə yavaş-yavaş addımlayırdı.
4. Xasiyyətləri müxtəlif olsa da, **onlar** uşaqlıqdan dost idilər.
5. **Biz** meşənin içi ilə maşın yolu qurtarana qədər getdik.
6. Deyəsən, **sən** idmanla məşğul olmağa başlamısan.

**Dərslik, səh. 113**

**b.** İkinci cümlədə işarə əvəzliyini seçib birinci cümlədəki hansı sözə işarə etdiyini müəyyən edin.

**"Xatırla" rubrikası.** Tapşırığı yerinə yetirmədən əvvəl şagirdlərin diqqəti "Xatırla" rubrikasında verilmiş işarə əvəzliklərinə yönəldilir.

Cavab:

1. ***Yağmurlu*** hava bizim də ürəyimizcə idi.
2. ***Belə*** havada balıq ovuna getməyin öz ləzzəti var.

1. Yunan alimi Aristotel ***Likeysk məbədi yaxınlığında*** məktəb yaratmışdı.
2. ***Həmin*** məktəb məbədin şərəfinə "Likey" adlanırdı.

**Dərslik, səh. 113**

**c.** Birinci cümlədəki fərqləndirilmiş sözü ikinci cümlədə hansı söz əvəz edir?

Cavab:

Layihə

1. **Qalib** komandaya mükafat təqdim edildi.
2. **Hansı** komandaya mükafat təqdim edildi?

**"Bunları bilməliyik" rubrikası.** Müəllim şagirdləri sual əvəzlikləri ilə tanış edir, rubrikadakı məlumatları şərh edir.

**Dərslik, səh. 113**

**ç.** Fərqləndirilmiş sözlərin əvəzinə sual əvəzliyi işlətməklə sual cümlələri yaradın.

Cavab:
1. Hansı ağac ətrafa kölgə salmışdı?
2. Kim bir çox türk xalqlarının ortaq qəhrəmanı sayılır?
3. Marağa rəsədxanasının tikintisinə neçənci ildə başlanılıb?
4. Nə vaxt yeni kitabın təqdimatı keçiriləcək?
5. Üç gündən sonra dostlar nə etdilər?
6. Uşaqlar müəllimlə salamlaşıb hara keçdilər?

**Dərslik, səh. 113**

**d.** Hansı cümlədə dəqiq bilinməyən, yəni qeyri-müəyyən şəxs haqqında danışılır?

Cavab: b. Kimsə ağacda quşlar üçün evcik qurub.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim şagirdləri qeyri-müəyyən əvəzliklər ilə tanış edir, rubrikadakı məlumatları şərh edir.

**Dərslik, səh. 114**

**e.** Nöqtələrin yerinə qeyri-müəyyən əvəzlik artırmaqla cümlələri tamamlayın.

1. ***Heç kim*** oyunun son dəqiqələrində qol vuracağımıza inanmırdı.
2. Deyəsən, bu il bağçada ***heç nə*** əkməmisiniz?
3. Ata, qapıda ***kimsə*** səni gözləyir.
4. ***Hər şey*** planlaşdırdığımız kimi baş verirdi.
5. Doğru elə bilər ***hamı*** doğrudur.
6. Sabah ***bəzi*** dağətəyi rayonlara qar yağacaq.

**Dərslik, səh. 114**

**ə.** Fərqləndirilmiş əvəzliklərdən biri *hansı?* sualına cavab verir:

Cavab: b. Hər ağacın altında bir skamya qoyulmuşdu.

**"Bunları bilməliyik" rubrikası.** Müəllim şagirdləri təyini əvəzliklər ilə tanış edir, rubrikadakı məlumatları şərh edir.

**Dərslik, səh. 114**

**f.** Hansı cümlələrdə təyini əvəzlik işlənmişdir? Həmin əvəzliklərin iştirakı ilə yeni cümlələr qurun.

1. Filan kəndin, filan küçəsində belə bir bulaq var.
2. Hər insanın öz xasiyyəti var.
3. Hava şəraitinə görə bütün uçuşlar təxirə salınmışdı.

**Dərslik, səh. 114**

**g.** Əvəzliyin məna növlərinə əsasən fərqli sözü müəyyən edin.

1-ci sırada "həmin" işarə əvəzliyi, digərləri isə şəxs əvəzliyidir.
2-ci sırada "hərə" qeyri-müəyyən, digərləri isə işarə əvəzliyidir.
3-cü sırada "öz" təyini, digərləri isə qeyri-müəyyən əvəzliklərdir.
İş dəftərində verilmiş tapşırıqlar şagirdlərin aldıqları biliklərin möhkəmləndirilməsinə yönəldilib.

**İş dəftəri, səh. 58**

Layihə

**a.** Fərqləndirilmiş əvəzliklərin əvəz etdiyi sözlərin altından xətt çək.

Cavab:
1. Bir zamanlar kiçik bir kənddə ***iki qardaş*** yaşayırdı.
***Onların*** böyük bir tarlası var idi.
2. ***Cavid, İnci və mən*** xeyriyyə aksiyasında iştirak etdik.
***Biz*** rəsm əsərlərimizin satışından əldə etdiyimiz gəliri talassemiya xəstəliyindən əziyyət çəkən uşaqların müalicəsi üçün ianə etdik.
3. ***Cəfərlə sən*** ağacəkmə aksiyasında iştirak edəcəksiniz.
Çox şadam ki, ***siz*** məktəbimizi təmsil edəcəksiniz.
**İş dəftəri, səh. 58**

**b.** Hansı cümlədə işarə əvəzliyi işlənmişdir?

Cavab: e. Belə adama güvənmək mümkün deyil.
**İş dəftəri, səh. 58**

**c.** Hansı cümlədə “o” işarə əvəzliyidir?

Cavab: a. O günləri xatırladıqca qürurlanıram.
**İş dəftəri, səh. 58**

**ç.** Sual əvəzliklərinin iştirakı ilə sual cümlələri qurub yaz.

Şagirdlərin cavabı müxtəlif ola bilər.
**İş dəftəri, səh. 58**

**d.** Aşağıdakı cümlədə əvəzliklərin hansı məna növləri iştirak edib?

Cavab: c. şəxs, sual, qeyri-müəyyən
**İş dəftəri, səh. 58**

**e.** Hansı cümlədə fərqləndirilmiş sözü “heç kim” sözü ilə əvəz etmək olar?

Cavab: 2. Mənə kimsə bu barədə bir söz deməsin.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əvəzliklərin semantik xüsusiyyətlərini müəyyən edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

# 2-ci fəsil
# HÖKMDARLAR VƏ ALİMLƏR

## 1-ci DƏRS
## Hülakü xan və Nəsirəddin Tusi

**Təlim nəticələri:**
- Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Bədii mətndəki obrazlara, onların davranışına münasibət bildirir (st. 3.1.4).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 115**

**a.** Sizcə, ölkənin elm, mədəniyyət mərkəzinə çevrilməsində dövlət adamlarının rolu nədədir?

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəldir, onları mövzu ətrafında danışmaq üçün istiqamətləndirir.

**Mətnlə iş.** Şagirdlər "Hülakü xan və Nəsirəddin Tusi" mətnini səssiz oxuyurlar. Mətndə bəzi ifadələr fərqləndirilmişdir. Oxudan əvvəl şagirdlərə xəbərdarlıq edilir ki, həmin ifadələrin kontekstdəki mənalarına diqqət etsinlər. Oxudan sonra "Söz mücrüsü"ndəki sözlərin mənası müzakirə edilir.

**Söz ehtiyatı**

**Dərslik, səh. 116**

**b.** "Söz mücrüsü"ndən aşağıdakı izahlara uyğun sözləri seçin.

Cavab: 1 – rəsədxana, 2 – xarabazar, 3 – abadlaşdırmaq, 4 – icarə.

**Dərslik, səh. 116**

**c.** Aşağıdakı cümləni oxuyun. "Ocaq" sözünün hansı mənada işləndiyini müəyyən edin. Bu sözü digər mənalarında cümlədə işlədin.

Cavab: c. mərkəz, adamların toplaşdığı yer

**Dərslik, səh. 116**

**ç.** Mətndə fərqləndirilmiş "inşa" sözünün hansı mənada işləndiyini müəyyən edin.

Cavab: b. yaratma, qurma, tikmə

**Dərslik, səh. 116**

**d.** "Ensiklopedik biliklər" ifadəsinin mənasını izah edin.

Cavab: Bütün elm və fəaliyyət sahələrinə dair, yaxud bir sahə, ölkə və şəxsiyyətlə bağlı hərtərəfli biliklər.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 116**

**e.** Fikirlərdən birini Hülakü xana aid etmək olmaz:

Cavab: d. Mükəmməl təhsil ala bilməyib.

Layihə

**İş dəftəri, səh. 59**

**a.** Mətnə əsasən uyğunluğu müəyyən et.

Cavab: 1 – c, 2 – d, 3 – b, 4 – a, 5 – ç.

**İş dəftəri, səh. 59**

**b.** Mətnə əsasən cümlələri tamamla.

Cavab:

1. Hülakü xanın adı tarixə elmin, mədəniyyətin himayədarı kimi düşüb, çünki bu sahələrin inkişafı üçün bir çox işlər görmüş, himayədarlıq etmişdi.
2. Hülakü xan məşhur alim Nəsirəddin Tusini şəxsi məsləhətçisi təyin etmişdi, çünki başa düşürdü ki, bir dövləti yalnız ordunun gücünə arxalanmaqla deyil, eyni zamanda elm və mədəniyyətin inkişafı ilə qoruyub-saxlamaq və gücləndirmək mümkündür.
3. Hülakü xan Marağanı elm və mədəniyyət mərkəzinə çevirmək qərarına gəldi, ona görə də dünyanın bir çox ölkələrindən sənətkar ailələri, elm adamları Marağaya dəvət edildi. Bundan başqa, Hülakü xan ələ keçirdiyi bir çox şəhərlərin məşhur kitabxanalarını paytaxta köçürtdü.

**İş dəftəri, səh. 59**

**c.** Mətndəki faktlardan istifadə edərək aşağıdakı fikri əsaslandır.
***Ölkənin elm, mədəniyyət mərkəzinə çevrilməsində dövlət adamlarının rolu böyükdür.***

Şagirdlərin cavabı təxminən belə ola bilər:

Ölkənin elm, mədəniyyət mərkəzinə çevrilməsində dövlət adamlarının rolu böyükdür. Dövlət rəhbərləri bilikli, savadlı, müdrik insanları ətrafına toplamaqla ölkəni abadlaşdıra bilər. Məsələn, Hülakü xan Marağa şəhərini tutduqdan sonra dövrünün ensiklopedik alimi Nəsirəddin Tusini dövlət işlərinə cəlb etmişdi. Məhz bu alimin məsləhəti ilə Marağada Şərqin ilk rəsədxanasını inşa etdirdi. Marağanı elm və mədəniyyət mərkəzinə çevirdi. Hülakü xanın himayəsi altında Nəsirəddin Tusinin yaratdığı Marağa rəsədxanası dünya elminin inkişafında əvəzsiz rol oynamışdır. Təsadüfi deyil ki, Hülakü xanın adı tarixə elmin, mədəniyyətin himayədarı kimi düşüb.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq b, c, ç, d (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq e (dərslik); a, b (iş dəftəri) |
| Bədii mətndəki obrazlara, onların davranışına münasibət bildirir. | Tapşırıq c (iş dəftəri) |

Layihə

# 2-ci DƏRS
# Hülakü xan və Nəsirəddin Tusi

**Təlim nəticələri:**
• Aldığı məlumatları sadə formada şərh edir və genişləndirir (st. 2.1.3).
• Faktlardan istifadə etməklə mətndə açıq şəkildə ifadə olunmayan məlumatı müəyyən edir (st. 3.1.4).
• Mətndəki faktların fikri necə dəstəklədiyini müəyyənləşdirir (st. 3.1.5).

**Mövzuya yönəltmə**

**Danışma**

Müəllim keçən dərsdə oxunmuş "Hülakü xan və Nəsirəddin Tusi" mətninə aid frontal sorğu keçirir. Frontal sorğu üçün sual nümunələri:

1. Hülakü xan və Nəsirəddin Tusi kim idilər?
2. "Hülakü xan və Nəsirəddin Tusi" mətnində bu tarixi şəxslərin hansı xüsusiyyətləri açılır?
3. Marağa rəsədxanası haqqında nə öyrəndiniz?

**Dərslik, səh. 117**

**a.** Marağa şəhərinin dünyanın ən adlı-sanlı elm ocağına çevrilməsində Hülakü xanın rolu haqqında danışın. Mətnə istinad edərək aşağıdakı fikirləri şərh edin.

Tapşırıq şagirdlərin şərh edərək mətni genişləndirmək bacarığını inkişaf etdirir. Şagirdlər mətndən müvafiq hissələrə istinad edərək məlumatları şərh edir, sinfə çatdırırlar.

Cavablar təxminən belə ola bilər:

• **Hülakü xanın güclü dövlət haqqında düşüncələri;**

Hülakü xan monqol hökmdarı Çingiz xanın nəvəsi idi. O, yaxşı təhsil almış, güclü sərkərdə idi. Lakin Hülakü xan yaxşı başa düşürdü ki, bir dövləti qoruyub-saxlamaq və gücləndirmək üçün yalnız ordunun gücünə arxalanmaq olmaz. Yəni insanları qorxu gücünə idarə etmək çətindir. Elm, incəsənət, mədəniyyəti inkişaf etdirməklə güclü dövlət qurmaq daha asandır. Bu müdrik insan işğal etdiyi yerləri xarabazarlığa çevirməkdənsə, abadlaşdırmağa önəm verirdi.

• **Elm və mədəniyyətə dəyər verməsi;**

Hülakü xan Marağanı öz dövrünün elm və mədəniyyət mərkəzinə çevirmişdi. Onun əmri ilə dünyanın bir çox ölkələrindən sənətkar ailələri, elm adamları Marağaya dəvət edilmişdi. Dövrünün alimlərindən Nəsrəddin Tusini dövlət işlərinə cəlb etmişdi. Hülakü xan tutduğu bir çox şəhərlərin məşhur kitabxanalarını paytaxta köçürtmüşdü. Bununla da, bir çox alimlərin diqqətini Marağaya yönəltmişdi, onların fəaliyyət göstərməsi üçün əlverişli şərait yaratmışdı.

• **Xalqın maarifləndirilməsinə yönələn fəaliyyəti;**

Hülakü xan xalqın savadlanması, təhsil alması üçün şərait yaratmışdır. Məsələn, onun göstərişi ilə Marağa şəhərində Şərqin ilk rəsədxanası qurulmuşdu. Bu işə Nəsirəddin Tusi rəhbərlik etmişdi. Rəsədxana qısa vaxtda böyük bir elm ocağına çevrilmişdi. Burada astronomiya ilə yanaşı, tibb, kimya, riyaziyyat, həndəsə və s. sahələrə aid tədqiqatlar aparılırdı. Rəsədxanada kitabxana və məktəb də fəaliyyət göstərirdi. Rəsədxananın zəngin kitabxanası var idi.

**Dərslik, səh. 117**

**b.** Mətndəki məlumatlardan istifadə etməklə hansı suallara cavab tapmaq mümkündür?

Cavab: 3. Marağa rəsədxanası neçə ilə tikildi?

Mətndə Marağa rəsədxanasının tikintisinin neçə il çəkdiyi açıq şəkildə ifadə olunmamışdır. Lakin şagirdlər mətndəki faktlardan istifadə etməklə bu məlumatı müəyyənləşdirə bilərlər.

Rəsədxananın inşasına 1259-cu ildə başlanılmışdı. Tikinti 1270-ci ildə başa çatmışdı.

1270 – 1259 = 11 (il)

4. Abaqa xan neçənci ildə hakimiyyətə gəldi?

Ləyihə

Mətndə Hülakü xanın 1265-ci ildə vəfat etdiyi və Abaqa xanın onun ölümündən sonra taxta çıxdığı qeyd olunur. Deməli, Abaqa xan 1265-ci ildə hakimiyyətə gəlib.

**Dərslik, səh. 117**

c. Mətndə təsvir edilmiş hadisələrin fakt, yoxsa fikir olduğunu müəyyən edin.

**"Yadda saxla" rubrikası.** Tapşırığı etmədən əvvəl şagirdlərin diqqəti "Yadda saxla" rubrikasına yönəldilir. Rubrikadakı məlumatlar tapşırığın asanlıqla həll edilməsinə kömək edir.

Cavab: 1, 2-ci cümlələr fikir, 3, 4, 5-ci cümlələr faktdır.

**Dərslik, səh. 117**

ç. Arxeoloji qazıntıların nəticələri Marağa rəsədxanası haqqında hansı məlumatları təsdiq edir?

Cavab: Tapşırıqda verilmiş nəticələr, həqiqətən də, Marağa rəsədxanasının mövcud olduğunu, həmin ərazidə təkcə rəsədxana yox, məktəb və kitabxana üçün də binalar olduğunu göstərir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Aldığı məlumatları sadə formada şərh edir və genişləndirir. | Tapşırıq a (dərslik) |
| Faktlardan istifadə etməklə mətndə açıq şəkildə ifadə olunmayan məlumatı müəyyən edir. | Tapşırıq b (dərslik) |
| Mətndəki faktların fikri necə dəstəklədiyini müəyyənləşdirir. | Tapşırıq c, ç (dərslik) |

# 3-cü DƏRS
# İsmi və feili birləşmələr

**Təlim nəticələri:**

• Söz birləşmələrinin konstruksiyasını və semantik xüsusiyyətlərini izah edir (st. 4.1.3).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 118**

a. Söz birləşmələrinin əsas və asılı tərəfini müəyyənləşdirin. Əsas tərəfin hansı nitq hissəsinə aid olduğunu müəyyən edin.

Tapşırıq motivasiya xarakterlidir və şagirdlərin diqqətini mövzuya yönəldir. Şagirdlər aşağı siniflərdə söz birləşmələrinin tərəfləri (əsas və asılı) haqqında məlumat alıblar. Bu məlumatlara əsasən tapşırığı yerinə yetirirlər.

Cavab:

1. həyatı *sevən* (feil)
2. maraqlı *fikir* (isim)
3. yağışın *səsi* (isim)
4. dostun *köhnəsi* (sifət)
5. şagirdlərin *ikisi* (say)
6. dağa *qalxmaq* (feil)
7. uşaqların *hamısı* (əvəzlik)
8. körpüdən *keçəndə* (feil)
9. uşaq *böyüdükcə* (feil)

**"Bunları bilməliyik" rubrikası.** Müəllim rubrikada verilmiş məlumatları və nümunələri şərh edir.

Layihə

**Dərslik, səh. 118**

**b.** Söz birləşmələrini növlərinə görə qruplaşdırın. Hər birinə iki nümunə əlavə edin.

Cavab: **İsmi birləşmələr:** təbiətin möcüzəsi, tarixin qızıl səhifəsi, sənət əsəri, qəzetlərin çoxu, subtropik iqlim

**Feili birləşmələr:** nağıl danışanda, vətənə xidmət etmək, geri dönmədən, sözünü deyən

**Dərslik, səh. 118**

**c.** Uyğunluğu müəyyən edin.

Cavab: 1 – b, 2 – ç, 3 – d, 4 – e, 5 – c, 6 – a.

**Dərslik, səh. 118**

**ç.** Verilmiş sözlərə təsriflənməyən feillər artırmaqla feili birləşmələr düzəldin.

Cavab:
məsələni həll etmək, məsələni həll edəndə, məsələni həll edən;
axşam gəlmək, axşam gələndə, axşam gələn;
sevinclə gülmək, sevinclə güləndə, sevinclə gülən;
bağçada gəzmək, bağçada gəzəndə, bağçada gəzən.

**Dərslik, səh. 118**

**d.** Verilmiş sözləri həm əsas, həm də asılı tərəf kimi işlətməklə ismi və feili birləşmə yaradın.

Cavab:
gəzmək arzusu, bağda gəzmək
təəccüblənən uşaq, hər şeyə təəccüblənən
yazılmış məktublar, dünəndən yazılmış

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin ismi və feili birləşmələr haqqında biliklərinin tətbiqinə və möhkəmləndirilməsinə yönəldilib.

**İş dəftəri, səh. 60**

**a.** Feili birləşməni seç.

Cavab: e. rəsədxana qurmaq

**İş dəftəri, səh. 60**

**b.** Hansı birləşmənin əsas tərəfi sifətlə ifadə olunub?

Cavab: a. qışın soyuğu

**İş dəftəri, səh. 60**

**c.** Söz birləşmələrinin tərəfləri hansı nitq hissəsi ilə ifadə olunub?

Cavab:
1. geri çəkilmək (zərf+feil)
2. şirin dil (sifət+isim)
3. həmin gün (əvəzlik+isim)
4. dibçəklərin bir neçəsi (isim+say)
5. elm adamları (isim+isim)

**İş dəftəri, səh. 60**

**ç.** Nöqtələrin yerinə uyğun gələn feili birləşmələri müəyyən et.

Cavab:
1. Hər parıldayan qızıl deyil.
2. Zəhməti sevən işdən qorxmaz.

Layihə

3. Halva-halva deməklə ağız şirin olmaz.

**İş dəftəri, səh. 60**

**d.** Aşağıdakı sözlərin iştirakı ilə üç ismi, üç feili birləşmə yarat və cümlədə işlət.

Cavab:
İsmi birləşmələr: mədəniyyət ocağı, tarixi abidə, əvəzolunmaz sənətkar
Feili birləşmələr: paytaxtı köçürmək, tarixi araşdırmaq, şəhəri abadlaşdırmaq

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz birləşmələrinin konstruksiyasını və semantik xüsusiyyətlərini izah edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

# 3-cü fəsil
# AZƏRBAYCANLI MESENAT

## 1-ci DƏRS
## Hacı Zeynalabdin Tağıyev

**Təlim nəticələri:**
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Mətndəki faktları aid olduğu fikirlər üzrə qruplaşdırır (st. 3.1.5).
- Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 119**

**a.** Sizcə, təhsil ocaqlarının, teatr binalarının tikilməsinin cəmiyyətin inkişafında hansı rolu var?

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəldir.

**Mətn üzrə iş**

Şagirdlər mətni səssiz oxuyur, əsas məlumatları müəyyən edirlər.

**Söz ehtiyatı**

Mətn oxunduqdan sonra, ilk növbədə, söz ehtiyatı üzərində iş aparılır. “Söz mücrüsü”ndəki və şagirdlərin mənasını anlamadıqları digər sözlər izah edilir.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 121**

**b.** Mətndə hansı suallara cavab yoxdur?

Cavab: 1, 4

**Dərslik, səh. 121**

**c.** Doğru, yoxsa yanlış?

Cavab: 1 – Y, 2 – D, 3 – D, 4 – Y, 5 – Y.

**Dərslik, səh. 121**

**ç.** Mətndə Tağıyev haqqında:
- hansı məlumatlar öz əksini tapmayıb?
- hansı məlumata daha geniş yer verilib?

Cavab: • **hansı məlumatlar öz əksini tapmayıb?**
Hacı Zeynalabdin Tağıyevin uşaqları
• **hansı məlumata daha geniş yer verilib?**
Tağıyevin təhsil sahəsində xeyriyyəçiliyi

**İş dəftəri, səh. 61**

**a.** “Hacı Zeynalabdin Tağıyev” mətni haqqında yaddaş xəritəsi hazırla.

Şagirdlər yaddaş xəritəsi hazırlamaqla “Hacı Zeynalabdin Tağıyev” haqqında mətnin məzmununu anladıqlarını nümayiş etdirirlər.

Layihə

**İş dəftəri, səh. 61**

**b.** Öyrəndiyin məlumatlara istinad edərək Hacı Zeynalabdin Tağıyevin cəmiyyətin inkişafında rolunu izah et.

Şagirdlərin yazısı təxminən bu məzmunda ola bilər:

Cəmiyyətin inkişafında təhsil və mədəniyyət böyük rol oynayır. Məktəb elm, teatr isə mədəniyyət ocağıdır.

Hacı Zeynalabdin Tağıyev təhsilin və mədəniyyətin inkişafına himayədarlıq edən şəxs olub. Təsadüfi deyil ki, o, Azərbaycan xalqının ən böyük mesenatıdır. Hacı Zeynalabdin Tağıyev, ilk növbədə, azərbaycanlı qızların təhsil almasına can atırdı. Çünki o bilirdi ki, bir qıza təhsil verməklə təhsilli bir ailə qazanmış oluruq. Beləliklə, qızlar məktəbini açmaqla o, Azərbaycan təhsilinin inkişafında mühüm rol oynamışdı.

O, Bakıdakı ilk orta-texniki məktəbin himayəçisi olmuş, Mərdəkanda bağçılıq məktəbi açmış, Bakı Dövlət Universitetinin yaradılması üçün xeyli miqdarda vəsait ödəmişdi. Tağıyev Azərbaycanın istedadlı gənclərini xarici universitetlərə oxumağa göndərir, xalqın maariflənməsi üçün qəzetlərə, nəşriyyatlara yardım göstərirdi.

Bakı şəhərində ilk teatr binasını da 1883-cü ildə Hacı Zeynalabdin Tağıyev tikdirib. O dövrdə Tağıyevin Teatrı şəhərdə yeganə teatr binası idi. Əgər bu teatr olmasaydı, bəlkə də, Azərbaycanda teatr və opera sənəti bu qədər inkişaf etməzdi.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq b, c, ç, d (dərslik); a, b (iş dəftəri) |
| Mətndəki faktları aid olduğu fikirlər üzrə qruplaşdırır. | Tapşırıq a (iş dəftəri) |
| Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir. | Tapşırıq b (iş dəftəri) |

# 2-ci DƏRS
# Hacı Zeynalabdin Tağıyev

**Təlim nəticələri:**
- Mətnin tərkib hissələrini, struktur elementlərini (illüstrasiya) onun əsas məzmunu ilə əlaqələndirir (st. 3.1.5).
- Faktlardan istifadə etməklə mətndə açıq şəkildə ifadə olunmayan məlumatı müəyyən edir (st. 3.1.4).
- Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır (st. 4.1.1).

**Mövzuya yönəltmə**

**Danışma**

Müəllim keçən dərsdə oxunmuş "Hacı Zeynalabdin Tağıyev" mətninə aid frontal sorğu keçirir. Frontal sorğu üçün sual nümunələri:

Zeynalabdin Tağıyev kimdir?

Nə üçün Zeynalabdin Tağıyevi "mesenat" adlandırırlar?

Tağıyev təhsil və mədəniyyətin inkişafı üçün hansı işləri görüb?

**Dərslik, səh. 121**

Layihə

**a.** Şəkilaltı izahlardan hansı əlavə məlumatları öyrəndiniz? Həmin məlumatlarla mətnin hansı abzaslarını genişləndirmək olar?

Müəllimə şagirdlərin diqqətini 119 və 120-ci səhifədəki şəkillərə yönəltmək tövsiyə edilir. Şagirdlər şəkilaltı informasiya ilə tanış olurlar. Müəllim aşağıdakı məlumatları şərh edərək şəkilaltı informasiyanın funksiyasını şagirdlərə izah edə bilər:

Məlumatların fərqli şəkildə təqdim edilməsi üçün bir çox cəlbedici yollar var. Bunlardan biri də şəkilaltı informasiyadır. Bəzən əsas mətnləri yükləməmək üçün əsas, konkret faktların bəziləri şəkilaltı məlumat kimi təqdim edilir. Şəkilaltı məlumatlar əsas faktları gözoxşayan və ilk baxışdan diqqəti cəlb edən tərzdə çatdırmaq üçün böyük imkan yaradır, buradakı vacib materialları açır, vurğulayır, hadisənin təfərrüatlarının göstərilməsinə kömək edir.

<u>Cavab</u>: Mətndəki şəkilaltı informasiyadan mətnin səkkizinci abzasında, yəni qızlar məktəbinin fəaliyyəti haqqında danışarkən istifadə etmək olar.

**Dərslik, səh. 121**

**b.** Aşağıdakı məlumatı oxuyun. Bu faktı mətnin 2-ci abzasında verilmiş məlumatla müqayisə edərək H.Z.Tağıyevin doğum tarixi haqqında fikir yürüdün.

*1900-cü ilin sentyabrında Tağıyevin əmək fəaliyyətinin 50 illiyi tamam olur və bu münasibətlə Nəriman Nərimanov onun haqqında kiçik bir kitab yazır.*

Mətnin ikinci abzasında deyilir ki, Zeynalabdin hələ 12 yaşında ikən ailəsinə kömək məqsədilə tikintidə fəhləlik edib. Əgər 1900-cü il onun əmək fəaliyyətinin 50 illik yubileyidirsə, deməli, o, 1838-ci ildə anadan olmuşdur.

**Dərslik, səh. 122**

**c.** Sizcə, nə üçün mətnin müəllifi Tağıyevin doğum tarixi haqqında məlumat vermir? Müsəllim Həsənovun Tağıyev haqqında kitabından aşağıdakı parçaları oxuyun və bunun səbəbini izah edin.

**Müəllimin nəzərinə!** Bəzən tarixi şəxsiyyətlər haqqında ziddiyyətli məlumatlarla rastlaşırıq. Tapşırığın məqsədi şagirdlərin diqqətini belə məqamlara yönəltmək, diqqətli oxucu formalaşdırmaqdır. Məlumatları cədvəl üzrə qruplaşdırmaqla tapşırıq daha dərindən mənimsədilə bilər. Tapşırığa "b" tapşırığını xatırlamaqla başlamaq tövsiyə edilir. Müəllim şagirdlərə istiqamətləndirici sual verməklə onları bu haqda düşündürür:

"b" tapşırığını yerinə yetirməklə Hacı Zeynalabdin Tağıyevin doğum tarixini müəyyənləşdirdik. H.Z.Tağıyev neçənci ildə anadan olub? Biz bunu hansı fakta əsasən müəyyənləşdirdik?

Daha sonra "c" tapşırığındakı məlumatlara nəzər salınır:

| Mənbə | Faktlar | Doğum tarixi |
|---|---|---|
| Nəriman Nərimanovun H.Z.Tağıyev haqqında yazdığı kitab | • 1900-cü ilin sentyabrında Tağıyevin əmək fəaliyyətinin 50 illiyi olur.<br>• Tağıyev 12 yaşında əmək fəaliyyətinə başlayıb. | Deməli, Tağıyev 1838-ci ildə anadan olub. |
| "Bakinski raboçi" qəzetinin 1924-cü il 3 sentyabr nömrəsi | • 1924-cü il 1 sentyabr H.Z.Tağıyev 105 yaşında vəfat edib. | Deməli, Tağıyev 1819-cu ildə anadan olub. |
| Nəriman Nərimanovun H.Z.Tağıyev haqqında yazdığı kitab | • Hacı Zeynalabdin Tağıyev 1838-ci ildə Bakıda anadan olub. | Deməli, Tağıyev 1838-ci ildə anadan olub. |
| Tağıyev haqqında arxiv sənədi | • 1912-ci ildə Tağıyevin 74 yaşı olduğu göstərilir. | Deməli, Tağıyev 1838-ci ildə anadan olub. |

Layihə

| | | |
|---|---|---|
| Qızı Leylanın doğum şəhadətnaməsi | • Hacının 1898-ci ildə doğulan qızı Leylanın doğum şəhadətnaməsində uşağın atasının, yəni H.Z.Tağıyevin 56 yaşı olduğu göstərilir. | Deməli, Tağıyev 1842-ci ildə anadan olub. |
| Tağıyevin doğum şəhadətnaməsi | • 1899-cu ildə Zaqafqaziya Ruhani İdarəsindən Tağıyevə doğum şəhadətnaməsi verilib. • Sənəddə qeyd olunub ki, Hacı Zeynalabdin Tağıyev ... 1823-cü ildə doğulub. | Deməli, Tağıyev 1823-cü ildə anadan olub. |

**Əlavə sual:** Sənədlərə əsasən Tağıyevin doğum tarixi haqqında neçə versiya ortaya çıxır? Həmin versiyaları sadalayın və inandırıcı görünəni əsaslandırın.

Cavab: Sənədlərə əsasən Tağıyevin doğum tarixi haqqında 4 versiya ortaya çıxır. Daha sonra şagirdlər məlumatların mənbələrini nəzərə alaraq hansı versiyanın daha inandırıcı olduğunu əsaslandıra bilərlər. Məsələn, "1899-cu ildə Zaqafqaziya Ruhani İdarəsindən Tağıyevə verilən doğum şəhadətnaməsi rəsmi sənəd olduğu üçün buradakı tarixlər daha etibarlıdır", – deyə şagirdlər fikirlərini əsaslandıra bilərlər.

**Yazı**

**Dərslik, səh. 122**

**ç.** Məlumat vərəqində yazılanları rabitəli mətn şəklində təqdim edin. Məlumatlara istinad edərək Hacı Zeynalabdin Tağıyevin fikrini şərh edin.

**Müəllimin nəzərinə!** Mətnin məzmunu ilə yanaşı, strukturunun düzgün qurulmasına diqqət edilməlidir. Şagirdləri istiqamətləndirmək üçün onlara plan təqdim edilə bilər:

- Nazlı xanım Tahirova ilə tanışlıq
- Tağıyevin Qızlar məktəbinin məzunu
- Fəaliyyəti
- Mükafatları

Şagirdlər təxminən bu məzmunda mətn qura bilərlər:

***Nazlı xanım Tahirova***

*1890-cı ildə Naxçıvanda anadan olan Nazlı xanım qızların maariflənməsində böyük rol oynayan şəxsiyyətlərdəndir.*

*Nazlı Tahirova Tağıyevin Qızlar məktəbinin ilk şagirdlərindən olmuşdur. O bu məktəbdə müxtəlif müəllimlərdən 1901–1907-ci illərdə dərs almışdır. Seminariyanın məzunlarına H.Z.Tağıyev "Quran" kitabını avtoqrafla bağışlayırdı. Həmin xatirə kitabını Nazlı xanımın nəvələri bu gün də qoruyub saxlayırlar.*

*Məktəbi bitirdikdən sonra – 1909-cu ildən ömrünün sonuna qədər fəaliyyət göstərmişdir. O, fəaliyyəti dövründə qızlar üçün bir çox təhsil və mədəniyyət qurumlarını təsis etmişdi. Məsələn, 1912-ci ildə Naxçıvan şəhərində qızlar üçün məktəb, 1921-ci ildə Naxçıvanda ilk özfəaliyyət Qızlar teatrı yaratmışdır.*

*Azərbaycanın məşhur xeyriyyəçisi, mesenatı olan Hacı Zeynalabdin Tağıyevin dediyi kimi: "Bir oğlana təhsil verməklə təhsilli bir insan, bir qıza təhsil verməklə təhsilli bir ailə qazanmış oluruq". Həqiqətən də, Tağıyev Qızlar məktəbində təhsil alan Azərbaycan qızları özlərindən sonra gələn nəsillərin də təhsilli, savadlı olması üçün əllərindən gələni ediblər.*

*Nazlı xanıma fəaliyyətinə görə bir çox mükafatlar verilib. Onlardan biri də "Əməkdar məktəb müəllimi" fəxri adıdır.*

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Mətnin tərkib hissələrini, struktur elementlərini (illüstrasiya) onun əsas məzmunu ilə əlaqələndirir. | Tapşırıq a (dərslik) |

Laylinə

| | |
|---|---|
| Faktlardan istifadə etməklə mətndə açıq şəkildə ifadə olunmayan məlumatı müəyyən edir. | Tapşırıq b, c (dərslik) |
| Verilmiş informasiyalardan istifadə etməklə rabitəli mətn yazır. | Tapşırıq ç (dərslik) |

# 3-cü DƏRS
## Tağıyevin dolayı xeyriyyəçiliyi

**Təlim nəticələri:**
• Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
• Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.1).
• Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).
• Mətndə ifadə olunmuş fikirlə bağlı mülahizəsini bildirir və onu əsaslandırır (st. 3.1.4).

**Mövzuya yönəltmə**
**Dərslik, səh. 123**

**a.** "Mif" sözünün mənaları ilə tanış olun. Həqiqi və məcazi mənada cümlədə işlədin.

Tapşırıq şagirdlərin diqqətini "mif" sözünə yönəldir.
mif (yun. *mythos* – söz, nağıl, rəvayət)
1. Yunan mifologiyasında əfsanəvi qəhrəmanlar haqqında maraqlı miflər var.
2. Şaxta baba haqqında bir sıra miflər danışılır.

**Dərslik, səh. 123**

**b.** Mətnlərdə tanış olduğunuz məlumatların mif, yoxsa həqiqət olduğunu necə müəyyən edirsiniz?

**Müəllimin nəzərinə!** Tapşırığı asanlıqla yerinə yetirmək üçün şagirdlərin diqqətini 117-ci səhifədəki məlumata yönəltmək tövsiyə edilir:
Tarixi şəxsiyyət və hadisələrlə bağlı obyektiv və subyektiv fikirlər ola bilər. Həmin məlumatların həqiqiliyini yoxlamaq üçün tarixi mənbələrə istinad etmək vacibdir. Tarixi mənbələr dedikdə aşağıdakılar nəzərdə tutulur:
• tarixi abidələr
• arxeoloji qazıntılar
• həmin dövrə aid sənədlər
• müasirlərin hadisə ilə bağlı yazılı qeyd və xatirələri
Tarixi mənbələr arqumentləri təsdiqləyən faktlardır.

**• Bu fasildə Tağıyevin Qızlar məktəbi haqqında aldığınız məlumatlar sizə inandırıcı göründümü? Fikrinizi əsaslandırın.**

<u>Şagirdlərin cavabı təxminən belə ola bilər</u>: Tağıyevin Qızlar məktəbi haqqında məlumatların dəqiqliyini bu məktəb haqqında arxiv sənədlərlə yoxlamaq olar. Eyni zamanda müasirlərinin H.Z.Tağıyev haqqında xatirələrinə əsasən də məlumatların həqiqiliyini anlamaq olur.

**• Mətndə deyilir ki, Tağıyev ölkədə aclıq təhlükəsinin qarşısını almaq üçün tədbirlər görürdü. Müəllif bu məlumatı necə əsaslandırsaydı, həqiqət olduğuna inanardınız?**

<u>Şagirdlərin cavabı təxminən belə ola bilər</u>: Həmin dövrə aid qəzetlərdə bu haqda məqalələr yazılsaydı, bununla bağlı sənədlər olsaydı, bu məlumatların həqiqət olduğuna inanardım.

**"Yadda saxla" rubrikası.** Müəllim rubrikadakı məlumatları şərh edir, fikir və fakt anlayışlarının fərqini "Hacı Zeynalabdin Tağıyev" mətninin nümunəsində izah edir.

**Dinləmə**
**Dərslik, səh. 123**

Layihə

**c.** "Tağıyevin dolayı xeyriyyəçiliyi" mətnini dinləyin. Mətndə verilmiş fikir və faktları müəyyənləşdirin.

**Müəllimin nəzərinə!** Mətndə bir sıra çətin söz və ifadələr işlənib. Əvvəlcə həmin sözləri lövhədə qeyd edib izahını vermək tövsiyə edilir: təhrik etmək, ziyafət, qastrol, təşəbbüs, mərc gəlmək, əbədiləşdirmək, müflis etmək, neft yataqları, varidat.

***Tağıyevin dolayı xeyriyyəçiliyi***

*Hacı Zeynalabdin Tağıyev yalnız özü xeyriyyəçilik etməklə kifayətlənmirdi, başqa milyonçuları da bu işə* ***təhrik edirdi.*** *Onun bu fəaliyyətini təsdiq edən iki əhvalat haqqında danışacağıq.*

*1910-cu ilin sonlarında Bakıya Rusiyadan məşhur bir opera müğənnisi qastrola gəlir. Onun şərəfinə verilən* ***ziyafətdə*** *Bakı milyonçusu Mayılov müğənnidən bu şəhərə bir də nə vaxt gələcəyini soruşur. Müğənni: "Heç vaxt! – deyə cavab verir. – Belə böyük şəhərdə oxumağa opera binası yoxdursa, gəlməyimin nə mənası var?" Bu sözlər Bakı milyonçusuna pis təsir edir. Müğənniyə söz verir ki, bir il ərzində opera teatrı üçün bina tikdirəcək.*

*Bu cür* ***təşəbbüsləri*** *həmişə alqışlayan Tağıyev bildirir ki, belə bir binanı bir ilə tikdirmək qeyri-mümkündür.* ***Mərc gəlirlər*** *ki, əgər opera teatrı vaxtında hazır olarsa, onun bütün xərclərini Hacı çəkəcək.*

*Bu mərcdən sonra opera teatrının binası cəmi on ay müddətində hazır olur. Hazırda Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı həmin binada yerləşir.*

*Digər hadisə Bakının İstiqlaliyyət küçəsində yerləşən Milli Elmlər Akademiyasının binası ilə bağlıdır.*

*Bakı milyonçusu Musa Nağıyevin oğlu İsmayıl erkən vəfat etmişdi. Görüşlərdən birində Hacı Zeynalabdin Musa Nağıyevdən soruşur:*

*– Ağa Musa, bəlkə, oğlun İsmayılın adını* ***əbədiləşdirmək*** *üçün onun şərəfinə bir bina tikdirəsən?*

*– Əlbəttə, Hacı, yaxşı olardı. Amma harada?*

*– Odur, mənim açdığım qız məktəbinin alt tərəfi boşdur. Orada bir mülk tikdir, verək Müsəlman Xeyriyyə Cəmiyyətinə. Binanın adını da qoyaq "İsmailiyyə". Qoy hamı oğlunu hörmətlə yad eləsin. Söhbəti eşidənlər Ağa Musanı təbrik edib ona uğur arzulayırlar.*

*Deyilənə görə, Musa Nağıyev çox xəsis adam imiş. Bir neçə gündən sonra Tağıyevin yanına gəlib giley-güzar edir:*

*– Hacı, bu nə işdir, mənim başıma açdın?! Məni* ***müflis*** *edib küçələrə salmaq istəyirsən?!*

*– Nə olub, a kişi?! Açıq danış.*

*– Daha nə olacaq?! Binanın tikinti xərclərini hesabladım. Heç bilirsən, neçə yüz minə başa gəlir? Məndə o qədər pul haradan?*

*Hacı gülümsünüb deyir:*

*– Ağa Musa, sənin* ***neft yataqlarına*** *2 milyon pul verirəm. Sat, binanı tikdir.*

*Musa Nağıyev bu sözlərdən daha da əsəbiləşir:*

*– Necə?! Mənim 50 milyonluq* ***varidatıma*** *iki milyon verirsən? – deyir və həmin an tutulur. Utanaraq tez Hacının evini tərk edir.*

*Bundan sonra o, qısa müddətə binanı tikdirir və Müsəlman Xeyriyyə Cəmiyyətinə təhvil verir. Bir çox bakılılar indi də bu binaya köhnə adı ilə "İsmailiyyə" deyirlər.*

**Müəllimin nəzərinə!** Şagirdlərə dinləyib-anlamanı yoxlamaq məqsədilə faktoloji suallar vermək olar. Məsələn:

- Mətnlərdə hansı binaların tikintisindən danışılır?
- Hansı hadisədən sonra opera binası tikilir?
- İsmailiyyə binası kimin xatirəsinə inşa edilib?
- Bu binaların tikilməsində H.Z.Tağıyevin hansı rolu var?

**Dinləyib-anlama**

Layihə

**Dərslik, səh. 123**

**ç.** Haqqında danışılan binalardan hansı ilkin təyinatı üzrə fəaliyyət göstərir?

Cavab belə ola bilər: Hazırda Azərbaycan Dövlət Akademik Opera və Balet eatrı həmin binada yerləşir.

**Dərslik, səh. 123**

**d.** Nə üçün Musa Nağıyev Hacı ilə söhbətin sonunda tutuldu və utanaraq evi tərk etdi?

Cavab: Çünki Musa Nağıyev söhbət zamanı sərvətinin çox olduğunu açıqlamışdı.

**Dərslik, səh. 123**

**e.** Mətndə verilən hansı məlumatları faktlarla təsdiq etmək olar?

Cavab: Musa Nağıyevin İsmayıl adlı oğlunun olmasını
İsmailiyyə və Opera teatrı binalarının tikilməsini

**İş dəftəri, səh. 62**

**a.** Dinlədiyin mətnin adındakı "dolayı xeyriyyəçilik" ifadəsini necə başa düşürsən? Mətnin məzmununa əsasən bu sözün mənasını izah et.

Cavab: H.Z.Tağıyev başqa milyonçuların da xeyriyyə işlərində iştirak etməsinə çalışır, onları da bu işə təhrik edirdi.

**İş dəftəri, səh. 62**

**b.** Cümlədəki hansı söz "dolayısı ilə" sözünün antonimi kimi qəbul edilə bilər? Həmin sözün altından xətt çək.

Cavab: bilavasitə

**İş dəftəri, səh. 62**

**c.** Hansı mətndə irəli sürülən fikir faktlarla əsaslandırılıb? Mətnə istinad edərək seçimini izah et.

Cavab: "Azərbaycanda ilk opera mətni"ndə irəli sürülən fikir faktlarla əsaslandırılıb. Arxiv sənədlər vasitəsilə fikirlərin dəqiqliyi sübut edilə bilər. "İskəndər Zülqərneyn" mətni isə tarixi şəxsiyyət haqqında rəvayətdir, xalqın bu şəxs haqqında uydurmasıdır. Tarixi sənədlər, arxeoloji qazıntılar və s. vasitəsilə sübut edilə bilməz.

**Mətndə irəli sürülən fikir:** Üzeyir Hacıbəyli "Leyli və Məcnun" operası ilə Azərbaycanda opera sənətinin əsasını qoymuş dahi bəstəkardır.

**Əsaslandırma**: Ü.Hacıbəylinin "Leyli və Məcnun" operası ilk dəfə 1908-ci il yanvar ayının 12-də Hacı Zeynalabdin Tağıyevin teatrında səhnələşdirilmişdir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq a (dərslik); a, b (iş dəftəri) |
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq ç (dərslik) |
| Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir. | Tapşırıq d (dərslik) |
| Mətndə ifadə olunmuş fikirlə bağlı mülahizəsini bildirir və onu əsaslandırır. | Tapşırıq b, c, e (dərslik); c (iş dəftəri) |

Layihə

# 4-cü DƏRS
# Tağıyev haqqında rəvayətlər

**Təlim nəticələri:**
• Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
• Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
• Mətndə ifadə olunmuş fikirlə bağlı mülahizəsini bildirir və onu əsaslandırır (st. 3.1.4).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərə aşağıdakı sualı verməklə Hacı Zeynalabdin Tağıyev haqqında öyrəndiklərini xatırladır:

– Hacı Zeynalabdin Tağıyev haqqında nə bilirsiniz?

**Dərslik, səh. 124**

**a.** Mətnləri oxuyun və aşağıdakı qaydada təqdim edin.

• Mətni nəql edin.
• Kontekstə əsasən tanış olmayan sözlərin mənasını müəyyənləşdirin və izah edin.
• Sinif yoldaşlarınızın mətni anladıqlarını yoxlamaq üçün 3 sual verin.
• Mətnin mif, yoxsa həqiqət olduğunu əsaslandırın.

**Mətnlə iş.** Şagirdlər qruplara ayrılır və "Qızıl üzük və balıq", "İanə", "Bakıda çörək qıtlığı" və "100 illik müqavilə" mətnlərini oxuyurlar. Oxudan əvvəl tanış olduqları təlimata əsasən sinfə təqdim edirlər.

**Söz ehtiyatı**

**Dərslik, səh. 126**

**b.** Bu bölmədə aldığınız məlumatlara və sağda verilmiş izaha əsasən "mesenat" və "filantrop" sözlərinin mənaları arasındakı fərqi izah edin.
• Hansı söz hər iki sözün izahı üçün açar söz ola bilər?

Cavab: b. xeyriyyəçi

**İş dəftəri, səh. 63**

**a.** "Nərə" sözünün mətndəkindən fərqli mənada işləndiyi cümləni seç.

Cavab: c. Qoç Koroğlunun dəli nərəsi düşməni qorxutmuşdu.

**İş dəftəri, səh. 63**

**b.** "Söz boğçası"ndan müvafiq sözləri seçib izahların qarşısına yaz. Həmin sözlərin iştirakı ilə cümlə qur.

Cavab: 1 – qəbz, 2 – ianə, 3 – qıtlıq, 4 – təmənnasız.

**Dərslik, səh. 126**

**c.** Oxuduğunuz mətnlərə əsasən Hacı Zeynalabdin Tağıyev haqqında aşağıdakı fikirləri şərh edin.

Cavab: "Qızıl üzük və balıq", "İanə", "Bakıda çörək qıtlığı" və "100 illik müqavilə" mətnlərində Tağıyev məhz filantrop kimi təqdim olunur. Çünki filantropdan fərqli olaraq mesenat sadəcə xeyriyyəçilik, yardım etmək deyil, cəmiyyətin inkişafı üçün qlobal problemlərin həllinə yönəlmiş işlər də görür. Məsələn, təhsil ocaqları yaratmaq, mədəniyyət ocaqları təsis etmək, himayədarlıq etmək anlamında işlənir.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 126**

**ç.** Dinlədiyiniz mətnlərə əsasən cümlələri tamamlayın.

Cavab: 1. Bazarda balıq tapmaq mümkün deyildi, çünki *hava şəraitinə görə balıqçılar ova çıxa bilmirdilər*.

Layihə

2. Hacı barmağından brilyant üzüyünü çıxarıb balığın ağzına atır, çünki *bilirdi ki, balıqçılar qayıqlara minib həmin balığın ovuna çıxacaqlar.*

3. Novruz bayramı ərəfəsində bir qrup şagird dövlətli şəxslərin evlərini, idarələrini gəzirdilər, çünki *ianə toplamaq istəyirdilər.*

4. Berlindəki restoranlardan birində Hacıya qonaqlıq verirlər, çünki *bu yolla ona üzrxahlıq edirlər.*

5. Hacı restoran rəhbərliyi ilə 100 illik müqavilə imzalayır, pulunu ödəyir, çünki *istəyir ki, bura gələn həmyerliləri təmənnasız yemək yesinlər.*

6. 1871-ci ildə Bakıda çörək qıtlığı yaranmışdı, çünki *un tacirləri daha çox pul qazanmaq üçün anbarları bağlı saxlayır, süni surətdə qiymətləri bahalaşdırırdılar.*

**Dərslik, səh. 126**

**d.** Sizcə, Hacı Zeynalabdin Tağıyev haqqında danışılan bu hadisələrin həqiqiliyini və yaxud reallığa uyğun olmadığını necə əsaslandırmaq mümkündür?

Cavab: Əgər bu hadisələr haqqında arxiv sənədlər, fotoşəkillər varsa, Tağıyevin müasirləri bu hadisələrin şahidi olduğunu təsvir etmişlərsə, qəzetlərdə bu haqda məqalələr dərc olunmuşdursa, deməli, deyilənlər həqiqətdir.

**Dərslik, səh. 126**

**e.** Oxuduğunuz mətnlərdən verilmiş hansı məlumatları təsdiqləmək mümkündür?

Cavab: 1. XIX əsrin əvvəllərində Bakıda Hacı Zeynalabdin adında çox varlı bir adam yaşayırdı.

2. Tağıyev yazıçı və şairlərə yardım edər, yeni məktəblər açar, kasıb uşaqların təhsil haqqını ödəyərdi.

4. Hacı Zeynalabdin balıq vətəgələrinin sahibi idi.

**İş dəftəri, səh. 63**

**c.** Mətnlərə əsasən aşağıdakı fikirlərdən birini Hacı Zeynalabdin Tağıyevə aid etmək olmaz:

Cavab: e. Bakıdakı ən böyük çörək zavodunun sahibi idi.

**İş dəftəri, səh. 63**

**ç.** Səncə, nə üçün Tağıyev ianə toplayan uşaqlara yeni boş qutu gətirməyi tapşırdı?

Şagirdlər sualı cavablandırır və öz fikirlərini əsaslandırırlar.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq b, c (dərslik); a, b (iş dəftəri) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq ç (dərslik); c (iş dəftəri) |
| Mətndə ifadə olunmuş fikirlə bağlı mülahizəsini bildirir və onu əsaslandırır. | Tapşırıq d, e (dərslik); ç (iş dəftəri) |

Layihə

# 5-ci DƏRS
## Tağıyev haqqında hekayə

**Təlim nəticələri:**
• Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn (hekayə) yazır (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Müəllim müxtəlif suallar verməklə şagirdlərə Hacı Zeynalabdin Tağıyev haqqında oxuduqları rəvayətləri, mətni xatırladır.

**Dərslik, səh. 126**

**a.** Hacı Zeynalabdin Tağıyevin xeyriyyəçilik fəaliyyəti haqqında maraqlı əhvalat düşünüb hekayə yazın.

**Müəllimin nəzərinə!** Yazı fəaliyyətinə başlamadan əvvəl:

1. Şagirdlərin təsəvvüründə əsas qəhrəmanı Hacı Zeynalabdin Tağıyev olan müxtəlif situasiyalar yaratmaq tövsiyə edilir:

• Hacı qonşuluqda yaşayan çoxuşaqlı ailəni öz himayəsinə götürmüşdü. Bir gün ailənin böyük qızı Həmidə Hacıya yaxınlaşıb təhsil almaq istədiyini bildirdi....

• Cəfərin babası Hacı Zeynalabdin Tağıyevin himayədarlığı ilə təhsil almışdı. Babası bu haqda belə danışırdı...

• 1871-ci ilin qışı..... Bakıda çörək qıtlığıdır....

• Tağıyevin Bakıda teatr binası tikdirməsi biz aktyorları çox sevindirirdi....

Şagirdlər bu situasiyalardan birini seçir və bu haqda hekayə yazırlar.

2. Şagirdlərə mətnin strukturu haqqında xatırlatma edilir:

**Giriş:** Hadisələrin yeri, zamanı, əsas obrazlardan biri və bir neçəsi haqqında məlumat verilir.

**Əsas hissə:** Qəhrəmanın qarşılaşdığı problemlə başlayır. Əsas hadisələr təsvir olunur. Problemin həll olunması ilə bitir.

**Nəticə:** Hadisələrin nəticəsi təsvir edilir.

Dərsin sonunda şagirdlər hekayələrini sinfə təqdim edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn (hekayə) yazır. | Tapşırıq a (dərslik) |

# 6-cı DƏRS
## İsmi birləşmələrin müəyyənlik və qeyri-müəyyənlik bildirməsi

**Təlim nəticələri:**
• Söz birləşmələri və cümlələrin yazılışında sadə qrammatik normalara əməl edir (st. 4.1.3).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 127**

**a.** Aşağıda verilmiş söz birləşmələri arasında hansı məna fərqi var?

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəldir.

Layihə

**“Bunları bilməliyik” rubrikası**. Müəllim rubrikadakı məlumatları şərh edərək şagirdlərə ismi birləşmələrin müəyyənlik və qeyri-müəyyənlik bildirməsi haqqında məlumatları izah edir. Dərslikdə və iş dəftərində verilmiş tapşırıqlar möhkəmləndirmə xarakterlidir.

**Dərslik, səh. 127**

**b.** Yerindən asılı olaraq, “səhər” sözünü müəyyən və ya qeyri-müəyyən yiyəlik halda işlətməklə cümlələri tamamlayın.

Cavab:
1. Anama ***səhər*** yeməyi hazırlamağa kömək etdim.
2. Gecənin xeyrindənsə ***səhərin*** şəri yaxşıdır.
3. ***Səhərin*** gözü açılmamış həyati səs-küy bürümüşdü.
4. Hər gün ***səhər*** idmanı etməmiş evdən çıxmıram.
5. ***Səhər*** mehinin dağlardan qovub gətirdiyi ətir ruhumuzu oxşayırdı.

**Dərslik, səh. 127**

**c.** Hansı cümlələrdə altından xətt çəkilmiş söz birləşmələrinin asılı tərəfini müəyyənlik bildirən yiyəlik halda işlətmək mümkün deyil?

Cavab:
1. Qədimdə insanlar günəş saatından istifadə edirdilər.
3. Bu qədim abidə Şamaxı rayonunda yerləşir.
5. Binamızın qarşısında yeni kitab mağazası açılıb.

**Dərslik, səh. 127**

**ç.** Sözləri həm müəyyən, həm də qeyri-müəyyən yiyəlik halda işlətməklə söz birləşməsi yaradın.

Cavablara nümunə: tarixin səhifələri, tarix dərsi; sinif saatı, sinfin qapısı; meşə heyvanları, meşənin qarşısı; kitabxana rəhbəri, kitabxananın girişi; fondun təsisçisi, fond rəhbəri; axşamın xeyri, axşam yeməyi; alma şirəsi, almanın rəngi; çiçək dəstəsi, çiçəyin ətri; ürək döyüntüsü, ürəyin səsi.

İş dəftərində təqdim edilmiş tapşırıqlar şagirdlərin ismi birləşmələrin müəyyənlik və qeyri-müəyyənlik bildirməsi haqqında aldıqları biliklərin möhkəmləndirilməsinə yönəlmişdir.

**İş dəftəri, səh. 64**

**a.** Nöqtələrin yerinə uyğun sözləri seçib elə işlət ki, söz birləşməsi müəyyənlik, konkretlik bildirsin.

Cavab: məktəblinin çantası, narın dənəsi, gülün ətri, dövlətin rəhbəri, ağacın yarpağı, kəndin camaatı, məktəbin binası, atın cinsi.

**İş dəftəri, səh. 64**

**b.** Hansı söz birləşməsinin asılı tərəfini müəyyənlik bildirən yiyəlik halda işlətmək mümkün deyil?

Cavab: d. tibb bacısı

**İş dəftəri, səh. 64**

**c.** Yerindən asılı olaraq, “axşam” sözünü müəyyən və ya qeyri-müəyyən yiyəlik halda işlətməklə cümlələri tamamla. Hansı cümlələrdə bu sözü müəyyən yiyəlik halda işlətmək mümkün deyil?

Cavab: 1. Axşamın işini sabaha qoyma.
**2. Nənəm axşam namazı qılırdı.**
**3. Axşam bazarı ucuzluq olur.**
**4. Axşam növbəsi saat 6-da başlayır.**
5. Axşam qaranlığı ürəyimi sıxırdı.

**İş dəftəri, səh. 64**

Layihə

**ç.** Söz birləşmələrinin müəyyənlik və qeyri-müəyyənlik bildirməsini nəzərə almaqla hər sırada fərqli olanı müəyyən et.

Cavab: 1-ci sıra – d. dənizin suyu
2-ci sıra – a. şairin heykəli
3-cü sıra – a. Nil çayı
4-cü sıra – c. qışın soyuğu

**İş dəftəri, səh. 64**

**d.** Cədvəlin xanalarına uyğun dörd nümunə yaz.

Cavablara nümunə:

| Müəyyənlik bildirən söz birləşməsi | Qeyri-müəyyənlik bildirən söz birləşməsi |
|---|---|
| yazın gəlişi | ərik mürəbbəsi |
| uşağın səsi | gül mağazası |
| çayın suyu | türk dili |
| bulağın gözü | dan ulduzu |

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Söz birləşmələri və cümlələrin yazılışında sadə qrammatik normalara əməl edir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

# 4-cü fəsil
# MESENAT SAHİBKARLAR

## 1-ci DƏRS
## Məşhur mesenatlar

**Təlim nəticələri:**
- Əlavə biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələri izah edir (st. 3.1.4).
- Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir (st. 3.1.2).
- Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 2.1.3).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1).

**Mövzuya yönəltmə**

**Dərslik, səh. 128**

**a.** Sizcə, dünyanın ən məşhur mesenatları daha çox hansı sahələri inkişaf etdirmək üçün ianə ayırırlar?

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini mövzuya yönəldir.

**Mətn üzrə iş**

**Dərslik, səh. 128**

**b.** Aşağıda məşhur mesenatlar haqqında qısa məlumatlar və onların xeyriyyəçilik haqqında söylədiyi fikirlər təqdim olunur. Həmin sitatları bölmənin ideyası ilə əlaqələndirib şərh edin.

Şagirdlər mətni səssiz oxuyur, əsas məlumatları müəyyən edirlər. Sitatları bölmənin ideyası ilə əlaqələndirib şərh edirlər.

Cavablara nümunə: Endryu Karnegi belə deyib: "Başqalarına yardım etməyən heç vaxt varlana bilməz". Xeyriyyə işləri ilə məşğul olan insanların əksəriyyəti uğurlu iş adamlarıdır. Onların çoxu bu fikirdədir ki, gəlirin böyük bir qismini xeyriyyəçiliyə sərf etmək lazımdır. Xeyriyyəçilik deyəndə isə sadəcə maddi dəstəyi deyil, imkanı olmayan istedadlı şəxslərin inkişafına imkan yaratmağı da nəzərdə tuturlar.

**Söz ehtiyatı**

**Dərslik, səh. 129**

**c.** "Qrant" sözünün izahını xeyriyyəçilərin missiyaları ilə əlaqələndirin. Həyatdan nümunələr gətirməklə bu haqda danışın.

Cavablara nümunə: Geyts ailəsinə məxsus fond hər il iqlim dəyişikliyi ilə mübarizə, təbii fəlakətlər zamanı yardım, kitabxanaların tikilməsi, yoxsulluqla mübarizə, səhiyyə və təhsil sahələrindəki proqramlara qrant ayırır.

**Dərslik, səh. 129**

**ç.** Uyğunluğu müəyyən edin.

Cavab: 1 – b, 2 – a.

**Oxuyub-qavrama**

**Dərslik, səh. 129**

**d.** Haqqında məlumat aldığınız şəxslərin ortaq xüsusiyyətləri barədə danışın.

Cavab: Bu şəxslər cəmiyyətin inkişafına yönəldilmiş kampaniyaların təsisçiləridir. Onların fəaliyyəti

Layihə

iqlim dəyişikliyi, aclıq, savadsızlıq, evsizlik, təbii fəlakətlər kimi qlobal problemlərin həllinə yönəlmişdir.

**Dərslik, səh. 129**

**e.** "Söz vermək" kampaniyasına münasibət bildirin. Sizcə, gözəl dünya qurmaq üçün insanlar daha nə etməlidir?

Şagirdlərin cavabları müxtəlif ola bilər: Məsələn, daha gözəl dünya qurmaq üçün müharibələrə son qoymaq, müharibə edən dövlətlər arasında sülh, barış yaratmaq və s.

**Dərslik, səh. 129**

**ə.** "Söz vermək" kampaniyasına qoşulmuş digər sahibkarlar haqqında məlumat toplayıb sinfə təqdim edin.

**Müəllimin nəzərinə!** Mətndə qeyd olunub ki, "Söz vermək" kampaniyasına Uoren Baffetdən başqa Mark Zukerberq, İlon Mask və Makkenzi Bezos kimi bir sıra iş adamları da qoşulmuşdular. Şagirdlər bu şəxslərdən birini seçib onun haqqında məlumat toplayır və sinfə təqdim edirlər.

**İş dəftəri, səh. 65**

**a.** Fikirlərin hansı mesenata aid olduğunu müəyyən et.

Cavab: 1 – A, 2 – C, 3 – B, 4 – B, 5 – A.

**İş dəftəri, səh. 65**

**b.** Mətnə istinad edərək sualı cavablandır və fikrini şərh et.

Şagirdlər tapşırıqda qoyulmuş suala cavab verir və fikirlərini əsaslandırırlar.

**İş dəftəri, səh. 65**

**c.** Öyrəndiyin məlumatlara əsasən aşağıdakı fikri əsaslandır.

Tapşırıq şagirdlərin ümumiləşdirmə, nəticəçıxarma bacarığını inkişaf etdirir.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Əlavə biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələri izah edir. | Tapşırıq b, d, e (dərslik) |
| Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir. | Tapşırıq c, ç (dərslik) |
| Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir. | Tapşırıq ə (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq a (iş dəftəri) |
| Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir. | Tapşırıq b, c (iş dəftəri) |

# 2-ci DƏRS
# Diaqram üzrə iş

**Təlim nəticələri:**

- Verbal və qrafik materialları şərh etməklə mövzu üzrə danışır (st. 2.1.3).
- Verbal informasiyanı qeyri-verbal şəkildə ifadə edir (st. 4.1.1).
- Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn (məktub, təəssürat və s.) yazır (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərə müraciət edir:

– Bu bölmədə hansı xeyriyyəçilər haqqında məlumat aldınız?

Layihə

**Danışma**

**Dərslik, səh. 130**

**a.** Diaqrama istinad etməklə sualları cavablandırın və diaqramda əks etdirilmiş məlumatları rabitəli mətnə çevirib nəql edin.

**Müəllimin nəzərinə!** Əvvəlcə şagirdlərə diaqram ilə tanış olmağa vaxt verin. Diaqramdakı simvolik işarələri düzgün anladıqlarına əmin olun. Tapşırığın məqsədi şagirdlərin verbal və qrafik materiallardakı məlumatları rabitəli mətnə çevirmək bacarığını inkişaf etdirməkdir. Kömək məqsədilə tapşırıqda yönəldici suallar qoyulub.

**Dərslik, səh. 130**

**b.** Diaqrama əsasən məlumatların doğru, yoxsa yanlış olduğunu müəyyən edin.

Cavab: 1 – D, 2 – D, 3 – Y, 4 – Y, 5 – Y.

**Dərslik, səh. 130**

**c.** Sinifdə "Mən xeyriyyəçi olsaydım, hansı sahəyə ianə ayırardım" mövzusunda sorğu keçirin. Sorğunun nəticələrini əks etdirən diaqram hazırlayın və müzakirə edin.

**Müəllimin nəzərinə!** Əvvəlcə şagirdlərə sorğu keçirmək üçün anket təqdim edilir. Daha sonra şagirdlərin seçiminə əsasən lövhədə diaqram çəkilir. Şagirdlər diaqramın nəticələrini müzakirə edirlər. Məsələn:

- Ən çox hansı sahəyə ianə ayrılmışdır?
- Nə üçün məhz bu sahəyə daha çox diqqət ayırmaq lazımdır?
- Bu sahədə hansı problemlər şagirdləri düşündürür?
- Bu problemin həlli üçün hansı addımlar atılmalıdır?
- Şagirdlər bu problemləri həll etmək üçün hansı təklifləri irəli sürürlər?

**Yazı**

**İş dəftəri, səh. 66**

**a.** Səncə, Hacı Zeynalabdin Tağıyev müasir dövrdə yaşasaydı, hansı sahələrə daha çox ianə ayırardı? Fikrini əsaslandır.

Tapşırıq şagirdlərin yaradıcı təfəkkürünü və yazı bacarığını inkişaf etdirir.

**İş dəftəri, səh. 66**

**b.** Haqqında oxuduğun xeyriyyəçilərdən birinə məktub yaz.

Şagirdlər aşağı siniflərdən əməli yazı nümunələrindən biri olan məktubla tanış olublar. Müəllim şagirdlərə məktubların məzmun və formaca bir-birindən fərqləndiyini, məktubun strukturunu (salamlaşma, tanışlıq, sağollaşma) xatırladır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Verbal və qrafik materialları şərh etməklə mövzu üzrə danışır. | Tapşırıq a, b (dərslik) |
| Verbal informasiyanı qeyri-verbal şəkildə ifadə edir. | Tapşırıq c (dərslik) |
| Verilmiş situasiyaya, məqsədə uyğun kiçikhəcmli mətn (məktub, təəssürat və s.) yazır. | Tapşırıq a, b (iş dəftəri) |

Layihə

# Ümumiləşdirici təkrar

**Təlim nəticələri:**
- Kontekstdən və qrammatik formadan çıxış edərək sözlərin qrammatik-semantik mənasını izah edir (st. 4.1.3).
- Sintaktik vahidlərin (söz birləşməsi) konstruksiyasını və semantik xüsusiyyətlərini izah edir (st. 4.1.3).
- Söz birləşmələri və cümlələrin yazılışında sadə qrammatik normalara əməl edir (st. 4.1.3).

**Dərslik, səh. 131**

**1.** Fərqləndirilmiş əvəzliklər əvvəlki cümlədə hansı sözü əvəz edib?

Cavab:
1. ***Mən*** təklifləri qəbul etmirdim. ***Özüm*** qərar vermək istəyirdim.
2. ***Şəkildə gördüyünüz xalçanı*** 120 il əvvəl Qarabağ ustaları toxuyub. Hazırda ***həmin*** xalça Tarix Muzeyindədir.
3. ***Aktyorlar*** səhnə arxasında idilər. Tamaşaçıların alqışından sonra ***hamı*** səhnəyə qayıtdı.
4. ***Murad, Yusif və Sona*** eyni komandada idilər. ***Hərəsi*** bir fənni daha yaxşı bilirdi.

**Dərslik, səh. 131**

**2.** Cümlələrdə işlənmiş əvəzlikləri seçin və məna növünü müəyyənləşdirin.

Cavab: 1. Onun – şəxs əvəzliyi
2. Bütün – təyini əvəzlik
3. Elə – işarə, onların – şəxs əvəzliyi
4. Kimə – sual əvəzliyi
5. Heç kim – qeyri-müəyyən, ona – şəxs əvəzliyi

**Dərslik, səh. 131**

**3.** Verilmiş sözləri asılı tərəf kimi işlətməklə həm ismi, həm də feili birləşmə yaradın.

Cavab: muzey eksponatları, muzeyə getmək, günəş saatı, günəş kimi parıldamaq, xeyli insan, xeyli danışmaq, obrazın nitqi, obraz yaratmaq.

**Dərslik, səh. 131**

**4.** Sxemlərlə söz birləşmələrini uyğunlaşdırın.

Cavab: 1 – ç, 2 – c, 3 – b, 4 – a.

**Dərslik, səh. 131**

**5.** Yerindən asılı olaraq sözləri müəyyən və ya qeyri-müəyyən yiyəlik halda işlətməklə cümlələri tamamlayın.

Cavab:
1. Şəhərin mərkəzində ***Qış*** parkı salınıb.
2. Yaz gəldi, ***qışın*** soyuğu arxada qaldı.
1. Dərslərin başlanmasına az qalmış ***məktəb*** ləvazimatı mağazalarında canlanma olur.
2. Yay tətili müddətində ***məktəbin*** həyəti yenidən təmir edilib.
1. Torpaq uğrunda şəhid olan igidlər adlarını ***tarixin*** səhifəsinə qızıl hərflərlə yazdırıblar.
2. ***Tarix*** dərsində İkinci Qarabağ müharibəsi haqqında müzakirələr apardıq.

Layihə

**Dərslik, səh. 131**

**6.** Sözləri həm müəyyən, həm də qeyri-müəyyən yiyəlik halda işlətməklə söz birləşmələri yaradın.

Cavab: reklam lövhəsi, reklamın faydası, vətən torpağı, vətənin igidləri, kənd məhsulları, kəndin yolları, mətbuat orqanları, mətbuatın səsi, bayraq meydanı, bayrağın rəngi, söz ehtiyatı, sözün gücü, dağ massivləri, dağın zirvəsi, müəllif hüququ, müəllifin rəyi, qəhrəman ordeni, qəhrəmanın adı.

**İş dəftəri, səh. 67**

**1.** Fərqləndirilmiş sözləri şəxs əvəzlikləri ilə əvəz edib növbəti cümlədə nöqtələrin yerinə yaz.

Cavab:

1. ***Lalə, Həsən və Günel*** eyni qrupdadırlar. ***Onlar*** "Qız qalası" haqqında mətn hazırlayırlar.
2. ***Sən və qardaşın*** birinci sırada dayanın. Bayrağı səhnəyə ***siz*** qaldıracaqsınız.
3. ***Mən atamla*** Xınalıq kəndinə getmişdim. Xınalığın gözəl təbiəti, təmiz havası ***bizi*** valeh etmişdi.

**İş dəftəri, səh. 67**

**2.** İkinci cümlədə işarə əvəzliklərini seçib birinci cümlədə nəyə işarə etdiyini müəyyən et. Həmin sözlərin altından xətt çək.

1. Fərhad ***çətin*** məsələni çox ***aydın*** izah etdi.
2. ***Belə*** izahatdan sonra ***həmin*** məsələni asanlıqla həll etdim.

**İş dəftəri, səh. 67**

**3.** Nöqtələrin yerinə elə əvəzliklər artır ki, qeyri-müəyyən şəxs haqqında danışılsın.

Cavab:

1. ***Hər kəs*** nəfəsini çəkib həyəcanla gözləyirdi.
2. Bu, məxfi məlumatdır, ***heç kim*** bu haqda bilməməlidir.

**İş dəftəri, səh. 67**

**4.** İsmi və feili birləşmələrə aid üç nümunə yaz.

Cavab:

| İsmi birləşmə | Feili birləşmə |
|---|---|
| həyəcanlı gün | musiqi dinləyəndə |
| tapşırıqların bir neçəsi | muzeyə getmək |
| uşaqlardan heç kim | tarixi araşdıran |

**İş dəftəri, səh. 67**

**5.** Hansı söz birləşməsinin asılı tərəfini müəyyən yiyəlik halda işlətmək mümkün deyil?

Cavab: c. tarix kitabı

**İş dəftəri, səh. 67**

**6.** "Yay" sözünü ismi birləşmənin tərkibində işlət.

Cavab:

**Müəyyənlik bildirən ismi birləşmə:** yayın istisi

**Qeyri-müəyyənlik bildirən ismi birləşmə:** yay fəsli

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

Layihə

| Meyarlar | Materiallar |
|---|---|
| Kontekstdən və qrammatik formadan çıxış edərək sözlərin qrammatik-semantik mənasını izah edir. | Tapşırıq 1, 2 (dərslik); 1, 2, 3 (iş dəftəri) |
| Sintaktik vahidlərin (söz birləşməsi) konstruksiyasını və semantik xüsusiyyətlərini izah edir. | Tapşırıq 3, 4 (dərslik); 4 (iş dəftəri) |
| Söz birləşmələri və cümlələrin yazılışında sadə qram-matik normalara əməl edir. | Tapşırıq 5, 6 (dərslik); 5, 6 (iş dəftəri) |

Layihə

Bölmə 6

# KİNONUN TARİXİ

| Dərs | Mövzu | Məzmun xətti | Dərslik səh. | İş dəftəri səh. | Metodik vəsait səh. |
|---|---|---|---|---|---|
| 1-ci fəsil. **Kino tarixinin müəmmalı məqamları** | | | | | |
| 1 | Lümyer qardaşları, yoxsa Lui Le Prins? | Oxu | 134-135 | 68 | 182-185 |
| 2 | Le Prinsin yoxa çıxması kimə sərf edirdi? | Dinləmə. Oxu | 137-138 | 69 | 186-188 |
| 3 | Müsabiqə | Danışma | 138 | | 188-190 |
| 4 | Cümlənin ikinci dərəcəli üzvləri | Yazı | 139 | 70 | 190-191 |
| 2-ci fəsil. **Səssiz kino** | | | | | |
| 5 | Səssiz kinonun dahisi | Oxu | 140-143 | 71 | 192-194 |
| 6 | Pantomim və səssiz film | Dinləmə. Yazı. Danışma | 143 | | 194-196 |
| 7 | Çarli Çaplinin qızı Ceraldinaya məktubu | Danışma. Oxu | 144-146 | 72 | 196-198 |
| 8 | Esse | Yazı | 146 | 73 | 198-199 |
| 9 | Tamamlıq | Yazı | 147 | 74 | 199-201 |
| 3-cü fəsil. **Azərbaycan kinosu** | | | | | |
| 10 | Azərbaycanda kinonun yaranması və inkişafı | Oxu | 148-150 | 75 | 202-204 |
| 11 | Təyin | Yazı | 151 | 76 | 204-205 |
| 4-cü fəsil. **Bir filmin izi ilə** | | | | | |
| 12 | Dünyanı fəth edən "Arşın mal alan" | Danışma. Oxu | 152-155 | 77 | 206-208 |
| 13 | Təqdimat | Danışma | 155 | | 209 |
| 14 | Zərflik | Yazı | 156 | 78 | 209-211 |
| 15 | Ümumiləşdirici təkrar | Yazı | 157 | 79 | 212-213 |

Layihə

# GİRİŞ DƏRSİ

## Kinonun yaranması

**Təlim nəticələri:**
- Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür (st. 2.1.4).
- Öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışır (st. 2.1.1).
- Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir (st. 3.1.2).

**Mövzuya yönəltmə. Danışma**

Mətndən əvvəlki tapşırıqlarla şagirdləri mövzuya yönəltmək olar.

**Dərslik, səh. 132**

**a.** Ən çox sevdiyiniz film haqqında danışın. Nəyə görə məhz bu filmi sevirsiniz?

Müəllim şagirdlərdən xoşladıqları filmlər haqda soruşa bilər. Şagirdlər fərdi şəkildə bu sualı cavablandırırlar.

**Dərslik, səh. 132**

**b.** Kinonun tarixi haqqında nə bilirsiniz? Sizcə, 100 il bundan əvvəl çəkilən filmlər müasir filmlərdən nə ilə fərqlənirdi?

Şagirdlər kinonun tarixi ilə bağlı bildiklərini söyləyə bilərlər. Sualın 2-ci hissəsinə təxminən belə cavab vermək olar:

100 il əvvəl çəkilən filmlər müasir filmlərdən bir çox cəhətlərinə görə fərqlənirdi. Filmlərin əksəriyyəti ağ-qara və səssiz idi. Filmlərdə indiki kimi xüsusi effektlər yox idi. Müasir filmlərdə isə kompüter qrafikasından geniş istifadə olunur. Əvvəllər filmlərin texniki imkanları çox zəif idi. Səssiz filmlərdə aktyorlar mimika və jestlərdən istifadə edirdilər.

**Oxu**

**Dərslik, səh. 132-133**

**Mətnlə iş.** Verilmiş vaxt ərzində “Kinonun yaranması” mətni səssiz oxunur. Şagirdlər onlara tanış olmayan söz və ifadələri dəftərlərində qeyd edirlər. Müəllim həmin sözlərin mənasını izah edir. Mətni oxuduqdan sonra “Söz mücrüsü” rubrikasındakı sözlərlə də tanış olurlar. Lüğətdən istifadə edərək sözlərin mənasını müəyyən edirlər.

**Söz ehtiyatı**

**Dərslik, səh. 133**

**c.** Mətn və şəkillər əsasında verilmiş sözlərin mənalarını izah edin. Bu qurğu və detalların funksiyası haqqında danışın.

Şagirdlər bu tapşırığı yerinə yetirmək üçün mətndən aldıqları məlumatlardan və öyrəndikləri sözlərin mənalarından istifadə edirlər. Cavab:

- **kinokamera** – kino çəkmək üçün aparat.

**Kinokameranın funksiyası:** hərəkətli görüntüləri çəkir, onları yaddaşda saxlayır.

- **kinoproyektor** – kinolentdəki təsvirləri göstərən optik cihaz. Proyektorlar linzalar vasitəsilə kiçik təsviri böyüdərək divara və ya ekrana proyeksiya edir. **Kinoproyektorun funksiyası** çəkilmiş filmləri geniş ekranda göstərməkdir.
- **obyektiv** – optik cihazın bir və ya bir neçə linzadan ibarət hissəsi.

**Obyektivin funksiyası** işıq şüalarını toplamaq və onları optik cihazlarda bir nöqtəyə yönəltməkdir. Bu proses vasitəsilə obyektin görüntüsü film lentində formalaşır.

- **linza** – optik cihazlarda işlənən, ortası qabarıq və kənarları nazik şüşə.

**Linzanın funksiyası:** işıq şüalarını bir nöqtədə cəmləyir və obyektin böyüdülmüş təsvirini yaradır.

Layihə

**Dərslik, səh. 133**

**ç.** "Obyektiv" sözünü izahlara uyğun olaraq cümlələrdə işlədin.

Müəllim izah edir ki, "obyektiv" sözü, adətən, iki mənada işlənir. Şagirdlər "obyektiv" sözünün verilmiş mənalarına uyğun cümlələr tərtib etməlidirlər.

**Dərslik, səh. 133**

**d.** Sözlərin etimologiyasından çıxış edərək *kinematoqrafiya* və *kinologiyanın* mənasını izah edin.

Bu tapşırığı yerinə yetirməzdən əvvəl müəllim şagirdlərin diqqətini "Yadda saxla" rubrikasına yönəldir. Şagirdlər "etimologiya" sözünün izahı ilə tanış olurlar.

Cavab: **Kinematoqrafiya:** yun. *cinema* – hərəkət, *grapho* – çəkirəm.

Hərəkət edən təsvirləri ekranda nümayiş etdirmək, habelə kinofilmlər hazırlamaq sənəti.

**Kinologiya:** yun. *kynos* – it, *logos* – söz, elm sahəsi.

İtlər, onların cinsləri və s. haqqında elm.

**Müəllimin nəzərinə!** Bu dərsdə verilmiş orfoqrafiya cədvəlindəki sözlərin düzgün yazılışı şagirdlərin diqqətinə çatdırılmalıdır.

**Dərslik, səh. 133**

**e.** Fotoaparat və kinokameranın oxşar və fərqli cəhətlərini izah edin. Nə üçün Meybricin çəkdiyi kadrları film adlandırmaq olmaz?

Cavab: *Oxşar cəhətləri*

Fotoaparat və kinokamera optik cihazlardır. Hər iki cihazdan obyektiv vasitəsilə işıq şüalarını toplamaq və təsvir yaratmaq üçün istifadə olunur. Bu cihazlar linzalar sistemindən ibarətdir.

*Fərqli cəhətləri*

Fotoaparat: Tək-tək şəkillər çəkmək üçün nəzərdə tutulub. Fotoşəkil hərəkətsiz təsviri əks etdirir. Səs qeyd etmir. Şəkil çəkildikdən sonra dayanır, fasilələrlə işləyir.

Kinokamera: Ardıcıl kadrlar çəkərək hərəkətli təsvirlər yaradır. Saniyədə 24 və ya daha çox kadr çəkərək hərəkəti canlandırır. Görüntü ilə birlikdə səs də qeyd edir. Uzunmüddətli çəkiliş üçün davamlı işləyə bilir.

Meybric kadrları fotokamera ilə çəkirdi. Ona görə də bunları film adlandırmaq olmaz.

**Dərslik, səh. 133**

**ə.** Sizcə, nə üçün Beynəlxalq Kino Günü hər il dekabrın 28-də qeyd olunur?

Cavab: Çünki 1895-ci il dekabrın 28-də Parisin Kapusinlər bulvarındakı restoranda ilk film nümayişi baş tutdu.

**Müəllimin nəzərinə!** Növbəti dərs üçün şagirdlərə Lui Le Prins, Lui Dager, Edvard Meybric haqqında məlumat əldə etmək, Lümyer qardaşlarının və Lui Le Prinsin filmlərini izləmək tapşırılır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Müzakirə zamanı mövzuya uyğun fikir yürüdür. | Tapşırıq a, b, e, ə (dərslik) |
| Öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışır. | Tapşırıq c (dərslik) |
| Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir. | Tapşırıq ç, d (dərslik) |

Layihə

# 1-ci fəsil
# KİNO TARİXİNİN MÜƏMMALI MƏQAMLARI

## 1-ci DƏRS
## Lümyer qardaşları, yoxsa Lui Le Prins?

**Təlim nəticələri:**
- Fikrini əsaslandırmaqla fakt və hadisələrə münasibət bildirir (st. 2.1.2).
- Eyni mövzuda olan mətnləri məzmun və ideya baxımından müqayisə edir (st. 3.1.5).
- Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 3.1.2).
- Öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışır (st. 2.1.1).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Əlavə biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələri izah edir (st. 3.1.4).

**Mövzuya yönəltmə.** Müəllim şagirdlərin diqqətini fəslin adına yönəldir. Şagirdlər başlıq haqqında ehtimalları söyləyə bilərlər.

**Danışma**

**Dərslik, səh. 134**

**a.** Sizcə, “Kinonun yaranması” mətnini yazmaqda müəllifin məqsədi nədir? Cavablardan birini seçin və mətnə istinad etməklə əsaslandırın.

Bu tapşırıqla şagirdlərin keçən dərsdə oxuduqları mətni necə qavradıqlarını yoxlamaq olar. Şagirdlər mətn əsasında sualı cavablandırır, müəllifin məqsədini müəyyənləşdirir, bununla da mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

Cavab: b. kinonun yaranma tarixi haqqında məlumat vermək

**Oxu**

**Dərslik, səh. 134-135**

**b.** Aşağıdakı mətni oxuyun və “Kinonun yaranması” mətni ilə ziddiyyət yaradan məqamları müəyyən edin.

**Mətnlə iş.** “Lümyer qardaşları, yoxsa Lui Le Prins?” mətni qeyd götürməklə oxunur. Şagirdlər mətni oxuduqca onlara aydın olmayan və maraq doğuran faktları, tanış olmayan söz və ifadələri dəftərlərində qeyd edirlər. Daha sonra hər iki mətni müqayisə edirlər. Həmçinin “Söz mücrüsü”ndəki sözlər də izah edilir.

Cavab: Əsas ziddiyyətli məqam odur ki, “Kinonun yaranması” mətnində kinonun və kino çəkmək üçün qurğunun ilk dəfə Lümyer qardaşları tərəfindən ixtira olunduğu bildirilir. Şagirdlər bu dərsdəki mətndən öyrənirlər ki, Lui Le Prins Lümyer qardaşlarından əvvəl bu ixtiranı edibmiş.

**Söz ehtiyatı**

**Dərslik, səh. 135**

**c.** “Rakurs” sözünün izahından çıxış edərək mətndə altından xətt çəkilmiş cümləni şərh edin.

Tapşırıq söz ehtiyatını zənginləşdirməklə yanaşı, oxuyub-qavrama bacarığını da inkişaf etdirir. Cavab: Həmin cümlədə “rakurs” sözünün yerinə “nöqtə” sözünü qoymaq olar. Cümlənin “Lakin bu aparatla çəkilmiş kadrlarda obyektin hərəkəti daha çox sıçrayışlara bənzəyirdi” hissəsində kadrlarda hərəkətin necə göründüyü təsvir olunur. Burada “sıçrayışlara bənzəmək” ifadəsi hərəkətin davamlı şəkildə deyil, müəyyən fasilələrlə olduğunu göstərir. Cümlənin davamı belədir: çünki linzalar obyekti 16 fərqli rakursdan qeydə alırdı. Burada izah edilir ki, obyektin hərəkətinin “sıçrayışlı” görünməsinin

Layihə

səbəbi linzaların 16 fərqli bucaqdan (nöqtədən) görüntü əldə etməsidir. Bu, bir rakursdan digərinə keçiddə fasilələr yaranmasına səbəb olur və nəticədə hərəkət axıcı görünmür.

**Dərslik, səh. 135**

**ç.** Şəkillərə baxaraq çəkiliş zamanı rakursun rolunu və əhəmiyyətini izah edin.

Cavab təxminən belə ola bilər:

Rakurs çəkiliş zamanı kameranın obyektə olan mövqeyini və bucağını ifadə edir. Bu, təsvirin necə görünəcəyini və tamaşaçıya necə təsir bağışlayacağını müəyyənləşdirir. Rakurs çəkilişin estetikası, emosional təsiri və məzmunun izahı üçün çox vacibdir.

Fərqli rakurslar obyektin böyüklüyünü, kiçikliyini və ya gücünü vurğulaya bilər, detalın əhəmiyyətini göstərə bilər. Göz səviyyəsindən çəkiliş tamaşaçını sanki hadisələrin içində hiss etdirir. Tərs rakurs isə qeyri-adi və maraqlı mənzərə təqdim edir.

Müxtəlif rakurslar tamaşaçıda müxtəlif emosiyalar yaradır. Rakurs çəkilişin estetik baxımdan cəlbedici olmasına kömək edir, tamaşaçı ilə vizual əlaqə yaradır.

**Dərslik, səh. 135**

**d.** Kontekstə əsasən sözləri izahlarla uyğunlaşdırın.

Bu tapşırıq yeni sözlərin mənimsədilməsinə xidmət edir. Şagirdlər yeni tanış olduqları sözlərlə onların izahlarını uyğunlaşdırırlar. Tapşırığın əsas məqsədi şagirdlərin öyrəndikləri yeni sözləri kontekstə uyğun olaraq işlətmək bacarığını inkişaf etdirməkdir.

Cavab: 1 – b; 2 – c; 3 – a.

**Dərslik, səh. 136**

**e.** Lüğətdən istifadə etməklə aşağıdakı sözlərin mənalarını müəyyənləşdirin.

Bu tapşırıq da söz ehtiyatının zənginləşdirilməsinə kömək edir.

Cavab: turne – siyasət, idman, sənət adamlarının müəyyən marşrut üzrə işgüzar səyahəti

qastrol – müğənninin, artistin, teatr və ya sirk truppasının tamaşa və ya konsert vermək məqsədilə başqa şəhər və ya ölkələrə səfəri

kruiz – gəmi ilə bir çox ölkələrin limanlarında dayanmaqla uzunmüddətli dəniz səyahəti

ezamiyyət – xidməti və ya başqa bir işi, tapşırığı yerinə yetirmək üçün bir yerə ezam olunma, getmə

Bu sözlərin izahında istifadə olunan açar sözü və mənalar arasındakı fərqi izah edin.

Cavab: açar söz "səfər"

Kruizdən fərqli olaraq turne, qastrol, ezamiyyət iş məqsədli səfərlərdir.

**Müəllimin nəzərinə!** "Yadda saxla" rubrikasında "hiponim" və "hiperonim" terminlərinin izahı şagirdlərin diqqətinə çatdırılır, nümunələr əsasında hiperonim və hiponim anlayışları aydınlaşdırılır, hər hansı sözün izahında hiperonimin rolu şərh edilir.

**Dərslik, səh. 136**

**ə.** Hadisələrin ardıcıllığını müəyyən edin və mətnə əsasən hər birinin tarixini göstərin. Hansı hadisənin baş verdiyi tarix mətndə açıq şəkildə göstərilməyib?

"Söz ehtiyatı" rubrikasından sonra şagirdlər faktoloji suallara cavab verirlər. Bu tapşırıq vasitəsilə hadisələrin ardıcıllığını müəyyənləşdirməklə mətni diqqətlə oxuduqlarını nümayiş etdirirlər.

Cavab:

**b.** Lui Le Prinsin anadan olması – 1841

**d.** Lui Le Prinsin İngiltərəyə köçməsi

**a.** 16 linzalı aparatın ixtirası – 1881

**c.** Təklinzalı aparatın patentləşdirilməsi – 1887

**ə.** İlk filmlərin çəkilişi – 1888

**e.** Lui Le Prinsin yoxa çıxması – 1890

Layihə

Mətndə Lui Le Prinsin İngiltərəyə köçməsinin tarixi açıq şəkildə göstərilməyib. Lakin verilən məlumatlar əsasında cavabın 1866-cı il olduğunu müəyyənləşdirmək mümkündür.

**İş dəftəri, səh. 68**

> **a.** Mətnə əsasən fikirlərin doğru (D), yanlış (Y), yoxsa ehtimal (E) olduğunu müəyyən et.

Cavab: 1 – E, 2 – Y, 3 – E, 4 – D, 5 – E, 6 – D, 7 – Y.

**Dərslik, səh. 136**

> **f.** Mətnə əsasən Le Prinsin fotoqrafiya sahəsindəki nailiyyətlərində Lui Dagerin və Edvard Meybricin rolunu izah edin.

Şagirdlər bu tapşırığı apardıqları araşdırmalara əsasən yerinə yetirirlər.

Cavab təxminən belə ola bilər:

Lui Dager fotoqrafiya tarixində mühüm şəxsdir və “dagerotip” adlı ilk fotoqrafiya metodunun ixtiraçısı kimi tanınır. O, görüntü əldə etmək üçün işığın və kimyəvi proseslərin birgə işləməsi prinsipini əsaslandırmışdır. Dagerin metodları Le Prinsin fotoqrafiya sahəsinə marağını artırdı və texniki aspektləri, işıqla kimyanın əlaqəsini başa düşməsi üçün şərait yaratdı.

Edvard Meybricin atın hərəkətini çəkərək hazırladığı fotoqrafiya seriyaları (şəkillər ardıcıllığı) hərəkətin necə qeyd edilə biləcəyini göstərdi. Bu, Le Prinsi ilk hərəkətli filmi yaratmağa həvəsləndirdi. Le Prins hərəkəti fasiləsiz qeyd etmək üçün Meybricin işini öyrəndi və öz texnologiyasını yaratdı.

Le Prins Lui Dager və Edvard Meybricin işlərini daha da inkişaf etdirdi və tarixdə ilk dəfə tam ardıcıl hərəkətli görüntülər yaratmağa nail oldu.

**Dərslik, səh. 136**

> **g.** Aşağıdakı məlumatı mətnin hansı abzasına əlavə etmək olar?

Cavab: Verilmiş məlumat mətnin 2-ci abzasına əlavə edilə bilər.

**Dərslik, səh. 136**

> **ğ.** “Yadda saxla” rubrikasında sözlərin izahı ilə tanış olun. Sizcə, nə üçün fotoqrafiya ilə məşğul olmaq üçün Le Prins kimya və optikanı öyrənməli oldu?

Şagirdlər rubrikada verilmiş terminlərin izahı ilə tanış olurlar. Mətndən oxuduqları əsasında sualı cavablandırırlar.

Cavab təxminən belə ola bilər:

Le Prins fotoqrafiya və ilk hərəkətli görüntü texnologiyalarını inkişaf etdirmək istəyirdi, buna görə də kimya və optikanı öyrənməyə ehtiyac duydu. Optikanın köməyi ilə Le Prins görüntülərin aydınlığını artırmaq və işıq effektlərini idarə etmək üçün mexanizmlər hazırlaya bildi. Le Prins şəkil çəkmək üçün işığa həssas materiallarla, kimyəvi maddələrlə işləməli idi. O, şəkilləri çəkib saxlamaq üçün xüsusi materiallardan istifadə edirdi. Bunun üçün kimyanı bilmək lazım idi.

**Dərslik, səh. 136**

> **h.** Oxuduğunuz mətn məqsədinə və məzmununa görə “Kinonun yaranması” mətnindən nə ilə fərqlənir?

Cavab: “Lümyer qardaşları, yoxsa Lui Le Prins?” mətni ilk kino aparatının ixtiraçısının və ilk filmin müəllifinin, həqiqətən, kim olduğunu izah etmək məqsədi daşıyır.

> • Mətnin girişində müəllif kinonun yaranması ilə bağlı hansı fikirləri qarşılaşdırır?
> • Bu fikirlərlə bağlı müəllifin mövqeyi nədən ibarətdir?

Cavab: “Lümyer qardaşları, yoxsa Lui Le Prins?” mətnində müəllif göstərir ki, təkzibolunmaz faktlar Lui Le Prinsin ilk kino aparatının ixtiraçısı və ilk filmin müəllifi olduğunu sübut edir. Amma bu vaxta qədər hamı ilk filmin müəllifi kimi Lümyer qardaşlarını tanıyırdı.

Laylə

**Dərslik, səh. 136**

**x.** "Yutub" (YouTube) platformasında Lümyer qardaşlarının və Lui Le Prinsin filmlərini izləyin. Onları müqayisə edin və kinonun ixtirası ilə bağlı müəllifin mövqeyinə münasibət bildirin.

Şagirdlərə öncədən filmləri izləmək tapşırılmışdı. Bunun əsasında şagirdlər fikirlərini irəli sürə bilərlər.

**İş dəftəri, səh. 68**

**b.** Mətnə əsasən cümlələri tamamla.

Cavab: 1. Lui Le Prins 25 yaşında İngiltərəyə köçdü.
2. Lui Le Prins 40 yaşında 16 linzalı aparat yaratdı.
3. Lui Le Prins 46 yaşında ixtirasını patentləşdirdi.
4. Lui Le Prins 49 yaşında Amerikaya qayıtmağa qərar verdi.

**İş dəftəri, səh. 68**

**c.** Mətnə əsasən suallara cavab yaz.

*1. Le Prins nə üçün optika və kimyanı daha dərindən öyrənməyə başladı?*

Optika işığın necə hərəkət etdiyini və linzaların şəkilləri necə tuta bildiyini öyrənməyə imkan verirdi. Le Prins şəkilləri çəkib saxlamaq üçün kimyəvi materiallardan istifadə edirdi. Bunun üçün kimyanı bilmək lazım idi.

*2. Nə üçün Le Prins Meybricin eksperimenti ilə maraqlanırdı?*

Meybric atın bütün addımlarını ardıcıl şəkildə çəkərək hərəkətin zamanla necə dəyişdiyini göstərə bilmişdi. O, hərəkətlərin ardıcıl fotoşəkillərlə çəkildiyi bir metod tətbiq etmişdi. Bu, Le Prinsi maraqlandırırdı, çünki onun da məqsədi çoxlu şəkilləri qeydə alıb hərəkətli görüntü yaratmaq və bir film çəkmək idi. O, bir çox kamera və linzalar vasitəsilə hərəkətin daha təbii və davamlı şəkildə təsvirini həyata keçirdi.

*3. İlk filmlərin mövzusu nə idi?*

İlk filmlərin mövzusu çox vaxt sadə və gündəlik həyatdan götürülən situasiyalarla məhdudlaşırdı. Bu dövrdə texnologiya hələ təkmilləşməmişdi və filmlər daha çox eksperiment və yeni bir sənət forması olaraq yaranırdı.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Fikrini əsaslandırmaqla fakt və hadisələrə münasibət bildirir. | Tapşırıq a (dərslik) |
| Eyni mövzuda olan mətnləri məzmun və ideya baxımından müqayisə edir. | Tapşırıq b, h (dərslik) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tapşırıq c, d, e (dərslik) |
| Öyrəndiyi sözlərdən istifadə etməklə şəkillər üzrə danışır. | Tapşırıq ç (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq ə (dərslik); a, b (iş dəftəri) |
| Əlavə biliklərindən istifadə etməklə mətndəki fakt və hadisələri izah edir. | Tapşırıq f, g, ğ, x (dərslik); c (iş dəftəri) |

Layihə

# 2-ci DƏRS
# Le Prinsin yoxa çıxması kimə sərf edirdi?

**Təlim nəticələri:**
- Fikrini əsaslandırmaqla fakt və hadisələrə münasibət bildirir (st. 2.1.2).
- Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.1).
- Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir (st. 1.1.2).
- Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Müəllim "Lümyer qardaşları, yoxsa Lui Le Prins?" mətnini xatırlatmaq üçün frontal sorğu keçirə bilər. Bununla da şagirdlər mətnin məzmununu yada salırlar:

*Lui Le Prins kim idi?*
*O nəyi ixtira etmişdi?*
*Le Prins hansı filmləri çəkmişdi?*
*Le Prins niyə Amerikaya gedə bilmədi?*

**Dərslik, səh. 137**

**a.** Sizcə, necə oldu ki, Lui Le Prins qatardan yoxa çıxdı? Təxəyyülünüzə əsasən ehtimallarınızı söyləyin.

Tapşırığın məqsədinə əsasən şagirdlər məsələ ilə bağlı ehtimallarını söyləməlidirlər.

**Dinləmə**

**Dərslik, səh. 137**

**b.** "Le Prinsin yoxa çıxması kimə sərf edirdi?" mətnini dinləyin və sualları cavablandırın.

***Le Prinsin yoxa çıxması kimə sərf edirdi?***

*Artıq 100 ildən çoxdur ki, kinokameranın ixtiraçısı Lui Le Prinsin müəmmalı şəkildə yoxa çıxması bir çox tədqiqatçıların araşdırma mövzusudur. Bu haqda onlarla məqalə yazılmış, bir çox versiyalar irəli sürülmüşdür. Əvvəlcə gəlin hadisələrin xronikasına diqqət yetirək.*

*XIX əsrin sonlarında ABŞ texnoloji yeniliklər sahəsində lider ölkə sayılırdı. Dünyanın ən istedadlı alim və ixtiraçıları özlərini təsdiq etmək üçün bu ölkəyə axışırdılar. Le Prins də çəkdiyi filmlərin ilk nümayişini məhz burada etmək və bununla da adını kino ixtiraçısı kimi tarixə yazmaq istəyirdi.*

*1890-cı il sentyabrın 16-da Le Prins Fransanın Dijon şəhərindən qatarla Parisə yola düşür. İxtiraçı Parisdən Londona, oradan isə gəmi ilə ABŞ-yə getməli idi. Lakin qatar Parisə çatanda onu qarşılamağa gəlmiş dostları vaqonu ələk-vələk eləsələr də, Le Prinsin nə özünü, nə də əşyalarını tapa bilirlər. Le Prinsi kupesinə qədər müşayiət edən bələdçi deyir ki, kupeyə girəndən sonra onu görən olmayıb. Le Prins kifayət qədər məşhur adam olduğundan Fransa və İngiltərənin jurnalistləri və xəfiyyələri bu müəmmalı hadisəni araşdırmağa başlayırlar.*

*Qeyd etmək lazımdır ki, o dövrdə qatarların kupesindən birbaşa çölə çıxış var idi. Ona görə də xəfiyyələr belə bir versiya irəli sürürlər ki, Le Prins təsadüfi qarətin qurbanı olub.*

*Lakin daha inandırıcı versiya da var. 1889-cu ildə məşhur Amerika alimi və ixtiraçısı Tomas Edison "kinetoskop" deyilən bir qurğu düzəltmişdi. Bu qurğu üzərində müşahidə dəliyi olan qutudan ibarət idi. Ona görə də filmə yalnız bir adam baxa bilərdi. Edison bu ixtirasına görə kino sahəsində birinciliyə iddia edirdi. Ona görə də Le Prinsin ixtirasının geniş yayılmasını istəmirdi. Sonradan Le Prinsin ailəsi Edisonu məhkəməyə verdi. Məhkəmədə iştirak üçün Nyu-Yorka gəlmiş Adolf – Le Prinsin oğlu qaldığı hotelin nömrəsində naməlum şəxslər tərəfindən qətlə yetirildi. Bu səbəbdən bir sıra jurnalistlər fransız ixtiraçısının yoxa çıxmasında Tomas Edisonun əli olduğunu iddia edirlər.*

*İstənilən halda, Lui Le Prinsin yoxa çıxması dünya kino tarixinin sirli və qaranlıq səhifələrindən biri kimi qalır.*

Şagirdlər mətnin məzmununa aid sualları cavablandırmaqla mətni diqqətlə dinlədiklərini nümayiş etdirirlər.

Cavab:

1. Le Prins nə üçün Amerikaya getmək istəyirdi?

XIX əsrin sonlarında ABŞ-də bir sıra texnoloji yeniliklər baş verirdi. Le Prins də çəkdiyi filmlərin ilk nümayişini məhz burada etmək və bununla da adını kino ixtiraçısı kimi tarixə yazmaq istəyirdi.

2. Le Prinsin Amerikaya səfərinin marşrutu necə idi?

Le Prins Dijon şəhərindən qatarla Parisə, Parisdən Londona, oradan isə gəmi ilə ABŞ-yə getməli idi.

3. O hansı şəhərlər arasında yoxa çıxdı?

Le Prins Dijon və Paris şəhərləri arasında yoxa çıxdı.

4. Hansı faktlar Le Prinsin yoxa çıxmasında Tomas Edisonun əli olduğunu göstərir?

Edison kinetoskop ixtira etmişdi. O, Le Prinsin ixtirasının geniş yayılmasını istəmirdi. Sonradan Le Prinsin ailəsi Edisonu məhkəməyə verdi. Le Prinsin oğlu məhkəmədə iştirak üçün Nyu-Yorka gəlmiş və qaldığı hoteldə naməlum şəxslər tərəfindən qətlə yetirilmişdi.

**Dərslik, səh. 137**

**c.** Kinonun ixtirası ilə bağlı oxuduğunuz və dinlədiyiniz mətnləri müqayisə edin.

Bu tapşırığı yerinə yetirmək üçün şagirdlər “Kinonun yaranması”, “Lümyer qardaşları, yoxsa Lui Le Prins?” və “Le Prinsin yoxa çıxması kimə sərf edirdi?” mətnlərini müqayisə edirlər. Hər bir mətndəki məlumatlara əsasən düzgün cavabları müəyyənləşdirirlər.

Cavab: 1 – b; 2 – a; 3 – c; 4 – a.

**Dərslik, səh. 137**

**ç.** Sizcə, nə üçün ixtiraçılar öz ixtiralarını patentləşdirməyə çalışırlar? Əvvəlki dərslərdə teleqrafın, telefonun və kinonun tarixi haqqında əldə etdiyiniz məlumatlardan istifadə etməklə fikirlərinizi əsaslandırın.

Şagirdlər həm 4-cü bölmədə patentlə bağlı öyrəndiklərinə, həm də verilmiş mətnə əsasən bu tapşırığı yerinə yetirə bilərlər.

**Dərslik, səh. 138**

**d.** Mətnin başlığında qoyulmuş suala bir cümlə ilə cavab verin.

Cavab: Patent ixtiraçıların hüquqlarını qoruyur.

**Dərslik, səh. 138**

**e.** Sizcə, bəzi ölkələrdə patent alanların çoxluğu nədən xəbər verir? Doğru cavabları seçin və cavabınızı əsaslandırın.

Cavab: 1. ölkədə elmin, təhsilin inkişafından

Patent almaq üçün yüksək səviyyəli bilik və bacarıq tələb olunur.

3. insanların intellektual mülkiyyət hüquqlarının qorunmasından

Patentlərin çoxluğu həm də ölkədə hüquqi bazanın güclü olduğunu göstərir. Çünki ixtiraçılar yalnız fikirlərinin qorunacağını bildikdə patent almağa çalışırlar.

**İş dəftəri, səh. 69**

**a.** Dinləmə mətninə istinad etməklə cümlələri tamamla.

Bu tapşırıq şagirdlərin mətndən öyrəndiklərinin tətbiqinə xidmət edir. Nöqtələrin yerinə uyğun cavabları yazmaqla cümlələri tamamlamaq lazımdır.

Cavab: 1. Xəfiyyələr hesab edirdilər ki, Le Prins təsadüfi qarətin qurbanı olub, çünki o dövrdə qatarların kupesindən birbaşa çölə çıxış var idi.

2. Jurnalistlər bu versiyaya inanmadılar, çünki daha inandırıcı versiya var idi.

**İş dəftəri, səh. 69**

Layihə

**b.** “Patent nə üçün lazımdır?” mətninə aid suallarla bağlı uyğunluğu müəyyən et.

Cavab: 1 – B; 2 – C; 3 – A.

**İş dəftəri, səh. 69**

**c.** Öyrəndiyin məlumatlardan istifadə etməklə aşağıdakı fikri əsaslandır.

Tapşırıq həm şagirdlərin öyrəndikləri məlumatları necə qavradığını yoxlamağa imkan yaradır, həm də fikrini əsaslandıra bilmə bacarığını inkişaf etdirir.

*İxtiranı patentləşdirmək ixtiraçı üçün çox vacibdir.*

Cavab: Patent ixtiraçıya xüsusi hüquqlar verir, yəni başqaları icazəsiz həmin məhsulu istehsal edə və ya sata bilməzlər. İxtiraçı patent sayəsində ixtiradan gəlir əldə edir və öz hüquqlarını qoruyur. Həm də patent yeni ixtiraların yaranmasına da imkan verir.

**Müəllimin nəzərinə!** Növbəti dərs üçün şagirdlərə maraqlı patentlər, patent almış ixtiraçılar haqqında araşdırma aparmaq tapşırılır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Fikrini əsaslandırmaqla fakt və hadisələrə münasibət bildirir. | Tapşırıq a, ç, e (dərslik) |
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq b (dərslik) |
| Dinlədiyi və oxuduğu mətnlərdəki məlumatları müqayisə edir. | Tapşırıq c (dərslik) |
| Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir. | Tapşırıq a, c (iş dəftəri) |

# 3-cü DƏRS
# Müsabiqə

**Təlim nəticələri:**
• Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir (st. 2.1.3).

**Mövzuya yönəltmə**

Əvvəlki dərsdə patent və patentləşdirmə haqda məlumatlar şagirdlərə xatırladılır. Müəllim bu məqsədlə suallar da verə bilər.

**Dərslik, səh. 138**

**a.** Qruplarla iş. Dörd qrupa bölünün və aşağıdakı təlimata uyğun olaraq müsabiqə keçirin.

Bu dərs üçün şagirdlər qruplara bölünürlər. Onlar əvvəlcə verilmiş təlimatla tanış olurlar. Qruplar təlimata uyğun olaraq işləyirlər. Müvafiq ixtiralarla bağlı informasiyalar və problemlər müzakirə edilib müəyyənləşdirilir. Dərsin qruplarla iş formasında aparılması şagirdlərin əməkdaşlıq şəraitində işləməsini təmin etmək, biliklərini tətbiq və təhlil etmək bacarıqlarının inkişafına şərait yaradır.

Təlimata əsasən müsabiqə şərtləri təxminən belə izah oluna bilər:

***1. Məqsəd:***

• Təsvir olunmuş problemin həlli üçün mexanizmin ixtirası;
• Patent almaq üçün ixtiranın təqdimatı.

***2. İxtira nəticəsində həll ediləcək problemlər üçün təkliflər:***

I qrup: Bel çantasından əşya oğurluğunun qarşısını almaq



Layihə

Təklif: Çantalarda siqnalizasiya və biometrik kilid sistemi

1) Çanta yalnız sahibinin barmaq izi və ya telefonundakı xüsusi bir tətbiq vasitəsilə açıla bilər.

2) Çantaya xarici müdaxilə olduqda yüksək səsli siqnal işə düşür və sahibinə xəbərdarlıq mesajı göndərilir.

II qrup: Nəzarətsiz qalmış vannada su daşmasının qarşısını almaq

Təklif: Avtomatik su səviyyəsi nəzarət sistemi

1) Vannaya quraşdırılmış su səviyyəsi sensorları həddindən artıq doluluq aşkar edildikdə su axınını dayandırır.

2) Sistemə əlavə olaraq telefon tətbiqi ilə xəbərdarlıq bildirişi göndərilə bilər.

III qrup: İstifadə olunmayan otaqda işığın avtomatik sönməsi

Təklif: Hərəkət sensorlu ağıllı işıqlandırma sistemi

1) Otaqda hərəkət və ya işıq sensorları quraşdırılır. Əgər müəyyən bir müddət ərzində hərəkət aşkar edilməzsə, işıq avtomatik olaraq sönür.

2) Bu sistem enerji qənaəti üçün də faydalıdır.

IV qrup: Əlüzyuyandan sonra kranın bağlanmasının unudulması

Təklif: Ağıllı kran sistemi

Əlüzyuyana hərəkət sensorları quraşdırılır. Əgər istifadəçi əlini çəkərsə və müəyyən vaxt ərzində kran bağlı qalmazsa, su axını avtomatik dayandırılır.

***3. Münsiflər heyəti: müəllim və digər qrupların şagirdləri.***

***4. Təqdimatın strukturu və izahı:***

**1. Problemin daha geniş təsviri**

Problemin nə olduğunu konkret və aydın şəkildə izah edin.

Məsələn: “Plastik tullantılar dünyada ətraf mühitin çirklənməsinə səbəb olan əsas problemlərdən biridir. Mövcud təkrar emal metodları bu tullantıların yalnız bir qismini emal edə bilir”.

**2. Problemi həll etmək üçün ixtira olunan mexanizmin izahı**

İxtiranın əsas ideyasını və necə işlədiyini təsvir edin:

1) İxtira problemi necə həll edəcək?

2) Mexanizm və ya proses necə qurulub?

3) Hər hansı yenilik və texnoloji üstünlüklər varmı?

Şəkillər, sxemlər təqdimatı daha maraqlı edə bilər.

Məsələn: “Biz parçalana bilən yeni bir material ixtira etdik ki, bu da plastik əvəzinə istifadə edilə bilər və tamamilə zərərsiz formada torpağa qarışar”.

**3. İxtira tətbiq edildikdən sonra gözlənilən nəticələr**

İxtiranın tətbiqi ilə problemlərin necə həll olunacağını göstərin:

1) Ətraf mühitə, iqtisadiyyata və ya insanlara olan müsbət təsir nədir?

2) İxtiranız hansı dəyişikliklər yaradacaq?

Məsələn: “Bu materialdan geniş istifadə olunarsa, tullantılar 80%-ə qədər azalar və çirklənmənin qarşısı alınar”.

***5. Tövsiyələr:***

**1.** Təklif etdiyiniz mexanizm elmi cəhətdən əsaslandırılmalı və ya oxşar mexanizmlərdən nümunələr verilməlidir;

**2.** Mexanizmi sözlə izah etmək çətin olarsa, sxem və çertyojlardan istifadə edilməlidir;

**3.** Münsif rolunda iştirak etdiyiniz zaman qarşı tərəfin təqdimatında zəif cəhətləri aşkar etməyə çalışın.

**Müəllimin nəzərinə!** Müsabiqəyə hazırlığı bir gün öncədən də tapşırmaq olar. Şagirdlərə araşdırma üçün linklər, ensiklopediyalar, informativ mətnlər təqdim oluna bilər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|

Layihə

| | |
|---|---|
| Aldığı məlumatları rabitəli mətn halına salaraq şifahi təqdim edir. | Tapşırıq a (dərslik) |

# 4-cü DƏRS
# Cümlənin ikinci dərəcəli üzvləri

**<u>Təlim nəticələri</u>:**
• Cümlədə ikinci dərəcəli üzvləri fərqləndirir (st. 4.1.3).

**Mövzuya yönəltmə**
**Dərslik, səh. 139**

**a.** Suallara uyğun sözlər əlavə edərək cümlələri genişləndirin.

Motivasiya xarakterli bu tapşırıq şagirdlərin diqqətini cümlə üzvləri mövzusuna yönəldir. Şagirdlərin aşağı siniflərdən bu üzvlər haqqında bilgiləri var. Müəllim yönəldici suallar vasitəsilə şagirdlərə əvvəlki biliklərini xatırladır.

Tapşırıqda cümlələr təqdim edilmişdir. Şagirdlər suallara uyğun olaraq lazım olan sözü əlavə edib cümlələri genişləndirirlər.

<u>Cavab</u>: 1. O, indi *fabrikdə* işləyir.
2. Rəssam *fırça ilə şəkil* çəkir.
3. Biz *dünən parkda* görüşdük.
4. Mən *hekayəni maraqla* oxuyuram.

**İş dəftəri, səh. 70**

**a.** Suallara uyğun ikinci dərəcəli üzvlər əlavə etməklə cümlələri genişləndir.

<u>Cavab</u>:
1. Müəllim *sabah bizi muzeyə* aparacaq.
2. Güclü *külək ağacları* aşırdı.
3. Bəhruz *bilmədiklərini yoldaşlarından* öyrənir.
4. Mən *tez-tez pəncərədən küçəyə* baxırdım.

**“Bunları bilməliyik” rubrikası.** Müəllim “Bunları bilməliyik” rubrikasında ikinci dərəcəli üzvlər haqqında verilmiş məlumatları şərh edir. Mübtəda və xəbərə aid olan ikinci dərəcəli üzvləri nümunələr əsasında izah edir.

Cümlə üzvlərini dəqiq müəyyənləşdirmək üçün sualı düzgün verə bilmək zərurətini şagirdlərə xatırlatmaq lazımdır.

**Dərslik, səh. 139**

**b.** Verilmiş cümlələrdə ikinci dərəcəli üzvləri tapın və sualını müəyyən edin.

<u>Cavab</u>:
1. Uzaqda çoxlu binalar görünürdü. – uzaqda (harada?), çoxlu (nə qədər?)
2. Tezliklə kəndə gedəcəyik. – tezliklə (nə vaxt?), kəndə (haraya?)
3. Maşınlar hamar küçələrdə şütüyürdü. – hamar (necə?), küçələrdə (harada?)
4. Səbinə sinfimizdə hamıdan yaxşı oxuyur. – sinfimizdə (harada?), hamıdan (kimdən?), yaxşı (necə?)
5. Uşaqlar ağacları suladılar. – ağacları (nəyi?)

**İş dəftəri, səh. 70**

**b.** Verilmiş cümlələrdə ikinci dərəcəli üzvləri seç və cədvəli tamamla.

1. Yaşlı qadın bizi içəri çağırdı.
2. Biz yayda Qubaya getmişdik.

Layihə

3. Tarlalarda bol məhsul yetişmişdi.

| Söz | İfadə vasitəsi | Sualı | B.ü | İ.d.ü |
|---|---|---|---|---|
| yaşlı | sifət | hansı? | | + |
| qadın | isim | kim? | + | |
| bizi | əvəzlik | kimi? | | + |
| içəri | zərf | haraya? | | + |
| çağırdı | feil | nə etdi? | + | |
| biz | əvəzlik | kim? | + | |
| yayda | isim | nə vaxt? | | + |
| Qubaya | isim | haraya? | | + |
| getmişdik | feil | nə etmişdik? | + | |
| tarlalarda | isim | harada? | | + |
| bol | sifət | necə? | | + |
| məhsul | isim | nə? | + | |
| yetişmişdi | feil | nə etmişdi? | + | |

**Dərslik, səh. 139**

**c.** Hansı cümlə yalnız baş üzvlərdən ibarətdir?

Cavab: d. Şəhərimiz gözəldir.

**Dərslik, səh. 139**

**ç.** Uyğunluğu müəyyən edin.

Cavab: a – 4; b – 1; c – 2; d – 3.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlədə ikinci dərəcəli üzvləri fərqləndirir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

# 2-ci fəsil
# SƏSSİZ KİNO

## 1-ci DƏRS
## Səssiz kinonun dahisi

**Təlim nəticələri:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
- Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir (st. 3.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir (st. 3.1.5).

**Mövzuya yönəltmə**
**Dərslik, səh. 140**

**a.** "Çarli Çaplin" adı sizə tanışdırmı? Bu aktyorun iştirak etdiyi hansı filmlərə baxmısınız? Həmin filmlər müasir filmlərdən nə ilə fərqlənir?

Şagirdlər Çarli Çaplinlə bağlı bildiklərini danışıb fikir mübadiləsi apara bilərlər. Bu tapşırıq eyni zamanda danışma bacarığının inkişafına kömək edir.

**Oxu**

**Mətn üzrə iş.** "Səssiz kinonun dahisi" mətni qeyd götürməklə oxunur. Oxu bitdikdən sonra şagirdlərin qeydləri müzakirə olunur. "Söz mücrüsü"ndəki yeni sözlər nəzərdən keçirilir, lüğət vasitəsilə mənaları dəqiqləşdirilir.

**Söz ehtiyatı**
**Dərslik, səh. 142**

**b.** Mətndə fərqləndirilmiş sözlərin işləndiyi cümlələri bir daha oxuyun. Kontekstə əsasən uyğunluğu müəyyən edin.

Bu tapşırıq yeni sözlərin mənimsədilməsinə xidmət edir. Şagirdlər yeni tanış olduqları sözlərlə onların izahlarını uyğunlaşdırmalıdırlar. Bununla da onların sözün mənasını izah etmək bacarığı inkişaf edir.

Cavab: 1 – ç, 2 – d, 3 – a, 4 – b, 5 – c.

**Dərslik, səh. 142**

**c.** Mətnə əsasən gülüşün növlərini – satira və yumoru müəyyən edin.

Cavab: 1 – satira; 2 – yumor.

**Dərslik, səh. 142**

**ç.** Sözlərlə şəkilləri uyğunlaşdır və mənalarını təxmin et.

Bu tapşırıqda şagirdlər sözlərin mənasını təxmin etməyə çalışırlar. Daha sonra lüğətdən həmin sözləri tapıb dəqiq izahını öyrənirlər.

Cavab: 1 – c, 2 – a, 3 – b.

**Dərslik, səh. 142**

**d.** Mətndə hansı suallara cavab yoxdur?

Tapşırığın məqsədi şagirdlərin faktoloji qavrama bacarıqlarını yoxlamaqdır. Cavab:
2. Çaplin harada təhsil alıb?
4. Aktyor neçənci ildə ABŞ-yə köçüb?
6. Çaplin hansı filmlərdə sərsəri obrazı yaradıb?

Layihə

8. Çarli Çaplin neçənci ildə vəfat edib?

**İş dəftəri, səh. 71**

**a.** Mətnə əsasən doğru fikirləri seç.

Şagirdlər mətnə əsasən doğru fikirləri müəyyən edirlər. Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır.

Cavab:

2. Teatrda səhnələri dubl və montaj etmək mümkün deyil.
3. Çarli Çaplin küçə uşaqları ilə bir yerdə böyüyüb.
4. Çaplin kino artisti karyerasına öz ölkəsində başlamışdı.
5. Tamaşaçılar Çarli Çaplinin kino obrazını bəyənirdilər.
6. Çaplinin şərəfinə səma cismi adlandırılmışdır.

**Dərslik, səh. 143**

**e.** Teatrla müqayisədə kinonun hansı üstünlükləri var idi?

Cavab təxminən belə ola bilər:

Teatr yalnız səhnədə göstərilirdi. Kinodakı hadisələr müxtəlif yerlərdə çəkilirdi. Kino bir anda çoxlu tamaşaçıya çatmaq imkanı yaradırdı. Film eyni anda bir neçə şəhərdə və ya ölkədə nümayiş etdirilə bilərdi, teatr isə yox. Filmlər dəfələrlə nümayiş etdirilə bilirdi. Teatr tamaşaları isə canlı olurdu. Teatrda artist səhv edə bilməzdi, çünki hər şey tamaşaçı qarşısında baş verirdi. Kinoda isə səhvi düzəltmək mümkün idi. Kinoda aktyor oyununu yaxından görmək mümkün idi. Teatrda tamaşaçılar aktyorları uzaqdan izləyirdi.

**Dərslik, səh. 143**

**ə.** Nə üçün səsli filmlər çəkməyə başlayan Çaplin özünün məşhur sərsəri obrazından uzaqlaşdı?

Cavab: Səsli film yarandıqdan sonra Çarli Çaplin artıq məzlum sərsəri obrazından uzaqlaşdı. Onun fikrincə, bu obraz filmdə danışa bilməzdi, tamaşaçılar da onun susmasına öyrəşmişdilər. Səsli filmlərdə Çaplin incə yumoru kəskin satira ilə əvəz etdi.

**Dərslik, səh. 143**

**f.** Aşağıdakı yarımbaşlıqlar mətnin hansı hissələrinə uyğun gəlir?

Şagirdlər mətnin tərkib hissələrinə istinad etməklə tapşırığı yerinə yetirirlər.

Cavab: 1 – c, 2 – d, 3 – a, 4 – e, 5 – b, 6 – ç

**Dərslik, səh. 143**

**g.** Aşağıdakı cümlə mətndə hansı cümlədən sonra verilə bilər?

Bu tapşırıq şagirdlərin mətni nə qədər diqqətlə oxuduqlarını yoxlamağa imkan verir.

Cavab: "1927-ci ildə "Caz müğənnisi" filmi ilə kino tarixinin səsli film dövrü başladı və səssiz kinoya maraq azaldı" cümləsi mətnin "a" hissəsindəki son cümlədən sonra verilə bilər.

**İş dəftəri, səh. 71**

**b.** Mətnə əsasən suallara cavab yaz.

Cavab:

*1. Səncə, səssiz filmlərdə nə üçün musiqi səslənirdi?*

Filmlər səssiz olduğu üçün izləyicilər məzmunu daha yaxşı anlasın deyə nümayiş zamanı bəzən musiqiçilər səhnədə epizodlara uyğun melodiyalar səsləndirirdilər.

*2. Çarli səssiz filmdən niyə əl çəkmək istəmirdi?*

Düşünürdü ki, tamaşaçı onu qəbul etməz.

Layihə

İş dəftəri, səh. 71

c. Mətndən Çarli Çaplin haqqında hansı məlumatları öyrəndin?

Şagirdlər Çaplin haqqında məlumat vərəqini tamamlayırlar. Bununla da mətnə aid əsas məlumatları mənimsədiklərini nümayiş etdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a (dərslik) |
| Kontekstdən çıxış edərək sözlərin mənasını müəyyən edir. | Tapşırıq b, c, ç (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq d, e, ə (dərslik); a, b, c (iş dəftəri) |
| Mətnin məzmununa uyğun gələn fikirləri müəyyən edir. | Tapşırıq f, g (dərslik) |

# 2-ci DƏRS
# Pantomim və səssiz film

**Təlim nəticələri:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
- Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir (st. 1.1.1).
- Verbal informasiyanı qeyri-verbal şəkildə ifadə edir (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Şagirdləri mövzuya yönəltmək üçün müəllim onlara suallar verə bilər:
1. Pantomim nədir? Pantomimlə teatrın digər növləri arasında nə fərq var?
2. Sizcə, pantomim hansı hissləri daha yaxşı çatdıra bilər – sevinc, kədər, ya qorxu?
3. Pantomim aktyorlar yalnız hərəkətlərdən istifadə edərək necə bir hekayə yarada bilərlər?
4. Bir pantomim tamaşasında iştirak etmək istəyərdinizmi?

**Müəllimin nəzərinə!** Pantomim haqqında suallar verməklə şagirdlərin bu incəsənət növünü daha yaxşı başa düşmələrini və maraqlanmalarını təmin etmək olar. Yutubdan müəyyən bir pantomim tamaşasından fraqment də izləmək tövsiyə edilir.

**Dinləmə**

Dərslik, səh. 143

a. Sizcə, Çarlinin uşaqkən pantomim, akrobatika və kloun texnikası üzrə qazandığı bacarıqlar səssiz filmdə onun aktyorluq ifasına necə təsir göstərib?

Cavab təxminən belə ola bilər:

Çarli Çaplinin uşaqkən pantomim, akrobatika və kloun texnikası üzrə qazandığı bacarıqlar ona aşağıdakı üstünlükləri qazandırmışdır:

1. Səssiz filmlərdə dialoq olmadığı üçün Çaplin duyğuları, düşüncələri və hadisələri pantomim bacarıqları ilə ifadə edirdi.

2. Akrobatika ustalıqları Çaplinə mürəkkəb hərəkətləri asanlıqla yerinə yetirmək imkanı verirdi.

3. Klounluq təcrübəsi onun ifasına xüsusi bir yumor və əyləncəli üslub qatmışdır. Bu texnika ilə o, tamaşaçılara gülüş bəxş etmişdir.



Layihə

***Pantomim və səssiz film***

*Pantomim və səssiz kino incəsənətin müxtəlif növləri olsa da, onlar arasında müəyyən oxşarlıq var. Pantomim Qədim Yunanıstanda və Romada meydana çıxıb. Səssiz kino XIX əsrdə yaranmış və XX əsrin əvvəllərində inkişaf etmişdir. Sözlər olmasa da, hər ikisi tamaşaçılara güclü təsir edir. Hər ikisində aktyor oyununun ifadəli olması və vizual elementlər mühüm rol oynayır. Aktyorlar öz fikirlərini və emosiyalarını sössüz ötürürlər, bədən hərəkətlərindən, jestlərdən və mimikalardan istifadə edirlər. Bu vizual vasitələr əsasında tamaşaçılar personajları anlaya bilirlər. Hər iki janr aktyorlardan böyük bacarıq tələb edir. Dialoqlar olmadan onlar öz rolunu elə ifa etməlidirlər ki, baxanlar hadisələri aydın başa düşsünlər. Pantomim və səssiz kino müasir teatrın və kinematoqrafiyanın inkişafında böyük rol oynamışdır.*

*Buna baxmayaraq, onların arasında fərqli cəhətlər də vardır. Pantomim auditoriya qarşısında canlı ifa edilən teatr sənətidir. Pantomim tamaşaları, adətən, qısa olur. Burada aktyor hərəkətləri ilə müəyyən bir hadisəni "nəql edir", jest və mimikaları ilə səhnədə baş verənlərə münasibətini ifadə edir. Beləliklə, o, tamaşaçılara informasiya verməklə yanaşı, onları duyğulandırır, düşünməyə vadar edir. Pantomim aktyorları, adətən, yüksək bədən plastikasına malik olurlar, çünki süjetdən asılı olaraq, bəzən akrobatik hərəkətlər etmək lazım gəlir. Tamaşada onların xarici görünüşü xüsusi əhəmiyyət daşıyır, ona görə də aktyorları oynadıqları obraza uyğun qrimləyir, onlara xüsusi geyim seçirlər. Bu, təbiidir, çünki danışıq olmayan yerdə obrazın xarakteri daha çox xarici görkəminə görə bəlli olur.*

*Səssiz film isə ekranda baxılmaq üçün çəkilir. Kinoda kameradan, montajdan, vizual effektlərdən və bəzən informasiyanın ötürülməsi üçün titrlərdən istifadə olunur. Səssiz film çox vaxt musiqi ilə müşayiət olunur. Burada bütöv hadisələr təsvir olunur, personajlar iştirak edir.*

*Hər iki janr indi də tamaşaçıları ruhlandırır və heyrətləndirir, dərin emosiyaları və hadisələri söz olmadan təsvir edə bilir. Təsadüfi deyil ki, səssiz filmlər kralı Çarli Çaplinin nəvəsi məşhur akrobat və pantomim ustasıdır.*

**Dərslik, səh. 143**

**b.** "Pantomim və səssiz film" dinləmə mətninə əsasən suallara cavab verin.

Cavab:

1. Pantomim qədim dövrlərdə Yunanıstanda və Romada meydana çıxıb.
2. Dialoqlar olmadan onlar öz rolunu elə ifa etməlidirlər ki, baxanlar hadisələri aydın başa düşsünlər.
3. Pantomim canlı ifa edilir. Pantomim tamaşaları, adətən, qısa olur. Burada aktyor jest və mimikaları ilə fikirlərini ifadə edir. Səssiz filmə ekranda baxılır. Səssiz film çox vaxt musiqi ilə verilir. Burada bütöv hadisələr təsvir olunur, personajlar iştirak edir.
4. Kinoda kameradan, montajdan, vizual effektlərdən və bəzən informasiyanın ötürülməsi üçün titrlərdən istifadə olunur. Səssiz film çox vaxt musiqi ilə müşayiət olunur.

**Dərslik, səh. 143**

**c.** Aşağıdakı söz və ifadələrin mənasını araşdırın.

Cavab: Vizual elementlər – görə bildiyimiz xüsusiyyətlər (məsələn: xətt, forma, rəng, ölçü və s.)

Dialoq – iki və ya daha çox şəxs arasında söhbət

Titr – kinofilmlərdə, televiziya verilişlərində məzmuna aid informativ, izahedici yazı və ya tərcümə mətni

Vizual effektlər – real səhnələrə əlavə olunan qrafik elementlər

**Dərslik, səh. 143**

**ç.** Cümlələri mətnə əsasən tamamlayın.

Cavab:

1. Pantomim aktyorlarını obraza uyğun qrimləyir, onlara xüsusi geyim seçirlər, çünki *tamaşada onların xarici görünüşü xüsusi əhəmiyyət daşıyır.*

2. Pantomim aktyorları, adətən, yüksək bədən plastikasına malik olurlar, çünki *süjetdən asılı olaraq, bəzən akrobatik hərəkətlər etmək lazım gəlir.*

**Dərslik, səh. 143**

**d. *Yaradıcılıq işi.*** Təxəyyülünüzə uyğun pantomim tamaşası hazırlayın.
- Pantomim səhnəsi üçün qısa ssenari yazın.
- Ssenariyə uyğun olaraq hərəkətləri və jestləri nümayiş etdirin.

Yaradıcı xarakter daşıyan bu tapşırıq qruplar şəklində yerinə yetirilə bilər. Şagirdlər pantomim barədə əldə etdikləri biliklər əsasında ssenari yazırlar. Sonra yazdıqları ssenarini təqdim edirlər. Müəllim ssenaridə hərəkətlərin, jestlərin, hiss-həyəcanının necə əks olunmasına diqqət yetirir. Sonra qruplar yazdıqları ssenari əsasında mətni növbə ilə səhnələşdirirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a (dərslik) |
| Dinlədiyi mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq b, ç (dərslik) |
| Verbal informasiyanı qeyri-verbal şəkildə ifadə edir. | Tapşırıq d (dərslik) |

# 3-cü DƏRS
# Çarli Çaplinin qızı Ceraldinaya məktubu

**Təlim nəticələri:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
- Mətndəki hadisələrə və dialoqlara görə obrazlar haqqında fikir yürüdür (st. 3.1.5).

**Mövzuya yönəltmə**

**Danışma**

**Dərslik, səh. 144**

**a.** “Səssiz kinonun dahisi” mətnində Çarli Çaplinin xarakteri haqqında məlumat varmı? Mətni oxuduqdan sonra yalnız aktyor deyil, bir şəxsiyyət kimi Çaplin haqqında sizdə hansı təəssürat yarandı? Mətndə Çaplinin xatirələrindən verilmiş sitatları oxuyun və Çarli Çaplinin xarakteri haqqında fikir yürüdün.

Tapşırıqda verilmiş motivasiya sualı ətrafında şagirdlərin fikirləri dinlənilir. Müəllim ehtiyac olduqca şagirdlərə fikirlərini tam ifadə etmələri üçün yardımçı suallar da verə bilər.

Cavab: Çarli küçədə böyümüş, kasıb yaşamışdır. Varlıların yanında həmişə özünü gücsüz, “balaca adam” kimi hiss etmişdir. O dövrdə yoxsullar məzlum, uğursuz adamlar sayılırdı. Filmlərdə də Çaplin elə “balaca adam”, sərsəri obrazı yaratmışdır. Amma həmişə özünü qürurlu, məğrur aparır, güclülərin qarşısında əyilmirdi. Çarli Çaplin öz obrazı barədə yazırdı: *“Bütün filmlərimin əsasında belə bir situasiya durur: mən mütləq nəsə bir işə düşürəm, amma tam ciddi sifət alıram, guya heç nə olmayıb. Öz ləyaqətimi qoruyuram və hətta döyülsəm belə, əzilmiş şlyapamı hamarlayır, pencəyimin tozunu silir və məğrur şəkildə yoluma davam edirəm”.*

Layihə

**Dərslik, səh. 144**

**b.** Çarli Çaplinin uşaqları haqda qısa arayışı və qızı Ceraldinaya məktubunu oxuyun. Böyük aktyorun şəxsiyyəti haqqında fikirlərinizi tamamlayın.

Cavab: Şagirdlər məktubu oxuyandan sonra Ç.Çaplin haqqında fikirlərini tamamlayırlar.

**Oxu**

**Mətn üzrə iş.** "Çarli Çaplinin qızı Ceraldinaya məktubu" mətni şagirdlər tərəfindən müəyyən vaxt ərzində səssiz oxunur. Şagirdlər mətndən tanış olmayan söz və ifadələri qeyd edirlər.

**Dərslik, səh. 145**

**c.** Məktubda Çarlinin öz həyatı haqqında danışdığı hansı məqamlar sizə əvvəl oxuduğunuz mətndən tanışdır?

Şagirdlərin cavabı təxminən belə ola bilər:

Çaplinin ailəsi kasıb məhəllədə yaşayırdı. O, küçədə böyümüşdü. Çarli oxuyub rəqs etmiş, çox vaxt aclıq çəkmişdi. Ağır həyatı olsa da, daim insanları güldürmüşdü.

**Dərslik, səh. 145**

**ç.** Məktubda hansı məqamlar sizi daha çox təsirləndirdi?

Şagirdlərin cavabları müxtəlif ola bilər.

**Dərslik, səh. 146**

**d.** Çarli Çaplin Ceraldinaya məktubunda hansı tövsiyələri verir? Uyğun cümlələri seçin və mətnə istinad etməklə əsaslandırın.

Şagirdlər tapşırığı yerinə yetirməklə mətnin məzmununu qavradıqlarını nümayiş etdirirlər.

Cavab:

2. Başqalarına qarşı təkəbbürlü olma.
3. Əliaçıq, mərhəmətli ol, kasıblara əl tut.
4. Zəhmətkeş ol, sənətin sirlərini daha dərindən öyrən.
5. Həmişə öz mövqeyin, prinsiplərin olsun, hətta atanla da mübahisə etməkdən çəkinmə.
6. Pulunu qənaətlə xərclə, israfçılıq etmə.
8. Mənəvi dəyərləri puldan, var-dövlətdən üstün tut.

**Yazı**

**İş dəftəri, səh. 72**

**a.** Oxuduğun məktubdan və Çarli Çaplin haqqında öyrəndiyin məlumatlardan çıxış edərək sualları cavablandır.

Şagirdlər tapşırığı yerinə yetirməklə həm mətnin məzmununu, həm də mövzu ilə bağlı məlumatları qavradıqlarını nümayiş etdirirlər.

Cavab: 1. 76 yaşı

2. Parisdə

3. Çarli özünü nəzərdə tutur.

**İş dəftəri, səh. 72**

**b.** Səncə, nə üçün Çarli Çaplin qızına xeyirxah olmağı tövsiyə edərkən tez-tez öz həyatını xatırlayır?

Cavab: Çünki Çarli çox ağır həyat yaşamışdı, küçələrdə böyümüşdü, kiçik yaşlarından pul qazanmağa məcbur olmuşdu, insanlardan xeyirxahlıq görməmişdi.

**İş dəftəri, səh. 72**

Layihə

**c.** Məktuba əsasən Çarli Çaplinin xarakteri və qızına münasibəti haqqında nə demək olar? Mətndən uyğun sitatlar gətirməklə cavabını əsaslandır.

Cavab təxminən belə ola bilər:

Məktuba əsasən demək olar ki, Çarli Çaplinin xarakterinə müdriklik, səmimilik, sadəlik, humanistlik xasdır. O, həyatı dərindən anlayan şəxsdir və dəyərli məsləhətlər verir. Çaplin üçün həyatın zənginliyindən daha çox insanın daxili aləmi əhəmiyyətlidir. O, sənətin və uğurun arxasınca qaçarkən insanlıq, mərhəmət və həssaslıq kimi dəyərləri itirməməyi vacib sayır.

Məktubda bir ata kimi Çaplinin qızına dərin sevgisi bəlli olur. Çaplin qızına həm bir sənətçi, həm də insan olaraq düzgün yolda qalmasını tövsiyə edir. O, qızının artist kimi uğurlarını dəstəkləsə də, onun təvazökar və mərhəmətli qalmasını istəyir.

Bu məktub Çaplinin həm böyük aktyor, həm də sevgi dolu bir ata kimi xarakterini ortaya qoyur. Onun qızına olan münasibəti ailənin, tərbiyənin və şəxsi keyfiyyətlərin necə vacib olduğunu göstərir.

Daha sonra şagirdlər mətndən fikirlərinə uyğun sitatlar gətirirlər.

**İş dəftəri, səh. 72**

**ç.** Səncə, Çaplinin ən dəyərli tövsiyəsi hansıdır? Cavabını əsaslandır.

Cavab təxminən belə ola bilər:

“Mən mələk olmamışam, ancaq həmişə insan olmağa can atmışam. Sən də buna çalış”.

Yəni Çaplin deməyə çalışır ki, hər kəsin nöqsanı ola bilər. Amma həmişə insanlığı, mənəvi dəyərləri qorumaq lazımdır.

**Müəllimin nəzərinə!** Növbəti dərs üçün şagirdlərə tövsiyə edilir ki, Çaplinin məşhur filmlərindən birini izləsinlər: “Qızıl hərisliyi” (*ing.* Gold Rush); “Yeni dövr” (*ing.* Modern times); “Balaca” (*ing.* The Kid); “Böyük şəhərin işıqları” (*ing.* City Lights).

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a, ç (dərslik); ç (iş dəftəri) |
| Mətndəki hadisələrə və dialoqlara görə obrazlar haqqında fikir yürüdür. | Tapşırıq b, c, d (dərslik); a, b, c (iş dəftəri) |

# 4-cü DƏRS
# Esse

**Təlim nəticələri:**
- Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Esse yazmaq bacarığını möhkəmləndirmək üçün film mövzusu təqdim olunur. Müəllim essenin yazılması işinə hazırlıq məqsədilə yönəldici suallarla şagirdləri mövzu üzrə düşündürə bilər.

**Müəllimin nəzərinə!** Essenin yazılmasına keçməzdən əvvəl mövzu üzrə kiçik müzakirə təşkil oluna bilər. Esse yazarkən tərkib hissələri, fikir bildirmə, fikirlərini təsdiqləmək üçün arqumentlərdən istifadə olunması xatırlanır.

**Yazı**

**Dərslik, səh. 146**

**a.** Yutub platformasında Çarli Çaplinin aşağıdakı filmlərindən birini izləyin. Film haqqında esse yazın.

Şagirdlər baxdıqları filmlər haqqında fikirlərini əsaslandıraraq esse yazırlar. Əsas məqsəd qazanılmış



Layihə

bilik və bacarıqların möhkəmləndirilməsidir. Essenin strukturu verilmiş təlimata əsaslanmalıdır.

**İş dəftəri, səh. 73**

**a.** Baxdığın filmdən epizodu tap və onu təsvir et.

Tapşırığın tələbinə əsasən şagirdlər baxdıqları filmə uyğun olan epizodu tapırlar və onu yazılı şəkildə təsvir edirlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir. | Tapşırıq a (dərslik); a (iş dəftəri) |

# 5-ci DƏRS
# Tamamlıq

**Təlim nəticələri:**
- Cümlədə tamamlığı və onun ifadə vasitəsini müəyyənləşdirir (st. 4.1.3).

**Mövzuya yönəltmə.** Dərslikdə verilmiş **a** tapşırığı motivasiya xarakterlidir. Şagirdlər nöqtələrin yerinə sözlər əlavə edib cümlələri tamamlayırlar. Həmin sözlər ismin müəyyən hallarında işlədilir və cümlənin tamamlığı yaranır.

**Yazı**

**Dərslik, səh. 147**

**a.** Nöqtələrin yerinə sözlər əlavə edin və onlara sual verin.

Şagirdlər cümlənin mənasına əsasən müvafiq sözü əlavə etdikdən sonra sualı müəyyənləşdirirlər.

Cavab:

1. Bu gün *dərsi* (nəyi?) öyrənmisən?
2. Maraqlı *filmə* (nəyə?) baxdım.
3. Kitabda *(nədə?)* çoxlu şəkillər var.

"Bunları bilməliyik" rubrikasında tamamlıq haqqındakı məlumat izah edilir.

**Dərslik, səh. 147**

**b.** Cümlələrdəki tamamlıqları seçin və ismin hansı halında olduğunu müəyyən edin.

Tapşırığın məqsədi cümlələrdəki tamamlıqları müəyyənləşdirməkdir. Şagirdlər onları seçir, sonra kök və şəkilçiyə ayıraraq hal şəkilçilərini müəyyənləşdirirlər. Tapşırıq şagirdlərin tamamlıq haqqında biliklərini möhkəmləndirir.

Cavab:

1. Müğənni *konsertə* (yönlük hal) hazırlaşır.
2. Hakim *oyunu* (təsirlik hal) yaxşı idarə etdi.
3. Ana *uşaqları* (təsirlik hal) yedirdi.
4. Gəlin bağlarımızdan *gül* dərək, *çiçək* (qeyri-müəyyən təsirlik hal) dərək.

*(Əhməd Cəmil)*

**Müəllimin nəzərinə!** Şagirdlərin diqqətinə çatdırılır ki, qeyri-müəyyən təsirlik halın adlıq halla bənzərliyi mübtəda və tamamlığı fərqləndirməkdə çətinlik yarada bilər. Qeyri-müəyyən təsirlik halda işlənən tamamlıq xəbərin yanında gəlir. Onların arasına söz daxil etmək olmur.

**Dərslik, səh. 147**

Layihə

**c.** Tamamlıqları göstərin və ifadə vasitəsini müəyyənləşdirin.

Cavab:
1. Sevil məktubu (isim) anasına (isim) oxudu.
2. Bunları (əvəzlik) babam kənddən göndərib.
3. Uşaq kitab (isim) oxuyur.
4. Biz adamların çoxunu (söz birləşməsi) tanımırıq.
5. Beşdən (say) ikini (say) çıx.
6. Qırmızını (sifət) çox sevirəm.

Müəllim “Bunları bilməliyik” rubrikasında qeyri-müəyyən təsirlik hal haqqındakı məlumatları izah edir.

**Dərslik, səh. 147**

**ç.** Hansı cümlələrdə tamamlıq qeyri-müəyyən təsirlik haldadır?

Cavab: 2. Elvin dostuna *məktub* yazdı.
3. Atam mənə *saat* aldı.
6. Nigar kinoteatrda film izlədi.

**İş dəftəri, səh. 74**

**a.** Verilmiş cümlələrdə tamamlıqları tap və altından xətt çək.

Cavab:
1. Mən bu hədiyyəni sənə almışam.
2. Yollar maşınlarla doludur.
3. Baba nəvəsini bulvara apardı.
4. Gülnaz kitabxanaçıdan istədiyi kitabı soruşdu.
5. Səndə araşdırmağa böyük həvəs var.

**İş dəftəri, səh. 74**

**b.** Hansı cümlədə tamamlıq söz birləşməsi ilə ifadə olunub?

Şagirdlər tamamlıq haqqındakı biliklərinə əsasən düzgün cavabı seçirlər.
Cavab: b. Yeni sözlərin mənasına diqqət edin.

**İş dəftəri, səh. 74**

**c.** Uyğunluğu müəyyən et.

Cavab: 1 – c, 2 – a, 3 – e, 4 – b, 5 – d.

**İş dəftəri, səh. 74**

**ç.** Tamamlıqların altından xətt çək, ifadə vasitəsi və sualını müəyyən edib yaz.

Cavab:
1. Təəssüf ki, orada heç kimi görə bilmədik. əvəzlik, kimi?
2. Məktəbimizin binasını təmir edəcəklər. söz birləşməsi, nəyi?
3. Ensiklopediyadan xeyli məlumat öyrəndim. isim, nədən? nə?
4. Bu gün biz maraqlı tamaşa hazırladıq. isim, nə?
5. Müğənni birdən oxumağı dayandırdı. məsdər, nəyi?

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|

Layihə

| | |
|---|---|
| Cümlədə tamamlığı və onun ifadə vasitəsini müəyyənləşdirir. | Dərslik və iş dəftərində verilmiş tapşırıqlar |

Layihə

# 3-cü fəsil
# AZƏRBAYCAN KİNOSU

## 1-ci DƏRS
## Azərbaycanda kinonun yaranması və inkişafı

**Təlim nəticələri:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
- Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir (st. 3.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir (st. 3.1.3).
- Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir (st. 3.1.4).
- Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir (st. 4.1.1).

**Mövzuya yönəltmə.** Müəllim dərslikdəki ilk tapşırıqla şagirdləri mövzuya yönəldə bilər.

**Danışma**

**Dərslik, səh. 148**

**a.** Hansı Azərbaycan filmlərinə baxmısınız? Bəyəndiyiniz film haqqında danışın.

**Oxu**

**Mətn üzrə iş.** "Azərbaycanda kinonun yaranması və inkişafı" mətni verilmiş müddət ərzində səssiz oxunur. Müəllim şagirdlərin diqqətini "Söz mücrüsü" rubrikasına yönəldir. Şagirdlər yeni söz və ifadələrin mənasını mətnin məzmununa əsasən izah edirlər.

**Dərslik, səh. 148**

**b.** Aşağıdakı aforizmi izah edin.
*Foto gerçəkdir, kino isə saniyədə iyirmi dörd dəfə gerçək.*

Cavab: Burada deyilir ki, foto bir anı göstərir, amma kino sizə həmin anın necə baş verdiyini göstərir. Kino həyatı daha canlı və əyləncəli edə bilir. Kino saniyədə 24 şəkil çəkməklə hərəkəti və həyatı göstərir.

**Söz ehtiyatı**

**Dərslik, səh. 150**

**c.** Mətnin 1-ci cümləsində "qara qızıl" dedikdə nə nəzərdə tutulur?

Cavab: Təbii sərvətlər içərisində neftin xüsusi yeri var. O ən mühüm təbii enerji ehtiyatlarından sayılır. Buna görə də onu "qara qızıl" adlandırırlar.

**"Yadda saxla" rubrikası.** Bu rubrikada məcazlar haqqında məlumat verilir. Məcazların bədii mətnləri daha təsirli və oxunaqlı etməsi nəzərə çatdırılır.

**Dərslik, səh. 150**

**ç.** Mətndən seçilmiş cümlədə hansı sözü məcaz kimi qəbul etmək olar?

Tapşırığın məqsədi məcazlar haqqında daha geniş təsəvvür yaratmaq və onları şagirdlərə mənimsətməkdir.

Cavab: ordu

**Dərslik, səh. 150**

**d.** Kontekstdən çıxış edərək sözlərlə izahlar arasındakı uyğunluğu müəyyən edin.

Cavab: 1 – c, 2 – a, 3 – d, 4 – b

Layihə

**Dərslik, səh. 150**

**e.** Doğru, yoxsa yanlış?

Tapşırıq şagirdlərin mətni necə qavradıqlarını müəyyən etmək məqsədi daşıyır.
Cavab: 1 – Y, 2 – D, 3 – D, 4 – Y, 5 – D.

**İş dəftəri, səh. 75**

**a.** Mətndə hansı suallara cavab yoxdur?

Şagirdlər mətndən aldıqları məlumatlar əsasında tapşırığı yerinə yetirirlər.
Cavab: 2. Mişon neçənci ildə Lümyer qardaşları ilə görüşdü?
5. Bakıda ilk kinostudiyanın rəhbəri kim idi?

**Dərslik, səh. 150**

**ə.** Aşağıdakı cümləni mətnin hansı abzasına əlavə etmək olar?

Şagirdlər verilmiş məlumatların mətnin hansı abzasına uyğun olduğunu müəyyən edirlər. Tapşırıq vasitəsilə həm mövzu üzrə yeni informasiya əldə edir, həm də məzmun və strukturun əlaqələndirilməsi üzrə bilik və bacarıqlarını möhkəmləndirirlər.
Cavab: Verilmiş cümləni mətnin 3-cü abzasına əlavə etmək olar.

**Dərslik, səh. 150**

**f.** Baxdığınız filmlərə istinad edərək mətnin sonuncu cümləsini şərh edin.
• Sizcə, Azərbaycan filmləri Qarabağ həqiqətlərini bütün dünyaya necə çatdıra bilər?
• Azərbaycan musiqisi, tarixi abidələrimiz, mətbəximiz və s. filmlərdə necə əks olunur?

Cavab təxminən belə ola bilər:

1) Beynəlxalq festivallarda maraq doğura biləcək filmlər çəkərək Qarabağ mövzusunu təqdim etmək mümkündür. Belə filmlər həm tarixi həqiqətləri, həm də Qarabağın mədəniyyətini və mənəvi dəyərlərini əks etdirə bilər.

Tarixi hadisələr, şəhidlər, müharibənin təsirləri və Qarabağın bərpası ilə bağlı sənədli filmlər çəkmək olar. Tanınmış aktyorların və rejissorların iştirakı ilə çəkilmiş filmlər daha çox izləyici cəlb edə bilər. Qarabağ həqiqətləri ilə bağlı filmlər rəqəmsal platformalarda yer alsa, təsir daha böyük olar. Filmlərdə Qarabağın zəngin tarixi, mədəniyyəti və təbiət gözəllikləri göstərilməlidir. Azərbaycan torpağı olması vurğulanmalıdır.

2) Filmlərdə Azərbaycanın klassik və xalq musiqiləri tez-tez fon musiqisi kimi istifadə olunur. Bəzən musiqi süjetin əsas mövzusu olur. Filmlərdə Qarabağ, Şəki Xan sarayı, İçərişəhər kimi yerlər Azərbaycanın tarixi irsini vurğulamaq üçün göstərilir. Filmlərdə milli yeməklər tez-tez süfrə səhnələrində təqdim olunur. Bu səhnələr mətbəximizin zənginliyini, onun ailə və dostluq münasibətlərindəki rolunu göstərir.

**Yazı**

**İş dəftəri, səh. 75**

**b.** Mətndən çıxış edərək Azərbaycanda kinematoqrafiyanın inkişafında neft sənayesinin rolu haqqında məlumat yaz.

Cavab təxminən belə ola bilər:

XIX əsrin sonunda Bakı dünyanın ən iri neft mərkəzlərindən biri idi. İş adamları buraya axışıb gəlirdi. Müasir texnologiyalar və yeniliklər tətbiq edilirdi. Azərbaycan milyonçuları kinematoqrafiyanın inkişafına da şərait yaratdılar. Neft sənayesinin təsviri ilk Azərbaycan filmlərinin əsas mövzularından biri oldu. Bu filmlər yalnız sənədli xarakter daşımırdı, həm də Azərbaycanın neft sənayesini dünyaya tanıdırdı.

Layihə

**İş dəftəri, səh. 75**

**c.** Mətndəki hadisələrin hansı dövrə aid olduğunu müəyyən et.

Cavab: 1 – B, 2 – B, 3 – B, 4 – C, 5 – A, 6 – A, 7 – C, 8 – B.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a, b (dərslik) |
| Kontekstdən çıxış edərək söz və ifadələrin mənasını müəyyən edir. | Tapşırıq c, ç, d (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq e (dərslik); a, c (iş dəftəri) |
| Səbəb-nəticə əlaqəsi qurmaqla mətnin məzmununu şərh edir. | Tapşırıq f (dərslik) |
| Fakt, hadisə, fikir və təəssüratlarını yazıda əks etdirir. | Tapşırıq b (iş dəftəri) |

# 2-ci DƏRS
# Təyin

**Təlim nəticələri:**
- Cümlədə təyini və onun ifadə vasitəsini müəyyənləşdirir (st. 4.1.3).

**Mövzuya yönəltmə.** Dərslikdə verilmiş **a** tapşırığı motivasiya xarakterlidir və şagirdlərin diqqətini mövzuya yönəldir.

**Yazı**

**Dərslik, səh. 151**

**a.** Fərqləndirilmiş sözlərə sual verin, aid olduğu nitq hissəsini və cümlədəki vəzifəsini müəyyən edin.

Şagirdlər fərqləndirilmiş sözlərin sualını və cümlədəki rolunu müəyyən edərək təyin haqqında ilkin biliklərini nümayiş etdirirlər. Eyni zamanda həmin sözlərin hansı nitq hissələrinə aidliyi də müəyyən olunur. Bununla da şagirdlər nitq hissələri ilə cümlə üzvləri anlayışlarını fərqləndirdiklərini göstərirlər.

Cavab: 1. **Dəri** palto qıza çox yaraşırdı – necə?, isim, təyin
2. **Dənizdəki** gəmilər sahilə yaxınlaşırdı – hansı?, sifət, təyin
3. Biz **dördüncü** vaqona mindik – neçənci?, say, təyin

Müəllim "Bunları bilməliyik" rubrikasında verilmiş məlumatları izah edir. Təyin haqqında məlumat verir.

**Dərslik, səh. 151**

**b.** Cümlələrdə təyinləri seçin, ifadə vasitələrini müəyyən edin.

Şagirdlər tapşırığı yerinə yetirməklə cümlələrdəki təyinlərin ifadə vasitələrini müəyyən edirlər.

Cavab: 1. *Taxta* (isim) qapını yavaşca döydüm.
2. Nazlı tədbirdə *üç* (say) şeir söyləyəcək.
3. *Oxuduğun* (feili sifət) əsər haqqında mənə danış.
4. Bayırda *dəhşətli* (sifət) fırtına başlamışdı.
5. *Röyanın qardaşı* (söz birləşməsi) Mətin futbolçudur.
6. Yenə *həmin* (əvəzlik) yerdə görüşərik.

Layihə

**Dərslik, səh. 151**

**c.** Təyinlərin aid olduğu cümlə üzvlərini müəyyən edin.

Cavab: 1 – c, 2 – a, 3 – b

**İş dəftəri, səh. 76**

**a.** Təyinləri tap və hansı cümlə üzvünə aid olduğunu müəyyən et.

Cavab: 1 – b, 2 – ç, 3 – c, 4 – a

**İş dəftəri, səh. 76**

**b.** Fərqləndirilmiş təyinlərin ifadə vasitələrini müəyyən et və müvafiq sütunlara yaz.

Şagirdlər cümlələrdən təyinləri seçərək onlara aid xüsusiyyətləri cədvəlin müvafiq sütunlarında yazırlar.

Cavab:

| Təyin | İfadə vasitəsi | Sualı |
|---|---|---|
| maraqlı | sifət | necə? |
| dünənki | sifət | hansı? |
| iki | say | neçə? |
| köhnəlmiş | feili sifət | hansı? |
| dəmir | isim | necə? |
| həmin | əvəzlik | hansı? |
| sinif nümayəndəsi | söz birləşməsi | hansı? |

**Müəllimin nəzərinə!** Şagirdlərə tapşırılır ki, növbəti dərs üçün "Arşın mal alan" filminə baxsınlar və film haqqında məlumatları nəzərdən keçirsinlər.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlədə təyini və onun ifadə vasitəsini müəyyənləşdirir. | Dərslik və iş dəftərində verilmiş tapşırıqlar |

Layihə

# 4-cü fəsil
# BİR FİLMİN İZİ İLƏ

## 1-ci DƏRS
## Dünyanı fəth edən "Arşın mal alan"

**Təlim nəticələri:**
- Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır (st. 2.1.2).
- Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir (st. 3.1.2).
- Oxuduğu mətn üzrə faktoloji suallara cavab (st. 3.1.3).
- Mətnin tərkib hissələrini, struktur elementlərini (yarımbaşlıq) onun əsas məzmunu ilə əlaqələndirir (st. 3.1.5).

**Mövzuya yönəltmə.** Müəllim dərslikdəki ilk tapşırıqla şagirdləri mövzuya yönəldə bilər.

**Danışma**

**Dərslik, səh. 152**

**a.** Üzeyir Hacıbəyli haqqında nə bilirsiniz?
- Böyük bəstəkarın hansı musiqi əsərlərini tanıyırsınız?
- Üzeyir Hacıbəyli Azərbaycan musiqi tarixində hansı ilklərə imza atıb?

Cavab: Üzeyir Hacıbəyli dahi bəstəkardır. O, Azərbaycanın ilk dövlət himninin müəllifi olmuşdur.
Əsərləri: "Leyli və Məcnun", "Koroğlu" operası, "Arşın mal alan" operettası və s.
Üzeyir Hacıbəyli Şərqdə ilk operanın müəllifidir.

**Müəllimin nəzərinə!** Şagirdlərə kömək məqsədilə müəllim aşağıdakı məlumatları da onların diqqətinə çatdıra bilər:
"Bundan əlavə, o, ilk operettanın da müəllifidir. Muğamın elmi təhlilini aparmışdır. Simfonik muğam janrını yaratmışdır. Üzeyir Hacıbəyli Azərbaycan Dövlət Konservatoriyasının yaradıcılarından biri olmuşdur".

**b.** Oxuyacağınız mətnin başlığında adı çəkilən əsər haqqında nə bilirsiniz?
- Bu əsərin adı söz birləşməsi, yoxsa cümlə şəklindədir?
- Həmin ifadədə son sözün qrammatik xüsusiyyətlərini şərh edin.
- İfadənin mənası, işlənmə yeri haqqında təxminlərinizi söyləyin.

Cavab təxminən belə ola bilər:

"Arşın mal alan" Üzeyir Hacıbəylinin 1913-cü ildə yazdığı operettadır. "Arşın mal alan" Üzeyir Hacıbəylinin ən çox səhnələşdirilən və ən məşhur əsərlərindən biridir. Operetta ilk dəfə 1913-cü ildə Bakıda Tağıyev Teatrında səhnəyə qoyulmuşdur. Əsər bir çox dillərə tərcümə edilmiş, onun filmləri çəkilmişdir.

Əsərin adı söz birləşməsi şəklindədir. "Alan" sözü feili sifətdir, "al" feili + "-an" şəkilçisindən düzəlmişdir.

"Arşın mal alan" ifadəsinin mənası "arşınla mal almaq", "arşınla parça almaq" deməkdir, satıcının öz mallarını satmaq üçün işlətdiyi bir çağırışdır.

**Müəllimin nəzərinə!** Mətni oxumazdan əvvəl "Sözlərin izahı" rubrikasında "arşın" sözünün izahı ilə tanış olmaq lazımdır.

**Oxu**

**Mətn üzrə iş.** "Dünyanı fəth edən "Arşın mal alan" mətni üzrə qruplarla oxu təşkil edilə bilər. Müəllim şagirdləri qruplara ayırır. Mətnin hissələrini qruplar arasında bölüşdürür. Oxu zamanı "Bu, maraqlıdır" rubrikalarındakı məlumatlara da diqqət yetirmək vacibdir.

Layihə

**Söz ehtiyatı**

Mətni oxuduqdan sonra şagirdlər "Söz mücrüsü"ndə verilmiş yeni sözlərlə tanış olur və lüğət vasitəsilə mənalarını müəyyən edirlər.

**Dərslik, səh. 154**

**c.** "Arşın" sözünün mənasından çıxış edərək "öz arşını ilə ölçmək" ifadəsinin mənasını təxmin edin və lüğət vasitəsilə dəqiqləşdirin.

Şagirdlər təxminlərini bildirdikdən sonra lüğət vasitəsilə cavabı dəqiqləşdirirlər.

Cavab: "Öz arşını ilə ölçmək" – bir işi öz istədiyi kimi qiymətləndirmək.

**Dərslik, səh. 154**

**ç.** Kontekstdən çıxış edərək mətndə fərqləndirilmiş "əsil" və "əsl" sözlərini izahlarla uyğunlaşdırın və cümlələrdə işlədin.

Cavab: 1. Nəsil, soy, mənşə

1936-cı ildə erməni **əsilli** rejissor Setrak Vartyan ABŞ-də "Arşın mal alan"ı ekranlaşdırır.

2. Həqiqi, doğru, orijinala uyğun olan

Filmdə nəinki **əsl** müəllifin, heç Azərbaycanın adı çəkilmirdi.

**Dərslik, səh. 154**

**d.** Aşağıdakı sözlərdən hansı kino termini deyil?

Cavab: d. mühacirət

**Dərslik, səh. 155**

**e.** "Arşın mal alan" operettası ümumilikdə neçə dəfə ekranlaşdırılıb?

Şagirdlər mətnin məzmunu ilə bağlı faktoloji sualları cavablandırmaqla mətni necə oxuyub-qavradıqlarını nümayiş etdirirlər.

Cavab: 5 dəfə

**Dərslik, səh. 155**

**ə.** Sizcə, "Arşın mal alan"ın 1945-ci il versiyası rəngli film idi? Bu bölmədə aldığınız məlumatlara əsasən cavabınızı əsaslandırın.

Tapşırıqda verilmiş sualı həm "Dünyanı fəth edən "Arşın mal alan", həm də 3-cü fəsildə olan "Azərbaycanda kinonun yaranması və inkişafı" mətninə əsasən cavablandırmaq mümkündür.

Cavab: Xeyr. İlk rəngli Azərbaycan filmi "O olmasın, bu olsun" filmidir və 1956-cı ildə çəkilib.

**Dərslik, səh. 155**

**f.** Aşağıdakı məlumat filmin hansı versiyasına aiddir?

Cavab: 1945-ci il versiyasına

**Dərslik, səh. 155**

**g.** Mətnin əsas hissəsindəki yarımbaşlıqlar göstərir ki, "Dünyanı fəth edən "Arşın mal alan" mətni:

Bu tapşırıq vasitəsilə şagirdlərin diqqəti bir daha mətndəki yarımbaşlıqlara yönəldilir. Şagirdlər mətnin struktur elementlərini nəzərdən keçirirlər və mətnin növünü müəyyənləşdirirlər.

**Müəllimin nəzərinə!** Tapşırığı yerinə yetirməzdən əvvəl şagirdlərin diqqəti "Sözlərin izahı" rubrikasında "xronoloji mətn" termininin izahına yönəldilir.

Cavab: d) informativ xronoloji mətndir

**Dərslik, səh. 155**

**ğ.** Yarımbaşlıqlara hansı ifadələri əlavə etmək olar?

Cavab: 1 – ç, 2 – d, 3 – b, 4 – a, 5 – e, 6 – c.



Layihə

**İş dəftəri, səh. 77**

**a.** Mətnə istinad edərək "Arşın mal alan" filmi ilə bağlı oxşar və fərqli fikirləri müqayisə et.

Bu tapşırıqda "Arşın mal alan" filminin versiyaları Venn diaqramı vasitəsilə müqayisə olunur. Tapşırıq şagirdlərin məlumatı təhlil və müqayisə etmə, öyrəndikləri məlumatları əlaqələndirmə və onların əsasında nəticəçıxarma bacarıqlarının möhkəmlənməsinə xidmət edir.

Şagirdlər mətndən aldıqları məlumatlar əsasında Venn diaqramındakı bilgiləri müqayisə edirlər.

Cavab: 1916 – 1, 3, 4, 5, 7
1917 – 4, 5, 6
1945 – 1, 2, 3, 5, 8

**İş dəftəri, səh. 77**

**b.** Sualları cavablandır.

Cavab: ***Neçə dəfə*:**
1. "Arşın mal alan" filmi icazəsiz çəkilib? 2 dəfə
2. "Arşın mal alan" filmi Azərbaycanda çəkilib? 3 dəfə
3. Üzeyir Hacıbəyli özü filmin çəkilişlərində iştirak edib? 1 dəfə
4. Film Üzeyir bəyin sağlığında çəkilib? 4 dəfə

**İş dəftəri, səh. 77**

**c.** Hansı məlumatlar mətndə yoxdur?

Şagirdlər mətnin məzmununu yenidən nəzərdən keçirirlər. Mətndə olmayan məlumatları müəyyən edirlər.

Cavab: 2. Üzeyir bəy və Müslüm Maqomayev Qori seminariyasında oxuyarkən dostlaşmışdılar.
5. "Arşın mal alan" Tofiq Tağızadənin ilk işi deyildi.

**Müəllimin nəzərinə!** Şagirdlərin növbəti dərsdə təqdimata hazırlaşmasını təmin etmək üçün onları təlimatla tanış etmək və aktyorlar haqqında araşdırma aparmağı, filmlərinə baxmağı tapşırmaq lazımdır.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Oxuduqları, həyatda gördükləri və təəssüratları haqqında danışır. | Tapşırıq a, b (dərslik) |
| Yeni tanış olduğu sözə uyğun gələn izahı müəyyən edir. | Tapşırıq c, ç, d (dərslik) |
| Oxuduğu mətn üzrə faktoloji suallara cavab verir. | Tapşırıq e, ə, f (dərslik); b, c (iş dəftəri) |
| Mətnin tərkib hissələrini, struktur elementlərini (yarımbaşlıq) onun əsas məzmunu ilə əlaqələndirir. | Tapşırıq g, ğ (dərslik) |

Layihə

# 2-ci DƏRS
# Təqdimat

**Təlim nəticələri:**
•Təqdimat zamanı fikirlərin məntiqi ardıcıllığına riayət edir (st. 2.1.3).

**Mövzuya yönəltmə.** Müəllim şagirdləri mövzuya yönəltmək üçün suallar verə bilər. Bununla da onların yaradıcı düşünməsini və mövzuya marağını artırmağa kömək edə bilər:

1. Sizcə, yaxşı aktyor olmaq üçün hansı xüsusiyyətlər vacibdir?
2. Sevdiyiniz aktyor varmı? Niyə onu bəyənirsiniz?
3. Azərbaycan kinosunda hansı məşhur aktyorları tanıyırsınız?
4. Hansı aktyorun həyatı sizi maraqlandırır və niyə?
5. Siz aktyor olsaydınız, hansı rolu canlandırmaq istərdiniz?

**Danışma**

**Dərslik, səh. 155**

**a.** Qruplarla iş. Məşhur aktyorların həyatı və kinodakı yaradıcılığı ilə bağlı məlumat toplayın və təqdim edin.

Şagirdlər topladıqları məlumatlar əsasında təlimata uyğun təqdimat hazırlayırlar. Dərsin sonunda qrupların təqdimatları dinlənilir. Onlar bir-birinin təqdimatına rəy verirlər.

**Müəllimin nəzərinə!** Həmin aktyorların çəkildikləri ən məşhur filmlərdən fraqmentləri izləmək tövsiyə olunur.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Təqdimat zamanı fikirlərin məntiqi ardıcıllığına riayət edir. | Tapşırıq a (dərslik) |

# 3-cü DƏRS
# Zərflik

**Təlim nəticələri:**
• Cümlədə zərfliyi və onun ifadə vasitəsini müəyyənləşdirir (st. 4.1.3).

**Mövzuya yönəltmə.** Dərslikdə verilmiş **a** tapşırığı motivasiya xarakterlidir və şagirdlərin diqqətini mövzuya yönəldir.

**Yazı**

**Dərslik, səh. 156**

**a.** Altından xətt çəkilmiş ifadələrin sualını və cümlədə aid olduğu sözü müəyyən edin.

Şagirdlər altından xətt çəkilmiş ifadələrin sualını və cümlədə aid olduğu sözü müəyyən edirlər. Aydın olur ki, həmin sözlərin hamısı xəbərlə əlaqədardır. Bu tapşırığı yerinə yetirərkən əvvəlki dərslərdə zərf haqqında əldə edilən məlumatlar xatırlanır.

Cavab:

| Zərflik | Sualı | Aid olduğu söz |
|---|---|---|
| asta-asta | necə? | danışırdı |
| xeyli | nə qədər? | yaxşılaşmışdı |
| sabaha qədər | nə vaxt? | qurtarmalıyıq |

Layihə

| | | |
|---|---|---|
| qəsəbəmizdə | harada? | tikiləcək |

Müəllim “Bunları bilməliyik” rubrikasında verilmiş məlumatları izah edir. Zərflik haqqında məlumat verilir, mənaca növləri göstərilir, nümunələr təqdim olunur.

**Dərslik, səh. 156**

**b.** Cümlələrdə zərflikləri tapın və onların məna növünü müəyyən edin.

Şagirdlər əvvəlcə sual verməklə zərflikləri seçməli, sonra məna növlərini müəyyən etməlidirlər.

Cavab:

1. Evimizin qabağında (yer zərfliyi) çoxlu maşın dayanmışdı.
2. Zaur dəfələrlə (kəmiyyət zərfliyi) yarışda qalib gəlmişdi.
3. Uşaqlar kənddə (yer zərfliyi) yaxşı (tərzi-hərəkət zərfliyi) dincəldilər.
4. Gülşən yüksək qiymət aldığı üçün (səbəb zərfliyi) sevinirdi.
5. Yayda (zaman zərfliyi) bitkilər daha çox su tələb edir.
6. Onlar vətəni qorumaq üçün (məqsəd zərfliyi) vuruşurdular.

**Dərslik, səh. 156**

**c.** Fərqləndirilmiş zərfliklərə uyğun gələn ifadə vasitələrini müəyyənləşdirin.

Tapşırığın məqsədi zərfliklərin ifadə vasitələrini müəyyənləşdirməkdən ibarətdir.

Cavab: 1 – c, 2 – ç, 3 – a, 4 – d, 5 – e, 6 – b.

**Dərslik, səh. 156**

**ç.** Hansı cümlədə zərflik yoxdur?

Cavab: c. Bu iş çox təhlükəlidir.

**İş dəftəri, səh. 78**

**a.** Cümlələrdəki zərflikləri dairəyə al, sualını və məna növünü uyğun xanalarda qeyd et.

Cavab:

| **Cümlə** | **Sual** | **Məna növü** |
|---|---|---|
| 1. Biz dərsləri həvəslə oxuyuruq. | necə? | tərzi-hərəkət |
| 2. Zəhmət olmasa, buraya gəl, sözüm var. | haraya? | yer |
| 3. Bu məsələ barədə sonra danışarıq. | nə vaxt? | zaman |
| 4. Bişirdiyin xörəkdən bir az yedim. | nə qədər? | kəmiyyət |

**İş dəftəri, səh. 78**

**b.** Hansı cümlələrdə zaman zərflikləri işlənib?

Cavab:

2. Arabir küləyin səsi gəlirdi.
4. Bu hadisə keçən il olmuşdu.
5. Onlar yenə görüşəcəklər.

**İş dəftəri, səh. 78**

**c.** “Malik eşitdiklərini dodaqaltı təkrar edirdi” cümləsində zərfliyin hansı məna növü işlənib?

Cavab: tərzi-hərəkət

**İş dəftəri, səh. 78**

**ç.** Verilmiş cümlələrdə səbəb və məqsəd zərfliklərini müəyyənləşdir.



Layihə

Bu tapşırığın məqsədi şagirdlərin səbəb və məqsəd zərfliyini fərqləndirə bildiklərini yoxlamaqdır. Nəzərə almaq lazımdır ki, bəzən cümlədə onları müəyyənləşdirmək çətin olur.

**Müəllimin nəzərinə!** Şagirdlərin diqqətinə çatdırılır ki, səbəb zərflikləri hərəkətin icrasının və ya əlamətin meydana çıxmasının səbəbini bildirir, ***nə üçün? nədən ötrü? niyə? nə səbəbə?*** suallarına cavab verir. Məqsəd zərflikləri hərəkətin icrasının və ya əlamətin meydana çıxmasının məqsədini bildirir, ***nə məqsədlə?*** sualına cavab verir. Səbəb zərfliyi təsadüfi bir səbəbi, məqsəd zərfliyi isə obyektiv səbəbi (məqsədi) ifadə edir.

Cavab: 1 – A, 2 – B, 3 – A, 4 – B, 5 – A, 6 – B.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlədə zərfliyi və onun ifadə vasitəsini müəyyənləşdirir. | Dərslik və iş dəftərində verilmiş tapşırıqlar |

Layihə

# Ümumiləşdirici təkrar

**Təlim nəticələri:**
• Cümlə üzvlərini və onların ifadə vasitələrini müəyyənləşdirir (st. 4.1.3).

**Dərslik, səh. 157**

**1.** Suallara cavab verməklə cümlələri genişləndirin. Hansı cümlə üzvü əlavə etdiyinizi müəyyənləşdirin.

Cavab:
1. Onlar *sabah rayona* gedəcəklər.
2. Dağ çayı *sürətlə* axır.
3. Gələndə *məni* çağır.
4. Mən *dostumla* söhbət etdim.
5. *Böyük* bacım *anama* kömək edirdi.
6. Şagirdlər *mətni diqqətlə* oxudular.
7. İdmançılar *üç* saat məşq etdilər.

**İş dəftəri, səh. 79**

**1.** İkinci dərəcəli üzvləri seç və cədvəli tamamla.

Cavab:

| Söz | Sualı | Cümlə üzvü | İfadə vasitəsi |
|---|---|---|---|
| gecə | nə vaxt? | zərflik | zərf |
| rəfiqəmi | kimi? | tamamlıq | isim |
| ucaboy, gülərüz | necə? | təyin | sifət |

**İş dəftəri, səh. 79**

**2.** Verilmiş cümlələrdə ikinci dərəcəli üzvlərin aid olduğu cümlə üzvlərini müəyyənləşdir.

Şagirdlər ikinci dərəcəli cümlə üzvlərinin xüsusiyyətlərini müəyyənləşdirib uyğun sütunlara yazırlar.
Cavab:

| № | Söz (birləşmə) | Cümlə üzvü | İfadə vasitəsi | Aid olduğu cümlə üzvü |
|---|---|---|---|---|
| 1 | çörək qırıntılarını | tamamlıq | söz birləşməsi | xəbər |
| 2 | həvəslə | zərflik | zərf | xəbər |
| 3 | yaz gələndə | zərflik | söz birləşməsi | xəbər |
| 4 | bağımızdakı | təyin | sifət | tamamlıq |
| 5 | ağaclarda | tamamlıq | isim | xəbər |
| 6 | kiçik | təyin | sifət | mübtəda |
| 7 | yeni gələn | təyin | söz birləşməsi | mübtəda |
| 8 | siyahıya | tamamlıq | isim | xəbər |
| 9 | dünənki | təyin | sifət | tamamlıq |

Layihə

| | | | | |
|---|---|---|---|---|
| 10 | əhvalatı | tamamlıq | isim | xəbər |
| 11 | atama | tamamlıq | isim | xəbər |
| 12 | rəngbərəng | təyin | sifət | tamamlıq |
| 13 | şarlarla | tamamlıq | isim | xəbər |

**Dərslik, səh. 157**

**2.** Nöqtələrin yerinə tamamlıqlar artırın və ifadə vasitəsini müəyyən edin.

Cavab: 1. *Kitabı* səliqəli saxla. – isim
2. Bayaqdan *səni* axtarıram. – əvəzlik
3. *Bitkilərin böyüməsində* günəş enerjisi böyük rol oynayır. – söz birləşməsi
4. Mən bura *dincəlməyə* gəlmişəm. – məsdər
5. Bu *igidi* tanıyırsan? – sifət

**Dərslik, səh. 157**

**3.** Altından xətt çəkilmiş təyinlərə uyğun gələn xüsusiyyətləri müəyyənləşdirin.

1. O hadisədən illər keçib.
   Hansı? sualına cavab verir, əvəzliklə ifadə olunub.
2. Uşağın əlində oyuncaq silah vardı.
   Nə cür? sualına cavab verir, isimlə ifadə olunub.
3. Gəl yuxarı mərtəbəyə çıxaq.
   Hansı? sualına cavab verir, zərflə ifadə olunub.
4. Masanın üstündəki kitabları çantaya qoy.
   Hansı? sualına cavab verir, söz birləşməsi ilə ifadə olunub.
5. Gedəcəyimiz yer uzaqdadır.
   Hansı? sualına cavab verir, feili sifətlə ifadə olunub.
6. Beşinci dərs hansı otaqda olacaq?
   Neçənci? sualına cavab verir, sayla ifadə olunub.

**Dərslik, səh. 157**

**4.** Zərflikləri tapın və uyğunluğu müəyyən edin.

Cavab: 1 – b, 2 – c, 3 – a, 4 – d, 5 – e, 6 – ç.

**Formativ qiymətləndirmə**

Şagirdlərin bilik və bacarıqları aşağıdakı meyar və materiallar əsasında qiymətləndirilir.

| Meyarlar | Materiallar |
|---|---|
| Cümlə üzvlərini və onların ifadə vasitələrini müəyyənləşdirir. | Dərslikdə və iş dəftərində təqdim edilmiş tapşırıqlar |

Layihə

BURAXILIŞ MƏLUMATI

*Ümumi təhsil müəssisələrinin 6-cı sinifləri üçün*
*Azərbaycan dili (dövlət dili) fənni üzrə dərsliyin (qrif nömrəsi: 2025-)*
***metodik vəsaiti***

**Tərtibçi heyət:**

Müəlliflər: **Rafiq İsmayılov**
**Ülkər Nurullayeva**
**Reyhan Həbibli**

Dil-üslub redaktoru: **Fidan Məmmədova**
Texniki redaktor: **Nərmin Həsənova**
Korrektor: **Vəfa Əliyeva**

**© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun
hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi: 21,4. Fiziki çap vərəqi: 26,75.
Səhifə sayı: 214. Formatı: 57×82 1/8. Kəsimdən sonra ölçüsü: 195×275.
Şriftin adı və ölçüsü: Calibri 11.3 pt. Ofset kağızı. Ofset çapı.
Bakı – 2025.

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix:

Çap məhsulunu nəşr edən:
Azərbaycan Respublikasının Təhsil İnstitutu (Bakı ş., A.Cəlilov küç., 86).

Layihə

Pulsuz

Layihə